# Qarabağ Azadlıq Təşkilatı

# “Qarabağ dünən, bu gün və sabah”

## 9-cu elmi-əməli konfransının Materialları

**Bakı - 2010**

**Redaksiya heyəti:** fəlsəfə elmləri doktoru Əli Abasov, tarix elmləri doktoru Qasım Hacıyev, tarix elmləri doktoru Kərim Şükürov, tarix elmləri üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova, Şamil Mehdi, Novruz Novruzbəyli

**QAT (Qarabağ Azadlıq Təşkilatı). "Qarabağ dünən, bu giin və sabah"** 9-cu elmi-əməli konfransının materialları toplusu. Bakı, 2010, 248 səh.

Buraxılış Azərbaycan-Ermənistan müharibəsi ilə əlaqədar 2010-cu il mayın 27-də keçirilən "Qarabağ dünən, bu gün və sabah" 9-cu elmi-əməli konfransının məruzə və çıxışlarının materialllarını əhatə edir.

This edition covers theses of lectures and speeches o scientific-practical conference "Karabakh yesterday, today and tomorrow", which was held on May 27, 2010, concerning to settlement of Azerbaijan-Armenia war.

ISBN 978-9952-29-040-9

© **Qarabağ Azadlıq Təşkilatı Bakı, «Namiq Həbibov», 2010**

## Redaksiyadan

Bu nəşrdə "Qarabağ dünən, bu gün və sabah" mövzusunda 9-cu elmi-əməli konfransının Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və onun birbaşa təcavüzü nəticəsində yaranmış Azərbaycan-Ermənistan müharibəsinin müxtəlif cəhdlərinə həsr olunan materialları toplanmışdır. Qarabağ Azadlıq Təşkilatının təşəbbüsü ilə 2010-ci il 27 mayda Bakı şəhərində keçirilən bu konfransın da məqsədi Azərbaycan-Ermənistan münaqişəsinin yaranmasının kökləri və həlli perspektivləri haqqında beynəlxalq ictimaiyyəti məlumatlandırmaqdan, həmçinin bu taleyüklü problemə dair ədalətli və reallığa uyğun ümumi mövqe formalaşdırmaqdan ibarətdir.

## From Editorial

These of reports of the 9th scientific-practical conference "Karabakh yesterday, today and tomorrow", dedicated to Azerbaijan-Armenia war, arising from territorial claim and realizing aggression to Azerbaijan by Armenia, were published in this edition.

This conference is held on initiative of Organization of Karabakh Liberation on May 27, 2010 has a goal to infrom international public opinion about the root of origin and perspectives of settlement of Azerbaijan-Armenia conflict and also to form common, fair and real position on this vital problem.

## От Редакции

В этом издании опубликованы материалы докладов 9-ый научно-практической конференции "Карабах вчера, сегодня и завтра", посвященной Азербайджано-армянской войне, возникшей в результате территориальных претензий Армении к Азербайджану и ее прямой агрессии.

Конференция, проводимая по инициативе Организации Освобождения Карабаха в городе Баку 27 мая 2010 года, преследует своей целью информирование международной общественности о корнях возникновения и перспективах разрешения Азербайджано-армянского конфликта, а также формирование общей, справедливой и реалистичной позиции по этой жизненно важной проблеме.

**Adil AXUNDOV**

# ERMƏNİ VANDALİZMİ BƏŞƏRİYYƏTƏ QARŞI CİNAYƏTDİR

Son 150-200 il ərzində, əvvəl çar Rusiyasının, sonra isə bolşevik-sovet Rusiyasının köməyi ilə Cənubi Qafqaza, xüsusən Azərbaycan ərazilərinə köçürülmüş ermənilər Azərbaycan xalqına qarşı soyqrım, təcavüz və deportasiya siyasəti aparmışlar. Tarixi məlumatlar göstərir ki, ermənilər aborigen deyil, Qafqaz ərazisinə gəlmə xalqdır. Rus tarixçisi Dyakonova görə «Erməni etnosu Qafqazın hüdudlarından kənarda formalaşıb». Erməni tarixçisi Pastermasyan müəyyənləşdirmişdir ki, ermənilər eramızdan əvvəl VII-VI əsrlərdə Qərbdən Şərqə gəlmişlər (1,5). Bəzi məlumatlara görə isə onlar bundan əvvəl Balkan yarımadasında «Hay» adlı tayfa olaraq yaşamış, sonra Roma imperiyasına daxil olan kiçik Asiyaya köçmüş, daha sonra isə oradan Yaxın Şərq ölkələrinə (Suriya, Mesopotomiya, İran və s.) yayılmışlar.

Uzun müddət müəyyən bir coğrafi məkanda yaşaya bilmədikləri, müxtəlif ölkələrə yayıldıqları və başqa dövlətlərdən asılı olduqlarına görə köçəri həyat ağırlığı altmda ermənilərdə bəzi mənfi mənəvi keyfiyyətlər (yalançılıq, hiyləgərlik, təcəvüzkarlıq, qəddarlıq və s.) formalaşmışdır. Onlar utanmadan qədim Alban kilsələrini erməni kilsələri kimi, Kəlbəcər kimi Qarabağ rayonlarından qəsb etdikləri xalıları erməni xalıları kimi, Azərbaycan musiqisini erməni musiqisi kimi qələmə verməkdən çəkinmirlər.

Artıq məlumdur ki, erməni tarixçiləri, yazarları Türkiyə, Azərbaycan əleyhinə tarixi saxtalaşdıran xeyli kitab yazıb, onları Avropa dillərinə tərcümə etdirib yaymaqla Avropa ictimaiyyətini qismən aldada bilmişlər. Məsələn, bir sıra Avropa ölkələrinin parlamentləri erməni tarixçilərinin saxta tarixi məlumatlarına inanıb və xristian fundamentalizminə uyub uydurma «erməni soyqırımı»nı tanımışlar. Lakin Avropa ictimaiyyətini aldatmağa çalışan saxtakar erməni tarixçiləri bilməlidirlər ki, «yalan ayaq tutar, ancaq yeriyə bilməz». Artıq İngiltərə, İtaliya kimi bəzi Avropa ölkələrinin parlamentləri uydurma «erməni soyqırımı»nı tanımaqdan imtina etmişlər. İngiltərənin Lordlar palatasında müzakirə zamanı Lord Maginnis demişdir: «Yüz il əvvəlki hadisəni deyil, ermənilərin törətdikləri «Qarabağ faciəsini» müzakirə etmək lazımdır».

Artıq Qərb ictimaiyyəti erməni tarixçilərinin, diplomatlarının saxtakarlığından, yalanlarından xəbər tutmaqdadırlar. Avropa ictimai-siyasi dairələrində artıq belə fikir formalaşmaqdadır ki, yüz il bundan əvvəl baş vermiş tarixi fəlakəti siyasi xadimlər deyil, tarixçilərdən ibarət komissiyalar araşdırmalıdır.

Avropa ictimaiyyəti bilməlidir ki, erməni xisləti haqqında tarixdə artıq xeyli məlumat toplanmışdır. Ermənilərin «qaraçısayağı dilənçi» xisləti, abırsızlığı

haqqında geniş məlumat verənlərdən biri görkəmli rus alimi, qafqazşünas Vladimir Veliçkodur. O, yazırdı: «Mənəvi təməllərin qaraçısayağı dilənçiliklə ələ keçirilməsi, ədabazlıq və abırsızlıq - erməni siyasətinin müttəfiqləridir. Bu, tam bir siyasətdir, özü də hədə-qorxu ilə bağlı» (2, 248).

V.Veliçkonun verdiyi məlumata görə, hətta Romanın düşmənləri olan almanları da tərifləyən qərəzsiz və humanist tarixçi Tatsit «erməni xalqını həm səviyyəsinə, həm də coğrafi vəziyyətinə görə ikiüzlü olduğunu qeyd etmişdir. A.S. Puşkin də bir qoca dağlının dili ilə ermənini qorxaq, qul xislətli adlandırmışdır» (3, 72).

Saxtakar erməni xisləti haqqında digər maraqlı məlumata İsveçrə şərqşünası Adam Metsin (1869-1917) «Müsəlman renesansı» əsərində rast gəlmək mümkündür. O, yazırdı: «Qara dərili qullar arasında zəncilər ən pis qullar olduğu kimi, ağ dərili qullar arasında ən pis ermənilərdir. Eybəcər ayaqları var, utanmazdılar... oğrudurlar... Onların naturası və dili kobuddur. Əgər sən qul ermənini bircə saat işsiz qoyarsansa elə həmin saat naturası onu bəd əmələ sövq edəcək.. O, dəyənək altında və qorxudan yaxşı işləyir. Elə ki, gördün tənbəllik edir bu heç də zəiflikdən deyil, əksinə, o bundan həzz alır. Belə olduqda dəyənəyi götürüb yaxşıca kötəkləmək və istədiyini yerinə yetirməyə məcbur etmək lazımdır» (4. 140).

Adam Metsin əsəri 1922-ci ildə nəşr edilmiş və tezliklə Avropa dillərinə tərcümə edilmişdir.

Erməni şovinist millətçilərinin XX əsrdə Azərbaycanda törətdikləri qanlı cinayətlər haqqında Amerika tarixçiləri geniş məlumatlar vermişlər. Onlardan Tadeuş Svetaxovskinin «Rusiya-Azərbaycan» adlı kitabını göstərmək olar. Kitabda 1906-1907-ci və 1918-ci illərdə ermənilərin «Daşnaksütyun» şovinist, millətçi partiyasının rəhbərliyi altında Şuşada, İrəvanda, Bakıda, Gəncədə və s. yerlərdə törətdikləri cinayətlər haqqında məlumat verilir (5. 38-45).

Erməni xisləti haqqında digər maraqlı əsər amerika tarixçiləri Castin və Karolin Makkartilərin "Türklər və ermənilər. Erməni məsələsi üzrə rəhbərlik" adlı kitabıdır. Onlar bildirillər ki, Avropa iştimayyətinin erməni-türk, erməni-azərbaycan münasibətləri haqqında bilik və təsəvvürləri birtərəfli olub erməni tarixçi və yazarlarının subyektiv məlumatlarına əsaslanır. Belə ki, onların yaratdıqları erməni obrazı ilə real erməni arasında xeyli fərq vardır. Erməni müəllifləri özləri haqqında "sivilizasiyalı", "əsarətə məruz qalmış məzlum" xalq obrazı yaratmşlar. Halbuki, onlar türkləri, azərbaycanlıları kütləvi şəkildə, həmdə bir çox hallarda işgəncələrlə qətlə yetirmişlər. Onlar qonşu xalqların torpaqlarına yiyələnmək üçün kütləvi terrordan, kəndləri, şəhərləri, mədəniyyət abidələrini yandırıb dağıtmaqdan çəkinməmişlər.

Erməni millətçilərinin təcavüzkar niyyətləri və əmməlləri haqqında Avstriya tarixçisi mister Fayqlin "Erməni mifomamaniyası" adlı kitabıdır. O yazir ki, erməni diasporu həmişə Qarabağ haqqında miflər yayıblar. Halbuki onlar

Russiya tərəfindən Qarabağa köçürülmüşlər. O, Ü.Hacıbəylinin "Arşın mal alan" operettasını çox bəyənmişdir. Onun fikrincə avstriyalılarla Azərbaycan xalqı arasında çox yaxınlıq vardır.

Erməni millətçilərinin təcəvüzkarlığını pisləyib tənqid edən müəlliflərdən biri də Miçiqan universiteti professoru (ABŞ) Ronald Sunidir. O, "Erməniliyin tədqiqi proqramının" rəhbəridir.

Son yüz ildə erməni millətçilərinin Azərbaycan torpaqlarında törətikləri qətliamların tarixi böyükdür. Bu tarixin başlanğıclarını öyrənmək üçün Mir Mövsüm Navvabın "1905-1906 cı illərdə erməni-müsəlman davası", Məmməd Səid Ordubadinin "Qanlı illər" kitablarının mühüm əhəmmiyəti vardır. Lakin erməni vandalizmi 1918-ci də daha geniş və daha böyük qəddarlıqla həyata keçirilmişdir. Həmin ilin aprelində Bakıda, Şamaxıda, Qubada, Lənkəranda, Səlyanda erməni daşnakların törəttikləri qətliamlar daha dəhşətli şəkildə həyata keçirilmişdir. Zəngəzurda 125 kənd yandırılıb, əhalisi gülləbəran edilmişdir. İrəvan ətrafında 120 kənd yandırılmış, əhalisi gülləbaran edilmişdir. Bu zaman 40 mindən çox azərbaycanlı - uşaq, qadın, kişi qətlə yetirilmişdir. Əksər hallarda qətllər ağlagəlməz vəhşiliklə həyata keçirilmişdir. Körpələr boğulur tonqala atılırdı.

Qərbi Azərbaycan torpaqlarında Russiyanın köməyi ilə yaradılmış Ermənistan öz təcəvüzkar siyasətini mərhələ-mərhələ həyata keçirməkdə idi. 1984-cü ilin oktyabr ayında Azərbaycanın Qazax və Gədəbəy rayonlarından ərazi Ermənistana verildi. 1988-ci ildə Ermənistan SSR ərazisindən 230 min azərbaycanlı deportasiya edildi.

1992-ci ilin fevralında düşmən növbəti dəfə hücuma keçib Qaradağlı kəndini işğal etdi. Onun 92 müdafiəçisini və 54 sakinini vəhşicəsinə öldürüb silos quyularına atdılar və qalan əhali əsir alındı.

1992 ci il fevralın 25 də erməni hərbi birləşmələri, 366-cı alayla (rus hərbi bölmələri) birlikdə Xocalıya hücüm etdilər. Hərbi təcavüz nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 83 azyaşlı uşaq, 70 qoca öldürüldü, 275 nəfər əsir alındı, 8 ailə bütövlüklə məhv edildi. 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla diri diri yandırıldı, başlarının dərisi soyuldu, gözləri çıxarıldı, başları kəsildi, hamilə qadınların qarnı süngü ilə deşildi. Xocalı faciəsi erməni xislətinin vəhşiliyini göstərən ən böyük, ən aydın və əyani tarixi dəlildir. Ulu öndərimiz Heydər Əliyev erməni daşnaqlarının törətdiyi vandalizmini ümumiləşdirərək demişdir: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayət olaraq, ermənilərin Azarbaycanlılara qarşı düşünülmüş planlı surətda həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bunu unutmaq olmaz. Bu gərək dünya ictimayyətinə çatdırılsın və bildirilsin. Her yerdə bildirilsin ki, erməni işğalçıları nə qədər qəddar və nə qədər vəhşidirlər. Azərbaycan xalqına qarşı bəşər qanunlarına zidd olaraq nə qədər böyük vəhşilik, cinayətlər edirlər". Erməni vandalizmin törətdiyi bir cinayət də işğal etdikləri Azərbaycan ərazisinda 946 yaşayış məntəqəsini, 6 min sənaye, 150

min mənzil, 4366 sosial mədəni təyinatlı müəssisəni. 690 orta məktəb, o cümlədən 850 məktəbəqədər müəsisə, 665 tibb məntəqəsi, 927 kitabxana, 22 muzey, 4 rəsm qalereyası. 6 dövlət teatrı, 14 məbəd, 9 məscidin məhvinə səbəb olmuşdur. Həqiqətən bunları unutmaq olmaz.

**İstifadə edilmiş ədəbiyyat**


1. "Azərbaycan" qəzeti, 2 aprel 2010-cu il
2.V.Z.Veliçko. Kavkaz. Bakı, Yim, 1990
3.В.Л.Величко. Кавказ. С.-Петербург, 1904
4.Адам Mets Мусульманский ренессанс. М., «Наука», 1966 5.Tadeysh Swietochowski. Russin-Azerbajan Cambridge-1985
6. Джастин и Каролин Маккарти. «Турки и армяни» Руководство по армянскому вопросу», Баку, Азернешр. 1996
7. Mister Fayql. Ermәni mifomaniyası. Bakı.2006
8.Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1993
9.M.S.Ordubadi. Qanlı illər. Bakı, 1991
10. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi.Bakı, 2002


**Akif NAĞI**

## QARABAĞ MƏSƏLƏSİNƏ YENİ FAZA?

Qarabağ məsələsi ətrafında Rusiyanın fəallaşması cəmiyyətdə yanlış təsəvvürlər yaradır, yalançı ümidlər doğurur. Əslində isə bu fəallıq Rusiyanın həqiqi niyyətlərinin gizlədilməsinə yönəlmişdir. Son Soçi görüşü ətrafında yaradılan süni ajiotaj və ondan sonra baş verən hadisələr bizi bu məsələyə qayıtmağa məcbur edir. Məsələnin mahiyyəti ilə bağlı dəfələrlə deyilmiş fikri bir daha təkrar edirəm: Qarabağ məsələsini Rusiya yaratmış, bu məsələdən öz məqsədləri üçün kifayət qədər bəhrələnmiş və bəhrələnməkdə davam edir. Rusiya Qarabağa öz "damğa"sını vurmuş və istəyir ki, onun "damğaladığı" Qarabağa heç kəs əl uzatmasın, Qarabağın yalnız onun siyasətində alət olduğunu hamı qəbul etsin. Bu həqiqət, məncə, hamı üçün aydındır. Amma nədənsə özümüzü vaxtaşırı aldatmağa imkan verir, ülyuzalara qapılır, aldanmağa meylli tərəf kimi görünürük. Belə olmasaydı, hər dəfə Rusiya tərəfinin təşkil etdiyi görüşlərin nəticəsini intizarla gözləməz geniş ictimai müzakirələr təşkil etməzdik. Qəribədir ki, hətta ciddi siyasətçilər tərəfindən də Rusiyanın necə deyərlər, insafa gətirilməsi ümidi ilə ona güzəştlərin edilməsi, tələblərinin yerinə yetirilməsi, hərbi bazaların qaytarılması ətrafında təkliflər səsləndirilir və bu, Qarabağın geri qaytarılması üçün çıxış yolu kimi təqdim olunur. Bıı mövqenin tərəfdarları, deyəsən Rusiya imperiyasının mahiyətini unudublar. Bir xatırlatmanı yada salmağa məcburam:

1920-ci ildə Əliheydər Qarayev Azərbaycan parlamentinin son iclaslarında israrla bildirirdi ki, qırmızı ordu gəlməsə, Qarabağın taleyini həll edə, erməni iddialarının qarşısını ala bilməyəcəyik. Mən əliheydər Qarayevi xəyanətdə suçlamıram, bu, onun əqidəsi idi, bu, onun rus ilğımına inamı, özünü aldatması idi. Rusların qırmızı ordusu gəldi, dərhal Zəngəzuru ermənilərə peşkəş etdi (Əliheydər Qarayev Zəngəzurun Azərbaycandan alınıb ermənilərə veriləcəyini heç ağlına da gətirmirdi), Qarabağın dağlıq hissəsini də ermənilərə verə bilərdi, amma sonrakı bazarlıq üçün "muxtar qurum" formasını seçdi. Əslində 5-10 min erməniyə muxtariyyət verilməsi həmin ərazinin Ermənistana verilməsi demək idi. "Dağlıq Qarabağ" adlandırılan ərazi Azərbaycanın tərkibində formal olaraq saxlanılırdı. Bu, bir faktdır ki, sovetlərin 70 ili ərzində Dağlıq Qarabağda Azərbaycan qanunları, demək olar ki, işləmirdi. Orada yaşayan azərbaycanlılar isə daim ermənilərin təzyiq, təhdid və təqibləri, əsl soyqırım siyasəti altında idilər. Bu, Moskvanın himayə etdiyi birsiyasət idi. 70 il ərzində Moskva Dağlıq Qarabağdakı ermənilərin separatçı hərəkətlərini himayə edir, həvəsləndirir və sönməyə qoymurdu. Təsadüfi deyil ki, keçmiş SSRİ-nin hər hansı yerində millətçi, separatçı meyllərə istənilən cəhd, hətta qəzet səhifələrində gedən xırda bir yazıya görə dərhal cəza tədbirləri tətbiq edilirdi. Amma Dağlıq Qarabağdakı ermənilərin yazdıqları və törətdiklərinə görə kiminsə cəzalandırılması haqda heç bir məlumat yoxdur. Ermənilər isə bu cür cəzasızlıq şəraitində vaxtaşırı millətçilik və separatçılıq ruhunda yazıları dərc etdirir, vərəqlər yayır, azərbaycanlıları Dağlıq Qarabağdan sıxışdırıb çıxarır. hətta qətllər törədir, Moskvaya göndərdikləri müraciətlərin isə ardı-arası kəsilmirdi. Ona görə də bu siyasətin razılaşdırılmış şəkildə həyata keçirilməsinə şübhə yeri qalmır.

1988-ci ildə başlanan hadisələr də həmin siyasətin davamıdır. Bir qədər çeynənmiş olsa da, bir daha təkrar edirəm ki, Rusiya Qarabağı, ya da Qarabağ məsələsini nəzarətdə saxlayır və öz məqsədləri üçün istifadə edir. Moskvanın istifadə etməsi baxımından Qarabağ münaqişəsinin 3 fazasını fərqləndirmək olar: 1988-1994-cü illər (qaynar faza), 1994-cü ildən bu günə qədər davam edən atəşkəs fazası və əlamətləri görünən yeni faza.

Qaynar fazaya, yəni hərbi əməliyyatların davam etdiyi dövrə ötəri baxış Moskvanın nə cür oynadığını aydın şəkildə göstərir. Moskva bu fazanın sonuna qədər heç bir tərəfin tam üstünlük qazanmasına imkan vermir, "növbəti uğur'" taktikasını həyata keçirirdi. Kreml 1991-ci ilin yaz-yayında Azərbaycan tərəfinin Çaykənd-Qarabulaq-Hadrut istiqamətlərində uğurlu hərbi əməliyyatlar keçirməsinə, emənilərin möhkəmləndirilmiş hərbi bazalarını ləğv etməsinə, xeyli ərazini azad etməsinə maneçilik törətmədi. Azərbaycanın hərbi uğurları qarşısında ermənilər çətin vəziyyətə düşdülər və barışmaz mövqelərindən geri çəkilərək kompromis axtarışlarına başladılar. Partiya funksioneri Valeri Qriqoriyan başda olmaqla Xankəndindən Bakıya iyul ayında nümayəndə heyəti göndərildi. Bu nümayəndə heyətinin gətirdiyi təkliflər Dağlıq Qarabağın Azərbaycanın

tərkibində qalması və bu müstəvidə danışıqların davam etdirilməsini nəzərdə tuturdu. Kreml dərhal məsələyə müdaxilə etdi. Mixail Qorbaçov Levon Ter-Petrosyanı iyulun 20-də Novo-Oqaryovaya dəvət etdi. Novo-Oqaryova görüşündən sonra ermənilər yenidən iddialı tərəfə çevrildilər. Nümayəndə heyətinin rəhbəri Qriqoryan Xankəndinə qayıdandan az sonra avqustun 10-da qətlə yetirildi. Sentyabrın 2-də isə ermənilər qondarma "Dağlıq Qarabağ Respublikası"nın yaradıldığını elan etdilər. Ermənilər sentyabr-noyabr ayları ərzində rusların birbaşa hərbi yardımı ilə Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinin demək olar ki, hamısını ələ keçirdilər. Qaynar fazada rusların siyasəti ilə bağlı ikinci xarakterik nümunə 1992-ci ilin yay-payız hərbi kompaniyası ilə bağlıdır. Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində Dağlıq Qarabağın əksər hissəsi düşməndən azad edildi. Robert Koçaryan özü də sonralar etiraf edirdi ki, "vəziyyət dəhşətli idi, Azərbaycan qoşunları Qarabağın 48 faizini tutmuşdu"'. 1992-ci ilin yayında ermənilər böyük dəstələrlə qaçır, Xankəndinə doğru axışırdılar. Ermənilərin özlərinin çəkdikləri videolentlər bu axını əyani şəkildə göstərir. Yaşlı bir erməni qadını kameraya qışqırırdı. "Kim bizi lənətləmişdir? Biz yiyəsiz yetimlərikmi ki, bizə belə əzab verirlər?" Yenə də Moskva faktoru işə düşdü. Tanınmış ingilis müəllifi Tomas de Vaal yüksək səviyyəli bir erməni məmurunun etirafını çatdırır: "Stepanakertə (Xankəndinə) doğru gələn qaçqın sürüsünün qarşısını almaq mümkün deyildi, şəhərin müdafiəsi yox dərəcəsində idi, bu axının, fəlakətin qarşısını ruslar aldılar, rus döyüş vertolyotları havaya qalxdılar, azərbaycanlılara ağır zərbə vurdular, bundan sonra hücum dayandı". Moskvanın bu taktikasına dair başqa misallar da çəkmək olar. Amma bunlar da kifayət edir. Göründüyü kimi, Moskvanın qaynar fazada tutduğu mövqe tərəflərdən heç birinin tam üstünlük qazanmamasına, hərbi əməliyyatların növbəlilik əsasında davam etdirilməsinə, qanlı hadisələrlə düşmənçiliyin daha da dərinləşdirilməsinə, barış imkanlarının necə endirilməsinə, münaqişə vəziyyətinin qorunub saxlanılmasına yönəlmişdir. Bu fazanın davam etdirilməsi hadisələri Rusiyanın nəzarətindən çıxara bilərdi. Türkiyənin müdaxiləsi artıq geniş miqyas alırdı, əfqan, çeçen amillərinin də təsiri güclənirdi, Rusiyanın ehtiyat etdiyi ən təhlükəli variant isə silahı islam qruplaşmalarının bölgəyə gəlişi ehtimalı ilə bağlı idi. Ona görə də Moskva ermənilərin hərbi üstünlüyü ilə qaynar fazanı qapamaq qərarına gəldi. Atəşkəs sazişi də ABŞ-ın, Avropanın, Türkiyə və ya İranın deyil, məhz Rusiyanın vasitəçiliyi ilə imzalandı. 1994-cü ilin mayından bu günə qədərki 16 illik atəşkəs dövrünün hadisələri də yalnız Rusiyanın diqtəsi ilə cərəyan etmişdir. Bu fazada edilən təşəbbüslər hər hansı nəticənin əldə olunmasına deyil, Rusiyanın münaqişəyə təsir imkanlarının saxlanılmasına xidmət etmişdir. İstər 1995-ci ilin guya Böyük Sülh sazişinin imzalanacağı ilə bağlı həyacanları, istərsə də Ki-Uest, Rambuye, Praqa prosesi, Madrid görüşləri bu qəbildəndir. Hər dəfə Rusiya müəyyən təklifləri ortaya atır, müzakirələri qızışdırır, yalançı ümidlər yaradır, sonra isə müəyyən bir dövr üçün sakitlik yaranır və hər şey

öz axarında davam etdirilir. Bəzən Rusiyanın həddindən artıq oynaması nəticəsində proseslər bir qədər ciddi xarakter alır, hadisələrin nəzarətdən çıxması təhlükəsi yaranır. Bu halda Rusiya hadisələri öz məcrasına qaytarmaq üçün radikal addımların da atılmasından çəkinmir. Levon Ter-Petrosyanın 1998-ci ildə istefaya göndərilməsi, Ermənistan parlamentindəki 1999-cu il güllələbaranı, Ermənistan prezidentinin Rambuye görüşünü bütün diplomatik etiketləri pozaraq tərk etməsi bu cür addımlara misal ola bilər. Moskva atəşkəs fazasından kifayət qədər bəhrələnib. Artıq yeni situasiyanın yaradılmasına, yeni fazaya keçidə ehtiyac yaranıb.

Son dövrdə baş verən hadisələrə Moskvanın yeni fazaya keçmək cəhdləri kimi yanaşmaq olar. Qərbin bir qədər fəallaşması, Türkiyənin regionla bağlı təşəbbüsləri, Azərbaycanda daha tez-tez və ciddi şəkildə müharibə çağırışlarının səsləndirilməsi Rusiyanı bu addımlara məcbur edir. Təsadüfi deyil ki, atəşkəs sazişindən sonra Azərbaycan və Ermənistan prezidentləri arasında ilk sənəd də məhz Rusiyanın təşəbbüsü və təşkilatçılığı ilə imzalandı. 2008-ci ilin noyabrında imzalanmış Moskva (Mayndorf) bəyannaməsi, 2009-2010-cu illərdə Kremlin birbaşa təşəbbüsü ilə baş tutan təmaslar, xüsusi ilə də Soçi görüşü hadisələrin yeni fazaya daxil olduğunun göstəriciləridir. Rusiya bu fazada Qarabağ üstü və ətrafındakı vəziyyətə bir qədər əl gəzdirmək niyyətindədir. Rusiyanın planını yarımçıq həll variantı kimi səciyyələndirmək olar.

Münaqişənin həlli istiqamətində müəyyən yarımçıq addımlar atılır və bu yarımçıqlıq vəziyyətin Rusiyanın nəzarətində qalmasını təmin edir, hətta onun təsir imkanlarını daha da artırır. Bu hal yarımçıq həll variantının təbiətindən irəli gəlir. Ortada olan plana görə Azərbaycan və Ermənistan prezidentləri arasında yazılı və yaxud şifahi razılaşma əldə olunduğu elan edilir. Rusiya üçün bu razılaşmanın real əldə olunması deyil, bu razılaşmanın elan olunması vacibdir. Əldə olunacaq bu razılaşmaya görə, məsələn, Azərbaycan Dağlıq Qarabağdakı qondarma rejimə müvəqqəti status verəcəyini, referendumun isə keçirilməsinə etiraz etmədiyini bildirir, Ermənistan isə Dağlıq Qarabağın ətrafındakı rayonların boşaldılmasına söz verir. Bu razılaşmanın əldə olunması ilə Rusiyanın nəzarəti altında yeni situasiya yaranır, hadisələr yeni fazaya daxil olur. Bu razılaşmanın necə və nə vaxt reallaşdırılacağı isə heç kəsi maraqlandırmayacaqdır, hamı üçün əsas o olacaqdır ki, yeni müzakirələr, görüşlər, səylər, ən əsası isə aldadıcı ümidlər üçün geniş meydan açılacaqdır. Reallıqda isə Ermənistan verdiyi sözü yerinə yetriməmək üçün kifayət qədər arqumentlər tapacaq, vaxt uzanacaq, Azərbaycanın torpaqları işğal altında qalmaqda davam edəcəkdir. Bu yeni fazada da uduzan yenə də Azərbaycan olacaqdır. Yeni situasiya münaqişənin həllində ciddi irəliləyiş kimi təqdim olunacaq və regionda yeni proseslər başlayacaqdır. Türkiyə sərhədləri açacaq və Ermənistanla münasibətlərə mane olan digər əngəlləri aradan qaldıracaqdır. Qərb Türkiyə vasitəsi ilə Ermənistanın inkişafına ciddi dəstək verəcəkdir. Ermənistan bu şəraitdə kifayət qədər güclənəcək, Qarabağ məsələsində daha barışmaz tərəfə çevriləcəkdir. Rusiya məsələnin hələ də yarımçıq və yarımcan vəziyyətdə

qalmasından yararlanacaq, münaqişə üzərində, həmçinin Ermənistan üzərində təsir imkanlarını tam qoruyub saxlayacaqdır. Rusiyanın iddialarına qarşı dayanacağı ilə bağlı ABŞ-a, Qərbə bağlanan ümidlər özünü doğrultmadı. ABŞ başqa sahələrdə Rusiyadan aldığı güzəştlərin müqabilində Qarabağdan geri çəkildi. Həm də Qarabağ məsələsinin bu şəkildə yarımçıq və Ermənistanın maraqlarına uyğun olaraq həll edilməsi Qərbi təmin edir. Bu yeni fazanın bir neçə 5. hətta bir neçə on il davam edəcəyi ehtimalı böyükdür. Buna inamayanların nəzərinə çatdırmalıyam ki, atəşkəs fazasının da bir neçə beş il davam edəcəyini heç kəs güman etmirdi. Belə görünür ki, yeni fazanın başlanması qaçılmazdır. Bu fazanın hansı məzmunu alacağı isə bizdən asılıdır. Azərbaycan müşahidəçi mövqeyində qalacaqsa, Rusiya bu məzmunu öz istəklərinə uyğun formalaşdıracaqdır. Ona görə də Azərbaycan təşəbbüsü ələ almalı, yeni mərhələni müharibə fazasına çevirməli, müharibəni başlamalıdır. Qarabağı qaytarmağın yeganə yolu müharibədən keçir. Bu, artıq şüar deyil, reallıqların tələb etdiyi yeganə çıxış yoludur.

Rusiya öz siyasətini həyata keçirmək üçün Ermənistandan alət kimi istifadə edir. Ermənistan "ağıllı alət" olaraq öz funksiyasını yerinə yetirir, eyni zamanda öz maraqlarını da təmin edir. Rıısiya ilə Ermənistanın maraqları üst-üstə düşür və hər ikisi yararlanırlar. Alətin işləməsi üçün onu kimsə işlətməlidir, öz-özünə işləyə bilməz. İstifadəçinin öz işini görməsi üçün isə alət olmalıdır. Bizim istifadəçini aradan götürməyə imkanımız kifayət etmir, deməli, aləti sındırmalıyıq. Bu günə qədər sındırmaq, dayandırmaq üçün fəndlərdən, yəni diplomatk yollardan istifadə etmişik, nəticə isə yoxdur. Deməli, bu aləti sındırmaq üçün zor, güc tətbiqindən başqa yol qalmır.

**Araz ASLANLI**

## QARABAĞ PROBLEMİ: YOLUN ARASINDAYIQ?

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı problemi (Qarabağ problemi) son danışıqlar prosesi və Türkiyə-Azərbaycan-Ermənistan çərçivəsində gedən proseslər ilə yenidən dünya gündəmində əsas mövzulardan biri olub. Atrıq ABŞ, Rusiya, Fransa, Türkiyə və digər dövətlərin ən yüksək səviyyəli rəsmilərinin görüşlərində Qarabağ problemi daha geniş çərçivədə müzakirə olunur. Müxtəlif rəsmi və qeyri-rəsmi mənbələr isə gah problemin artıq həll edilmək üzrə olduğunu, gah da heç bir irəliləyişdən danışmağın mümkün olmadığını qeyd edirlər. Hətta dəfələrlə müşahidə olunur ki, tərəflərin (Azərbaycan və Ermənistan) və vasitəçilərin (ATƏT-in Minsk Qrupunun həmsədrlərinin və vasitəçi dövlətlərin digər yüksək səviyyəli rəsmilərinin) bir açıqlaması daha öncəki (hətta bir neçə gün öncəki) açıqlaması ilə təzad təşkil edir. Gah əksər məsələlərin razılaşdırıldığından danışılır, gah da müharibənin hər an başlama ehtimalından. Bəs bu

hal nədən qaynaqlanır, problem həll olunmaq üzrədirmi, yoxsa hələ yolun başındayıq?

Tərəflər və vasitəçilər bütün proses boyunca olduğu kimi son dövrlərdə də yenə ciddi irəliləyişlər olduğunu, amma bəzi məsələlərlə bağlı mübahisələrin davam etdiyini açıqlamışdır. Danışıqlar prosesinin ilk günündən (ən azı 1990-cı illərin ortalarından) bu günə qədər keçilən yola, verilən açıqlamalara nəzər salındıqda, son rəsmi açıqlamaları və mövcud durumu irəliləyiş kimi görmək qeyri-mümkün olur.

Danışıqlar prosesinin mövcud xarakteri, həm problemin əsl mahiyyətindən uzaqdır, həm də beynəlxalq hüquq ilə realpolitik arasındakı mövcud balansın acınacaqlı (reaipolitik lehinə olan) vəziyyətinə uyğundur. Mövcud şərait yaxın vaxtlarda problemin ədalətli həll olunma ehtimalını xeyli zəiflədir. Problemə bağlı həlli təşəbbüslərinin uğur qazana bilməsi və problemin həllinin ədaləti təmin edici və uzun-müddətli xarakterə malik olması üçün, problemin tarixinin, həll təşəbbüslərinin detallı bilinməsi, problemin əsl mahiyyətinin ortaya qoyulması zəruridir.

Problemin tarixinə nəzər saldıqda, ilk təməllərinin böyük güclərin bölgəylə bağlı siyasətlərinə, bu çərçivədə bölgədəki etnik köçlərə qədər getdiyi görünür. Xüsusilə, Rusiyanın 18-ci əsrdən etibarən getdikcə güclənməsi, regional hakimiyyətini genişləndirməyə və cənuba doğru genişlənməyə çalışması, bu çərçivədə Qafqazda "forpost" kimi istifadə edə biləcəyi dövlət qurumlarına ehtiyac duyması, bu ölkənin bölgədə etnik köçlər həyata keçirməsinə səbəb olmuşdur.

Rusiyanın XIX əsrin ilk yarısında Osmanlıyla və İranla (Qacarlar) apardığı müharibələr və imzaladığı müqavilələr bölgənin etnik tərkibinin dəyişdirilməsi baxımından çox ciddi nəticələr meydana gətirmişdir. Rusiya ilə İran arasında imzalanan 1828-ci il tarixli Türkmənçay müqaviləsi, İran torpaqlarında yaşayan yüz minlərlə erməninin bu müqavilə nəticəsində Rusiyanın nəzarətində qalan Qarabağ bölgəsinə və bu günkü Ermənistan torpaqlarına köç etdirilməsini nəzərdə tutmuşdur. Osmanlı ilə Rusiya arasında imzalanan 1829-cu il tarixli Ədirnə müqaviləsi ilə də 85.000-ə yaxın erməni Qarabağ bölgəsinə gətirilmişdir. Hazırda o dövrlərlə bağlı ən etibarlı mənbələr kimi qəbıl edilən nüfuzlu rus tarixçilərinə görə bu proseslər nəticəsində 1800-ci illərin ortalarına qədər cəmi bir milyona yaxırı erməni, bu günkü Ermənistan torpaqlarına və Qarabağ bölgəsinə yerləşdirilmişdir.

Qafqazda ermənilərin sıx yaşadığı bölgələr yaradıldıqdan sonra ikinci mərhələ kimi XX əsrin əvvəlində bir Erməni dövləti qurulmuşdur. XX əsrin əvvəlləri mövzumuz baxımından ilci nüans tizra diqqət çəkmişdir. Əvvəla, bu dövrdə Türkiyənin şərqində və ümumiyyətiə Qafqazda erməni hərəkatları xarici güclər tərəfindən dəstəklənmişdir. Bunun yanı sıra diqqət çəkən digər nüans, Rusiyanın xüsusilə Cənubi Qafqaz bölgəsində mərkəzi rəhbərliyə qarşı güclənən milli hərəkatları bir-birləriylə düşmən edərək zəiflətmək taktikası olmuşdur.

SSRİ-nin qurulması prosesində Azərbaycan daxilində Dağlıq Qarabağ Muxtar Vilayəti adlı qurumun yaradılması və bu qurum içərisində ermənilərin

etnik sıxlığının təmin edilməsi mövcud "Qarabağ probleminin" ən vacib təməllərindən birini təşkil edir. Belə ki, DQMV bölgənin tarixi və coğrafi əsasları üzrə deyil, sırf erməni əhalinin bir qurum içərisində çoxluğunu təmin edəcək şəkildə formalaşdırılmışdır. Eyni məntiqlə, Ermənistan ərazisində bir Azərbaycan Türklərinin çoxluq təşkil edəcəyi bir neçə muxtar qurum yaratmaq olardı. Amma, burda proses əksinə aparılmışdır. Bir neçə mərhələdə Azərbaycan Türkləri Ermənistandan zorla çıxarılaraq Azərbaycan Respublikasının coğrafi cəhətdən alışıq olmadıqları ərazilərinə yerləşdirilmişdir.

Maraqlı bir məqam da Ermənistanın hətta prezident səviyyəsində ifadə etdiyi, ermənilərə yaxın mənbələrin tez-tez qeyd etdikləri, nüfuzlu xarici alim və tədqiqatçıların da təkrarladığı guya "Qarabağın Ermənistana aid olduğuna və SSRİ dövründə Stalin tərəfindən Azərbaycana verildiyinə" dair iddiadır. Cənubi Qafqazda Sovet hakimiyyətinin qurulması və DQMV-nin formalaşdırılması prosesinə dair bütün tarixi dəlillər sübut edir ki, o mərhələdə nəinki "'Qarabağın Azərbaycana verilməsindən" söhbət getməmiş, əksinə bir müddət Türk olmayan kommunist liderlərin də Azərbaycanın bir parçası kimi gördükləri Zəngəzur və Göyçə belə Ermənistana verilmişdir. DQMV-yə gəldikdə isə onun formalaşdırılması prosesindəki səsverməyə çıxarılan ifadələr məsələnin mahiyyətini ayıq şəkildə ortaya qoyur. Bu təkliflərdəki orijinal ifadələr Qarabağın ya da onu dağlıq hissəsinin "Azərbaycanda saxlanılması" (Karabax ostavit v predalax Azerbaydjana) ya da "Ermənistana verilməsi" (Naqornuyu çast Karabaxa vklyuçit v sostav Armenii) şəklində idi. Bu və digər qərarlardakı eyni ifadələr Ermənistan tərəfindən ortaya atılan guya SSRİ dövründə Qarabağın Ermənistanda alınaraq Azərbaycana verildiyinə dair iddiaların əsassızlığına daha bir sübutdur.

DQMV-nin Ermənistana birləşdirilməsi üçün geniş hazırlıqların SSRİ daxilində və xaricində davam etdirilməsi, SSRİ-nin dağılması prosesində bölgədə münaqişənin alovlanmasına səbəb olmuşdur. İlk başlarda qarşılıqlı etnik nifrət artmış, Azərbaycan-Ermənistan sərhəddində və Azərbaycan daxilindəki keçmiş DQMV ərazisində kiçik miqyaslı münaqişələr baş vermis, 1992-ci ilin iyunundan etibarən kiçik münaqişələr müharibəyə çevrilmişdir. Bı proseslə bağlı tədqiqatlarda nəzərə alınması vacib amillərdən biri də odur ki, proses Ermənistanın Azərbaycana açıqca ərazi iddiası irəli sürməsi ilə başlamışdır, Azərbaycanın keçmiş DQMV-yə istiqamətlənmiş hansısa təzyiq ya da hərbi müdaxiləsi ilə yox. Həm də problem yeni başlayanda Moskvadan bölgəyə göndərilmiş xüsusi komisiyaların da ortaya çıxardığı kimi o dövrdə keçmiş DQMV ərazisində yasayan erməni əhalinin iqtisadi və digər sahələr üzrə həyat standartları ümumi Azərbaycan üzrə göstəricilərdən daha yüksək idi.

Bu dövrə qədər Ermənistanın milli orduya sahib olduğu halda Azərbaycanda mövcud plan rəhbərliklərin milli ordu qurulması mövzusuna isti baxmaması ucbatından. Ermənistan ordusu Azərbaycan ərazilərinin təxminən 5%-ini işğal altında saxlamışdır. Bu müddətdə 1992-ci il fevralın 25-dən 26-a

keçən gecə Erməni qüvvələrinin, bölgədəki 366 saylı Rus hərbi bazasının dəstəyiylə, həyata keçirdikləri XOCALI SOYQIRIMI bir çox xarici dövlətin və beynəlxalq qurum da sərt reaksiyasına səbəb olmuş, lakin bu soyqırımı törədənlər hələ də məsuliyyətə cəlb edilməmişdir.

1992-ci ilin iyunundan noyabrına qədər olan dövrdə Azərbaycan ordusu Ermənistan işğalı altındakı torpaqlarının böyük bir qisimini işğaldan azad edə bilmişdir. Lakin, 1992-ci ilin sonlarından etibarən

Ermənistan müharibəni öz lehinə çevirə bilmiş, Azərbaycan torpaqlarının daha çox hissəsini işğal etmişdir. Ermənistan ordusunun 27 Mart-3 Aprel 1993 tarixləri arasında davam edən hücumları nəticəsində Azərbaycanırı Kəlbəcər rayonu Ermənistan tərəfindən işğal edilmişdir.

BMT Təhlükəsizlik Şurasının problemə bağlı ilk qərarı bu işğaldan sonra alınmışdır. 822 saylı bu qərar, işğal edilmiş Kəlbəcər rayonunun qeyd-şərtsiz və dərhal tərk edilməsinin zəruriliyini vurğulamışdır. Lakin, Ermənistanın yürütdüyü siyasətin beynəlxalq qurumlar tərəfindən xoş görülməsinin də təsiriylə bu qərar tətbiq oluna bilməmişdir. Bunun nəticəsi kimi, 1993-cü ilin sonuna qədər Ermənistan Azərbaycan torpaqlarını işğal etməyə, BMT Təhlükəsizlik Şurası da bu işğallara son verilməsini istəyən (təsirsiz) qərarlar verməyə davam etmişdir. Ümumilikdə 822 saylı qərarla yanaşı BMT TŞ 853, 874 və 884 saylı qərarlar almışdır.

Eyni dövrlərdə, müxtəlif beynəlxalq qurum səviyyəsində problemin həlli üçün cəhdlər davam etmişdir. Bu mövzuda ən səlahiyyətli qurum kimi ATƏT-in Minsk qrupu yaradılmışdır. Minsk qrupunun və Rusiyanın xüsusi səyləri nəticəsində 1994-cü ilin mayında Azərbaycan ilə Ermənistan arasında atəşin dayandırılmasını nəzərdə tutan bir razılaşmalar imzalanmışdır. Bəzi hallarda pozulsa da atəşkəs, Ermənistan işğalıyla birlikdə indiyə qədər davam etmişdir.

Sonrakı mərhələdə xeyli görüş keçirilsə, müxtəlif qurumlar nəzdində qərarlar alınsa və təkliflər irəli sürülsə də, bunlar arasında ATƏT-in Minsk Qrupunun Həmsədrlərinin 1997-ci və 1998-ci ildəki 3 həll planı, iki termin ("Praqa prosesi" və "Madrid prinsipləri") xüsusi diqqət çəkmiş, iki qlobal proses (Kosovonun müstəqilliyinin tanınması və Gürcüstan-Rusiya müharibəsi) təsiredici olmuş, əvvəlki prosesə yeni bir istiqamət (Azərbaycan və Ermənistan nümayəndə heyətlərinin hər iki paytaxta və Ermənistan isğalı altındakı Azərbaycan ərazilərinə ortaq səfərləri) əlavə edilmiş, bir xüsusi sənəd (Moskva Bəyannaməsi) imzalanmış, iki vacib qərar (AŞ PA və BMT Baş Məclisi) alınmışdır. Bunların hamısı mübahisəli məqamlara sahib olmuşdur.

Avropa Şurası Parlament Assambleyasında (AŞ PA) 2005-ci ilin qış sessiyasında mövzunun müzakirəsi nəticəsində yanvarın 25-də "'ATƏT-in Minsk konfransının məşğul olduğu Dağlıq Qarabağ münaqişəsi" adlı 1416 saylı qətnamə qəbul edilmişdir. AŞ PA qəbul etdiyi qətnamədə Azərbaycan ərazisinin böyük bir hissəsinin işğal olunduğunu bir daha təsdiq edərək, etnik düşmənçilik və onu müşayiət edən hərbi əməliyyatların çoxlu sayda insanın etnik əsasda qovulmasına və monoetnik

ərazilərin yaradılmasına gətirib çıxardığına dair narahatlığını ifadə etmişdir. Assambleya Avropa Şurasının üzvü olan bir dövlətin digər dövlətin ərazisini işğal etməsinin həmin dövlətin üzvlük öhdəliklərini kobud şəkildə pozması demək olduğunu açıq şəkildə bəyan edərək, münaqişə zonasından didərgin düşmüş şəxslərin təhlükəsiz və lazımı şərait təmin edilərək geri qayıtması hüququnu bir daha təsdiq etdi. Assambleya həmçinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini xatırladaraq, münaqişə tərəflərini onlan yerinə yetirməyə, xüsusilə də işğal olunmuş ərazilərdən hərbi qüvvələri çıxarmağa çağırırdı.

2008-ci il martın 14-də isə BMT-nin Baş Assambleyası "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qərar layihəsini müzakirə edərək əsasən təklif olunan şəkildə təsdiq etdi. İşğal edilmiş ərazilərlə bağlı 9 bənddən ibarət qətnamə Azərbaycanın ərazi bütövlüyünə dəstək verirdi. Sənəd işğal olunmuş bütün ərazilərdən Ermənistan qüvvələrinin tam, qeyd-şərtsiz çıxarılmasını tələb edir və məcburi köçkünlərin öz yurdlarına qayıtması üçün şərait yaradılmasını əks etdirirdi

Ümumilikdə baxdıqda, problemlə bağlı keçən mərhələnin vacib xüsusiyyətlərini belə qeyd etmək olar:

- Etnik köç - (Ermənilərin köçü)
- DQVM-nin formalaşdırılmasının tamamən süni proses olması
- 20-ci əsr boyunca və xüsusilə sonlarında Azərbaycan Türklərinin tarixi yurdlarından tamamən çıxarılması - Ermənistanın monoetnik dövlətə çevrilməsi
- Ermənistanın Azərbaycana açıq ərazi iddiası irəli sürməsi, işğal etməsi və bunu açıqca qeyd etməkdən çəkinməməsi
- Sülh prosesinin ədaləti və uzunmüddətli sülhü təminedici xarakterə malik olmaması

Qeyd edək ki, proses boyunca iki məqam xüsusi diqqət cəlb etmişdir. Bunlardan biri xarici amillə, digəri daxili amillə bağlıdır. İlk dəfə bir münaqişədə Rusiya, ABŞ, İran və Avropanın bəzi aparıcı dövlətləri müxtəlif istiqamətlər (hərbi, siyasi, maddi-mənəvi) üzrə eyni tərəfi (Ermənistanı) dəstəkləmişdir. Diqqət çəkən başqa bir məqam isə ondan ibarətdir ki, müharibə boyunca bütün prinsipial məqamlarda Ermənistanda həmrəylik nümayiş etdirildiyi halda, Azərbaycanda daxili Problemlər müharibədən önə keçə bilmişdir. Xüsusilə bu iki amil müharibənin ilk mərhələsinin Azərbaycan ərazilərinin Ermənistan tərəfindan işğal edilməsiylə nəticələnməsinə səbəb olmuşdur.

Mövzuyla bağlı səylərin indiyə qədər hələ də nəticəsiz qalmasında digər məqamlarla yanaşı, bölgənin şərtlərinin və xüsusiyyətlərinin kifayət qədər diqqətli qiymətləndirilməməsi, problemin tarixçəsinin və əsl mahiyyətinin göz ardı edilməsi, beynəlxalq hüququn əsas prinsiplərinin reallığa və bəzi dövlətlərin maraqlarına (həm daxili siyasi proseslərinə, həm də bölgəylə bağlı maraqlarına) qurban verilməsi xüsusi diqqət cəlb etmişdir. Şübhəsiz ki, problemin əsl mahiyyəti Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və sərhədlərini genişləndirməyə

çalışmasıdır. Eyni zamanda problemin tərəfi halına gətirilən Azərbaycan içərisindəki Erməni azlığın vəziyyətinin nə olacağı, onların hüquqlarının hansı formada təminat altına alınacağı da vacib bir mövzudur.

Qeyd edək ki, azlıq hüquqlarına dair bütün beynəlxalq sənədlərdə dövlətlərin suverenliyinin və ərazi bütövlüyünün toxunulmazlığı prinsipləri xüsusi şəkildə vurğulanır. Çünki, bütün hüquqi sənədlər kimi azlıq hüquqlarıyla bağlı sənədlərin də əsas məqsədi, insanların bir yerdə, azad, rahat, demokratik mühitlərdə yaşamalarını təmin etməkdir. Hüquqlara bağlı sənədlərin münaqişələri təhrik edici, sabitliyi, sülhü pozucu, təhlükəsizliyi təhdid edici şəkildə şərh olunması və tətbiq olunması əsas hüquqi sənədlərə ziddir. Azərbaycan içərisindəki erməni azlığın hüquqlarının qorunması mövzusunun da bu çərçivədə qiymətləndirilməsi faydalı olacaqdır.

Problemin həqiqi mənada həll olunması üçün Azərbaycan torpaqları üzərindəki Ermənistan işğalının qeyd-şərtsiz və dərhal aradan qaldırılması vacibdir. Çünkü işğalın davam etməsi, problemi içindən çıxılmaz bir hala gətirməkdədir. İşğalın aradan qaldırılması üçün ya beynəlxalq güclər vasitəsilə bir sülh planın hazırlanması və dərhal bu planın tətbiq olunmasının təmin edilməsi, ya da Azərbaycan zəruri müdafiə hüququndan istifadə edərək Ermənistan ordusunu öz sərhədləri xaricinə çıxarması lazımdır. Hazırkı mərhələdə isə bütün bunlar çox da yaxın görünmür. Çox az təsəlli tapılacaq məqamlar var ki, bunlardan ən vacibi Azərbaycanın müharibənin ilk mərhələsində əleyhinə olan amilləri lehinə çevirmə potensialına sahib olmasıdır. Azərbaycan prosesin əvvəlinə nisbətən xarici əlaqələrini xeyli gücləndirmiş və erməni lobbisinin xaricdəki təsir imkanlarını xeyli dərəcədə balanslaşdırmış, iqtisadi qüdrətini artırmışdır. Amma bu son deyil. Çünkü, ədalətli həll yolunda ciddi irəliləyiş yoxdur. Bu nöqteyi-nəzərdən baxdıqda belə görünür ki, hələ yolun başındayıq.

**Bəxtiyar TUNCAY**

## ALBANİYANIN QƏDİM TARİXİNİN BƏZİ MƏSƏLƏLƏRİNƏ DAİR

Ermənilərin xalqımıza və ölkəmizə qarşı apardıqları ideoloji -informativ müharibədə xristian amilindən gen-bol istifadə etdikləri, Qərb dövlətlərinin himayəsini qazana bilmək üçün xristian həmrəyliyi ideyalarını daim qabartdıqları və bu amilin onlara bəzi üstünlüklər verdiyi məlumdur. Bu təbliğat zamanı mənfur düşmənlərimizin guya ermənilərin dünyada xristianlığı ilk qəbul edən xalq olduğu barədə uydurma iddialar da daim ortaya atılır. Məlum olduğu kimi, Azərbaycan xalqı da tarixinin müəyyən dövründə xristian olmuş və həmin dövr tariximizin ayrılmaz bir parçasını təşkil edir. Maraqlıdır ki, bu dövrdə baş vermiş elə maraqlı və fenomenal hadisələr olmuşdur ki, onları qabartmaq və təbliğat məlzəməsinə

çevirməklə həm erməni təbliğatının effektivliyini minimuma endirmək, həm də xristian dünyasının Azərbaycana olan marağını artırmaq mümkündür. Bu hadisələrdən, şübhəsiz ki, ən maraqlısı və diqqətçəkicisi Həzrət İsaya (ə) ilk səcdə edən üç nəfər azərbaycanlı ilə bağlıdır. Bu barədə İncil məlumat verməkdədir. Belə ki, Matta "İncil"inin 11 fəslinin 1 və 2 - ci ayələrində deyilir:

"İsa hökmdar Hirodun (hakimiyyəti) günlərində, Yəhudeya Beytlehemində anadan olduğu zaman, şərqdən Yerusəlimə (Qüdsə) münəccimlər gəlib dedilər:

-Anadan olmuş yəhudi hökmdarı haradadır? Çünki onun ulduzunu Şərqdə gördük və ona səcdə qılmağa gəldik"

Məlumat üçün bildirək ki, İncildə və ümumiyyətlə Bibliyada "Şərq" dedikdə Azərbaycan ərazisi nəzərdə tutulmuşdur ki, bu barədə bir qədər sonra ətraflı məlumat verəcəyik. Bibliyanın yunanca olan ən əski mətnlərində Azərbaycan türkcəsinə "münəccim'" kimi tərcümə edilmiş söz"maq" kimi yazılmışdır. Bibliyanın sonrakı dövrə aid mətnlərində isə "maq" kəlməsi "volxv" (sehirbaz və şah anlamlarına gəlir) kəlməsi ilə əvəz edilmişdir. Halbuki, Bibliyada əslində söhbət maqlardan, yəni sehirbaz və münəccimlərdən deyil, 6 maday (Midiya) boyundan biri olan maq xalqının nümayəndələrindən getməkdədir. Yəni mətndə "maq" termini etnonim kimi işlənmişdir və orta əsrlər xristian ilahiyyatçılarının, demək olar ki, hamısı bu terminlə midiyalılara işarə edildiyini bilmiş və əsərlərində bunu elə beləcə də qeyd etmişlər. Məsələn, Oruc bəy Bayatın (Don Juanın) da xatırlatdığı kimi, orta əsrlərin ən tanınmış və sanballı ilahiyyatçılarından olan müqəddəs Antoni onların Midiyadan olduğunu yazmışdır.

Məlum olduğu kimi, qədim yunan mənbələrində "maq", qədim Elam yazılarında "makuiş", ərəb və müsəlman mənbələrində "muğ", əski türk mənbələrində isə "moğoç" adlandırılan bu Midiya boyu ən əski çağlardan Muğan ərazisində yaşamışlar və "Muğan" etnotoponimi də onların adı ilə bağlıdır. Midiya iki yerə - Böyük Midiya və Atropatenaya (Azərbaycana) parçalandıqdan sonra isə (bu, Həzrət İsanın (ə) doğuşundan 330 il öncə baş vermişdi) Muğanın mahz Atropatenada, yəni Azərbaycanda qaldığı məlumdur. İncildə onların Şərqdən gəldikləri ifadə edilmişdir.

Bibliyada və ümumiyyətlə yəhudi və xristian mənbələrində "Şərq" dedikdə, bilavasitə qədim Azərbaycan ərazisi nəzərdə tutulmuşdur ki, bu, xristian - alban tarixçisi Musa Kağankatlının "Alban tarixi", eləcə də erməni tarixçilərinin əsərlərindən açıq - aydın görünməkdədir. Belə ki, bu müəlliflərin əsərlərində "Şərq ölkəsi" ifadəsi Albaniya adının sinonimi kimi istifadə olunur. Eyni hal ilə Mxitar Qoşun "Alban salnaməsi" əsərində də üzləşmək mümkündür. Məsələn, Musa Kağankatlının "Alban tarixi" kitabının VI fəsli "İlahinin biz, Şərq xalqına zühur etməsi", VII fəsli isə "Şərqin maarifpərvəri müqəddəs Yeliseyin cəsədinin tapılması" adlanır ki, hər iki fəsildə söhbət məhz Albaniyadan və alban xalqından gedir.

"Alban tarixi"ndə olduğu kimi, əski erməni mənbələrində də Albaniya əvəzinə bəzən "Şərq ölkəsi" ifadəsi işlənməkdədir. Çağdaş erməni müəllifləri bu ifadəni çox zaman "şərq tərəf" kimi tərcümə etməkdə və yazmaqda, bununla da faktları təhrif edərək, guya Albaniyanın müstəqil dövlət deyil, Ərməniyyənin şərq əyaləti olduğunu söyləməkdədirlər. Bu barədə Qiyasəddin Qeybullayev yazır:"... Bu konsepsiyanın (Albaniyanın guya Ərməniyyənin şərq əyaləti olması barədə konsepsiyanın) xeyrinə Musa Kağankatlının "Alban tarixi kitabında işlədilmiş "şərq" ifadəsi hesab edilir.

Doğrudan da bu mənbədə "Şərq ölkəsi" (11 kitab, XX fəsil), "Şərq" (l kitab, VIII fəsil), "Şərq məmləkəti"(l kitab, XXVII fəsil, 11 kitab, l, XXVII və XXVIII fəsillər) ifadələri yer almaqdadır. Erməni tarixçiləri bu ifadələri "Erməni Şərqi", "Şərqi Ərməniyyə", "Ərməniyyənin şərq əyaləti" kimi, eləcə də Mehranilər sülaləsindən Cavanşir barədə söylənmiş "Şərq knyazı" (II kitab, XXVII fəsil, II kitab, XXVIII fəsil) ifadəsini "Erməni Şərqinin erməni knyazı" kimi, "Şərq xalqı" (l kitab, VI fəsil) ifadəsini isə "Erməni Şərqinin erməni əhalisi" kimi qəbul edirlər.

Əslində isə bu ifadələrin heç birində "Ərməniyyə" sözü yoxdur. Fəridə Məmmədovanın haqlı olaraq vurğuladığı kimi, Musa Kağankatlı "Şərq" ifadəsi altında, o dövrün xristian dünyasının təsəvvürlərindən çıxış edərək, Albaniyanın xristian dünyasının ən şərqində yerləşdiyini göz önündə tutaraq, Albaniyadan söz açmışdır. Eyni müəllif xristian bizanslılardan danışarkən də "Qərb" ifadəsini işlətmişdir və bu halda Ərməniyyəni yox, xristian Bizansı nəzərdə tutmuşdur (məsələn, l kitab, XXII fəsil, 11 kitab, X fəsil). Məsələn, Çar İraklinin Bizans əsgərləri "Qərbin əsgərləri" adlandırılmışdır. Buna müqabil olaraq, Xəzər dənizi "Şərq dənizi" (II kitab, II fəsil), Aralıq dənizi isə "Qərb dənizi" kimi təqdim edilib (11 kitab, 11 fəsil). Məsələn, fars şahı Xosrov Ənuşirəvanın məktubunda Bizans hökmdarı "Məndən qorxub Qərb dənizində gizlənən" kimi səciyyətəndirilir (11 kitab, II fəsil). Eyni mənbədə xəlifədən də "Cənubun şahı" deyə söz açılmaqdadır: "Cənubun şahı Şərqin knyazını, şöhrətli Cavanşiri yanına dəvət etdi" (11 kitab, XXVIII fəsil).

Türküstan, yəni türklər ölkəsi isə "Şimal" adlandırılır (11 kitab, XXVII fəsil), bunlar, savirlər və xəzərlər üçün isə "şimal xalqları", "şimallılar" ifadələri işlədilir (l kitab, XII vəXXVII fəsillər; 11 kitab,XIII fəsil)...

Gördüyümüz kimi, əsərdəki "Şərq", "Qərb", "Cənub" və "Şimal" ifadələrinin Ərməniyyənin koordinatları ilə heç bir əlaqəsi yoxdur. Bir sözlə, əski xristian mənbələrində "Şərq" və ya "Şərq ölkəsi" ifadəsi altında məhz Azərbaycan ərazisi nəzərdə tutulmuşdur. Bibliyada söhbətin məhz Şərqdən gələn maqlardan getməsi də bir daha sübut edir ki, bu halda azərbaycanlı maqlar nəzərdə tutulmuşdur. Yəni müqəddəs Antoni və onun fikrini təsdiq edən Oruc bəy Bayat (Don Juan) tamamilə haqlıdırlar. Bunu dövrümüzədək uyğur əlifbası ilə və uyğur türkcəsində gəlib çatan və Matta "İncil"ində söylənilənlərlə üst - üstə düşən əfsanə

də təsdiqləyir. Orada "maq" etnoniminin türkcə qarşılığı olan "moğoç" etnonimi işlənmişdir.

Həmin üç nəfər maq haqqında Matta "İncil"ində daha sonra oxuyuruq:

"...Onların Şərqdə gördükləri ulduz qabaqlarında gedirdi və körpənin olduğu yerə gələrək həmin yerin üzərində durdu. Onlar da ulduzu gördükləri zaman çox böyuk sevinclə şadlandılar. Evə girib anası Məryəm ilə körpəni gördülər və yerə sərilib ona səcdə qıldılar. Sərvətlərini açaraq ona hədiyyələr qızıl, buxur və mirra təqdim etdilər. "Matta "İncil"ində söylənilənlərlə heyratamiz şəkildə səsləşən və çox güman ki, hansısa başqa bir "İncil" variantının tərcüməsi olan uyğur əfsanəsi isə belədir:

"...Gəlib onun ləyaqətinə sitayiş edək" - deyib oturdular. O zaman Xirodis xan (Romanın Yəhuda canişini Hirod) beləcə deyib, onlara əmr etdi: "İndi, ey sevimli balalarım, yaxşıca yola düşün, ürəkdən can atıb xahiş edin, istəyin. Nə şəkildə tapsanız, geri dönün, gəlib mənə bildirin. Mən də gedib sitayiş edim ona".

Beləcə, o moğoçlar Urislıma (Yerusəlimə) necə çıxıb getdilərsə, o ulduz da onlar ilə gedər oldu. O moğoçlar Bidilximə (Vifliyemə) çatanda o ulduz tərpənmədən şax durdu. Sonra orada Msixa tanrını (İsa Məsihi) tapdılar. O zaman yaxına gəlib (mağaraya) girdilər. Öz yüklərini açdılar, üç cür xəzinə - qızıl, zümrüd və səndəl ağacı gətirdiklərini ucadan bildirdilər. Tapınaraq, tanrıya alqış etdilər, ulu Msixa tanrıya (İsa Məsihə) baş əydilər. Fikirləşdilər ki, əgər o, Tanrı oğludursa, zümrüdü, mədhiyyəni götürəcək. Əgər o, xandırsa, qızılı götürəcək. Əgər o, həkimdirsə, onda dava - dərmanı götürəcək. Onlar bu düşüncə ilə (hədiyyələri) sinidə təqdim etdilər. Menqü (əbədi) Tanrının oğlu müqəddəs xan Msixa o moğoçların ürəklərindəkini duyub hədiyyələrin hər üçünü götürdü, onlara belə dedi:

-Ey moğoçlar, üçfərqli düşüncəylə yanıma gəldiniz. Mən həm Tanrı oğlu, həm xan, həm də həkiməm. Siz şübhə etmədən gedin.

O onlara belə buyurdu ".

Bu mətni tərcümə edənlər, o cümlədən onu Azərbaycan türkcəsinə çevirmiş Əlisa Şükürlü Bibliyanın son tərcümələrindən çıxış edərək, "moğoç" kəlməsinin bir etnonim olduğunu diqqətə almadan onu "cadugər" kimi tərcümə etmişlər. Halbuki, Radlovun "Qədim türk lüğətinə göz yetirmək yetərlidir ki, terminin etnonim olduğunu anlayasan. Uyğurdilli mətnlərdəki moğoçların Midiya maqları olduğunu sübut edən faktlardan biri də odur ki, bu mətnlərdə də eynən antik və ərəb müəlliflərində olduğu kimi, maqlardan (moğoçlardan) oda tapman xalq kimi söz açılır. Həmin üç nəfərin qurumuş cəsədlərinin qalığı bugünə qədər qalmaqda və xristianlar tərəfindən hörmətlə ziyarət edilməkdədir. Bir vaxtlar İstanbuldakı (o dövrdə Konstantinopol) Aya -Sofiya camesində (o dövrdə kilsə) saxlanılan bu cəsəd qalıqları Konstantinopolun (İstanbulun) xaçlılar (səlibçilər) tərəfindən işğalı zamanı oradan qarət edilərək, Almaniyaya aparılmışdır. Hazırda məşhur Köln kilsəsində qorunub saxlanılır. Daha dəqiq desək, xristian və dünya mədəniyyətinin

ən gözəl memarlıq incilərindən hesab edilən Köln kilsəsi həmin üç azərbaycanlının şərəfinə tikilmişdir və onların qalıqları bu gün dünya xristianlarının əsas ziyarət obyektlərindən biridir.

Maraqlıdır ki, İncildə türklərin xristianlığı ilk qəbul edən xalqlar içərisində yer aldığını sübut edən çox sayda məlumat vardır. Bu faktlardan biri İncilin "Həvvarilərin işləri" adlı bölümündə yer almaqdadır. Sözügedən bölümün 11 fəslininin 1 - 13 - cü ayələrində oxuyuruq:

"Pentikost günü gəldikdə, onların hamısı (həvvarilər, Həzrət İsanın (ə) II tələbəsi. 12 - ci o zaman özünü asmışdı) bir yerə toplaşdı. Qəflətən, güclü bir külək əsirmiş kimi, göydən bir səs gəldi və oturduqları evin hər tərəfinə yayıldı. Alovun dillərinə bənzəyən bir şey onların gözlərinə görünüb, parçalanaraq hər birinin üzərinə qondu. Hamısı Müqəddəs Ruhla (Həzrət Cəbrayıl nəzərdə tutulur) doldu və Ruhun (Həzrət Cəbrayılın) onlara verdiyi danışma tərzinə uyğun olaraq, başqa - başqa dillərdə danışmağa başladılar.

Yerusəlimdə (Qüdsdə) yəhudilər, göy altında olan dindar adamlar yaşayırdı. Və bu səs gəldikdə, xalq bir yerə toplaşıb təəccüblənirdi; çünki hər biri onun dilində danışdıqlarını eşidirdi. Hamı çaşqınlıq və heyrət içində idi və (aralarnda) deyirdilər;

-Bu danışanların hamısı qalileyalı (Qalileya qədim yəhudi şəhərlərindən birinin adıdır) deyillərmi? Bəs, necə olur ki, hər birimiz öz ana dilimizi eşidir? Biz parfiyalılar, midiyalılar, elamlılar, Messopatamiyada, Yəhudeyada və Kappadokiyada ....yaşayanlar ....kritlilər və ərəblər, onların öz dillərimizdə Allahın möhtəşəm işləri barədə danışdıqlarını eşidirik. Və hamı heyran heyran bir - birinə "Bu nə olan işdir?" -deyərək təəccüblənirdi".

İncilin bu hissəsinə inansaq, elə çıxır ki, Allah öz mələyi Həzrət Cəbrayıl vasitəsi ilə, o da Həzrət İsanın həvvariləri vasitəsi ilə müxtəlif xalqlara, o cümlədən türk mənşəli midiyalı (madaylara) və parfiyalılara (saklara) öz ana dillərində müraciət etmiş və həmin şəxslər də xristian olmuşdular. Sözügedən siyahıda ermənilərin izi - tozu belə yoxdur. Bu məlumatdan belə aydın olur ki, ilk xristianlar içərisində midiyalılar və parfiyalılar da, yəni türklər də olmuşlar. Təsadüfi deyil ki, Musa Kağankatlı öz yazısı olan, yəni ana dilində yazılmış müqəddəs kitablara (Bibliyaya) sahib olan xalqların adını çəkərkən, albanlarla yanaşı midiyalıların da adını qeyd etmişdir. Əsərində bu mövzuya da yer ayıran Oruc bəy Bayatın (Don Juanın) Perion və Avdiyə istinadən yazdığına görə, təqribən həmin dövrdə Yəhuda Taddeus və müqəddəs Yaqubun qardası müqəddəs Simon (Şimon) xristianlığı təbliğ etmək üçün Fars və Madaya (Persiya və Midiyaya) ezam edilmişdilər və onların apardıqları təbliğat nəticəsində 70 min insan xristianlığı qəbul etmişdi. Xatırladaq ki, sözügedən dövrdə həm Fars, həm də Maday Parfiya - türk imperatorluğunun tərkibində idilər.

Ermənilər özlərini dünyanın ən qədim xristan xalqı adlandırsalar da, tarixi faktlar onların xristianlığı albanlardan, yəni azərbaycanlılardan çox - çox sonralar,

daha dəqiq desək, 270 il sonra qəbul etdiyini sübut edir. Bu barədə Ziya Bünyadov yazır:

"...Beləliklə, aydındır ki, əgər ermənilər xristianlığı 327 - ci ildə qəbul ediblərsə, albanlar artıq 270 il xristianlıqda idilər və bu tarix eramızın 54 - cü ilinə müvafiqdir. Xaçpərəstliyi İsanın şagirdləri -həvvariləri Faddey, Yelisey və Varfulomeydən qəbul etdiyi üçün Albaniya kilsəsi birinci həvvari kilsəsidir (pervo - apostolskaya)".

Şübhəsiz ki, alim bu sözləri əski alban və erməni mənbələrinə istinadən yazmışdır.

Oruc bəy Bayatın isə yazdıqlarından belə məlum olur ki, təkcə albanlar deyil, madaylar (midiyalılar) da xristianlığı bilavasitə Həzrət İsanın (ə) şagirdlərinin təbliğ və təşviqi ilə qəbul etmişdilər. Körpə Həzrət İsaya (ə) ilk səcdə edən və onun peyğəmbərliyini təsdiq edən üç azərbaycanlıya, yəni midiyalı maqa gəlincə isə, onlar ümumiyyətlə, dünyanın ilk xristianları hesab olunmalıdırlar və bu məsələdə onlar həvvariləri belə qabaqlamışlar.

Duanın alban dilindəki səslənişi:

"Atamız bizim ki köktəsən, ari bolsunq atınq seninq, kəlsin xanlıxın səninq, bolsun erkinq səninq neçik köktə alay yertə, ötməkimizni bizim kündəlik ber bizgə, bu gün boşat bizgə borçumuznu bizim, neçik ki biz boşatırbiz bizim borçlularimizgə, bermagin bizni sınamaxlıxka, yoxsa xutxar bizni yamandan, zera seninqdir xanlıx da, xuvat da, sənqə haybat menqlik. Amen. "

Çağdaş Azərbaycan türkcəsindəki səslənişi:

"Göydə olan atamız, təmiz qalsın adın sənin, gəlsin xanlığın (hakimiyyətin) sənin, göydə olan ərkin yerə ələnsin. Ruzimizi gündəlik ver bizə, Bizi sınaqlara soxma, pisliklərdən qurtar, çünki sənindir xanlıq da (hökm də), qüdrət də. Əbədi olmaq sənə yaraşır. Amin".

Təqdim etdiyimiz alban (qıpçaq - qarqar) nümunəsindən də göründüyü kimi, bu, güclü oğuz təsirinə məruz qalmış qıpçaq materialıdır və digər qıpçaq şivələrindən fərqli olaraq, anlaşıqlıdır. Halbuki, digər qıpçaq şivələrini - qumuq, qaraçay, balkar, noqay, qazax, qırğız, başqırd və s. anlamaq bir qədər çətindir. Təbii ki, bu şivə oğuz əhatəsində, yəni Azərbaycanda formalaşa bilərdi və formalaşmışdır da.

Maraqlıdır ki, oğuz mənşəli Azərbaycan türkcəsinin vasitəsi ilə alban türkcəsinə çox sayda ərəb və fars kəlməsi də keçmişdir. Məsələn; xudrət (qüdrət), xuvat (qüvvət), ki (bağlayıcı), zera (zira) və s. Qarşımızdakı ərəb müəlliflərinin "arran dili" adlandırdıqları alban dilidir və Mxitar Qoşun dövrümüzədək ulaşmış "Törə bitiqi" kitabı da bu dil və şivədədir və eyni qrafika ilə yazılmışdır. Bu gün də Gürcüstanın Şito - Kartli bölgəsində yaşayan azəbaycanlılar eyni şivədə danışılar. Fəqət həmin şivə daha çox oğuz təsirinə məruz qalmışdır. Yəni zaman öz işini görmüşdür.

Bütün bu faktlar bir daha sübut edir ki, alban yazısı erməni əlifbası ilə eyni mənşəli olmuş, alban dili də Musa Kağankatlının və Moisey Xorenatsinin "qarqar dili" adlandırdıqları qıpçaq türkcəsinin yerli şivəsindən başqa bir şey deyilmiş.

Maraqlıdır ki, sözügedən müəlliflərin söylədikləri bu fikri əldə əsas tutan erməni "alimləri iddia edirlər ki, guya Mesrop Maştots albanlar üçün deyil, çoxsaylı alban tayfalarından biri olan qarqarlar üçün əlifba düzəltmişdir. Bu iddiada məqsəd guya ayrıca alban dilinin olmadığını, albanların erməni, yəni hay dilində danışdıqları barədə uydurmanı "sübut" etməkdir.

Lakin Musa Kağankatlının sözügedən məlumatına istinad edənlər eyni müəllifin bir qədər yuxarıda Maştotsun erməni və albanlara əlifba düzəltdiyini söyləməsini gözardı edirlər. Həqiqət isə budur ki, Musa Kağankatlı məhz alban əlifbasından söz açır və bir qədər sonra isə alban əlitbasının məhz qarqar (qıpçaq) dili əsasında yaradıldığını aydınlaşdırır. Maraqlıdır ki, eyni mövzuya toxunmuş digər əski erməni müəllifi Koryun da söhbətin məhz alban dilindən getdiyini vurğulamışdır. Özü də onın söylədiklərindən belə aydın olur ki, Mesrop albanların əlifbasını əslində yeniləmişdir. Yəni bu hadisədən öncə də albanlar yazıya sahib idilər:

Elə həmin vaxt onun yanına Benyamin adlı bir alban ieremiya gəldi. O (Maştots) onu sorğu - sual edərək, alban dilinin ... sözlərini tədqiq etdi. Daha sonra ona yuxarıdan bəxş edilən istedadı ilə (albanlar üçün) yazı yaratdı və Məsihin mərhəməti sayəsində uğurla ölçdü, biçdi və dəqiqləşdirdi".

Eyni müəllif bir qədər sonra yazır: "Bundan sonra o, Alban ölkəsinə yola düşmək üçün (katalikos Saak və erməni məliyi Artaşeslə) xudahafizləşdi. Və o həmin ölkəyə yola düşdü, məliklərin iqamətgahı olan yerə gəldi, alban yepiskopu İeremiya, eləcə də onların məliyi Arsval ilə və bütün azatlarla görüşdü. Bütün onlar onu Məsih eşqinə hörmətlə qarşıladılar, o da gəlişinin səbəbini izah etdi. Onların hər ikisi - bərabər səlahiyyətlərə sahib yepiskop və çar bu yazını qəbul etməyə razı oldular və ölkənin müxtəlif əyalət və vilayətlərindən yazıb öyrənmək üçün yeniyetmələrin göndərilməsi, onların müvafiq yerlərdəki məktəblər üzrə qruplaşdırılması və qida ilə təmin edilməsi barədə əmr imzaladılar".

Bu deyilənlərdən göründüyü kimi, Mesrop albanlar üçün artıq hazır əlifba gətirmişdi, həmin əlifbanı isə albanlardan öncə ermənilərin dilinə uyğunlaşdırmışdı. Yəni özü ilə bu gün "erməni əlifbası" kimi tanınan hazır əlitbanı gətirmişdi.

Koryunun əsərinin Venesiya mxitaristləri tərəfindən 1854 - cü ildə dərc edilmiş başqa variantında isə belə deyilir:

"...Sonra o, Alban ölkəsinə yollandı, onların əlifbasını dəyişdirdi (yenilədi), tədrisatı bərpa etdi..."

Buradan isə belə məlum olur ki, Maştots albanların əlifbasını yenilədi. Albanların bundan da öncə əlifbaları olduğu, onunla kitablar yazıldığı, xristianlığın

qəbulundan sonra Vaçaqanın onların yandırılmasını əmr etdiyi məlumdur. Bu barədə Musa Kağankatlı məlumat verir. Söhbət hansı əski əlifbadan gedir?

Nəzərə alsaq ki, Vaçaqan və ondan öncəki Albaniya hökmdarları Arsak sülaləsindən idilər və kökləri Parfiya Arşaklarına uzanırdı və Parfiyada isə 22 hərfli arami yazısından istifadə olunurdu, eləcə də Ərməniyyə məliyi Artaşesin (e.ə. 1 əsr) dövrümüzədə ulaşan, türkcə yazıldığı anlaşılan və görkəmli dilçi alimimiz Firidun Ağasıoğlu tərəfindən oxunan kitabəsi də (söhbət sərhəd daşları üzərindəki yazılardan gedir) eyni əlilba ilə yazılmışdı, söhbətin məhz arami əlifbasından getdiyini düşünmək olar. Üstəlik də Sasanilər eyni əlifbanı parfiyalılardan əxz edərək öz dillərinə uyğunlaşdırmışdılar və onların imperiyasında orta fars (tat) dili ilə yanaşı arami dili də dövlət dili hesab olunurdu və hər iki dilin əlifbası eyni idi. Orta fars (tat) dilində o dövrdə "T" və "f" səsləri olmadığından Sasani əlifbası 22 yox, 20 hərfli idi. Eyni əlifbanın Xəzər xaqanlığında da əsas əlifbalardan biri olduğunu söyləmək üçün əldə ciddi əsaslar var. Fəxrəddin Mübarəkşah Mərvərrudinin yazdığına görə, xəzərlərin əlifbası 22 hərfdən ibarətdir. Sağdan sola yazılır və hərflər bitişmir.

Bu halda söhbətin bilavasitə arami əlifbasından getdiyi heç bir şübhə oyatmır. Məsələ burasındadır ki, xəzərlərin yəhudiliyi qəbul etmiş hissəsinin birbaşa davamı hesab edilən knmçakJar XX əsrin əvvəJIərinə qədər bu əlifbadan istifadə etmiş və bu əJifba ilə çox sayda ədəbi və dini əsər yaratmışlar. Maraqlıdır ki, kırımçak türkcəsi yazılı materialının tədqiqi bu dilin alban (qıpçaq - qarqar) dili ilə, cüzi şivə fərqi diqqətə alınmazsa, tam eyni olduğunu söyləməyə əsas verir. Bu dil də qıpçaq mənşəli olmaqla yanaşı, güclü oğuz təsirinə məruz qalmışdır.

Bu baxımdan "Aşıq Qərib" dastanının kırımçak variantının dili deyilənlərə ən gözəl misaldır:

"Aşıx Ğaripınq masalı və türkıst beyan.

Zaman yılınq bır zamanında Tavriz şeərində bır əxtiyar var əmış. O əxtiyar adamnınq bır xarısı, bır xızı və bır oğılı var əmış. Xarısınınq adı Xanzoxra, xızınınq adı Gülüxan, oğdınınq adı Aşıx Ğarip. Bu əxtiyar adam anistan bır kefsızlıkke oğrayır, arası çıxxa barmayır, bu əxtiyar adam öliyır. Xalıyır xarısı, xızı və oğdı. Bu oğılan Aşıx Garip dedıklərı qəndı baxar əmış, qayət bexsun əmış. Bu Aşıx Ğaripnınq düşmə bır gecə ax saxallı adam geliyır, diyır ki: "Oğılım, kimə nışanlaçaxsınq, kımınq xısnetısmq?" Aşıx Carip də diyır "Bilmiyıram". Çağdaş Azərbaycan türkcəcində: "Aşıq Qəribin məsəli və türküsünün bəyanı.

Ötən illərin birində Təbriz şəhərində bir ixtiyar qoca varmış. O ixtiyar adamın bir qarısı, bir qızı və bir oğlu varmış. Qarsının adı Xanzöhrə, qızının adı Gülüxan, oğlunun adı Aşıq Qərib idi. Bu ixtiyar adam anidən bir kefsizliyə uğrayır, ... bu ixtiyar ölür. Qalır qarısı, qızı və oğlu... Bıı Aşıq Qəribin bir gecə yuxusuna bi ağ saqqallı adam girir və deyir: "Oğlum, kim nişanlanacağını, kimin qisməti olduğunu bilirsənmi? " Aşıq Qərib də deyir: "Bilmirəm".

Gördüyümüz kimi, alban (qarqar - qıpçaq) dili ilə krımçak (xəzər) dili arasında, demək olar ki, heç bir fərq yoxdur. Bu da təbiidir. Çünki həm Moisey Xorenatsi, həm də Musa Kağankatlı alban dilinin əsasında duran qarqar dinini xəzərlərin, daha dəqiq desək, ağ xəzərlərin dili ilə eyniləşdirir. Fəqət mətnləri rus dilinə tərcümə edən ermənilər bu faktı gizlətmişlər. Mətnin orijinalı isə belədir:

Steğis nşanqirs kokordaxos xjakan xetsbekazunin aynorik qarqartsvots lezım"

Hərfi tərcüməsi:

Steğts - yaratdı, düzəltdi, nşanqirs - hərfləri, kokordaxos -boğazda danışan, ağ xazur - ağ xəzər, xjakan-yabanı, xetsbekazunin – pozuq, aynorik - bənzər, qarqartsiots – qarqarların, lezuin – dili, Erməni saxtakarlığını ifşa edən Firidun Ağasıoğlu cümləni belə tərcümə etmişdir:

"Yabanı, pozuq ağ xəzər əlifbasını boğazda danışan qarqarların dilinə uyğunlaşdırdı".

Alim belə fikrə gəlir ki, Mesrop Maştots qarqarlar üçün xəzər əlifbası əsasında əlifba yaratmışdır. Əlbəttə ki, onun bu fikri ilə razılaşmaq mümkün deyil və deyilənləri belə şərh etmək lazımdır: "(Mesrop) Ağ Xəzərlərin boğaz səsləri ilə zəngin, yabanı və pozuq dilinə bənzər qarqarların dili üçün hərflər yaratdı".Yəni, Mesrop Maştots ağ xəzər dilinə bənzər qarqar dili üçün yeni əlifba yox, bəzi hərflər düzəltdi. Çünki ermənilər üçün düzəltdiyi əlifba qarqar dilinin bəzi səslərini ifadə etmək iqtidarında deyildi. Bizcə, hər şey Firidun Ağasıoğlunun söylədiyinin əksinə baş vermişdir. Albanlar əski əlifbalarından – arami mənşəli xəzər əlifbasından imtina edərək, Maştotsun yeni əlifbasını qəbul etdilər. Xəzər əlifbası ilə yazılmış, Musa Kağankatlının dili ilə desək, "bütpərəst və cadugərlərin" kitablarını oda verdilər. Buna yeni dinin - xristianlığın qəbul edilməsi səbəb oldu.

Hər halda, Mxitar Qoşun dövrümüzədək alban dilində çatmış kitabı, eləcə də yuxarıda təqdim etdiyimiz alban dilində olan dua məhz ikinci nəticənin doğruluğunu sübut edir. Ortaya haqlı olaraq, belə bir sual çıxa bilər: Nədən albanlar dura - dura, alban əlifbası qarqarların dili əsasında yaradılmışdır?

Görünür, "alban" adı konkret bir soy və ya boyun deyil, albanlar ölkəsində yaşayan bütün türk və qeyri - türk etnosların ümumiləşdirici adı olmuş və etnonimə çevrilməmişdən öncə sosisal institutu ifadə etmişdir. Məsələ burasındadır ki, əski türk dilində "alban" kəlməsi "hərbi mükəlləfiyyətli" anlamına gəlir. Bu fakt V. Radlovun "Qədim türk lüğəti"ndə də təsbit edilmişdir, fəqət bu sözün türk dilinə guya monqol dilindən keçdiyi barədə əsassız bir fikir söylənmişdir. Fikrimizcə, Albaniyanın əhalisi Xəzər xaqanlığının, ondan öncə isə Hun xaqanlığının, başqa sözlə, Türküstanın (Turan) tərkib hissəsi olmuş, Turan xaqanına tabe olmuş və lazım gəldiyində xaqanı atlı və piyada döyüşçülərlə təmin etməyə mükəlləf olmuşdur. Hər halda, "Kitabi Dədə Qorqud"da "albanlar başı" adlandırılan Qazan xanın, eləcə də xanlar xanı Bayandır xanın "Türküstanın dirəyi" kimi təqdim edildiyi danılmaz faktdır.

Çox güman ki, Albaniya xristianlığın qəbulundan sonra Turandan (Türküstandan) qopmuş, buna qədər isə həmişə Türküstanın ayrılmaz hissəsi olmuşdur. Hər halda, uzun müddət, daha dəqiq desək, V əsrə qədər (albanlar xristianlığı V əsrdə qəbul etmişlər) Albaniyanın paytaxtı olmuş Qəbələ şəhərinin ərəb mənbələrində "Xəzər" adlandırıldığı da bir gerçəklikdir. Eyni zamanda, xəzərlərin bu günə qədər harada yerləşmiş olduğu məlum olmayan paytaxtlarının "Xanbalıq" adlandığı məlumdur. Qəbələ şəhərinin adı isə antik mənbələrdə "Kabalaka" kimi çəkilir. "Kabalaka"nın Xanbalıq adının təhrif edilmiş forması olduğu göz qabağındadr. Albanların xəzəilərdən və Turan - Türküstan mühitindən qopmasının bir səbəbi yeni din - xristianlıq idisə, digər səbəbi də iki əsr sonra türk əsilli Arsaklar sülaləsinin əvəzinə fars (tat) mənşəli Mehranilərin hakimiyyət başına gəlməsi olmuşdur. Təsadüfi deyil ki, xristian həmrəyliyi nümayiş etdirən Musa Kağankatlı özünün "Alban tarixi"ndə xəzərlərdən və yer - yer "Şimal" adlandırdığı Türküstandan sevməzliklə söz açır, erməniləri isə həmişə xoş sözlərlə yad edir, Albaniyanın fars (tat) mənşəli məliyi Cavanşiri öyməkdən isə doymur.

**Elçin ƏHMƏDOV**

## ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜ VƏ TÜRKİYƏNİN SİYASƏTİ

Türkiyə dövləti beynəlxalq aləmdə Azərbaycanın fəal tərəfdarı kimi çıxış edərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün Azərbaycanın göstərdiyi bütün səyləri həmişə müdafiə etmişdir. Belə ki, hələ SSRİ-nin mövcud olduğu dövrdə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və hərbi təcavüzünün genişlənməsi zamanı Azərbaycan xalqının haqq səsi məhz Türkiyə vasitəsi ilə dünyaya çatdırıldı. Bu işdə Türkiyənin rəsmi şəxslərinin mövqeyi, eləcə də mətbuat və kütləvi informasiya vasitələrinin əhəmiyyətli rolu xüsusilə qeyd edilməlidir.

1991-ci il aprelin əvvəllərində Türkiyə Respublikasının SSRİ-dəki səfiri Volkan Vural Yerevana səfəri zamanı çıxışlarında dönə-dönə qeyd etmişdi ki, nə vaxta qədər ki, Azərbaycanın ərazi bütövlüyü və təhlükəsizliyinin təminatı gözlənilmir, Dağlıq Qarabağ məsələsi əsas problem kimi qalır, Türkiyə ilə Ermənistan arasında münasibətlər yaxşılığa doğru irəliləyə bilməz[1].

Ermənistanın hərbi təcavüzünün genişləndiyi bir dövrdə Azərbaycan ərazilərinin işğalı və xalqımıza qarşı edilən təcavüz aktları Türkiyədə böyük həyəcanla qarşılanırdı. Belə ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Rusiyanın 366-cı motoatıcı alayının Xocalıya hücum etməsi və orada 1000-dək azərbaycanlının qətlə yetirilməsi ilə əlaqədar Türkiyə Böyük Millət Məclisinin iclasında Qarabağdakı gərginliyin daha da artmasına səbəb olan bu hadisələrin dünya ictimaiyyətinə çatdırılması haqqında yekdilliklə qərar qəbul edildi[2]. Bundan əlavə, sonrakı illərdə

də Xocalı faciəsinin dünya ictimaiyyətinə çatırılmasında Türkiyə ictimaiyyətinin, mətbuat və kütləvi informasiya vasitələrinin mühüm rolu təqdirəlayiqdir.

1992-ci ilin mayın 8-də Şuşa şəhərinin işğalı ilə əlaqədar Baş nazir Süleyman Dəmirəl Türkiyə hökuməti adından BMT Təhlükəsizlik Şurasının təcili olaraq iclasının çağırılmasını xahiş etmiş və bu barədə Təhlükəsizlik Şurası sədrinin ünvanına müvafiq məktub göndərmişdir. Bununla yanaşı, Türkiyənin dövlət rəsmiləri dünya dövlətlərinə müraciət edərək onları Ermənistanın təcavüzkarlığını dayandırmağa, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal çıxarmağa çağırmış, eyni zamanda, mayın 18-də Laçının işğalı ilə əlaqədar Türkiyə hökuməti Ermənistana daha sərt bir bəyanatla müraciət edərək, onun hərbi təcavüzünü pisləmişdir.

1993-cü il aprelin əvvəllərində Ermənistanın hərbi təcavüzünün daha da genişlənməsi və Kəlbəcər rayonunun işğalı ilə əlaqədar Türkiyə xarici işlər nazirliyi bəyanatla çıxış etməklə yanası, Türkiyə hökuməti BMT Təhlükəsizlik Şurasından təcili iclasının çağrılmasını da xahiş etmişdir. 1993-cü il aprelin 6-da BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələr zamanı Türkiyənin BMT-dəki daimi nümayəndəsi Mustafa Akşin bildirmişdi ki, "Türkiyə Azərbaycanın hər hansı bir güc tərəfindən işğalına heç vaxt biganə qalmayacaqdır". O zaman Türkiyə Respublikasının Prezidenti Turqut Özəl Azərbaycanı dəstəkləyərək Ermənistanın işğalçılıq siyasətinə son qoymasını tələb etmiş və Türkiyə dövləti bu işğalın davam etməsi səbəbindən Ermənistanla sərhəddini bağlamışdır.

Bununla yanaşı, Türkiyə tərəfi münaqişəni nizama salmaq üçün, ilk növbədə atəşin dayandırılmasına nail olmağın vacibliyini bildirmiş, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını təkid etmiş və münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində həllinə tərəfdar olduğunu bəyan etmişdir.

Türkiyə 1992-ci ilin martında yaradılan ATƏM-in Minsk qrupunun üzvü kimi münaqişənin dinc vasitələrlə nizama salınmasına dair keçirilən danışıqlarda müntəzəm olaraq iştirak edir. 1995-ci ilin iyul ayında Türkiyə prezidenti münaqişənin sülh yolu ilə həllinə dair aparılan danışıqlarda iştirak etmək üçün özünün ATƏT-in Minsk qrupundakı nümayəndəsinə xüsusi səlahiyyətli səfir statusu vermişdir[5].

Müasir dövrdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi dövlətimizin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Bu günədək "bir millət, iki dövləf" prinsipi əsasında inkişaf edən münasibətlərin səviyyəsindən razı olduğunu bildirən Azərbaycan Prezidenti İlham Əliyev qeyd etmişdir ki, "Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri çox yüksək səviyyədədir"[6].

Bütün dövrlərdə Türkiyə-Azərbaycan münasibətləri həm iki ölkə üçün, həm də region üçün çox önəmli rol oynamışdır. Hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri ikitərəfli siyasi və iqtisadi əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamışdır. Bu gün ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur və bütün sahələrdə əlaqələrimiz uğurla inkişaf edir. Türkiyə və Azərbaycan regional

əməkdaşlıq prosesinin fəal və söz sahibi olan iştirakçılarıdır. Bu səbəbdən Azərbaycanın dövlət başçısı İlham Əliyev bəyan etmişdir ki, bölgədə Türkiyə-Azərbaycan əməkdaşlığı, işbirliyi olmadan heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz.

Regionda baş verən son hadisələr, xüsusilə 2009-cu ilin əvvəllərində Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması haqqında məlumatlar yayıldıqdan sonra, bu məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair aparılan danışıqlar prosesinə də öz təsirini göstərdi. Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması, xüsusilə sərhədlərin açılması məsələsi Dağlıq Qarabağ məsələsi ilə paralel nizama salınmalıdır. Türkiyənin Ermənistanla sərhədlərini bağlamasının əsas və tək səbəbi Kəlbəcər rayonunun işğal altına düşməsi olmuş və 1993-cü ilin aprel ayından sərhədlər bağlanmışdır. Lakin Türkiyə ilə Ermənistan arasında imzalanması nəzərdə tutulan sənəddə Dağlıq Qarabağ məsələsinin həlli ilə bağlı heç bir maddənin olmadığı məlum oldu. Bundan əlavə, Ermənistanın Türkiyəyə qarşı dövlət səviyyəsində soyqırım və ərazi iddialarının qüvvədə qalması aradan qalxmadan Türkiyənin Ermənistanla sərhədlərini açması həm Azərbaycanın, həm də Türkiyənin milli maraqlarına uyğun gəlmir.

Bu səbəbdən Azərbaycan dövləti bu işğala son qoyulmadan, yəni Ermənistan silahlı qüvvələri işğal etdikləri ərazilərdən çıxmayana qədər Türkiyənin Ermənistanla sərhədlərini açmasını məqbul hesab etmir. Ona görə ki, Türkiyə-Ermənistan münasibətlərinin normallasdırılması istiqamətində atılan addımlar indiyə qədər danışıqlar prosesində qeyri-konstruktiv mövqeyi ilə nizamlanma prosesinə maneə törədən Ermənistan tərəfini yenə də vaxt uzatmaq taktikasını tətbiq etməyə imkan yaradır. Bununla əlaqədar dövlət başçısı İlham Əliyev açıq şəkildə bildirdi ki, Türkiyə-Ermənistan münasibətləri Dağlıq Qarabağ məsələsinin həllindən əvvəl tənzimlənərsə, o zaman Ermənistanın mövqeyi danışıqlar prosesində daha da sərtləşə bilər. Bu problemlərin, yəni Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və Türkiyə-Ermənistan sərhədlərinin açılması proseslərinin paralel olaraq həll edilməsinin vacibliyini bildirən Prezident İlham Əliyev Azərbaycanın bölgədə və dünyada artan rolunun Ermənistanın təcrid vəziyyətdən çıxmasına heç vaxt imkan verməyəciyini vurğulayaraq, qeyd etdi ki, "Bu vəziyyətin yaranmasının əsas səbəbkarı Ermənistan rəhbərliyinin özüdür".

2009-cü il oktyabrın 10-da Surixdə Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılmasını özündə əks etdirən protokolların imzalanmasından sonra isə Baş nazir Rəcəb Tayyib Ərdoğanın rəsmən bəyan etdiyi sözlər qardaş dövlətin Azərbaycanın milli maraqlarına zidd olacaq qərar qəbul etməyəcəyinə olan inamı daha da artırdı: "Ermənilər işğal altındakı Azərbaycan torpaqlarını azad etməsə, protokolların parlamentdə təsdiqlənməsi mümkün olmayacaq". Türkiyənin dövlət rəsmiləri də Azərbaycanla münasibətləri yüksək qiymətləndirərək bəyan etmişlər ki, "Azərbaycan strateji ortağımızdır və qardaş ölkənin milli maraqlarına zidd olaraq hər hansı bir addım atmayacağıq"[8].

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev öz qətiyyətli mövqeyini aydın şəkildə bildirərək qeyd etdi ki, "Bu proseslər arasında rəsmi olmasa da, qeyri-rəsmi bağlantı vardır. Bu bağlantı saxlanmalıdır və iki məsələ paralel şəkildə eyni zamanda həll olunmalıdır. Əks təqdirdə bölgədə status-kvo mənfi tərəfə dəyişə bilər"[9]. Ermənistan-Azərbaycan münaqişəsi həll olunmadan, yəni Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, dövlət başçısı İlham Əliyev Azərbaycanın öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını bildirmişdir. Eyni zamanda, bu mübarizədə ədalətin Azərbaycanın tərəfində olduğunu söyləyən Prezident İlham Əliyev dünyaya bəyan etdi ki, "Azərbaycan bundan sonra da nə danışıqlar prosesində, nə də bölgədə gedən başqa proseslərdə öz prinsipial mövqeyindən dönməyəcəkdir"[10].

Bundan əlavə, dövlət başçısı İlham Əliyev 2009-cu ilin noyabrında keçirilən Münhen danışıqları ərəfəsindəki çıxışında dünya birliyinin bu məsələyə biganə qaldığını vurğulayaraq qeyd etdi ki, beynəlxalq təşkilatlar lazım olan qərarları qəbul etsə də, ancaq onlar icra olunmur və belə olan halda o qətnamələr mənasını itirir. Dünyada beynəlxalq hüquq normalarının kobudcasına pozulduğunu bildirən Prezident İlham Əliyev Azərbaycan torpaqlarının uzun illər işğal altında qalmasını bunun nəticəsi kimi qiymətləndirdi.

Ona görə də ancaq Azərbaycan xalqının iradəsinə, gücünə arxalanmağı bildirən dövlət başçısı bu məqsədlə iqtisadiyyatımızı və ordumuzu gücləndirməyin vacibliyini vurğuladı. Problemin sülh yolu ilə həll olunmasına ümidlərini itirməyən və bu səbəbdən münaqişənin nizama salınmasında dinc vasitələrə üstünlük verdiyini söyləyən Prezident İlham Əliyev qeyd etdi: "Biz danışıqlar aparırıq, ancaq bununla bərabər, hər an torpaqlarımızı işğalçılardan hərbi yolla azad etməyə hazır olmalıyıq"[11].

**İstifadə olunmuş ədəbiyyat:**


1. Kəngərli Q. Erməni lobbisi və Azərbaycan faciəsi. Bakı, 1992, s. 68
2. Yenə orada, s. 117
3. "Həyat" qəzeti, 14 may 1992-ci il
4. "Azərbaycan" qəzeti, 8 aprel 1993-cü il
5 Əhmədov E.İ. Ermənistamn Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s. 36-37
6. "Azərbaycan" qəzeti, 10 oktyabr 2009-cu il
7. "Azərbaycan", 10 oktyabr 2009-cu il
8. "Xalq qəzeti", 13 oktyabr 2009-cu il
9. "Azərbaycan", 10 oktyabr 2009-cu il
10."Xalq qəzeti", 17 oktyabr 2009-cu il
11. "Azərbaycan", 18 noyabr 2009-cu il

**Elçin ƏHMƏDOV**

# İSLAM KONFRANSI TƏŞKİLATI ERMƏNİSTANI TƏCAVÜZKAR KİMİ TANIYAN İLK VƏ YEGANƏ BEYNƏLXALQ TƏŞKİLATDIR

İslam həmrəyliyi çərçivəsində beynəlxalq təşkilat yaratmaq ideyası 1969-cu il sentyabrın 22-25-də Mərakeşin paytaxtı Rabatda keçirilən 25 müsəlman ölkəsinin dövlət və hökumət başçılarının birinci konfransında özünün siyasi həllini tapdı[1].

İslam Konfransı Təşkilatı hazırda 57 dövləti özündə birləşdirir. Bundan əlavə, bəzi ölkələrin müsəlman icmalarının, eləcə də bir sıra beynəlxalq və regional təşkilatların nümayəndələri İKT yanında, müşahidəçi statusuna malikdirlər. İKT Birləşmiş Millətlər Təşkilatı ilə sıx əməkdaşlıq edir və 1975-ci ildən BMT yanında müşahidəçi statusu almışdır. BMT Baş Məclisinin 36-cı sessiyasında "BMT ilə İKT arasında əməkdaşlıq haqqında" qətnamə qəbul edilmişdir[2]. İKT üzvü olan dövlətlərin ümumi əhalisi bir milyard nəfərdən çoxdur və bir yerdə götürüldükdə bu dövlətlər böyük mənəvi, siyasi, iqtisadi, elmi və mədəni potensiala malikdir.

Azərbaycan Respublikası 1991 -ci il dekabrın 8-də İKT-nin Dakarda keçirilən dövlət və hökumət başçılarının 5-ci konfransında 46-cı tamhüquqlu üzv kimi təşkilata qəbul olunmuşdur[3]. İKT Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq hüququn subyekti kimi qəbul olduğu ilk beynəlxalq təşkilatdır.

Həmin dövrdə Azərbaycanın İKT-yə üzv qəbul olunması həm erməni təcavüzünə məruz qalmış, eləcə də informasiya təbliğat imkanları zəif olan ölkəmizin öz haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırılması, həm də İKT-nin Ermənistan-Azərbaycan münaqişəsinə münasibət bildirməsi üçün əsas verməklə yanaşı, islam dövlətləri tərəfindən dəstəklənməsi üçün çox zəruri idi.

Buna görə də təşkilata üzv qəbul edildikdən üç ay sonra Azərbaycan hökumətinin müraciətinə cavab olaraq İKT-nin Baş Katibi Həmid əl-Qabid öz müavini Məhəmməd Möhsinin rəhbərlik etdiyi nümayəndə heyətini ölkəmizdəki ictimai-siyasi vəziyyət və Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi üçün mövcud imkanlarla tanış olmaq üçün regiona göndərdi[4].

IKT nümayəndə heyəti Azərbaycanda, Ermənistanda, Türkiyədə, İranda, Rusiyada olmuş, bu ölkələrin xarici işlər nazirliklərinin vəzifəli şəxsləri ilə, eləcə də, BMT-nin xüsusi nümayəndəsi Sayruns Venslə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar məsləhət xarakterli görüşlər keçirmişlər. Bunun nəticəsi olaraq, 1992-ci il martın 31-də İKT-nin Baş katibi Dağlıq Qarabağda vəziyyətlə əlaqədar bəyanatla çıxış etmiş və Azərbaycanın bu bölgəsində münaqişə ilə əlaqədar dərin narahatlıq keçirdiyini ifadə etmiş, üzv dövlətlərə, humanitar təşkilatlara Dağlıq Qarabağa yardım göstərilməsi ilə bağlı müraciət etmişdir.

1992-ci ilin sentyabr ayında Nyu-Yorkda BMT Baş Məclisinin sessiyası zamanı İKT üzvü olan dövlətlərin xarici işlər nazirlərinin əlaqələndirmə toplantısında qəbul edilmiş yekun sənədinə Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar bir maddə salınmışdır[6].

1993-cü il aprel ayının 25-29-da Pakistan İslam Respublikasının Kəraçi şəhərində keçirilmiş İKT Xarici İşlər nazirlərinin 21-ci konfransında Ermənistan-Azərbaycan münaqişəsi üzrə qətnamə qəbul edildi. Qətnamədə Ermənistanın ölkəmizə qarşı təcavüzü pislənmiş, erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından təcili çıxarılması tələb olunmaqla münaqişənin sülh yolu ilə aradan qaldırılmasının vacibliyi bildirilmişdir .

1993-cü ildə Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinə genişmiqyaslı hücumu və torpaqlarımızın işğalı ilə əlaqədar həmin il noyabr ayının 23-də BMT iqamətgahında İKT-nin üzvü olan ölkələrin xarici işlər nazirlərinin əlaqələndirmə toplantısı keçirilmiş, burada Azərbaycan Prezidenti Heydər Əliyevin erməni təcavüzü ilə əlaqədar ölkəmizin düşdüyü vəziyyət barədə toplantı iştirakçılarına dərin nıəzmunlu müraciəti oxunmuş və Ermənistanın son təcavüzü ilə bağlı bəyanat qəbul edilmişdir[8].

Ümummilli lider Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində müqəddəs Kəbədə ümrə ziyarəti, kral Fəhd bin Əbdüləzizlə apardığı danışıqlar, İKT Baş katibliyinin rəhbərliyi ilə keçirdiyi səmərəli görüşlər Azərbaycanın islam aləmində olan maraq və diqqəti daha da artırdr. "Nəticədə, İKT-nin beynəlxalq aləmdəki nüfuz və imkanlarından lazımi səviyyədə istifadə edə bilməsi istiqamətində Azərbaycanın mövqeyini daha da möhkəmləndirərək əməkdaşlığın gələcək inkişafına zəmin yaratdı.

Bunun nəticəsi olaraq 1994-cü il sentyabrın 7-9-da Pakistan İslam Respublikasının İslamabad şəhərində İKT-nin fövqəladə sessiyası keçirildi. Sessiyada Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar qətnamə qəbul edildi. Qətnamədə Ermənistanın Azərbaycana qarşı təcavüzü, Azərbaycan ərazisinin 20%-dən artığının işğalı qətiyyətlə pislənildi. Bununla yanaşı Ermənistan Respublikasından BMT Nizamnaməsinin və Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul edilmiş müvafiq qətnamələrinin dönmədən yerinə yetirilməsi, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması ciddi surətdə tələb olunmuşdu. Azərbaycan Respublikasının ərazisindəki bir milyon nəfərdən çox qaçqın və məcburi köçkünlərə humanitar yardım göstərilməsinin zəruriliyi qeyd edilmişdir[10].

1994-cü ilin noyabr ayının axırlarında İKT-nin Baş Katibi Həmid əl-Qabid Azərbaycana səfər etdi. Səfər zamanı o, Azərbaycanın İslam Konfransı Təşkilatı ilə əlaqələri və bu təşkilatda tutduğu yer haqqında Azərbaycan Prezidenti Heydər Əliyevlə müzakirələr apardı. Həmid əl-Qabid IKT-nin Ennənistanın Azərbaycana qarşı təcavüzünü pislədiyini və münaqişənin dinc siyasi vasitələrlə həll olunmasına tərəfdar olduğunu bildirdi".

1994-cü il dekabrın 13-14-də Mərakeş Krallığının Kasablanka şəhərində İKT-yə üzv olan ölkələrin dövlət və hökumət başçılarının 7-ci Zirvə toplantısı Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir Azərbaycanın üzv dövlət kimi ilk dəfə iştirak etdiyi Zirvə Konfransında çıxış edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dərin məzmunlu çıxışı, keçirdiyi görüşləri ilə ölkəmizin bu təşkilat daxilində mövqeyini xeyli möhkəmləndirdi[12].

Konfransda Azərbaycanla əlaqədar iki qətnamə qəbul edildi. Ermənistan-Azərbaycan münaqişəsinə dair qəbul edilən qətnamədə Ermənistanın Azərbaycana təcavüzü kəskin şəkildə pislənmiş, bu təcavüzə son qoyulması tələb olunmuş və zor gücünə ərazi ələ keçirilməsinin yolverilməz olduğu bildirilməklə, ilk dəfə olaraq Ermənistan beynəlxalq səviyyədə təcavüzkar kimi qiymətləndirilmişdir.

Konfransda qəbul edilən ikinci qətnamədə Ermənistanın hərbi təcavüzü nəticəsində bir milyondan artıq qaçqın olması ilə əlaqədar Azərbaycana iqtisadi və humanitar yardım göstərilməsi öz əksini tapdı. Konfransın qəbul etdiyi Yekun bəyannaməyə isə Ermənistanın Azərbaycana təcavüzü haqqında geniş bir bölmə daxil edildi[13].

İKT-yə üzv olan ölkələrin xarici işlər nazirlərinin İndoneziyanın Cakarta şəhərində 1996-cı il dekabrın 9-13-də keçirilən 24-cü konfransında da Azərbaycanla bağlı bir neçə qətnamə qəbul edilmişdir[14]. Ölkə rəhbərliyinin apardığı məqsədyönlü fəaliyyət nəticəsində 1993-cü ildən başlayaraq İKT konfranslarının Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar qəbul etdiyi qətnamələrin adı dəyişdirilərək, "Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında" qətnamə əvəzinə, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" qətnamə adlandırılmağa başlandı.

Əvvəlki qətnamələrdə olduğu kimi, Ermənistanın təcavüzkarlığını pisləyən bu qətnamədə də BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi məlum qətnamələrin yerinə yetirilməsi, Azərbaycanın işğal olunmuş ərazilərindən o cümlədən Şuşa və Laçından Ermənistan silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılması təkidlə tələb edilirdi.

Cakarta konfransında bu qətnamədən başqa Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında başqa bir qətnamə də qəbul edildi. Konfransın Yekun sənədində isə Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması prinsipləri - Azərbaycanın ərazi bütövlüyü, Azərbaycan Respublikası tərkibində Dağlıq Qarabağa muxtariyyət verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunması prinsipləri barədə Lissabon sammitində qəbul edilmiş ATƏT sədrinin bəyanatının yekdilliklə müdafiə olunması haqqında maddə öz əksini tapdı[15].

1997-ci il martın 23-də İKT-yə üzv olan ölkələrin dövlət və hökumət başçılarının İslamabadda ölkənin müstəqilliyinin 50-illiyinə həsr edilmiş növbədənkənar toplantısında qəbul edilmiş bəyannamənin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən 10-cu maddəsində Ermənistan tərəfindən ölkəmizə qarşı

edilən təcavüz qətiyyətlə pislənmiş, işğal edilmiş ərazilərin azad olunması tələb olunmuşdur. Bundan əlavə, 1997-ci il oktyabrın 4-də BMT Baş Məclisinin 52-ci sessiyası çərçivəsində BMT iqamətgahında keçirilmiş İKT xarici işlər nazirlərinin əlaqələndirmə toplantısının Yekun Bəyanatında İslam dünyasının digər problemləri ilə yanaşı, Ermənistanın Azərbaycana qarşı təcavüzü məsələsi də öz əksini tapdı[16].

İKT ölkələrinin dövlət və hökumət başçılarının İran İslam Respublikasının Tehran şəhərində 1997-ci il dekabrın 8-11-də keçirilən 8-ci Zirvə konfransı əvvəlki qətnamələrin müddəalarına istinad edərək Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında daha bir qətnamə qəbul etdi .

Tehran Zirvə konfransında qəbul edilən bu qətnamə Cakarta konfransında qəbul edilmiş qətnaməni bir daha təsdiq etdi. Bundan başqa, İKT-nin 8-ci Zirvə toplantısında qəbul edilmiş Tehran bəyannaməsinin 8-ci maddəsi də Azərbaycana aid idi. Burada deyilirdi ki, İKT üzvü olan dövlətlər Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü faktını bir daha təsdiq edir və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmasına, münaqişənin tezliklə və sülh yolu ilə həll edilməsinə çağırırlar.

Tehran Zirvə toplantısının Yekun bəyannaməsinin 56-cı maddəsində isə göstərilirdi ki, konfrans Ermənistan və Azərbaycan arasında münaqişənin nizama salınmasına dair ATƏT sədrinin 1996-cı il Lissabon sammitində qəbul edilmiş bəyanatında ifadə olunmuş üç prinsipə tərəfdar olduğunu bir daha təsdiq edir və bu addımı Azərbaycana qarşı təcavüzün ciddi nəticələrinin dərhal aradan qaldırılmasının təminatı kimi qiymətləndirir. Beləliklə, Tehranda qəbul edilən sənədlərdə Azərbaycanın mənafeyi bütünlüklə müdafiə olundu[18].

Azərbaycan Prezidenti Heydər Əliyev Tehran Zirvə konfransındakı nitqində İKT-nin müsəlman dünyasında və beynəlxalq aləmdə apardığı işlərə böyük əhəmiyyət verərək üzv dövlətləri fəal əməkdaşlıq etməyə, müsəlman ölkələrində davam edən münaqişələrin sülh yolu ilə həllində, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında, eləcə də sabit inkişafa nail olunmasında əməkdaşlığın daha da artırılmasının zəruriliyini qeyd etmişdir[19]. Bununla yanaşı, Azərbaycanın dövlət başçısı İKT rəhbərliyinə və üzv dövlətlərin başçılarına təşkilatın yüksək səviyyəli toplantılarında Ermənistanın təcavüzkar siyasətini pisləyərək, ədalətli qərarlar qəbul etdiklərinə görə təşəkkürünü bildirmişdir.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin apardığı səmərəli danışıqlar və məqsədyönlü fəaliyyəti nəticəsində İKT dövlət və hökumət başçılarının 1994-cü ildə Kasablankada keçirilmiş 7-ci Konfransının qəbul etdiyi qətnamənin adı 1997-ci ildə Tehranda keçirilən 8-ci Konfransda dəyişdirilərək "Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münaqişə haqqında" qətnamə əvəzinə "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" qətnamə adlandırıldı.

İKT-nin xarici işlər nazirlərinin 1998-ci il martın 15-17-də Qətər dövlətinin paytaxtı Dohada keçirilən 25-ci konfransında Tehran Zirvə toplantısında qəbul

olunmuş qətnaməyə Azərbaycan tərəfinin etdiyi yeni düzəliş və əlavələr qəbul edilmiş qətnamədə tam şəkildə öz əksini tapdı. Konfrans bir daha Ermənistanın təcavüzkar siyasətini pisləməklə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmət etməyə çağırmışdır.

Bundan əlavə, konfransda "Azərbaycan Respublikasına maliyyə və iqtisadi yardım haqqında" qəbul edilmiş qətnamədə bütün üzv dövlətlərə, islam institutlarına və beynəlxalq təşkilatlara Azərbaycana iqtisadi və humanitar yardım göstərilməsi üçün müraciət edilmişdir. Kofnransın Yekun Bəyanatında isə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair bənd öz əksini tapdı.

1999-cu il iyunun 28-dən iyulun 1-dək Burkin Faso Respublikasının Uaqaduquda keçirilmiş İKT xarici işlər nazirlərinin 26

cı konfransı Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı 3 mühüm qətnamə qəbul etdi:

1."Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında";

2."Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında";

3."Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağılması haqqında" .

Azərbaycanın maraqlarına tam şəkildə uyğun olan və ölkəmizin ədalətli mövqeyini beynəlxalq səviyyədə dəstəkləyən həmin sənədlər İKT-nin üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 2000-ci il noyabrın 12-13-do Dohada keçirilən Zirvə toplantısında bir daha təsdiq edilərək qəbul olundu[20]. İKT-nin Zirvə toplantısında ilk dəfə olaraq Ermənistanın təcavüzü nəticəsində ölkəmizin tarix və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması ilə əlaqədar qətnamənin qəbul edilməsi çox zəruri və təqdirəlayiqdir.

Ümumiyyətlə, İslam Konfransı Təşkilatı çərçivəsində Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar qəbul edilmiş sənədlər bu təşkilatın müntəzəm keçirdiyi toplantılarda hər dəfə Azərbaycan tərəfinin təklifi ilə yeni bəndlər əlavə edilərək xeyli təkmilləşdirilmişdir. Belə ki, İKT xarici işlər nazirlərinin Kuala-Lumpur (2000), Bamako (2001), Xartum (2002), Tehran (2003), İstanbul (2004), Səna (2005), Bakı (2006), İslamabad (2007), Kampala (2008), Dəməşq (2009), eləcə də İKT-nin üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Putracaya (2003) və Dakarda (2008) keçirilən növbəti zirvə toplantılarında Azərbaycanla əlaqədar çox mühüm əhəmiyyət kəsb edən sənədlər qəbul edilmişdir .

Son illər Azərbaycanın İKT ilə münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Heç şübhəsiz ki, təşkilata üzvlüyün ilk illərində Ermənistanın təcavüzünə məruz qalan Azərbaycanın xarici siyasətinin əsas məqsədi bu işğalın

səbəb və məqsədlərinin, onun ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı olmuşsa da, İKT ilə əməkdaşlıq təkcə bu problemin həlli üçün siyasi sənədlərin qəbul edilməsi ilə məhdudlaşdırılmamış, çoxşaxəli, qarşılıqlı maraq əsasında əməkdaşlıq əlaqələri genişləndirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci ilin dekabrında İKT-nin Məkkədə keçirilmiş 3-cü fövqəladə Zirvə görüşündə iştirakı, eləcə də dövlət başçısının təşəbbüsü ilə 2006-cı il iyunun 19-21-də İKT xarici işlər nazirlərinin növbəti 33-cü konfransının Bakıda keçirilməsi Azərbaycanın bu təşkilatla əlaqələrinin inkişafında mühüm rol oynamışdır.

2006-cı il sentyabrın 11-də İKT-nin üzvü olan dövlətlərin turizm nazirlərinin V konfransı, 2007-ci il aprelin 26-da "Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında KİV-nin rolu" mövzusunda beynəlxalq konfrans, 2008-ci il iyunun 10-11-də Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum, 2008-ci il oktyabrın 6-8-də İslam ölkələrinin ali təhsil və elm nazirlərinin IV konfransı, 2009-cu il aprelin 21-22-də İKT-nin üzvü olan ölkələrin hüquq mühafizə orqanlarının rəhbərlərinin konfransı, 2009-cu il oktyabrın 13-15-də İKT-nin üzvü olan ölkələrin mədəniyyət nazirlərinin VI konfransı və digər tədbirlərin Bakıda keçirilməsi Azərbaycanın İslam Konfransı Təşkilatı ilə əlaqələrinin yüksək səviyyədə olması və bu təşkilatla əməkdaşlığın genişlənməsini təsdiq edən amillərdəndir .

İslam Konfransı Təşkilatının 2008-ci il martın 13-14-də Seneqalın Dakar şəhərində keçirilmiş 11-ci Zirvə konfransı, həmin il iyunun 18-20-də Uqandanın Kampala şəhərində İKT xarici işlər nazirlərinin 35-ci konfransı, eləcə də 2009-cu il mayın 23-25-də Suriyanın Dəməşq şəhərində keçirilmiş İKT xarici işlər nazirlərinin 36-cı konfransı Azərbaycanın maraqlarına tam uyğun olan qətnamələr qəbul etmiş, qəbul edilən sənədlərdə üzv dövlətlər bir daha erməni təcavüzünü qətiyyətlə pisləmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd - şərtsiz çıxarmasını tələb etmişlər[23].

Bununla yanaşı, İKT-nin Dakarda keçirilən 11-ci Zirvə konfransında təşkilatın yeni Nizamnaməsi qəbul edilmişdir. İKT-nin bu əsas sənədinin məqsəd və məramları bölməsində Azərbaycan nümayəndə heyətinin fəaliyyəti nəticəsində ərazisi işğal altında olan dövlətlərin öz ərazi bütövlüyünü bərpa etməsi hüququnun üzv dövlətlər tərəfindən birmənalı dəstəklənməsi barədə müddəanın təsbit edilməsi ölkəmiz üçün müstəsna əhəmiyyətə malikdir. Təsadüfi deyildir ki, Dakar toplantısının keçirildiyi günlərdə, yəni 2008-ci il martın 14-də BMT Baş Məclisinin 62-ci sessiyasında Azərbaycan nümayəndə heyətinin təqdim etdiyi "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamənin qəbul edilməsində İKT-yə üzv olan dövlətlərin mövqeyi mühüm rol oynamışdır.

Bütün bunlar onu göstərir ki, Azərbaycanı İslam Konfransı təşkilatının üzvü olan ölkələrlə yalnız milli mənəvi dəyərlər deyil, beynəlxalq siyasi arenada birgə

fəaliyyət də ciddi şəkildə bağlayır. İslam Konfransı Təşkilatı və onun üzvü olan dövlətlər Azərbaycanın haqq işinin tərəfdarı kimi benyəlxalq səviyyədə Ermənistan-Azərbaycan münaqişəsinin ədalətlə, yəni sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü prinsipləri əsasında həll edilməsinə dəstək verilməklə təşkilatın Nizamnaməsində nəzərdə tutulmuş islami həmrəylik ideyasına sadiqdir. Onu da qeyd etmək vacibdir ki, İslam Kofnransı Təşkilatı Ermənistanı birmənalı şəkildə təcavüzkar adlandıran ilk və yeganə beynəlxalq təşkilatdır.

[1] Political Handbook of the World: 1995-1996. New York, CSA Publications State University of New York. Binghamton. 1996, p. 1175

[2] Yenə orada. s. 1176

[3] İbayev V. İslam Konfransı Təşkilatı. Bakı, 1998, s. 30

[4] Yenə orada. s. 30

[5] Heydər Əliyev və Şərq. Beş clddə. /Tərtibçilər: Q. Allahverdiyev və V.Sultanzadə/. V cild, Bakı, 2005, s. 327

[6] İbayev V. İslam Kontransı Təşkilatı. Bakı, 1998, s. 31

[7] "Xalq qəzeti", 7 may 1993-cü il

[8] Heydər Əliyev və Şərq. Beş cilddə. /Tərtibçilər: Q. Allahverdiyev və V.Sultanzadə/. V cild, Bakı, 2005, s. 328

[9] İbayev V. İslam Konfransı Təşkilatı. Bakı, 1998, s. 33

[10] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s. 94

[11] "Azərbaycan" qəzeti, 26 noyabr 1994-cü il

[12] Шукюров И. ОИК: Армения признана агрессором. Баку. 1995. с. 12

[13] İbayev V. İslam Konfransı Təşkilatı. Bakı, 1998, s. 34-35

[14] Əhmədov E.Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s. 96, 135-137

[15] Yenə orada, s. 97

[16] Heydər Əliyev və Şərq. Beş cilddə. /Tərtibçilər. Q. Allahverdiyev və V. Sultanzadə/. V cild, Bakı, 2005, s. 330-331

[17] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s. 98

[18] "Azərbaycan" qəzeti, 16 dekabr 1997-ci il

[19] "Azərbaycan" qəzeti, 13 dekabr 1997-ci il

[20] Heydər Əliyev və Şərq. Beş cilddə. /Tərtibçilər: Q. Allahverdiyev və V. Sultanzadə/. V cild, Bakı, 2005, s. 337

[21] Əhmədov E. İslam Konfransı Təşkilatının yaradılmasından 40 il, Azərbaycanın bu beynəlxalq təşkilata qəbul olmasından 18 il keçir. - "Azərbaycan" qəzeti, 8 yanvar 2010-cu il

[22] Əhmədov E. İslam Konfransı Təşkilatının yaradılmasından 40 il. Azərbaycanın bu beynəlxalq təşkilata qəbul olmasından 18 il keçir.

[23] "Azərbaycan" qəzeti, 8 yanvar 2010-cu il
[24] Yenə orada.

**Ədalət MUSTAFA YEV**

## XX ƏSRİN 90-Cİ İLLƏRİNDƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNDƏ RUSİYANIN MÖVQEYİ

Ermənilərin Cənubi Qafqaza köçürülməsi ilə başlamış antiazərbaycan siyasətinin əsas xəttinin dəyişməməsi təəssüf doğurur. Azərbaycan torpaqları hesabına yaratdıqları bufer dövləti qorumağa, ərazisini genişləndirməyə xidmət etmək, eyni zamanda münaqişəli məsələlərdə vasitəçilik missiyasında "fəal olmaq" Rusiya dövlətinin ənənəsinə çevrilmişdir. "Unudulmuş soyqırım" kitabında tarixi həqiqəti dünya ictimaiyyətinin diqqətinə çatdırmağa cəhd edən Feliks Tserdvadze qeyd edirdi ki, ermənilər Kaliforniyaya, Argentinaya necə gəlmədilərsə, eləcə də Qafqaza gəlmədirlər [Феликс Церцвадзе. Забытый Геноцид. Nyu-york: 2005, s.34]. İşğalçı dövlətin beynəlxalq səviyyədə dəstəklənməsi, aparıcı təşkilatların qətnamə və qərarlarına məhəl qoyulmaması, böyük dövlətlərin ikili siyasətinin nəticəsidir.

XX əsrin 90-cı illərinin əvvəllərində Xüsusi İdarə Komitəsi (XİK), Təşkilat Komitəsi (TK) yaradan SSRİ hökuməti vəziyyəti daha da ağırlaşdıraraq, münaqişənin həlli məsələsinin beynəlxalq səviyyəyə qalxmasında Ermənistana yardımçı oldu. XİK-in "fəaliyyət göstərdiyi müddətdə DQMV-də vəziyyət daha da kəskinləşdi. Komitənin sədri A.İ.Volski vəziyyəti sabitləşdirmək deyil, əksinə, gərginləşdirmək siyasəti yürütdü" [Əli Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: 2005, s. 719]. Ermənilərin "təşəbbüsü", Rusiyanın himayədarlığı ilə başlayan Qarabağ müharibəsinə böyük dövlətlərin ilk dövrlərdə münasibəti də fərqli oldu. Bu münasibətləri son nəticədə təhlil edən müəlliflər haqlı olaraq qeyd edirlər ki, "erməni təbliğatının "əsirliyi"nə düşən və onların diaspor-lobbilərinin "girovuna" çevrilən Qərb diplomatiyası" Qarabağ probleminə ikili siyasətlə yanaşırlar [İsmayıl Musa. Azərbaycanın xarici siyasəti. Bakı: 2005, S.478]. İkili yanaşma siyasəti, eyni zamanda qonşu dövlətlərdən də yan keçməmişdir. 1992-ci ilin mayında Azərbaycan və Ermənistan rəsmilərinin İranın vasitəçiliyi ilə Tehranda görüşü zamanı Şuşa ermənilər tərəfindən işğal olundu. Özünü bölgədə güc sahibi kimi göstərməyə çalışan İslam Respublikasından Ermənistan Respublikasına kəskin etirazın şahidi olmadıq və hətta İran tərəfindən Ermənistana yardımlar da dayandırılmadı. Baxmayaraq ki, dünyada gedən xristian həmrəyliyinin açıq-aşkar vüsət aldığı bir vaxtda İslam dövləti olan İran açıq işğala məruz qalan Azərbaycan Respublikasına dəstək (qaçqın əhaliyə yardımından başqa) vermədi. Beynəlxalq səviyyədə dəstəklənən

erməni lobbisi və kilsəsinin xidmətləri sayəsində dünyada antitürk əhval-ruhiyyəli təbliğatlar davam etdirildi.

Azərbaycanda siyasi vəziyyəti gərginləşdirməkdə maraqlı olan beynəlxalq güclər ermənilərin hərbi təcavüzünə göz yummuş, onlara hərbi və mənəvi dəstəyi heç zaman dayandırmamışlar. 1992-ci ilin əvvəlindən Qarabağ münaqişəsi söz sahibi olan təşkilatların və dövlətlərin diqqət mərkəzinə gətirildi. Rayonlarımız bir-bir işğal edildikcə BMT 822, 853, 874, 884 saylı qətnamə və qərarlar qəbul etdi və indiyədək verilən qərarlar həllini tapmayıb. Münaqişənin həll olunmasını ləngidən səbəb təkcə onun mürəkkəbliyi ilə bağlı deyil, eyni zamanda öz mənafeləri üçün yararlanan güclərin apardığı ikili siyasətdir.

Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını "arayan" dövlətlərdən biri olan Rusiyanın öz "forpostu" ilə 25 illik hərbi müqaviləni bağlaması faktı ermənilərin arxayınlığı üçün şərait yaratmışdır. Ermənistanda yerləşdirilmiş 7-ci ordunun daim təhlükə mənbəyi olması və münaqişə zamanı bitərəf qalacağı şübhə doğurur. A. M. Şahnazarovun 2009-cu ildə Moskvada çıxan, yalan və iftiralarla dolu "Dağlıq Qarabağ: Yalana qarşı faktlar" kitabınıda erməni ordusunun gücünün həddən çox şişirdilməsi, Azərbaycanı aşağılayan ifadələr işlətməsi, supergüclərin onlara hərbi dəstəyini inkar etməsi kimi fikirlər öz əksini tapır. Şahnazarova görə, əgər "Azərbaycan Respublikası müharibəni Qarabağ erməniləri və ya ümumiyyətlə ermənilərlə deyil, rus ordusu ilə aparırsa, onda rusların itkisi barədə siyahı hardadı" deyərək həqiqəti gizlətməyə, Rusiya Federasiyası tərəfindən verilən dəstəyi, gücü inkar etməyə çalışır. A.M.Şahnazarovun yəqin ki, 1993-cü ildə Azərbaycan ordusuna qarşı təxribatlarda iştirak edən və ömürlük həbs cəzasına məhkum edilmiş 6 nəfərdən ibarət olan "Simeonun qrupu" haqqında məlumatı var. Eyni zamanda bütün vasitələrlə (hərbi kəşfiyyat, təxribat, ələ alma, döyüş sursatı və müasir texnika ilə təmin etmək və s.) Ermənistan Respublikasına kömək etmək "dəstək" deyilmi? Dağlıq Qarabağ Muxtar Vilayətində yaradılmış XİK kimi qurumların fəaliyyəti Azərbaycanın hökumət rəsmilərinin hadisələrə müdaxiləsini heçə endirmiş, XİK-in səlahiyyətli rəhbəri A.Volski fəaliyyəti ilə açıq-aşkar erməniləri müdafiə etmişdir ki, bu da Ermənistana edilən ən vacib yardımlardan biri idi. Münaqişənin "nizamlanması" məqsədilə yaradılmış qurumun (XİK) rəhbəri Volski haqqında Dağlıq Qarabağ Muxtar Vilayətində qaçqınlarla iş üzrə komissiyanın sədri Ə.Orucovun fikirləri belədir: "...Azərbaycan

kəndlərinin birinin təhlükəsizliyini təmin etmək məqsədilə həmin kənddə bir qrup milis işçisi yerləşdirmişdik. Sonra xəbər tutduq ki, Volskinin tapşırığı ilə əsgərlər milis işçilərini oradan çıxarıblar ...ümumiyyətlə, Volski vəziyyəti sabitləşdirmək yollarından birini onda görürdü ki, azərbaycanlılar buranı tərk etsin" ["Yeni fikir" qəzeti N-7, 29 dekabr [1981-ci il]. Məhz Rusiyanın siyasətini həyata keçirən Volskinin "fəaliyyəti" və cinayətkarları müdafiə etməsi ermənilərdə arxayınlıq yaratmış, XİK-nin ləğvindən sonra da qətl və qarətlərin sayını artıraraq silsilə terror törətməkdən çəkinməmişlər.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Rusiyanın beynəlxalq təşkilatlardakı fəaliyyətini təhlil edəndə, onun hadisələrə məsələnin ədalətli həllindən çox, qərəzli mövqedən yanaşması aydın görünür. Tarixi Azərbaycan torpaqları olan İrəvanda, Zəngəzurda, Qarabağda ermənilərin yerləşdirilməsi, erməniləşdirmə siyasəti Rusiyanın və Qərb dövlətlərinin marağında olmuş və onların köməyi nəticəsində baş tutmuşdursa, həmin dövlətlər tərəfindən rəhbərlik edilən bu günkü beynəlxalq təşkilatlardan nə gözləmək olar? Göründüyü kimi Rusiyanın beynəlxalq təşkilatlarda Qarabağla bağlı tutduğu mövqe birtərəflidir və Azərbaycanın ziyanınadır.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində təkbaşına fəaliyyətə üstünlük verən Rusiya Federasiyası tərəfindən 1994-cü il mayın 16-da Moskvada Rusiya, Azərbaycan və Ermənistanın müdafiə nazirlərinin görüşündə cəbhədə atəşin tamamilə dayandırılması kimi məsələlərin müzakirəsi narazılıqla qarşılanır. ATƏM-in sədri Yan Eliasson bu görüşə təşkilatın Minsk qrupunun sədr müavini Matias Mosberqin və bu təşkilatın hərbi müşahidəçilərinin rəhbəri general Berqin danışıqlara buraxılmamasını qəbul edilməz hesab edərək pisləmişdir ["Azadlıq" qəzeti, №58, 4 iyun 1994-cü il]. Münaqişə tərəflərinin danışıqlara cəlb edilməsi və atəşkəs haqqında razılığa gəlinməsi vaxtı supergücləri qane edirdi. Belə ki, atəşkəs Azərbaycan torpaqlarının 20 faizinin ermənilərin əlinə keçməsindən daha əvvəl, 1992-ci ildə imzalana bilərdi. Çünki, o zaman yaranmış şərait buna imkan verirdi və Dağlıq Qarabağın ermənilərdən təmizlənmək təhlükəsi yarandığına görə Azərbaycana müraciət etmişdilər (Aşot Belayanın rəhbərliyi altında 64 nəfər deputatın müraciəti). 1994-cü il atəşkəsə qədər olan bir dövr ərzində ermənilərin də böyük itki verməsi və Azərbaycan torpaqlarının bir hissəsinin işğalından sonra dayandırılmış atəşkəsin əks tərəfə daha çox fayda verməsi Rusiyanın marağında olmuşdur. Qeyd etmək yerinə düşər ki, Ermənistanda ictimai-siyasi gərginliyin artdığını

nəzərə alan şimal qonşumuz atəşin dayandırılması üçün daha çox səy göstərmişdir.

Rusiya Federasiyası özlüyündə münaqişənin həlli məsələsində təkbaşına səy göstərmək üçün bütün mümkün variantlardan istifadə etməyə çalışmışdır. Həmçinin Rusiyanın köməyi nəticəsində İran İslam Respublikasının önə çıxması və münaqişənin həllinə təsir etmə planları olsa da ABŞ-ın dolayısı ilə təzyiqi nəticəsində bu baş tutmamışdır. ABŞ-ın Azərbaycanda səfiri olmuş Riçard Kozlariçin fikrinə görə, Türkiyə münaqişədə iştirak edə bilər, İran isə ATƏM-in üzvü olmadığına görə ayrı-ayrılıqda ikili danışıq aparmaq effekt verməz ["Azadlıq" qəzeti, №63 (430), 12 iyul 1994-cü il]. Türkiyənin Silahlı Qüvvələrinin Baş qərargah rəisi Doğan Güreş Bakıda olarkən kömək üçün (sülhməramlı missiya şəklində ) hərbi kontingent göndərmək fikri şimal qonşumuz Rusiya tərəfindən çox mənfi qarşılandı. Rusiya Federasiyasının müdafiə naziri P. Qraçovun müxtəlif vasitələrlə açıq etirazı Dağlıq Qarabağ münaqişəsinin həllinə Türkiyənin öz

töhfələrini verməyə imkan verməmişdir. Rusiya üstünlüyü tam ələ almışdır və artıq, 1994-cü ildən bir çox sazişlərin həyata keçirilməsində bəzi məqamlarda təkbaşına səy göstərirdi.

1995-ci il fevralın 6-dan 11-dək Moskvada Azərbaycan, Ermənistan və Dağlıq Qarabağ nümayəndələri arasında başlayan danışıqlarda Dağlıq Qarabağ ermənilərinin tərəf kimi tanınması üçün Azərbaycana böyük təzyiqlər göstərildi. Ermənistan tərəfi istəyirdi ki, danışıqlarda yalnız Dağlıq Qarabağın erməni icması, Azərbaycan və Ermənistan iştirak etsin. Eyni zamanda Laçın dəhlizinin ermənilərin əlində saxlanması təklifi müzakirə obyekti sayılırdı. Rusiya kimi dövlətlər bu problemin beynəlxalq qanunlara uyğun həll edilməsinin tərəfdən olduğunu bildirsə də, əslində onlar bu müddətdə öz maraqlarından kənara çıxmayıblar. Ermənistanın hərbi cəhətdən güclənməsi üçün bütün lazımi köməkliklərin göstərilməsi və sərbəst danışıqlar aparmağa icazə verilməməsi bir daha bu dövlətdən əlində oyuncaq kimi istifadə edən Rusiya və digər qərb dövlətlərinin beynəlxalq qanunlar adı altında "sülhməramlı" siyasətinin mahiyyəti görünür.

Münaqişənin iki dövlət arasında həll edilməli olmasını nəzərə alan Azərbaycan rəhbərliyi dəfələrlə səy göstərsə də, əks tərəfin heç bir müstəqil qərar qəbul etmə gücünün olmaması vəziyyətin bu həddə gəlib çıxmasına səbəb olmuşdur. Supergücün birtərəfli mövqeyini görən Azərbaycan rəhbərliyi də keçirilən görüşlər zamanı "atəşin dayandırılması rejiminin gələcəkdə də qorunub saxlanmasının vacibliyini

qeyd" edirdi ["Günay" qəzeti, № 20, 15 mart 1995-ci il]. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında müəyyən razılığa gəlmək üçün Azərbaycan tərəfindən səy göstərilmişdir. Bəzi məqamlarda kompromisə getmək, ərazi mübadiləsi, münaqişənin mərhələli həlli kimi anlaşmalar olmuşdur. Danışıqların reallaşa biləcəyi bir vaxtda-1999-cu ilin oktyabrında Ermənistan parlamentində baş verən terror aktı, məhz, bu anlaşmanın qarşısını aldı.

Münaqişə boyunca köhnə ittifaqı bərpa etməyə çalışan şimal qonşumuz Müstəqil Dövlətlər Birliyi (MDB) adı altında niyyətini gerçəkləşdirməyə çalışmışdır. 1993-cü il mayın 14-də keçmiş SSRİ ərazisində "iqtisadi ittifaq"[1] yaratmaq ideyası altında müşavirə keçirilmişdir. Rusiya Federasiyasının prezidenti Boris Yeltsin sabiq müttəfiq respublikalara iqtisadi cəhətdən birləşməyi təklif etmişdir. Moskvada baş tutmuş bu görüşdə Azərbaycan tərəfinin müşahidəçi kimi iştirak etməsinə baxmayaraq nümayəndə heyətinin rəhbəri olmuş Vahid Əhmədovun fikirlərinə və gəldiyi qənaətə görə burada əsas məqsəd "İqtisadi ittfaq" adı altında keçmiş SSRİ-ni bərpa etməyə yönəlmişdir ["7 gün" qəzeti, №17, 1993-cü il]. Azərbaycan-Rusiya Federasiyası arasındakı münasibətlərin 1993-cü ildən sonra dəyişməsi işğal ərazilərində olan torpaqların azad olunması barədə apardığı siyasətin müsbət tərəfi görünmədi. Dünyada gedən geosiyasi dəyişikliklərdən

yararlanaraq iqtisadi layihələrin həyata keçirilməsi və münaqişələrdən istifadə edib irimiqyaslı layihələrin gerçəkləşməsində maraqlı olan dövlətlər öz fəaliyyətlərini daha da gücləndirirdilər. Qeyd etmək yerinə düşər ki, Şimali Qafqazda baş verən etnik münaqişələrin Azərbaycan-Rusiya münasibətlərinə təsiri az olmamışdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında vasitəçilik missiyasının rəhbəri olmuş V.Kazimirov Qarabağın dağlıq ərazisini mübahisəli, problemli ərazi kimi təqdim edir. Onun fikrinə görə, Dağlıq Qarabağ ərazisi uğrunda gedən mübahisələrdə hər iki tərəf özünü haqlı sayıb əks tərəflə hesablaşmır. V.Kazimirov bu ərazinin kimə məxsusluğunu doğrudanmı bilmir? Qarabağ xanlığı və Çar Rusiyası arasında bağlanmış müqavilənin tarixi o qədər də uzaq keçmişdə deyil. Ermənilərin Qarabağa kütləvi köçürülməsinin tarixi də məlumdur (Ağdərə (keçmiş Mardakert) rayonu ərazisində Qarabağa gəlmələrinin 150 illiyi münasibətilə 1978-ci ildə ucaldılan abidə-M.Ə). Kazimirova görə, tarixi mübahisəli olan ərazinin statusunu dəqiqləşdirmək və münaqişəni sülh yolu ilə həllini asanlaşdırmaq kompromis variantın seçilməsindən asılıdır [В.Н.Казкмиров. Мир Карабаху. Moskva: 2009, s.211].

Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində uzun müddətdir irəliləyişin olmaması, sadəcə bəyannamələrlə kifayətlənmək artıq ənənə şəklini almışdır. Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsinə yanaşmada Rusiya və Qərb dövlətlərinin oxşar fikirlər səsləndirməsi də təsadüfi deyildir. Son illər baş tutmuş Mayındof, Kişinyov, Soçi və sairə görüşlərin keçirilməsi və qəbul edilmiş bəyannamələrin müsbət tərəflərinin olduğunu etiraf etsək də məsələnin həlli üçün səy göstərən dövlətlər əsas hədəfdən yayınırlar. Vasitəçilik missiyasını həyata keçirən ATƏT kimi nüfuzlu bir təşkilatın hələ də Ermənistanı işğalçı kimi tanımaması acı həqiqətdir. Avropa Şurası Parlament Assambleyasının prezidentinin mandatının başa çatması zamanı mətbuat konfransında APA-nın sualını cavablandıran Luis Maria de Puçun dedikləri: "...Mən münaqişənin həllində konfrantasiya, güc yolunu tamamilə istisna edirəm. Bu Avropa Şurasının da mövqeyidir. Münaqişə sülh yolu ilə həll edilməlidir" ["Ədalət" qəzeti, №14, 26 yanvar 2010-cu il]. Münaqişənin həllinə bu məntiqlə yanaşan supergüclərin niyyətinin kimə xidmət etməsi aydın görünür.

Azərbaycan torpaqlarını hissə-hissə işğala məruz qoyaraq, müəyyən fasilələrlə barışığa meylli kimi görünən erməni tərəfi xalqımızın humanistliyindən daim yararlanmışdır. Fikrimi professor Ş. Hüseynovun müsahibəsində Ömər Faiq Nemanzadədən gətirdiyi sitatla bitirmək istəyirəm: "...ermənilər bizi öz təbii düşməni hesab edirlər. Təbii düşmənlə isə düşmən kimi rəftar etməyi bacarmalısan. Erməni milli faşizmi bizi bir xalq kimi tanımaq istəmir, bizi məhv etməyi qarşısına məqsəd qoyub. Bunu heç vaxt-hətta sülh zamanı belə unutmamalıyıq. Odur ki, hər bir azərbaycanlı doğularkən onun qulağına həm də erməni zərbəsindən sayıqlıq duası oxunmalıdır: erməni səni təbii düşmənin sayır" ["Odlar yurdu" qəzeti, noyabr 1991-ci il, № Luis Maria de Puçun 21 ].

**Əli ABASOV**

# ПРОБЛЕМА РАЗРЕШЕНИЯ КОНФЛИКТОВ ЮЖНОГО КАВКАЗА: 2008 - 2010 ГГ.

Последние два года сыграли исключительно важную роль в динамике конфликтов Южного Кавказа. Основанием для такого утверждения (при том что каждый год или период противостояния имели свое определенное значение) является специфика мировых событий, которые после беспрецедентного разрешения косовского конфликта, вошли в противоречия с большинством принципов международного права и практикой ведущих стран мира. Хотя Косово пока еще не признанно большинством стран мира и вопрос о независимости данной территории находится на рассмотрении Международного Суда, сам по себе этот факт уже привел к драматическим событиям, начавшимися грузино-российской войной и завершившимися отторжением автономий Грузии, независимость которых по сути дела никто не признал, кроме России, в свое время подавившей стремление Чечни к независимости.

При выработке предложений ООН по разрешению косовского конфликта группа Ахтисаари остановилась на варианте независимости. Решение группы по Косово во многих регионах сепаратизма породило надежду, что схожим образом будут решены все существующие конфликты. Однако, сразу же после этих событий основными центрами мира, занимающимися проблемой карабахского конфликта, было заявлено, что его решение по примеру Косово и по той же модели невозможно, так как по своей природе это совершенно другой конфликт, отличаются стороны, в него вовлеченные, следовательно, должен быть выработан иной подход.

Вопрос о территориальной целостности Азербайджана был поднят на заседании Генеральной ассамблеи ООН, и большинство стран проголосовало за его территориальную целостность. Следовательно, вряд ли международное сообщество проголосует за независимость Нагорного Карабаха, если этот вопрос не будет поставлен самим Азербайджаном.

Что касается вопроса о «противоречии» территориальной целостности и права наций на самоопределение, опытные эксперты не ставят вопроса: «что первично?». Эти два принципа не противоречат друг другу. Вопрос права наций на самоопределение обычно решается в рамках территориальной целостности и при поддержке свободы на самоопределение любой нации, проживающей на территории страны.

Однако на этом пути есть существенные препятствия. Очевидно, что цель России - удержать регион под контролем посредством контролируемых конфликтов. Стратегически это пагубный для России путь, который в

перспективе приведет к потере ее региона навсегда. Россия, выиграв войну, создала зацепку для удержания грузинских территорий под своим контролем на неопределенное время, однако США и ЕС использовали эти события для международного осуждения опасного прецедента силового разрешения сецессионных проблем без учета международного права.

И сегодня основной линией российской политики в карабахском вопросе является стремление быть, если и не единственным, то основным гарантом процесса урегулирования карабахского конфликта. Суть этой политики заключена в том, чтобы Москва вновь, как и во времена СССР, получила бы исключительные полномочия для влияния на конфликтующие стороны, имела бы «законный» повод для регулярного вмешательства в происходящие в регионе процессы. В этой связи, в случае подписания мирного договора между конфликтующими сторонами, Россия попытается, так же как в Абхазии и Южной Осетии, стать основным костяком миротворческого контингента войск в Нагорном Карабахе.

Как известно, переходный статус, обозначенный в Мадридских документах, предназначен для обеспечения безопасности всех жителей Нагорного Карабаха в ходе процесса разрешения конфликта. Но армяне стремятся перевести переходный статус в форму подготовки Карабаха к независимости, хотя Азербайджан заявляет, что переходный статус - это переходная ступень к высокой автономии в составе Азербайджана. Интересно отметить, что в преамбуле Мадридских принципов перечисляются требования обеспечения территориальной целостности, права на самоопределение народов и отказа от права применять силу.

Политический аспект проблемы затрагивает вопрос заинтересованности России и США после событий в Грузии решить карабахский конфликт.

Исходя из логики российской политики, разрешение конфликта не соответствует интересам России, которая в этом случае теряет механизмы влияния на регион, поэтому ей выгодно сохранение статус-кво, чтобы четко обозначить свое присутствие в регионе. Именно посредничество в разрешении конфликта дает России возможность держать руку на пульсе региона и чутко реагировать на любые угрозы своим интересам. С другой стороны, Россия пытается реанимировать свой основательно подпорченный имидж миротворца на международном уровне после событий в Грузии, в этой связи она может способствовать разрешению карабахского конфликта или хотя бы реанимировать прерванные переговоры (вспомним, инициативу Д. Медведева по встрече президентов АР и РА в Москве). В этом смысле России тяжело принимать решения, которые расходятся с интересами ее постоянного союзника на Южном Кавказе - Армения. Можно, вместе с тем, вспомнить, что в разное время Россия наказывала Армению, в тех случаях,

когда Ереван пытался выйти из-под российского контроля. Следовательно, если этого потребуют интересы России, могут быть приняты решения, формально выгодные Азербайджану.

Скорее всего, Россия все-таки попытается восстановить свой позитивный имидж и если реально начнет способствовать разрешению конфликта, в этом случае США, как сигнализируют дипломаты этой страны самого разного уровня, мешать ей в этом не будут. Если США и РФ договорятся по вопросу Карабаха, чтобы начать реально разрешать конфликт, тогда начнутся позитивные изменения. Пока же конфликт «заморожен» большей частью из-за того, что каждая из этих стран пытается удержать в сфере влияния не только Азербайджан и Армению, но и весь регион в целом.

Азербайджанская сторона выступает за освобождение на первом этапе семи районов от армянских вооруженных сил, возвращения на освобожденные территории, в том числе и в Нагорный Карабах азербайджанцев, которые были оттуда изгнаны. Стороны расходятся в вопросе проведения референдума по определению статуса НК. На столе переговоров несогласованными остаются несколько вопросов, в том числе по принципам территориальной целостности и права на самоопределение.

Конечно же, в референдуме, если он состоится, должны принимать участие представители обоих народов. Но очень может быть, что до референдума дело и не дойдет. Что будет найдена такая форма разрешения конфликта, которая устроит все стороны и международные организации. Как известно, страны Южного Кавказа включились в программу «Новое соседство» и исполняют в связи с этим специально принятые «Планы Действия», подписанные между ЕС и этими странами. В дальнейшем эта программа была дополнена так называемой «Восточной политикой», призванной ассоциировать страны Южного Кавказа с Европейским Союзом. В связи с усилением роли Европейского Союза в регионе, возможно, ЕС получит карт-бланш на патронаж процесса разрешения конфликта. Скорее всего, совместно будет найдена общая модель, которая устроит обе стороны.

Конституция Азербайджана - унитарной республики - дает возможность для существования государства в составе Азербайджана, ибо по Конституции 1995 года Нахчыванская республика - государство, и характер взаимоотношений одного государства с другим государством может быть определен как двусторонними, так и многосторонними переговорами. Главной задачей является обеспечение безопасности гражданских и экономических свобод населения Карабаха, недопущение войны, смерти и разрушения, при этом сама собой напрашивается демилитаризация региона и правовое оформление международных гарантий недопущения насилия какой-либо из сторон.

Почти два года нагорно-карабахский конфликт был завязан на турецко-армянских отношениях, которые динамично развиваясь, завершившись подписанием 10 октября 2009 года в Цюрихе армяно-турецких Протоколов. Однако 22 апреля текущего года президент РА Серж Саргсян заявил о приостановке процесса ратификации Протоколов, стремясь создать мнение, что Армения не прекращает процесс, а приостановила его до тех, пока турецкая сторона не будет готова идти вперед. Формально этот шаг Еревана объясняется тем давлением, которое оказывает Анкара в стремлении заставить Армению начать разрешение нагорно-карабахского конфликта путем освобождения части оккупированных территорий Азербайджана. Ереван настаивает на том, что никаких предусловий при подписании армяно-турецких Протоколов не было, а Турция лишь под давлением Баку стремится решить этот вопрос. Однако армянская оппозиция считает, что с самого начала Протоколы означали поражение Армении, а бывший министр иностранных дел этой страны Жирайр Липаритян в интервью радио «Свобода» заявил следующее: «На практике процесс ратификации протоколов в парламенте Армении и так был приостановлен, и заявление президента о приостановлении ратификации не стало новостью. Оно было сделано для внутренней аудитории». Липаритян также отметил, что президент Турции Поль хочет отделить вопрос армяно-турецкого примирения от карабахской проблемы, но оппозиция это не приемлет.

Как полагают эксперты, возобновление армяно-турецкого процесса следует ожидать во второй половине следующего года, после завершения избирательных процессов и формирования правительства Турции. А это означает, что в ближайшее время начнется интенсификация переговорного процесса по Карабаху.

О настроениях населения но поводу этих переговоров и мирного договора свидетельствуют социологические исследования, представленные в открытой прессе: «Глава социологического центра «Социометр» Агарон Адибекян представил данные соцопроса, проведенного в Карабахе. В опросе участвовал 1% населения - 1400 человек. 84,4% респондентов высказались против любых уступок в вопросе Карабаха. 2,9% готовы вернуть территории в обмен на независимость. Социолог говорит, что среди участников есть группа, готовая подождать, «время приведет к решению». Адибекян представил ответы на вопрос о репатриации. 93% высказались против: «Если пойдет заселение, оно будет похоже на переселение по принципу создания этнических или религиозных гетто». На вопрос о возможных уступках по Карабаху ради налаживания армяно-турецких отношений 85,1% респондентов назвали это бесперспективным».

Как видно, проблема нагорно-карабахского конфликта все еще далека от своего разрешения путем мирных переговоров.

Сегодня произошел очередной спад интенсивности переговорною процесса по урегулированию конфликта, поэтому следует провести тщательный анализ геополитической ситуации в мире и в регионе, оценить роль игроков, воздействующих на события в регионе. Другая тема - обсуждение позиций стран, крупных мировых и региональных держав, имеющих свои интересы в регионе: США, РФ, европейские страны, представленные ЕС, Турция и Иран. В этой связи следует оценить роль этих стран в ходе грузинского конфликта и его преодоления. Отдельно рассмотреть инициативу 'урции по интеграции Южного Кавказа, на основе предложенной этой страной Платформы, исключающей участие в ней Ирана, который вновь активизировался и предлагает свои посреднические усилия Баку и Еревану.

**Əlikram TAĞIYEV**
**Kəmalə QASIMOVA**

## DAĞLIQ QARABAĞ: REALLIQLAR VƏ MİFLƏR

Azərbaycanın şimalının ərəblər tərəfindən işğalı Albaniyanı və alban xalqını bir neçə cəbhəyə böldü. Qarabağın düzənlik hissəsi islamı qəbul etdi və Aran adlandırıldı. Dağlıq hissəsi isə erməni kilsəsinin təsiri altına düşdü. Hələ 807-ci ildə ermənilər Xəlifə Əbdülməlikin vasitəsilə Alban kilsəsini erməni kilsəsinə birləşdirə bildilər. Əslində Qarabağın xristian əhalisi heç sonralar da erməniləşməmişdir. Sonuncu alban çarı Həsən Cəlalyan Qarabağda alban məliklərinin birliyini yaratmaqla keçmiş Albaniyanı dirçəltmək istəyirdi. Amma Çar Rusiyası ilə yaxınlıqlarından istifadə edən ermənilər 1836-ci ildə 1 Aleksandrın əmrilə alban kilsəsinə son qoydular. Belə ki, Qarabağın şimal hissəsi də erməni kilsəsi ətrafında birləşdirildi. Yaşlı adamların dediklərini əsas götürsək deyə bilərik ki, hələ Sovet dövründə belə Dağlıq Qarabağın yerli əhalisi olan albanlar erməni dilini və erməni əlifbasını başa düşmür və azərbaycanlılardan yardım gözləyirdilər. Lakin ermənipərəst mərkəz əhalinin sürətlə erməniləşdirilməsini təşkil etdi. Deməli, indi bizə qarşı düşmənə çevrilmiş bu adamlar elə əslində bizdən ayrılıb gedən və xristianlaşan azərbaycanlıların (yəni albanların) bir hissəsidir. Onu da deyək ki, adbanlar xristianlığı ermənilərdən 270 il əvvəl qəbul etmişlər və onların kilsələri ermənilərdən fərqlənir. Onlar səkkiz guşəlidir və daim çaya və suya yaxın yerlərdə inşa olunurdu. Bizim gerbimizin də səkkiz guşəli olduğunu nəzərə alsaq məsələnin köklərinin hara gedib çıxdığı məlum olur. Solovyov «Чтение и рассказы русской истории» kitabında yazır ki, hələ 1701-ci ildə şimal müharibələrinin qızğın çağında Pcterburqa üç hörmətli qonaq gəldi. Onlar: İsrail Ori, Simon və Karapet adlı erməni tacirləri idilər. Amma gəlişləri heç tacir gəlişino oxşamırdı. Onlar özlərilə İramn xəritəsini gətirmiş və I

Pyotru İrana və Qafqaza gəlməyə şirnikləndirmişdi. Demişdi ki, bu ərazilərdə xaos və özbaşınalıq hökm sürür və əgər çar cəmi 25 minlik bir qoşunla gəlsə bütün Qafqazı və İranı asanlıqla tuta bilər. Bu yerlərin erməni (xristian) əhalisi də 10-12 minlik bir qoşun düzəldib köməklik göstərər. Rusiyaya qədər erməni tacirləri Avropa monarxlarının da yanında olmuşdular. Amma onlar bu işin çətinliyini və qeyri-mümkünlüyünü görüb boyun qaçırmışlar. Rus çarı isə Qafqaza gəlməyə söz verdi, amma dedi ki, müharibəni qurtarandan sonra. I Pyotr doğrudan da 20 il sonra Dərbəndə gəldi, amma ermənilərə konkret bir köməklik göstərə bilmədi. Türklərin təzyiqi altında geri qayıtdı. Adını da qoydular ki, Xəzərdə fırtına baş vermis və qoşun silah və ərzaqdan korluq çəkmişdir. Lakin I Pyotr ermənilərə mesaj göndərmişdi ki, onlar köçüb çarın ərazisində və eləcə də Xəzər sahilində məskunlaşa bilərlər. Sonradan Rostov ətrafında Suvorov tərəfindən Naxçıvan erməni məhəlləsinin salınması da bu tarixi hadisənin sonrakı nəticəsi oldu. Ermənilər ruslar tərəfindən işğal olunan Şimali Qafqazın kurort şəhərlərinə daraşdılar və indinin özündə də oralarda hegemonluq edirlər, hətta Armavir və digər şəhərlərin onlara məxsusluğunu əsaslandırmağa çalışırlar. Gec-tez onlar bu ərazilərin də onlara mənsub olduqlarını ortaya qoyacaqlar. Bütün bu yuxarıda deyilənlər onu sübut edir ki, ruslar Qafqaza heç də özbaşına deyil, ermənilərin şirnikləndirici təkidlərilə gəlmişlər. Doğrudur, rusların "Cənubun isti dənizlərinə» çıxış yolu əldə etmək arzularının tarixi qədəmdir. Onlar bu yolda ermənilərdən bir vasitə kimi istifadə edirdilər. 1828-ci il martın 21-də İrəvan və Naxçıvan xanlıqlarının əsasında erməni vilayətinin yaradılması haqqında I Nikolayın fərmanı da bu məqsədlə verilmişdir. Yəni islam dünyası içində erməni forpostu. Bu mənada Çar Rusiyası daim erməniləri dəstəkləmiş və onlardan istifadə etmişdir. İ.S.Tmbetskoy yazırdı ki, "Rusiya imperiyası erməni xalqının tarixi taleyini müəyyən etmişdir. Rusiyada hansı dövlət olsa da ermənilər daim ona bağlı olacaqdır. Onlar burada daim «Troya atı» rolunu oynayacaqlar". Həqiqətən də, Rusiya daim ermənilərin mövqeyini müdafiə etmişdir, habelə beynəlxalq aləmdə: məsələn, 18 mart 2008-ci ildə BMT-də "Azərbaycanın işğal olunmuş rayonlarında vəziyyət müzakirə edilərkən 7 ölkə (ABŞ, Rusiya, Fransa, Hindistan, Ermənistan, Anqola) əleyhinə, 39 ölkə lehinə səs vermişdir. 100 ölkə isə bitərəf qalmışdır. Qəribədir, ATƏT-in Minsk qrupunun üzvü olan və Dağlıq Qarabağ problemini nizamlamalı olan ölkə özü-özünü inkar etmiş olur! 1929-cu ildə Meqrinin, ondan əvvəl Zəngəzurun, Azərbaycan torpaqlarının hissə-hissə ondan alınıb Ermənistana verilməsi, l949-1953 cü illərdə azərbaycanlıların Ermənistandan köçürülməsi, 1988-ci ildən başlayaraq Qarabağda və Ermənistanda baş veren siyasi hadisələrdə daim erməni mövqelərinin müdafiəsi, azərbaycanlıların azadlıq hərəkatının 1990-cı il yanvarında qan içində boğulması, Xocalı faciəsi, nəhayət Dağlıq Qarabağın bizdən alınıb ermənilərə verilməsi rusların ermənilərlə daim həmrəy olduğunu göstərir. Bu hərəkət rus-erməni qardaşlığı və ittifaqı

bayrağı altında aparılır və problemin həlli açıq-açığına ləngidilir və ona hər cür əngəllər yaradılır.

Yuxarıda deyildiyi kimi, Azərbaycan ərazisində erməni dövlətinin yaradılması ideyasının tarixi hətta 1700-cü illərə gedib çıxır. Lakin bu sahədə müəyyən tarixi şərait 1747-ci ildə Nadir şah öləndən sonra yarandı. Özünü Qarabağ xanı elan edən Pənahəli xanın bu hərəkəti Qarabağın erməni (oxu: alban) məliklərini razı salmadı. Onlann üsyan qaldırmaq cəhdlərinin qarşısı alındı və onlar Pənahəli xanın hakimiyyətini qəbul etdiklərini bildirdilər. Pənahəli xan əvvəlcə Şahbulağı, sonra isə Əsgəranı özünə paytaxt şəhəri kimi seçdi. Lakin bu qalaların müdafiə qabiliyyəti elə də yüksək deyildi. Ona görə də l754-ci ildə Şuşa qalasını saldı və xanlığın mərkəzini ora köçürdü. Erməni (alban) məliklərinin başçısı Şahnəzər də ona tərəfdar çıxdı və bir qızını İbrahim xana ərə verdi. (onu da deyək ki, onun bir qızını da Gəncə xanı Cavad xan almışdı). Amma o vaxt ki adətlərə görə xristian qadınlarından ya uşaq doğulmamalı idi, ya da doğulsa da qanuni sayılmırdı. Qarabağda cəmi 5 məliklik varıydı ki, onlar da bütün əhalinin 7-8%-ni təşkil edirdi. Ermənilər buraya rus-iran və rus-türk müharibələrindən sonra kütləvi surətdə köçürülməyə başlamışdır. Bu tarixi faktı saxtalaşdıran Zori Balayan «Ocaq» kitabında İbrahim xanın əlehinə qanadlı ifadələr işlədir və onun ruslarla bağladığı müqaviləni (1805-ci il Kürəkçay müaviləsi) həqiqi saymır, yazır ki, guya o vaxt Qarabağın həqiqi sahibləri ermənilər idi və ruslar da guya əsas işlərini onlarla görürdülər.

"İbrahim xan kim idi ki, o xalqın adından danışa idi? Zori Balayan «xalq» deyəndə erməniləri nəzərdə tutur. Halbuki o zamanlar Qarabağda ermənilər sayca o qədər az idilər ki, onları nəinki xalq, heç etnik qrup da adlandırmaq qeyri-mümkün idi!

7 iyul 1923-cü ildə DQMV-nin Azərbaycanın tərkibində yaranmasını hətta erməni liderlərin özləri də məqbul saymışlar. Mirzəyan, Sarkisyan, Mikoyan və b. Dağlıq Qarabağ iqtisadiyyatının Azərbaycanla daha çox bağlı olduğunu göstərmişlər. Sonralar bıı kiçik qurum özünü müstəqil bir dövlət kimi hiss etməyə, tələblər irəli sürməyə, nəhayət Dağlıq Qarabağ adı altında ayrılıb xüsusi bir dövlət olduğunu elan etməyə başladı. Ermənilər öz hərəkətlərini onunla əsaslandırmağa çalışırlar ki, guya onlara fikir verilmir, onlar Azərbaycanın digər regionlarından geri qalırlar. Bu yalanları puça çıxaran akademik Ziya Səmədzadə özünün apardığı tədqiqatlarında sübut etmişdir ki, DQMV-nin sosial-iqtisadi inkişafı o zamanlar Azərbaycanın digər rayonlarından qat-qat üstün idi.. Ermənilər sadəcə olaraq öz milli ideyalarını —"Böyük Ermənistan ideyasını həyata keçirmək niyyətində idilər. O zamanlar onlar üçün ayrılmış 500 milyon manat vəsait də onların qarşısını ala bilmədi. Yəni onların iddiaları əslində qarşısıalınmaz idi, çünki onların "hərb maşını artıq işə düşmüşdür (Jukov) və onu dayandırmaq qeyri-mümkün idi. Azərbaycandakı qarışıqlıqlardan istifadə edən ermənilər Dağlıq Qarabağı oddan və qılıncdan keçirdilər, Aran Qarabağı da ona qatdılar, yerli əhalini

qovdular, öldürdülər və əsir apardılar, yurdlarını viran qoyub odladılar, xarabalığa çevirdilər, ölülərə belə rəhm etmədilər.

Onların qəbirlərini və abidələrini yerlə yeksan etdilər. Bu tarixi ziddiyyətlərdən sonra isə onlar Ermənistanda hakimiyyətə gəldilər.

İndiki erməni rəhbərləri bir qrup qatil və cinayətkarlardan ibarətdir. Onlar gec-tez ədalət məhkəməsi qarşısında dayanmalı olacaqlar. Faşist caniləri kimi! Amma tarix qalibləri mühakimə etmir, daha doğrusu edə bilmir. Onlar da hələlik qalibdirlər və onun verdiyi imkandan yararlanırlar.

1993-cü ildə ümummilli lider Heydər Əliyev hakimiyyətə yenidən qayıdandan sonra vəziyyət dəyişildi. Ermənilərin fasiləsiz hücumlarının qarşısı alındı, hətta bir sıra ərazilər geri qaytarıldı, ermənilər sülh bağlamağa məcbur oldular. (12 may 1994-cü il). Bundan sonra Dağlıq Qarabağ problemi artıq beynəlxalq məclislərin söhbət və müzakirə mövzularına çevrildi; BMT özünün dörd məlum qərarını verdi. Dünya ölkələri erməniləri təcavüzkar kimi tanıdılar. Azərbaycanın haqq səsi bütün dünyaya yayıldı. Avropa Şurası da onun haqq səsini eşitdi. Amma erməni lobbisinin və xaricdəki digər havadarların səyi nəticəsində problem bir növ donduruldu. Bir sıra görüşlər keçirilsə də hələ ki, real vəziyyət könül açan deyil. Ermənilər Dağlıq Qarabağ məsələsini sovet dövründə də qaldırırdılar. Onlar Moskvadakı adamlarından, xüsusilə A. Mikoyandan istifadə etməklə Dağlıq Qarabağı Ermənistana birləşdirməyə çalışırdılar və bu yolda bütün vasitələrdən istifadə edirdilər. A.Mikoyan 1964-cü ildə bu məsələni N.S.Xruşşova çatdırıldı..... "Bu məqsəd üçün sizə, o demişdir: «12000 yük maşını ayıra bilərəm».Onu Türkiyəyə qarşı qaldırmağa çalışanlara isə belə cavab vermişdir: "Yaxşı qonşudur, vuruşmayacağıq». Dağlıq Qarabağ haqqında isə son sözü bu olmuşdur. "Bir daha bu məsələyə qayıtmayacağıq». Bu məqsədlə M.C.Bağırova müraciət ediləndə isə o da öz növbəsində başqa tələblər irəli sürmüş və bununla da məsələ bağlanmışdır (M.C.Bağırovun tələbləri bunlar idi: Tarixən Azərbaycan torpaqları olmuş Zəngəzur, Borçalı, Dərbənd və başqa yerlər də Azərbaycana qaytarılmalıdır).

II dünya müharibəsi dövründə Azərbaycanın parçalanması planı vardı: azərbaycanlıları Orta Asiyaya köçürmək, Azərbaycanı isə Ermənistan və Rusiya arasında bölüşdürmək. Yenə də M.C.Bağırovun işə qarışması nəticəsində ermənilərin bu planı da baş tutmamışdır. Ermənilər tərəfindən müxtəlif planlar irəli sürmüş, Dağlıq Qarabağın müqabilində Azərbaycana Gürcüstandan yaxud Cənubi Azərbaycandan müəyyən ərazi konpensasiyası ödənilməsi üzərində də düşünülmüşdür. Lakin bu planların heç birinin həyata keçmədiyini görən ermənilər yaranmış tarixi şəraitdən maksimum yararlanaraq silah gücünə öz məqsədlərinə nail olmağa çalışmışlar. Ermənilər Qarabağda qazandıqları müvəqqəti uğurlardan ruhlanaraq iddia edirlər ki, artıq onlar istəsələr bütün Azərbaycanı işğal edə bilərlər. Necə ki deyirlər: "Utanmasan oynamağa nə var». Əlbəttə,o dəstəklər ki

ermənilərdə var, istəsələr lap bütün Qafqazı da işğal edə bilərlər. Şair R.Kərimli yaxşı yazırdı:

Arxada çobanlar dayanan zaman, Aslanın üstünə gedər tazılar!

Ermənilər mif ustasıdılar. Bu da onların uydurduqları miflərdən biridir. Yaxud onlar yazırlar ki, guya Azərbaycan şərti respublikadır və onun sərhədləri istənilən qədər qısaldıla bilər, necə ki, ermənilər onu qısaldırlar, özlərinkini isə bizim hesabımıza genişləndirirlər. Erməni miflərindən birini də onların Avropa, bizimsə Asiya mədəniyyətinə mənsubluğumuzdur. Guya erməni dili hind-avropa ailəsinə mənsubdur. Kökündən yalan və saxta iddiadır. Dilçilər sübut etmişlər ki, erməni dili heç Qafqaz dil qrupuna da aid deyil. Yeganə dildir ki, heç bir dil qurupuna aid deyil.

Ermənilərin digər iddiası onların xristian, bizimsə müsəlman olmağımızdır. Bu iddia da öz əsasından məlumdur. Onda gərək dünyada çoxdinli, çoxmillətli dövlət olmasın: Halbuki dünyada 5000 xalq olduğu halda cəmi 200 dövlət mövcuddur. Digər bir iddia ermənilərin Qafqazda aborigen və tarixən qədim, bizimsə gəlmə, köçəri, surroqat bir xalq olmağımızdır. Bu iddia isə bütövlükdə ağ yalandır. Çünki ermənilərin tarixən qaraçılardan ayrılaraq Balkanlara, ordan da digər yerlərə yayılması faktı məlumdur.

Erməni miflərindən birini də Xocalı qətliamı haqqında onların uydurduqları ağ yalanlar təşkil edir. Erməni mətbuatından və erməni yazılarından belə görünür ki, onlar "Xocalı hadisəsini" törətməklə onlara hörmət edilməsinə nail olmuşlar. Əslində dünya ictimaiyyəti hərəkətləri müqabilində onların iç üzünü tanımışlar. Məsələn, Serj Sarkisyan bu münasibətlə demişdir "Biz çalışırıq ki, bu haqda danışmayaq. Lakin mən düşünürəm ki, burada əsl məsələ başqadır. Xocalıya qədər azərbaycanlılar fikirləşirdilər ki, bizimlə zarafat etmək olar, onlar düşünürdülər ki, biz mülki əhaliyə əl qaldırmağa qadir deyilik. Biz streotipi sındıra bildik. Xocalı hadisəsi azərbaycanlılara yaxşı bir dərs oldu. Mən erməni xalqının bu qəhramanlığında iştirak etdiyimə görə fəxr edirəm".

8 may 1998-ci ildə Yerevanda Livan ermənisi Davud Mənsur Xeyriyanın "Xaç naminə" kitabının təqdimatı keçirildi. Burada Los-Anjelosdan tutmuş Fransayadək olan erməni diasporunun nümayəndələri iştirak edirdilər. Xocalı qətliamına həsr olunan tostlardan birində deyilirdi ki, biz onlan məcbur etdik ki, bizə hörmnt etsinlər.("Daha doğrusu bizdən qorxsunlar"). Onun iştirakçılarının biri yazır: "mən meyitlərin üstüylə adlayıb 1200-cü meyidin üstündən keçdim". Burada adamların: uşaqların, qadınların, qocaların necə öldürülməsindən söhbət gedir.

Ermənilərin yazılarından məlum olur ki, onlar bu "monqolları öldürməklə" onlardan öz keçmiş nəsillərinin qisaslarını aldıqlarına görə fəxr edirlər. 366-cı alayın polkovniki Savelyevin Kremlə yazdığı 9 səhifəlik hesabatında ermənilərin və rus hərbçilərinin törətdiklərini yazmaqla bildirmişdir ki, "rus zabitinin şərəfini ləkələmişlər". 10 mart 1992-ci ildə Rusiya prezidenti Boris Yeltsenə daxili işlər naziri Viktor Yerinin məktubunu təqdim edirlər. Burada 366-cı alayın hərəkətləri

və video görüntüləri, onların vəhşilikləri əks olunmuşdur. Boris Yeltsenin isə belə çəkilişin yol verilməz olduğunu və onun "rus saldatının şərəf və ləyaqətinə xələl gətirdiyini bildirən sərəncam" imzalamışdır. (Faktlar C.Nuriyev və Ş.Nuriyevanin 2010-cu ildə çap olunmuş "Taynı İstorii falsifikации") kitabından (s 102-106) götürülmüşdür.

Belə faktlar habelə Tatyana Çalidzanın "Karabaxskiy genosid: ob regenniy xocalı.dokumentalnaya xronika.Baku 2009, 848-ci səhifə" kitabında verilmişdir: Bir gecədə 613 adam öldürülmüşdür. 63 uşaq, 106 qadın, 70 qoca, 8 ailə bütövlükdə məhv edilib. 25 uşaq hər iki valideynini, 130 bir valideynini; 487 adam yaralanıb onlardan 76-sı uşaq idi. 1275 adam əsir aparılıb, 197 adam itmişdir; onlardan 25-i uşaq, (9 qız, 64 qadın, 47 qoca) 7 min əhalisi vardi. Xocalının 1992-ci il fevaralın 25-dən 26-na keçən gecə baş Verdi bu müdhiş hadisə!

"Regnum" informasiya agentliyinin verdiyi məlumata görə Serj Sarkisyan 2009-cu ilin mayında Avropanın 15 ölkəsinin siyasi partiyalarının gənclərinin qarşısında demişdir:

"Dağlıq Qarabağ və Naxçıvan ona görə Azərbaycanın tərkibində qaldılar ki. regionu SSRİ-nin tərkibində saxlamaq mümkün olsun. Əslində isə guya onlar erməni torpaqlarıdır və türklər erməniləri bu ərazidən silib süpürmüşlər." Onun bu kimi yalançı ideyalarına qarşı Azərbaycan prezidenti İ. Əliyev Yerevanın ermənilərə verilməsini "səhv addım" adlandırmışdır. Bu istiqamətdə Leyla Əliyevanın təşəbbüsü ilə yaradılmış "Xocalıya ədalət" kompaniyası çox iş görür. Xalqımızın haqq səsini dünyaya çatdırır. Belə bir aksiyanı faşistlərin Xatında törətdiklərilə müqayisə etmək olar. Bunu deməyə müəyyən əsasımız da var. Axı ermənilər öz-özlərinə arxayın olub belə cinayətlərə əl atmağa cəsarət etməzlər. Onları bu işə sövq edən qüvvələr var, onların arxası var, "Vur!" dəyənləri var. İslam və türk dünyası bizim məsələyə gələndə biganəlik göstərirlər, onlar bu cəhətdən xristian dünyasından bir örnək götürə bilmirlər. Halbuki xristian dünyası bir yumruq kimi birləşib ermənilərə köməklik göstərirlər. Adını da qoyurlar din və sivilizasiya eyniyyatı. Xocalı hadisəsi Məhəmməd Peyğəmbərin mövlud gününə təsadüf edir, çox güman ki, ermənilər bu müqəddəs günü müsəlman azərbaycanlıların qətlnamı ilə qeyd etməyi qərara almışlar: Bununla bütün İslam dünyasına bir mesaj göndəriblər, onlara nəyisə başa salsınlar: axı Xocalı da islam dünyasında tökülən nahaq qanlardan biridir - haqqı, hesabı, çəkilməyən ədalətsiz qırğınlardandır. Elə bizi də narahat edən məhz budur.

Hazırda Dağlıq Qarabağ probleminin konstruktiv həlli uğrunda mübarizə aparan respublika rəhbərliyi müxtəlif səviyyəli danışıqlarda elan etmişlər ki, onlar Azərbaycan torpağında ikinci bir erməni dövlətinin yaranmasına, Azərbaycan ərazisinin parçalanmasına heç cürə yol verə bilməz. Azərbaycanın bu kimi tələblərini dəstəkləyən Türkiyə də elan etmişdir ki, Dağlıq Qarabağ məsələsi həll olunmayınca Türkiyə öz sərhədlərini ermənilərin üzünə açmayacaq. Azərbaycanın sosial-iqtisadi inkişafının güclənməsi erməniləri çox narahat edir və ona görə də

onlar son illərdə benəlxalq aləmdə həm Azərbaycana, həm də Türkiyəyə qarşı təzyiqlərini gücləndirmişlər. Ermənilərin qondarma erməni soyqırımı iddiaları mühüm təbliğat vasitəsinə çevrilmişdir. Dağlıq Qarabağın ermənilərin əlində qalması üçün yüzlərlə planlar qurulmuşdur. Qobl planından tutmuş Madrid sazişinədək bütün planların bir məqsədi olmuşdur: Necə etmək ki, "Dağlıq Qarabağ Respublikası" (onu da deyək ki, bu da Qoblun terminidir) ya müstəqil respublika kimi qalsın, ya da Ermənistana birləşdirilsin. Son söz-söhbət Madrid sazişini üzərində qərar tutmuşdur. Yəni əvvəlcə beş rayonun qaytarılması, Laçın koridorunun saxlanılması və Dağlıq Qarabağın statusunun müəyyən edilməsi. Bunun nəticəsində bütün qaçqınlar öz yerlərinə qayıdır və referendum keçirilir. Amma bu sahədə də hələ elə bir irəliləyiş yoxdur, hər şey bu dəfə də Rusiyadan asılıdır.

Milli etnik problemlərin həllində beynəlxalq miqyasda qəbul edilmiş sənədlərin özündə də müəyyən boşluqlar var. Bir tərəfdən iddia olunur ki, müstəqil yaşamağa qabiliyyəti olan hər bir millət öz müqəddəratını təyin etməlidir.(onu da deyək ki, ermənilər artıq öz müqəddaratlarını bir dəfə təyin etmiş və Azərbaycan torpaqları hesabına öz müstəqil respublikalannı yaratmışlar.) İkinci bir tərəfdən isə elan olunur ki, sərhədlər toxunulmazdır və ölkələrin bütövlüyü saxlanılmalıdır. Konkret olaraq Dağlıq Qarabağ məsələsinə gəldikdə isə nədənsə susurlar və bu prinsipi yada salmırlar. Əvəzində isə təklif olunur ki, bu iki bir-birinə zidd olan prinsiplər arasında bir uyğunluq axtarıb tapsınlar. Onu da deyək ki, öz müqəddaratını təyin etmək hüququ 1878-ci ildə Berlin konfransının gündəliyinə daxil edilmişdir. 1896-cı ildə II İnternasionalın London konqresində müzakirə edilmiş, 1918-ci ildə ABŞ prezidenti Budro Vilsonun 14 bəndində öz əksini tapmışdır. 1945-ci ildə BMT-nin, 1975-ci ildə isə 33 Avropa dövlətinin, ABŞ və Kanadanın iştirakı ilə keçirilən Helsinki müşavirəsində müzakirə obyektinə çevrilmişdir. İstər Helsinki müşavirəsində, istərsədə 2009-cu ildə BMT-nin baş katibi Pan Qi Munun "Qarabağ ərazisinin işğalı» adlı 18 səhifəlik məruzəsində bu iki prinsip müqayisə olunmuş və üstünlük ərazi toxunulmazlığına verilmişdir. Deməli, sosial ədalət burada da bizim tərəfimizdə olmuşdur. Bir qalır bu ədalətli prinsipin böyük dövlətlər tərəfindən etiraf edilməsi və həyata keçirilməsi.

Bütün bunlara əlavə olaraq qəbul edilən qərarların məxfi saxlanılmasına üstünlük verilir, çünki guya əks halda onun reallaşması yolunda maneələr törədilə bilər. Yuxarıda deyilənləri yekunlaşdıraraq demək olar ki, Dağlıq Qarabağ problemi əslində problem olmayan, tamamilə regional bir məsələdən benəlxalq bir problemə çevrilmiş, həlli görünməyən bir dilemma olmuşdur.

Sonda onu da qeyd edək ki, biz müxtəlif səbəblər üzündən Qarabağ məsələsində daim müdafiə mövqeyi tutmuşuq. Amma indi prezident İ.Əliyevin dediyi kimi hücumçu mübarizə yolunu tutmalıyıq. Buna bizim regionda nüfuzlu bir qüvvəyə çevrilməyimiz də əsas verir. Biz bu imkanlardan maksimum yararlanmağa çalışmalıyıq.

**Fazil MUSTAFA**

# TÜRKİYƏ-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCAN AMİLİ

Bütün Türk topluluqlarına qarşı gerçəkləşdirilən soyqırım, deportasiya, zorakılıq və prepressiya siyasəti bilavasitə onların yaşadıqları ərazilərin geostrateji əhəmiyyəti ilə əlaqəlidir. ABŞ, Böyük Britaniya, Rusiya və Fransanın aparıcı iştirakçılığı ilə baş verən bütün proseslərdə ən ciddi şəkildə stimullaşdırılmış erməni maşınının rol aldığı hadisələr son nəticədə onların ərazi iddialarının təmin olunmasına və bölgədə həmin güclərin maraqlarının genişlənməsinə səbəb olmuşdur. 20-ci əsrin ortalarından başlayan və bir mərkəzdan idarə olunan "soyqırımı tanıma" dalğası Türkiyə üzərində ciddi təzyiq vasitəsinə çevrilmiş və təəssüf ki, Türkiyənin bir vaxtlar açıqca müşahidə olunan ürkək xarici siyasət kursu da bu təzyiqin mənfi psixoloji aurasının türk cəmiyyəti üzərində yerləşməsinə yardımçı olmuşdur. Türkiyə illər uzunu bu çıxılmaz soyqırım labirintinin çözülməsinə doğru ilk addımı atmağa çətinlik çəksə də, Ədalət va İnkişaf partiyası hakimiyyətə gəldikdən sonra yeni siyasət anlayışı bu mövzu ətrafında axtarışları müəyyən nəticəyə doğru istiqamətləndirə bilmişdir. Bununla eyni zamanda Azərbaycan üçün də paralel təzyiq vasitələrinin aktual şəkildə ermənilər tərəfindən gündəmdə saxlanması, illərdir maraqlı dövlətlərin beynəlxalq hüququn prinsiplərinə göz yumaraq Ermənistanı işğalçı dövlət kimi tanımaması da problemin gerçək mahiyyətinin anlaşılmasında ciddi çətinliklər yaratmışdır. Digər tərəfdən İranla bağlı ABŞ və Avropa İttifaqının "sanksiya hədələri"nin və düşünülən çözüm çalışmalarının orada yaşayan azərbaycanlılar üçün pozitiv perspektiv nəzərdə tutmaması da onu təsdiqləmişdir ki, bölgədə Azarbaycanın xeyrinə har hansı bir dəyişiklik nəzərdə tutulmur və hətta bəzi məqamlarda itkilərin proqnozlaşdırılması daha real görünür.

Son vaxtlar politoloji təhlillərda ABŞ-ın Azarbaycana münasibətdə bitərəflik obrazını dəyişməsi barədə mülahizələr səsləndirilsə də, əslində unudulan bir mülahizəni yenidən təhlil etməyə zərurət yaranmışdır. Əsl həqiqətdə son iyirmi ildə ABŞ, Rusiya və Fransa, hatta İranın da bölgə və işğalla bağlı mövqelərində ciddi dəyişikliklər baş verməsi müşahidə olunmur. Sadəcə olaraq, nə qədər ki, Dağlıq Qarabağ məsələsinin həllinin dondurulması və tədricən işğal faktının "oldu bitdi" şəklində adiləşdirilməsi dövrü yaşanırdı, adı keçən dövlətlər üçün hansısa obraz dəyişikliyi aktuallıq kəsb etmirdi. Baxmayaraq ki, ABŞ Konqresi və Dövlət Departamenti Ermənistana daha çox vəsait ayırmaq və Dağlıq Oarabağa ayrıca subyekt kimi dəstək verməklə yanaşı Azərbaycanın ərazi bütövlüyünü tanıdığını da vurğulamağı unutmurdu. Maskaların açılışı Türkiyənin Ermənistanla münasibətləri bərpa etmək təşəbbüsü ilə çıxış etməsi ilə başladı və bu təşəbbüs 10 oktyabr 2009-

cu il tarixdə konkret sənədə köçürülən andan Rusiya və Fransanın mövqeyinin təqribən eynisini də ABŞ-dan dinləmək mümkün oldu. Türkiyə-Ermənistan protokollarını çox zaman ABŞ-ın istəyi ilə Türkiyənin məcburi addımı kimi qiymətləndirmə tendensiyası Türkiyə siyasətinin təməl mahiyyətini dərindən anlamayanlar üçün gözlənilən bir təsbit sayıla bilər. Halbuki Türkiyə, Rusiya hərb maşının vazkeçilməz məkanı olan Ermənistanın müstəqil addım atma imkanlarının olmadığını bilməmiş deyildi və bir mərhələdə erməniləri hansı bəhanələrlə Rusiyanın durduracağını lazımi səviyyədə proqnozlaşdırmışdı. Proses əslində əvvəlcədən proqnozlaşdırıldığı kimi, Ermənistanın rus səbrsizliyi ilə hərəkət etməsinə gətirib çıxardı. Hansı arqumenti gətiməkdan asılı olmayaraq, Türkiyənin protokol prosesi içində Ermənistanın işğalçı amallarını gündəmdə tutmasını xoş qarşılamadığını büruzə verərək Rusiyanın istəklərinə uyğun geriyə addım atdı. Təbii ki, gələcək üçün ayaq yeri saxlamağı unutmadan ermənilərin indilik fasilə götürməyə üstünlük vermələri həm də daxili tarazlığın pozulması təhlükəsinin nə dərəcədə ciddi olmasından xəbər verir. Sarkisyan hakimiyyəti özündən əvvəlkilərin-Dəmirciyan və V.Sarkisyanın dayana bilmədiyi nöqtədə indilik dayanmağa üstünlük verdi. Bu prosess eyni zamanda Türkiyə üçün də xarici siyasət kursunda "qonşularla sıfır problem" anlayışında Ermənistana aid hissənin istisna olaraq nəzərdə tutulmasının vacibliyini göstərdi.

Bütün hallarda protokolların imzalanmasına qədar qət olunan məsafədə Türkiyə bir neçə hədafi müəyyənləşdirərək avantajlı mövqe qazanma və təşəbbüsü ələ keçirən tərəf olmağı nəzərdə tuturdu və buna da qismən nail oldu. Çünki ATƏT-in Minsk qrupunun sıradan bir üzvü kimi 1994-cü ildən başlayaraq bölgədə ağırlıqlı rol oynamağı haradasa unutmuş vəziyyətdə idi, bu səbəbdən da Türkiyənin ehtiyat oyunçudan əsas oyunçuya çevrilmak cəhdlərinə baş vurması qaçınılmaz idi. Bu cəhdlərdən sonra Türkiyə üçün aşağıdakı müsbət irəliləyişləri təsnifləşdirmək mümkündür. Birincisi, Türkiyə, ilk olaraq modern dövlət olduğunu va qonşularla məsələlərin dinc və dialoq yolu ilə çözə biləcəyi barədə təsəvvürləri dəyişdi. İkincisi, uzun illər əsassız olaraq ittiham olunan tərəfdən haqlı olduğuna görə ittiham edən tərəfə çevrildi və bədxahları çaşdıracaq tarix kommissiyası yaratmaq məsələsini beynəlxalq siyasi sənədə - Türkiyə-Ermənistan arasında imzalanan protokola yazdıra bildi. Üçüncüsü, bölgədəki problemlərin Türkiyəsiz çözülə bilməyəcəyini ABŞ-ın, Avropa İttifaqının və Rusiyanın rəsmi məqamlarına əsasən qəbul etdirdi. Dördüncü, bir sıra məqamlarda mücərrəd müddəalarla dolu olan protokolların beynəlxalq hüquq terminləri ilə doldurulmasını təmin edərək orada Azərbaycanın ərazi bütünlüyünün qorunması üçün istinad zəmini yaratdı. Beşincisi, Ermənistan-Türkiyə münasibətlərinin yaranmasının açar məsələsinin Dağlıq Qarabağın işğalına son verilməsi olduğunu beynəlxalq gündəmə israrla daşıya bildi. Altıncısı, Azərbaycanı danışıqlar prosesindən məqsədyönlü şəkildə kənarda saxlamaq niyyətləri gerçəkləşən kimi,

Azərbaycanın maraqlarının layiqli təmsilçisi kimi qətiyyətlə rolu Öz üzərinə götürmüş oldu.

Burada ABŞ və Rusiyanın bölgə ilə bağlı siyasətinin konturları nə qədər anlaşılan olsa da, Avropa İttifaqının Türkiyəyə Ermənistan məsələsi ilə bağlı təzyiqlərinin məntiqi izahını verməyin nə qədər çətin olduğuna da diqqət yetirmək vacibdir. Qəribədir ki, Türkiyənin üzvlük üçün müraciət etdiyi bir qurum öz üzvü olmayan bir dövlətlə sərhədlərin açılmasını başlıca şərt olaraq irəli sürür. Halbuki, Ermənistanı Avropa İttifaqı ilə heç bir sərhəd xətti əlaqələndirmir və bu dövlət Rusiyadan tam asılı bir siyasət həyata keçirir. Digər tərəfdən, Avropa İttifaqına daxil olan bir sıra ölkələr ABŞ-dan kopyaladıqları "soyqırımı tanıma" kampaniyasını da davam etdirməklə Ermənistan məsələsində ortaq siyasət yürütdüklərini çəkinmədən ortaya qoyurlar. Ermənistanın beynəlxalq dəstəyi ABŞ-Avropa İttifaqı-Rusiya üçbucağı ilə yekunlaşmamaqdadır. Görünən tablonun ən maraqlı tərəfi İranın bu prosesdə aktiv rol almasına yaradılan imkanlardır. Dağlıq Qarabağ məsələsində Ermənistanın işğlçı fəaliyyətlərini dəstəkləmək siyasəti aralarındakı ziddiyətlərə baxmayaraq bu üçbucağı birləşdirməklə yanaşı, barışmaz düşmən olan İranla dostlaşmağın mümkün olduğu yeganə mövqedir. ABŞ İranla hər hansı bir ölkənin əlaqələrindən narahatçılıq keçirdiyi halda tək bir istisnanı görməzdən gəlməsi həqiqətən düşündürücüdür. İran Ermənistanın ən ciddi iqtisadi və siyasi portnyoru olmaqla yanaşı, ermənilərə xüsusi imtiyazlar tanıyan bir dövlət kimi ABŞ-la iş birliyi içində olduğunu hətta sözdə müsəlman sayları cəmiyyətindən belə gizlətməyə ehtiyac duymur.

Öncədən qeyd olunduğu kimi, Ermənistan protokol prosesinin dayandırılmasına qərar verməklə Türkiyənin təşəbbüskarlığını əhəmiyyətsiz bir hadisəyə çevirməyi nəzərdə tutmuş oldu. Lakin Türkiyənin bu prosesdən rahatlıqla çəkiləcəyini gözləmək doğru olınaz. Türkiyə Ermənistanın "soyqırım", "ərazi iddiaları", "Azərbaycan torpaqlarının işğalının tarixi ədalətin bərpası kimi təqdim etməsi" kimi məsələlərin üzərinə elmi, siyasi və bəzən də sosial xarakterli həmlələrlə getməsi erməni arqumentlərini xeyli zərərsizləşdirmiş, bəzi hallarda isə ciddi narahatçılıq da yaratmışdır. Belə ki, Türkiyə tərəfinin qanunsuz yolla Ermənistandan gələn əmək mühacirlərinin ölkədən çıxarılacağını bəyan etməsinin ardından yaranan narahatçılıq ciddi qəbul olunmalıdır. Bütün hallarda iqtisadi cəhətdən sıxıntılar yaşayan Ermənistanın yüz minə yaxın mühacir dalğası ilə üz-üzə qalması onlar üçün arzuolunan deyil və bu ölkənin iqtidarını çətin vəziyyətdə qoya bilər. Bununla belə, Azərbaycan təbliğatında yer alan Ermənistanın boşalması faktının bu ölkənin mövqeyinin dəyişməsinə müsbət təsir göstərəcək kimi illüziyaları da obyektiv qiymətləndirmək lazımdır. Bütün hallarda Ermənistanda mülki əhalinin azalması bu ölkənin daha çox rus hərb maşınının basqısı altında qalmasına, dövlətin sivil xarakterinin itirilməsinə gətirib çıxara bilər ki, bu da Azərbaycan və Gürcüstan üçün hər halda arzuolunan vəziyyət sayıla bilməz.

Bu gün Ermənistan yalnız Dağlıq Qarabağın inzibati ərazisinin işğalı ilə kifayətlənməyərək, bütün aran Qarabağda işğal olunmuş torpaqlara olan niyyətini də gizlətməməkdədir. Hətta son vaxtlar Türkiyənin protokolların ratifikasiyası üçün ilkin olaraq Ağdam və Füzuli rayonlarının boşaldılması başlanğıc ola bilər formasında çağrışlarına də ciddi əhəmiyyət vermədən bu bölgələrin də alver predmetinə çevrilməsində maraqlı olduqlarını ortaya qoydular. Eyni zamanda ermənilərin düşüncəsində çoxşaxəli fəaliyyət planı beynəlxalq güclərin dəstəyi ilə davam etməkdədir. Türkiyədən torpaq tələblərinin Ermənistan Konstitusiya Məhkəməsinin protokollarla əlaqədar verdiyi təfsirdə yenidən vurğulanması, uydurma erməni soyqırımının tanıdılması istiqamətində diaspor və lobbiçilik fəaliyyətlərinin ardıcıl davam etdirilməsi, 1915-ci il hadisələrinə görə maddi təzminatın ödənilməsi tələblərinin önə sürülməsi hər hansı zehniyyət dəyişikliyinin olmadığını göstərir. Ermənistan həm də bu tələblərin bir qismini Azərbaycanla əlaqələndirərək irəli sürməkdədir və beləliklə Türkiyə və Azərbaycan eyni hədəf təzyiq və böhtanlara rnəruz qalmaqdadırlar. Bu prosesdə liberal düşüncənin təmsilçisi kimi tanınan bir sıra köşə yazarları, aydınlar ermənilərin haqlılığını əsaslandıracaq çoxsaylı yazılarla psixoloji hücumu artırmaqda davam edirlər. İçəridən və çöldən təzyiqlər o səviyyəyə gəlib çıxmışdır ki, Türkiyə medyasında olan bəzi erməni təəsübkeşləri hətta Azərbaycanla da münasibətlərin korlanmasının Türkiyə üçün heç bir zərər gətirməyəcəyini də vurğulamaqdan çəkinməməkdədirlər.

Varılan nəticə budur ki, ayrıca götürülmüş Türkiyə-Ermənistan münasibəti anlayışı mövcudluq vəsiqəsi qazana bilmədi. Burada Türkiyə-Ermənistan-Azərbaycan birgə regional münasibətlərinin həyati vacibliyi Türkiyənin israrlı mövqeyindən sonra bir daha aktuallıq qazanmağa başladı. Türkiyənin atacağı addımlar daha çevik və cəsarətli olarsa, bu istiqamətdə ən azı anlayış dəyişikliyinə nail olmaq mümkündür. İlk addım olaraq Türkiyə ABŞ-ın soyqırımı tanımaq təşəbbüsünü və real qərarlarını təxirəsalmaq deyil, əhəmiyyətsizləşdirmək variantına üstünlük verməlidir. Birincisi, bölgədə İraq, İran, Əfqanıstan, Fələstin, Pakistan, Çin kimi problemləri olan bir super-dövlətin Türkiyə adında yeni bir düşmən qazanma siyasətinin ABŞ cəmiyyəti tərəfindən dəstəklənməsi ağlasığmazdır və Türkiyə bu əlverişli fürsəti doğru dəyərləndirməlidir. İkincisi, Türkiyə Rusiya ilə iqtisadi münasibətlər sferasında yaxınlaşmanı gücləndirməklə bölgədə bərabərhüquqlu portnyor durumuna iddia etməlidir və indiki şərtlərdə Rusiyanın bu formata ciddi ehtiyacı var. Üçüncüsü, Türkiyə Xocalı soyqırımının tanınması istiqamətində açıq və aktiv diplomatiya həyata keçirməlidir. Azərbaycanın isə üzərinə düşən əsas vəzifə Türkiyə ilə koordinasiyalı xarici siyasət kursunu müəyyənləşdirmək, daxili mobilliyi artırmaq və ordu quruculuğu işlərini ciddiləşdirməkdir. Digər tərəfdən, son vaxtlar ABŞ-ın açıq şəkildə Ermənistanın tərəfində mövqe almasına qarşılıq olaraq Rusiyada çözüm axtarmaq təbliğatının nə dərəcədə təhlükəli olduğuna xüsusi diqqət yetirilməlidir. Unutmaq olmaz ki,

Türkiyə protokollarla bağlı Dağlıq Qarabağ məsələsinin həllini vacib amil kimi görərkən, Rusiyanın açıq şəkildə Türkiyə-Ermənistan münasibətlərinin Dağlıq Qarabağ məsələsi ilə paralel götürülə bilməyəcəyini dilə gətirməsi Rusiyanın hansı çözümdən yana olduğunu bir daha ortaya qoymuşdur. Bu amilləri gözardı etmədən Azərbaycan cəmiyyəti, xüsusilə də onun siyasi elitası geostrateji seçim məsələsinin, ölkə daxilində mobilizasiya probleminin, ordu quruculuğunun effektiv formalarının, bölgədə yarana biləcək qlobal münaqişə şəraitində hazır hərəkət modellərinin, habelə elmi-təbliğati və informasiya sisteminin təkmilləşdirilməsi, psixoloji hazırlıq kimi məsələlərin ciddi diskussiyalardan sonra müəyyənləşdirilməsinə ehtiyac vardır.

**Fəxrəddin ŞAHSUVAROV**

## QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ MƏSƏLƏSİNDƏ HƏMSƏDR DÖVLƏT KİMİ FRANSANIN FƏALİYYƏTİ

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini əks etdirən qısa xronoloji xülasə göstərir ki, əvvəlcədən planlaşdırılmış ssenari əsasında yaradılmış bu problem dünya ictimaiyyətinin gözü qarşısında dərinləşdirilmişdir. Belə ki, XX əsrin əvvəllərindən Sovet Rusiyasının Qarabağı erməninkiləşdirmə siyasəti ilə Azərbaycanın ərazi bütövlüyünə qəsd edilmiş, erməni ekspansiya siyasəti nəticəsində Qarabağda muxtar qurum yaradılmış, ermənilərin davam edən ərazi iddiaları və etnik təmizləmə siyasəti nəticəsində Ermənistan zaman-zaman Azərbaycan torpaqlarını ilhaq etmişdir.

Azərbaycanın Qarabağ bölgəsini Ermənistana birləşdirmək üçün planlı şəkildə mənfur siyasət yeridən ermənilər və ermənipərəstlər süni "Dağlıq Qarabağ problemi" yaratmış, Ermənistan Azərbaycana hərbi təcavüz etmiş, Azərbaycanın Dağlıq Qarabağ və digər əraziləri (20 % ərazi) işğal edilmişdir.

Bəzi iri dövlətlərin himayəsi və erməni diasporalarının yaxından köməkliyi ilə Ermənistanın apardığı işğalçılıq müharibəsinin nəticələrini aradan qaldırmaq üçün sülh danışıqlarının aparılmasına üstünlük verilmişdir. Azərbaycan hökuməti münaqişənin nizama salınması üçün beynəlxalq təşkilatların köməkliyi olmadan mümkünsüzlüyü qərarına gəlmişdir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq problemə çevrilmişdir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində addımlar atılmış, BMT Təhlükəsizlik Şurası tərəfindən dörd qətnamə qəbul edilmişdir.

Ermənistanın regionda sülhə və əmin-amanlığa təhlükə mənbəyinə və təcavüzkar ölkəyə çevrilmiş, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində qeyri-konustruktiv mövqe tutmaqla beynəlxalq hüquq normalarını inkar etmiş, siyasi və iqtisadi inteqrasiya proseslərində tıxac rolunu oynayan dövlət olmuşdur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsində ATƏT vasitəçilik fəaliyyəti göstərmişdir. ATƏT-in Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə Minsk Qrupu yaradılmış, ATƏT-in 1994-cü il Budapest, 1996-cı il Lissabon, 1999-cu il İstanbul zirvə görüşlərində problemin ədalətli həlli istiqamətində uğurlu addımlar atılmışdır.

Lakin Minsk Qrupu həmsədrlərinin, o cümlədən bu istiqamətdə digər beynəlxalq təşkilatlarla qarşılıqlı fəaliyyəti kifayət qədər dolğun bəhrə verməmişdir.

Azərbaycanın Minsk Qrupu həmsədrləri - ABŞ, RF və Fransa, habelə ATƏT üzvü olan digər aparıcı Qərb dövlətləri ilə qarşılıqlı münasibətlərinin əsas istiqamətləri, diplomatik ənənələri münaqişənin həllinə təsir etmişdir. ATƏT-in Minsk Qrupu həmsədrləri tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair yalnız təkliflər verilmişdir. Fransanın və digər böyük dövlətlərin Ermanistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə, hətta Ermənistan hərbi birləşmələrinin sərhədlərimizi pozaraq ölkəmizə təcavüz aktlarına belə göz yummaları, Fransanın da həmsədr olduğu ATƏM-in Minsk qrupunun soyuq münasibəti və bunu, heç olmasa, təcavüz aktı kimi qiymətləndirməyə cəhd göstərməməsi təəssüf hissi doğurur.

Beynəlxalq hüquq normaları, xüsusilə ATƏM tərəfindən elan edilmiş prinsiplərin bu münaqişənin həlli üçün əsas olduğu halda, məhz Ermənistan Respublikasının qeyri-kostruktiv mövqeyi, danışıqların hər dövrəsində müxtəlif tələblərin irəli sürməsi, beynəlxalq hüquq normalarına məhəl qoymaması saziş əldə etməyə imkan verməmişdir.

Ermənistan-Azərbycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olunmasının Azərbaycan dövləti və xalqı üçün, həmçinin tərəqqipərvər bəşəriyyət üçün əhəmiyyətliliyini nəzərdə tutaraq, bu məqsədə nail olmaq üçün bir sıra amillərin nəzərə alınması və həyata keçirilməsi vacibdir:

1. Respublikamızın beynəlxalq mövqelərinin güclənməsinə və beynəlxalq birliklərin Azərbaycana münasibətlərinin inkişafına tam xidmət etməlidir.
2. Dünyanın bütün nöqtələrində fəaliyyətdə olan Azərbaycan, Türkiyə diasporasının mövcud potensialından istifadə etməli və tədricən Türkiyə-Azərbaycan diasporalarının birgə fəaliyyət mexanizminə nail olmalı və ondan geniş istifadə edilməlidir.
3. Azərbaycan hərbi potensialını gücləndirməklə bərabər, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc siyasi vasitələrlə həlli istiqamətində fəaliyyət gücləndirilməlidir.

Münaqişənin qəbul edilmiş BMT qətnamələri və beynəlxalq hüquq normaları çərçivəsində həll edilməsi üçün Ermənistanın işğalçılıq

niyyətlərindən əl çəkməsi və regionda sülh naminə adekvat addımlar atması konkret tələb olunmalıdır.

5. ATƏT-in Minsk Qrupunun yalnız üç həmsədr dövlətinin bu problemlə məşğul olması və buna görə də formal xarakter almaması üçün Türkiyənin bu prosesdə geniş potensial imkanlara malik olması nəzərə alınmaqla onun fəal vasitəçilik hüququnun təmin edilməsinə nail olunmalıdır.

6. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı güclü erməni lobbilərindən birinin mövcud olduğu Fransanın mövqeyinə təsiretmə mexanizmlərindən məharətlə istifadə edilməlidir.

7. Hər hansı bir məqamda Azərbaycanın öz hərbi gücü ilə öz konstitusiya hüquqlarını bərpa edəcəyini - torpaqlarını azad edəcəyini beynəlxalq təşkilatlara, ictimai birliklərə açıq bəyan edilməlidir.

**Fikrət NƏBİYEV**

## ETNİK MÜNAQİŞƏLƏRİN NİZAMA SALINMASI TƏCRÜBƏSİNƏ DAİR

Bəzi xarici dövlətlərlə bağlanmış müqavilələrdən sonra törədilən cinayət hadisələri arasında səbəbli əlaqə vardır. Belə ki, bütün hadisələr siyasi təşkilatlar, xarici dövlət strukturları tərəfindən idarə edilirdi. Məqsəd Azərbaycan Respublikasının sabit, etibarlı dövlət imicini heçə endirməkdən, siyasi qüvvələr arasında vətəndaş qarşıdurması yaratmaq və bu əsasda hakimiyyət dəyişikliyinə nail olmaqdan ibarət olmuşdur. 1988-ci ilin fevralından etibarən baş verən təcavüz və təzyiqləri aşağıdakı ardıcıllıqla qeyd etmək olar: 1988-ci ildən etibarən Qarabağda baş vermiş erməni separatizmi 1990-cı ildə Azərbaycana qarşı hərbi təcavüz faktı və siyasi diplomatik təzyiqlər.

Respublikamızda torpaqlarımızı parçalamağa cəhd edənlər, öz uğursuz əməlləri ilə, etnik zəmində öz siyasi ambisiyalarını həyata keçirirdilər.

1993-cü il iyul-avqust aylarında siyasi "uzaqgörənlik" nümayiş etdirməyə çalışan separatçı qüvvələr cənub bölgəsində "Talis Muğan Respublikası" adlı hakimiyyət strukturunu elan etdilər. Vahid, Milli dövlətçilik prinsiplərinə zidd olan bu hadisələrə rəsmi münasibət bildirilməsi məsələsi milli münasibətlərə əsaslanan hadisə olduğu üçün ehtiyatlı olmağı təbb edirdi. Bu cür problemi tələsik həll etmək olmazdı. Əks halda bizim ümumi düşmənlərimizin qəbbəsini reallaşdırrmş olardıq.

Eyni zamanda o dövrdə Gəncə qiyamı ilə əlaqədar yaranmış gərginlik son dərəcə hələ təhlükə mənbəyi olaraq qalırdı. Bu hadisələrlə bağlı Azərbaycanı ümumi düşmənlərə qarşı yönəltmək son dərəcə çətin idi. İqtidar məhz buna görə hadisəyə rəsmi münasibət bildirməyə tələsmirdi.

Nəzərə almaq lazmıdır ki, respublikada seperatizmi dəstəkləyən qüvvələr qələbə çalacaqlarına əmin idilər. Birinci, onlar öz hərəkətləri ilə respublika ərazisində yaşayan etnik azlıqlarda milli əhval-ruhiyyə yaratmaq ümidində idilər. İkinci, onlar Azərbaycan Respublikasından narazı olan dövlətlərin dəstəyinə ümid edirdilər. Üçüncü, sosial-iqtisadi vəziyyətin gərginliyi şəraitində ölkədə siyasi hərəkatın güclənəcəyinə inanırdılar (Lənkəranda SSRİ-nin qırmızı bayrağının qaldırılması faktı buna sübutdur).

"Azərbaycanda prezident üsul-idarəsi lazmıdırmı?" ifadəsi ilə xalqı çaşdırmağa çalışan qüvvələr ölkədə əvvəlcə "Talis Müğam Respublikasının" hüquqi cəhoətdən tanınmasını və sonra Azərbaycanın Federativ Respublika kimi formalaşmasına nail olmaq istəyirdilər...

Nəhayət, avqustun 13-də Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Heydər Əliyev ölkənin cənubunda yaranmış vəziyyətlə bağlı həmin bölgənin tanınmış nüfuzlu adamları ilə görüşdü. Görüşdə dövlətçilik prinsiplərinə, Dövlət Müstəqilliyi haqqında qanunlara zidd olan hərəkətlər pisləndi.

Yaranmış vəziyyəti siyasi yolla aradan qaldırmaq üçün Heydər Əliyev avqustun 22-də xalqa müraciət etdi. O ictimaiyəti kimlərinsə siyasi oyunlarının qurbanı olmamağa, hakimiyyət ehtiraslarına uymamağa, vahid Azərbaycan dövlətçiliyi uğrunda həmrəylik nümayiş etdirməyə çağırdı. Bu çağırışa cavab olaraq cənub rayonlarından on minlərlə insan separatçılara qarşı etiraz aksiyalarına başladılar. Seperatçılardan qan tökülmədən silahlı qüvvələrin buraxılması tələb edildi. Müəyyən insan tələfatları olsa da xalqın təzyiqi nəticəsində bu mənfur ideya reallaşa bilmədi.

Əlbəttə, bu hadisəyə siyasi hüquqi qiymət verildi. Onu qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası kimi bir çox etnik azlıqlara malik olan dövlətdə kiçik bir ehtiyatsızlıq partlayışlara gətirib çıxara bilərdi.

Baş vermiş "Talis Müğan Respublikası" hadisəsinin yaranma səbəblərinin tam araşdırılması bir problem olaraq strateji əhəmiyyət kəsb edir.

Aydındır ki, Respublikamızın cənubunda baş vermiş hadisələri Qarabağ erməni separatizmi ilə eyniləşdirmək olmaz. Bildiyimiz kimi hadisələr zamanı talis ictimaiyyəti "Talis Muğam Respublikasının" separatçı qüvvələrini yox, prezident səlahiyyətlərini icra edən Ulu Öndərimiz Heydər Əliyevin və onun şəxsində Azərbaycan dövlətinin qanuni hakimiyyət orqanlarının mövqeyində dayandılar.

Bu xarici dövlətlərin dəstəyinə arxalanan, öz şəxsi maraqları naminə etnik separatizm hərəkatını həyata keçirməyə çalışan bir qrup cinayətkarın dövlətə qarşı silahlı qiyamı idi.

Bununla belə Heydər Əliyevin siyasi uzaqgörənliyi olmasaydı belə bir qiyamı yatırmaq mümkün olmazdı. Nəzərə almaq lazımdır ki, Qarabağ separatizmi kimi "Talis Muğan Respublikası"nın da yaranma səbəbləri vardır. Bildiyimiz kimi 1988-ci ilin fevralında ortaya çıxan Qarabağ separatizm hərəkatı SSRİ-nin dağıldığı dövrdə yeni yaranmış qüvvələrin siyasi təsir və nüfuz dairəsini saxlamağa

imkan verən bir vasitə rolunu oynadı. Eyni zamanda düşmənlərin Azərbaycana qarşı iqtisadi maraqları və ərazi iddiaları var idi. Bundan başqa, o dövrdə Azərbaycanda rəhbərliyin regionda və dünyada baş verən prosesləri təhlil edərək gələcək hadisələri proqnozlaşdırmaq bacarığının olmaması səbəb kimi qiymətləndirilə bilər.

"Talis Muğan Respublikası" ilə bağlı hadisələrin obyektiv əlamətləri Azərbaycan dövlətinin müstəqil siyasi xətt aparmaq istəyinin olması və Azərbaycanın müstəqil siyasətinin nəticəsində onun təsir dairəsinin güclənməsi prosesinə cavab olaraq daxili və xarici qüvvələrin yenidən SSRİ dövlətini yaratmaq planlarıdır.

Beləliklə, Qarabağ separatizmi və "Talis Muğan Respublikası" ilə bağlı hadisələr arasında paralellər aparıla bilər. Ancaq, bu o demək deyil ki, bu hadisələr obyektiv olaraq baş vermişdir. Nəzərə almaq lazımdır ki, eyni qəbildən olan bu hadisələrdə ancaq subyektiv münbit daxili şərait olduqda separatçılıq meylləri reallaşa bilər. Bu mənada Azərbaycanda "Talis Muğan Respublikası" ilə bağlı hadisələr həm də subyektiv səbəblər əsasında baş verdi. Belə ki, o dövrdə qanunsuz silahlı dəstələrin formalaşması faktı var idi ki, bu da etnik müstəqilliyin silah gücünə əldə olunması meyllərini yaratmışdı. Belə ki, hələ Milli Məclisin 19 fevral 1993-cü il tarixli qapalı iclasında Daxili İşlər Naziri İsgəndər Həmidov "Azərbaycanda üç hakimiyyətin mövcud olduğunu bildirmişdir. Bakıda bizim, Gəncədə Sürət Hüseynovun, Lənkənarda isə Əlikram Hümbətovun hakimiyyəti. "Liderlik xəstəliyinə" tutulmuş dövlətçilik və idarəçilik prinsiplərinə məsuliyyətsiz yanaşan "xalqın başbilənləri" sözsüz ki, baş verən hadisələrin səbəbkarları idilər...

Ordu quruculuğunda Ulu Öndərimiz Heydər Əliyevin fəaliyyəti xüsusi qeyd edilməlidir. Belə ki, 1993-cü il iyulun 19-da siyasiləşmiş batalyonların buraxılması haqqında əmr verilmişdi. Bu addımın əhəmiyyəti onda idi ki, müxtəlif siyasi partiyalara və qurumlara tabe olan dəstələrə arxalanaraq qələbə çalmaq olmazdı. Bunun əvəzində Azərbaycan ordusu peşəkar kadrlarla komplektləşdirildi və ordunun siyasiləşməsi prosesinin qarşısı almdı. Fərarilik halları nəzarətə götürüldü, vətəndaşlarla vətənpərvərlik ruhunun gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirildi.

Atəşkəs şəraitində hərbi işin daha da təkmilləşdirilməsi ön plana çəkildi. Müdafiə üçün ordu quruculuğunun əsas prinsip və istiqamətləri müəyyən edildi.

Beləliklə, müdafiə və sülh naminə ordu quruculuğunu həyata keçirmək mümkün oldu.

**Fəzail İBRAHİMLİ**

# AZƏRBAYCANIN NİSBİ MÜSTƏQİLLİYİNİN SONU VƏ QARABAĞ OYUNU

Aprel (1920-ci il) işğalından sonra Sovet Rusiyasının Azərbaycana münasibəti zahirən bərabərhüquqlu dövlətlərin münasibəti təsiri bağışlayırdı. Belə ki, 1920-ci il sentabrın 30-da RSFSR ilə Azərbaycan arasında hərbi-iqtisadi müqavilənin bağlanması, yaxud 1920-ci ilin sentyabrında müstəqil Azərbaycanın paytaxtı Bakıda Şərq xalqlarının birinci qurultayının keçirilməsi respublikanı müstəqil dövlət kimi səciyyələndirən addımlar idi.

Şərq aləmində kommunist ideyalarını yaymaq məqsədi güdən Şərq xalqlarının I qurultayında qarşıya qoyulmuş məqsədin mənasızlığı tez bir zamanda məlum oldu. Şərqdə «dünya inqilabı» ideyalarının yayılması mənasız görünən kimi, Azərbaycanın da müstəqilliyi Rusiyanın nəzərində mənasızlaşdı. Ermənistanda (1920-ci il noyabr) və Gürcüstanda (1921-ci il fevral) sovet hakiyyətinin elan edilməsi ilə «müstəqillik oyunu» sona çatdı. Ortaya yeni bir ideya - Zaqafqaziya respublikalarını vahid bir dövlət çərçivəsində birləşdirmək ideyası atıldı. Bəzi kommunistlərin müstəqil davranış meyllərinin qarşısını alan vahid Zaqafqaziya idarəçilik orqanının yaradılması siyasi cəhətdən elə qoyulurdu ki, guya vahid Zaqafqaziya yaratmaq ideyası yerli kommunistlərin öz arzu və istəyidir. Əslində isə belə bir federasiyanın yaradılmasının layihəsi Moskvada tərtib edilmişdi.

Bu yeni siyasi addımın xalqın istək və tələbi kimi qələmə verilməsi təsadüfi deyildi. Çünki Gürcüstanda, Azərbaycanda və Ermənistanda məsələnin mahiyyətini dərk edən va milli düşüncəli kommunistlər buna qarşı etiraz səslərini qaldırdılar. Lakin onlar «millətçi» möhürü ilə damğalanır va sosializmin düşmənləri elan olunurdular.

Beləliklə, respublikada saysız-hesabsız yığıncaqlar keçirildi və bu yığıncaqlarda əsas qərarlar birmənalı oldu. Yəni, xalq federasiya istəyir. Məsələn, 1921-ci il dekabrın 1-də AHİMŞ-nın plenumunun qəbul etdiyi qətnamədə deyilirdi: «Azərbaycan proletariatı Zaqafqaziya respublikalarının birlaşdirilməsi ideyasını alqışlayır va inanır ki, Zaqafqaziya federasiyasının təşkili işi bu yaxınlarda başa çatdınla-caq və inanır ki, Zaqafqaziyanın inkişafmda yeni va parlaq bir səhifə açacaqdır. Yaşasın vahid Zaqafqaziya! Yaşasın Vahid Zaqafqaziya proletariatı!» («Бакинский рабочий» qəz.,2 dekabr 1921).

1921-ci il dekabrın 25-də toplanmış Qazax partiya təşkilatının V Konfransının qəbul etdiyi qətnamədə deyilirdi «....Yalnız belə bir birləşmə yolu ilə biz qüvvələrimizi birləşdirib Qafqazın dağılmış təsərrüfatını bərpa edə bilərik.... Yaşasın RSFSR-in Sovet Qafqazı ilə sıx ittifaqı» (Бакинский рабочий, 2 dekabr, 1921-ci il).

Azərbaycan Kommunistləri, partiya, sovetlər, komsomol, həmkarlar təşkilatları, bütün kütləvi informasiya vasitələri Zaqafqaziya federasiyasının yaradılmasını canfəşanlıqla təbliğ edirdi.

Beləliklə, «aşağıların istəyi» adı altında yaradılan Zaqafqaziya federasiyasının təşkili yolunda ilk addım 1921-ci ilin aprel ayında atıldı. Azərbaycan, Gürcüstan və Ermənistan dəmir yolu idarəçiliyinin, iyulda isə Xarici ticarət orqanlarının birləşdirilməsi haqqında saziş imzalandı.

1921-ci il noyabrın əvvəllərində RK (b)P Qafqaz bürosu Azərbaycan, Gürcüstan, Ermənistan arasında federativ ittifaqın yaradılması təklifini irəli sürdü. Həmin ayın axırında RK (b)P MK-nin Siyasi bürosu Zaqafqaziya Federasiyasının yaranması haqqında qətnamə qəbul edildi.

1922-ci il fevralında Zaqafqaziya partiya təşkilatlarının I qurultayı çağrıldı, Fevralın 23-də Orconikidze Zaqafqaziya ölkə komitəsinin birinci katibi seçildi. Zaqafqaziya ölkə Komitəsinin Rəyasət heyətinə Orconikidze, Kirov, Oraxelaşvili üzv, Myasnikov isə namizəd seçildi. Elə ilk «tərkibdən» ölkə komitəsinin 1922-ci il aprel plenumu rəyasət heyətinin tərkibinin sayını 5 nəfərə qaldırdı. Myasnikov və Maxaradze rəyasət heyətinin üzvü, Yaqubov isə namizəd seçildi. Yalnız iyun ayında Nərimanov rəyasət heyətinin tərkibinə daxil edildi.

1922-ci il martın 12-də üç respublikanın Mərkəzi Komitələrinin səlahiyyətli konfransı hazırlanmış ittifaq müqaviləsini təsdiq etdi.

1922-ci il dekabrın 4-13 arasında keçirilmiş I Zaqafqaziya Sovetlər qurultayı - Zaqafqaziya Sovet Federativ Sosialist respublikası təşkil etmək haqqında qərar qəbul etdi. Qurultayda Ali qanunvericilik orqanı - Zaqafqaziya Mərkəzi icraiyyə komitəsi seçildi.

AK(b)P-nın V qurultayında (1923-cü il mart) S.M.Kirov və digər partiya liderləri Zaqafqaziya federasiyasının yaradılmasının əsl «bolşevik mahiyyətini» açıqladı: «Bizim siyasi və iqtisadi şəraitimiz elə deyildir ki, biz hər bir millətə imkan verək ki, tam ayrılsın. Bizim milli münasibətlər tarixi sizin yaxşı yadınızdadır. 1917-ci ildə kommunistlər hakimiyyətə gələn zaman çar imperiyası necə oldu - o tam dağıldı. Nəinki hər bir millət ayrıldı və onlar hətta özlərini siyasi cəhətdən dövlət elan etdilər. Bu ilk addım idi ki, biz elan etmişdik hər millət ayrıla bilər. Harın özünü azad və müstəqil hiss etdi... Sosial respublikaları birləşməlidir. O, bir mərkəzdən idarə olunmalıdır. Ordu ordunun gücü və rəhbərliyi bir mərkəzdən olmalıdır... Zaqafqaziya federasiyasının yaranmasını bizim bir illik mövcudluğumuzun başlıca siyasi yekunu hesab etmək olar (ARSPİHMA, f.l, siy. 74, 37 v 31) Digər sovet respublikalarının münsibətlərini formalaşdırmaq məqsədilə 1922-ci ilin avqustunda RK(b)P MK tərəfindən İ.Stalinin başçılığı ilə xüsusi komissiya yaradıldı. Stalinin «muxtariyyətləşdirmə» planı daha çevik planla - «bərabərhüquqlu respublikalar ittifaqı» planı ilə əvəz edildi.

1922-ci il dekabrın 30-da Moskvada açılan SSRİ I Sovetlər qurultayı SSRİ-nin təşkili haqqında bəyannaməni və müqaviləni təsdiq etdi. Qurultay Sovet dövlətinin ali orqanı - SSRİ Mərkəzi İcrayə Komitəsini seçdi.

1923-cü il yanvarın 2-də keçirilən SSRİ MİK-nin birinci sessiyası MİK rəyasət heyətini və sədrlərini seçdi. Azərbaycan Respublikasından bura N.Nərimanov seçildi. Bununla da Sovet Rusiyasının Azərbaycanda yeritdiyi siyasətin «əl ayağına dolaşan» N.Nərimanov respublikadan uzaqlaşdırıldı.

O dövrün rəsmi sənədlərində Zaqafqaziya federasiyasının yaradılmasını ən çox iqtisadi amillə bağlayır, məsələnin əsl mahiyyəti gizlədilməyə cəhd edilirdi. Məsələn, RK (b) P Qafqaz bürosunun 1921-ci il noyabrında keçirilən plenumun qətnaməsində deyilirdi «....Uc respublikada çoxlu xalq komissarlıqları və müəssisələrin mövcud olması nəticəsində böyük qüvvə və vəsaitin sərf edilməsinə səbəb olur və bu bir cox orqanların işində lazımsız paralellik yaradır. Buna görə də dövlət həyatının başlıca və vacib sahələrində ümumi qüvvə ilə inzibati idarəçilik etmək sovet işini məhsuldar edər və qüvvətləndirər («Бакинский Рабочий», 6 noyabr 1921).

Əlbəttə, bütün bunlar bolşevik təbliğatı idi, əsl həqiqətdə ısə Azərbaycanın bütün hüquqları əlindən alınmışdı. Belə ki, xarici işlər, bərbi-dəniz, yol-rabitə, poçt və teleqraf, maliyə, xarici ticarət, ərzaq və neft komissarlığı ləğv edilib onların funksiyaları ZSFSR və SSRİ-nin müvafiq xalq komissarlıqlarına verilir.

Elə bu vaxtlar N.Nərimanov V.İ.Leninə yazırdı: «Əziz Vladimir İliç «görəsən Müstəqil Azərbaycan» sözü sizin ağzınızdan çıxmayıbmı?... çox milyonluq xalqın hüquq və hissləri ilə zarafat etmək olmaz» (ARSPİHDA. f.609. siy. I, iş 71, v. 1-7).

Lakin bu zarafat deyil Rusiya imperiyasını bərpa etmək yolunda həyata keçirilən siyasətin real təcəssümü idi. Məhz bu siyasətlə nəinki Azərbaycanın Müstəqilliyi əlindən alındı, hətta onun ərazi bütövlüyünə qəsd edildi.

Azərbaycanın bolşevikləşməsi və XI Ordunun Azərbaycanda yerləşməsinə baxmayaraq ermənilər Azərbaycana qarşı ərazi iddialıqlarından əl çəkmirdilər.

Azərbaycan ərazisi olan Qarabağa, Naxçıvana, Zəngəzura və b. bölgələrə erməni təcavüzü davam edirdi. 1920-ci ilin yayında Azərbaycanın siyasi vəziyyətinin mürəkkəbliyindən istifadə edən Ermənistan hökuməti təcavüzü gücləndirirdi. İyunun axırında erməni hərbi hissələri Zəngibasarı dağıtdı və Naxçıvana doğru irəlilədi. Lakin Türk qoşunu tərəfindən Naxçıvanın nəzarət altına alınması ermənilərin qabağında sipər oldu. Lakin iyunun axırları - avqustun əvvəllərində «Ermənistanda məğlub edilmiş üsyançıları təqib etmək» bəhanəsi altında Ermənistan qoşunları Zəngəzura yenidən hücum etdi və Zəngəzurun böyük bir hissəsini zəbt etdi. Bu vaxtlar Azərbaycanda baş verən üsyanlar XI Orduda elə bir hiddət yaratmışdı ki, onlar ermənilərin Azərbaycan sərhədinə təcavüzünə və onların törətdiyi cinayətlərə belə biganə qalırdı. Səbəb də məlum idi. Ermənilər tərəfindən Azərbaycanlılar nə qədər çox sıxışdırılsa yerli əhalinin XI orduya itaəti bir

o qədər artardı. Həmçinin Sovet Rusiyasının bu torpaqların hansı millətin əlində olması deyil, bütün Qafqazın bolşevik təsirinə salmaq maraqlandırırdı. Azərbaycandan sonra növbəti hədəf Ermənistan və Gürcüstan idi. 1920-ci il noyabrın 29-da Ermənistanda «inqilab» baş verdi. Noyabrın 30-da AK (b)P MKA-nın Siyasi və təşkilat bürolarının birgə iclası keçirildi. İclasda bu məsələ ilə bağlı hazırlanmış bəyanatın əsas prinsipləri də müəyyənləşdirdi. Bu prinsiplərdən birinə əsasən Azərbaycanla Ermənistan arasında sərhəd məsələsinin mövcudluğu inkar edilirdi. Əslində bu o demək idi ki, Azərbaycan Zəngəzurun bir hissəsinin işğalı ilə razılaşır. Bəyanatın digər prinsipinə əsasən Azərbaycan Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verirdi.

1920-ci ilin dekabrın 1-də elan olunmuş beb bir məsuliyyətsiz bəyanatla Azərbaycan ermənilərin işğalı ilə razılaşdı. Lakin ermənilərin və onların havadarlarının iştahası daha böyük idi. Qarabağın dağlıq hissəsin və Naxçıvan məsələsi gündəlikdə qalırdı. Ermənistan hökuməti Qarabağın dağlıq hissəsini öz tərkibinə daxil edilməsi məsələsini irəli sürdü. 1921-ci il iyulun 27-də AK(b)P MK özünün siyasi və təşkilat bürosunun birgə iclasında bu məsələyə baxmağa məcbur oldu. Bu dəfə milliyyətcə azərbaycanı olan kommunistlər birləşərək yekdilliklə Ermənistanın iddialarını rədd etdi.

Lakin RK. (b)P Qafqaz bürosu rəhbərlərinin erməni-gürcü çoxluğu Qarabağ məsələsini Ermənistanın xeyrinə həll etmək fikrinə düşdü. 1921-ci il iyulun 4-5-də RK(b)P Qafqaz bürosunun iclasında Qarabağ məsələsi müzakirə edildi. İclas səs çoxluğu ilə Dağlıq Qarabağın Ermənistan SSRİ-in tərkibinə daxil etmək qərarı qəbul etdi. Lakin iclasda N.Nərimanovun təkidi ilə Qarabağ məsələsinin Azərbaycan SSR üçün böyük əhamiyyətə malik olduğunu nəzərə alaraq bu məsələnin RK(b)P MK-nın müzakirəsinə çıxarılması haqqında qərar qəbul edildi.

N.Nərimanovun bu məsələ ilə bağlı V.I.Leninə yazdığı məktubda deyilirdi: «Əziz Vladimir İliç: Teleqramda göstərdiyimi təkrar etməyə məcburam, vəziyyət dəhşətdir. Mərkəz Azərbaycanın, Ermənistanın və Gürcüstanan müstəqilliyini qəbul edib. İndi isə mərkəz Azərbaycanın mübahisəsiz ərazisini Ermənistana verir. Əgər bu ərazi Gürcüstana verilsəydi, buna ictimai-siyasi don geydirmək olardı, lakin bu ərazinin Ermənistana, daşnaqlara verilməsi dözülməyən sahədir. Bizim oradakı nümayəndəmiz bu məsələ ilə bağlı sizə ətraflı məlumat verəcəkdir. ...Denikini müdafiə edən Ermənistan müstəqillik, əlavə olaraq ərazi alır... Sovet Rusiyasına ilk meyl edən Azərbaycan isə həm müstəqilliyini, həm də ərazisini itirir... Mən qəti bildirirəm: Əgər bizim fikirlərimizə əhəmiyyət verməsəniz biz geri çağrılmağımız haqqında məsələ qaldıracağıq. ...Mən sizin diqqətinizdə çatdırmaq istəyirəm ki, əgər mərkəz qısa müddətdə daşnak kommunistlərinin iyrəncliklərinə son qoymasa, bütün müsəlman şərqi bizdən üz döndərəcəkdir (ARSPİHMA. f.609,siy., I, iş 71, v.1-7). Bu sətirlər bolşevik ideyalarının toruna düşmüş Azərbaycan rəhbərinin fəryadı idi. Lakin istefa vermək imkam olmayan

N.Nərimanov Moskvanı Şərqin ondan üz döndərməsi ilə hədələsə də heç bir nəticə əldə edilmədi.

RK (b) P MK-nın Zaqafqazia ölkə komitəsinin l923-cü il iyulun -7-28-də keçirilmiş plenumu Q.Orconikidzenin təzyiqi ilə ultimatum formasında bir aylıq müddət ərzində Dağlıq Qarabağa vilayət muxtariyyətinin verilməsi barədə AK(b) P MK-yə tapşırıq verdi. Həmin qərarı yerinə yetirməyə məcbur olan Azərbaycan MİK «Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında» dekret verdi.

Qarabağın dağlıq hissəsinə muxtariyyət statusunun verilməsi Azərbaycan tərəfindən bu torpaqların ermənilərə məxsus olmasının qismən də olsa, etirafı idi. Bu isə Ermənistana və onun himayəçilərinə gələcək siyasi oyunlar üçün bir «əlyeri» qoymaq idi.

SRİ-nin yarandığı vaxt meydana çıxan «Qarabağ muxtariyyatı» oyunu, elə SSRİ-nin dağılmasında da həlledici amilə çevrildi.

**Firdovsiyyə ƏHMƏDOVA**

## CÜMHURİYYƏTİN SONUNCU QANUNUNDA İTİRDİYİMİZ TORPAQLARIN TƏSBİT OLUNMASI

Birinci dünya müharibəsinin sonunda, Rusiya monarxiyasının süqutu və bolşevik hakimiyyətinin müharibədən çıxmaq mövqeyi Qafqaz bölgəsində də yeni, həm də mürəkkəb vəziyyət yaratdı. Cənubi Qafqaz Seymi ilə Osmanlı dövləti arasında münasibətlər çərçivəsində müharibə səviyyəsinə qədər müşayət olunmuş gərginlik Batum danışıqları müstəvisində səngimiş oldu. Bəyan edilmiş Qafqaz respublikaları ilə Batum müqaviləsinin imzalanması vəziyyətin qismən tənzimlənməsi sayıla bilər. Bu prosesdə ərazi və əhali cəhətdən regionda üstünlük təşkil edən Azərbaycan ən ağır zərbəni aldı (əhalisi kütləvi qətliama məruz qaldı, ərazisi talandı, həm də ilk güzəşt addımını atmağa məcbur edildi. 1918-ci il mayın 28-də elan olunmuş Azərbaycan Cümhuriyyətinin Milli Şurası səhərisi gün, mayın 29-da İrəvan şəhərini siyasi mərkəz kimi Erməni federasiyasına güzəştə getməyə vadar oldu. İrəvan quberniyasının iki əsas iri mərkəzlərindən biri olan Gümrü (Aleksandropol) Osmanlıların ixtiyarına keçdiyindən belə bir mərkəz İrəvan şəhəri ola bilərdi. İrəvan şəhərinin erməni idarəçiliyinə keçməsi İrəvan quberniyasının onlara verilməsi demək deyildi. Yeddi qəzadan ibarət olmuş İrəvan quberniyasının beş qəzasına 1918-ci ilin yayında Osmanlı qoşunları nəzarət edirdi. Belə ki, Ararat respublikası ilə Osmanlı dövləti arasında bağlanmış 1918-ci il 4 iyun tarixli Barum müqaviləsinə əsasən, Sürməli qəzası, Aleksandropol, Şərur, Eçmiədzin və İrəvan qəzalarının böyük bir hissəsi Osmanlı dövlətinə keçdi. İrəvan quberniyasının Azərbaycan Cümhuriyyəti hüdudlarına daxil olan hissəsində inzibati hakimiyyəti təşkil etmək barədə Azərbaycan hökuməti 1918-ci il avqustun 14-də qərar qəbul etdi.

İrəvan, Bakı, Yelizavetpol (Gəncə) quberniyaları və Cənubi Qafqazın bir sıra qəza və mahallarından ibarət bir ərazini əhatə etməsi nəzərdə tutulan Azərbaycan muxtariyyəti ilə nisbətdə müstəqil dövlət daha az ərazi hüdudlarında gerçəkləşdi. Osmanlı dövlətinin dünya savaşında məğlubiyyəti onun Cənubi Qafqazdan çıxması ilə nəticələndi. Osmanlı qoşunları İrəvan quberniyasını tərk etdikcə erməni hərbi hissələri həmin əraziləri tutmağa və yerli müsəlman əhaliyə amansız divan tutub, kütləvi şəkildə onları məhv etməklə, əmlaklarını talamaqla torpaqlara yiyələnməyə çalışırdılar. Bu səbəbdən Azərbaycan hökuməti İrəvan quberniyasının tərkibinə daxil olan ərazilərində hakimiyyətinin bərqərar edilməsində çətinliklərlə üzləşdi. İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyətinin yaradılması, Araz-türk Cümhuriyyətinin meydana çıxması, Cənub-Qərbi Azərbaycan general-qubernatorluğunun təşkili və digər müvafiq tədbirlərin görülməsi sayəsində Naxçıvan bölgəsində erməni idarəçiliyinin tətbiqinə sədd çəkilmişdi.

Azərbaycan hakimiyyətinin son günlərində Parlamentin qəbul etdiyi sonuncu qanun da bu qəbildən əhəmiyyətli məzmun daşıyır. 1920-ci il aprelin 22-də Şamxor qəzasının yaradılması barədə 5 bənddən ibarət xüsusi qanun qəbul edildi.

Şamxor qəzası Gəncə qəzasının qərb hissəsində və keçmiş İrəvan quberniyasının Novobayazet (Yeni Bayazid) qəzasının ona bitişik hissələrində yaradılırdı. 34 kənd icmasının daxil edildiyi Şamxor qəzasına İrəvan quberniyasının Novobayazet qəzasının, yəni tarixi Göyçə mahalının kəndləri də daxil idi: Cil, Məzrə, Zod, Basarkeçər, San-yaqub... Lakin beş gün sonra, Cümhuriyyət hakimiyyətinin devrilməsi bu qanunun gerçəkləşməsinə imkan vermədi. Yeni hökumət Cümhuriyyət parlamentinin Şamxor qəzasının yaradılması haqqında qanununu yerinə yetirmədi. Əvvəlki inzibati-ərazi bölgüsü qaldı, I930-cu ildə isə Şamxor rayonu təşkil edildi. İrəvan quberniyasının torpaqları böyük əksəriyyətlə sovet hakimiyyətli quruluşlu erməni idarəçiliyi altına keçdi. İrəvan quberniyası anlayışı isə 1930-cu ildə ləğv olundu. 1918-ci ildə İrəvan quberniyasının nəzarəti altında saxladığı torpaqlarda Osmanlı dövləti nəinki möhkəmlənə bilmədi, 1920-ci ildə ona qarşı açılan çoxtərəfli savaşın cinahında da daşnak erməni dövləti dururdu. Erməni hökumətinin diz çökdüyü məqamda sovet Rusiyası fəndgir tərpəndi: «Antanta bizə quyu qazır, bu quyuya özü düşdü, çünki biz Sovet Ermənistanına nail olduq» məzmunlu Lenin deyimi Azərbaycan torpaqlarının sövdələşmə predmeti olduğu və sonunda ermənilərə ərməğan edilməsi ilə bitən siyasətin həm örtülü ifadəsi, həm də açıq anlamı sayıla bilər. 90 il öncə itirilmiş Azərbaycan torpaqları nəinki geri qaytarılmadı, yeni tarixi fürsətdən yararlanan erməni siyasəti XX yüzilliyin sonlarında böyük geopolitikada qazanclı çıxmaq konyunkturasını qətliamdarı tutmuş diplomatik oyunbazlığadək cuğlaşan taktika üzərində quraraq Azərbaycan Respublikası torpaqlarının daha 20 faizinin işğalını həyata keçirtdi.

**Firdovsiyyə ƏHMƏDOVA**

# «QARABAĞ QİYAMI» AZƏRBAYCAN CÜMHURİYYƏTİNİ DEVİRMƏK PLANININ TƏRKİB HİSSƏSİ KİMİ

Sovet Rusiyasının Qafqaz siyasətinin fəallaşdığı, Şimali Qafqazda məqsədlərinə nail olub cənuba doğru irəlilədiyi dövr ingilis diplomatiyasının manevr edərək Cənubi Qafqaz respublikalarını beynəlxalq səviyyədə qəbul etmək, tanıtmaq siyasətini şərtləndirirdi. Lakin, bu siyasətin arxasında Qafqaza ordu yeridilməsi dayanmırdı. Ordu göndərmədən Qafqazı Rusiyanın bolşevik qoşunlarının hücumundan qurtarmağın qeyri-mümkün olduğu barədə həmin dövrün tanınmış hərbçiləri yekdil rəydə idilər.

Azərbaycan Cümhuriyyətinin devrilməsini bir sıra amillər şərtləndirsə də Sovet Rusiyasının birbaşa hərbi müdaxiləsi nəticəni təmin etdi. Təcavüzün qarşısını almaqda Azərbaycan silahlı qüvvələrinin imkanlarına ciddi təsir göstərən hadisə 1920-ci ilin martında Qarabağda törədilən «erməni qiyamı» oldu. «Qiyam»ın Ermənistan hökuməti tərəfindən əvvəlcədən hazırlanan akt olduğunu arxiv sənədləri təsdiqləyir. 1920-ci il martın 28-də Azərbaycanın xarici işlər naziri F.x.Xoyskinin xarici diplomatik missiyalara və Gürcüstanın xarici işlər nazirinə göndərdiyi teleqramda göstərilir ki, martın 22-si gecə saat 3-də Qarabağdakı erməni silahlı qüvvələri nizami hərbi hissələri və artilleriya ilə gücləndirilərək Şuşa, Xankəndi, Əskəran, Xocalı, Tərtər və digər məntəqələrdə yerləşən Azərbaycan hərbi hissələri üzərinə eyni vaxtda qəfildən hücum etmişlər. Teleqraf və telefon xətlərini isə əvvəlcədən sıradan çıxartmışlar. Şuşa və Əskəran yüksəkliklərini ermənilər top atəşinə tutmuş, səhərisi gün erməni silahlı qüvvələri Cəbrayıl və Zəngəzur qəzalarında müsəlman kəndlərinə hücum çəkərək, bir sıra kəndləri məhv etmişdilər.

Alınan məlumata görə «qiyam etmiş» ermənilərin köməyinə İrəvan quberniyasının Novobayazid qəzasından kömək gəlmiş və Qazax qəzası yaxınlığında yerləşən Toğluca kəndinə erməni qoşunları daxil olmuşdu. Gözlənilmədən tam məhv olmaq təhlükəsi qarşısında qalan Qarabağ müsəlmanları ayrı-ayrı dəstələr şəklində müdafiəyə qalxmış, bəzi yerlərdə elə birinci gün ermənilərin qəfil hücumunun qarşısını almış, digər yerlərdə isə sonrakı günlərdə belə var qüvvələri ilə müdafiəyə davam etmişdilər. Azarbaycan hökuməti Qarabağda qayda-qanunu bərpa etmək və gələcəkdə mümkün ola biləcək belə hücumların qarşısını almaq üçün təcili tədbirlər gördüyünü bildirirdi. Dinc mülki müsəlman əhalisinin təcavüzə məruz qaldığı bir ölkənin hökumətinin müvafiq tədbirlər görməsini onun sülhpərvər siyasət yeritmədiyi kimi qələmə verən qüvvələr ittihamla qarşılayırdı. Nəticə etibarila məsuliyyət təcavüz edən tərəfin deyil, təcavüzə məruz qalan tərəfin üzərinə qoyulurdu. Azərbaycan hökuməti özünün müdafiə xarakterli tədbirlərinə haqq qazandırmaq məqsədilə 1920-ci il

aprelin 5-də müttəfiq dövlətlərin Cənubi Qafqazdakı ali komissarlarına nota ilə müraciət etməli oldu. «Qarabağ qiyamı»nın nəticələrini aradan qaldırmaq üçün müraciətlər edilməsi, regional və beynəlxalq səviyyədə dəstək alınası əvəzinə Azərbaycan hökuməti günahkar tərəf kimi hərəkətlərinə bəraət qazandırmaq məcburiyyətinə düşmüşdü. 5 aprel tarixli nota da bu qəbildən olub, 28 mart tarixli teleqramın məlumatını təsdiqləyir, hökumətin sülh məramlı mövqeyinə haqq qazandıracaq faktları (Sürməli və Naxçıvan rayonlarında, Zəngəzur hüdudlarında, Qars vilayətində və d. yerlərdə müsəlmanların talana, qarəta, qətliama məruz qalması) diqqətə çatdırırdı. Sadalanan bütün bu hallar zamanı Azərbaycan hökumətinin təmkinli siyasəti, sülh yolu ilə tədbirlər görməyi, həmçinin 1919-cu ilin Tiflis konfransında bütün mübahisəli məsələlərin razılaşma yolu ilə həllinə dəstək verməyi vurğulanırdı. Qarabağ hadisələrinə dair hökumətin mövqeyi belə idi ki, ermənilərin Azərbaycan qoşunlarına xaincəsinə hücumu bütün Qarabağı zor gücünə ələ keçirmək məqsədilə əvvəlcədən hazırlanmış plan üzrə həyata keçirilmişdir. Bu planın daha hansı bir məqsəd üçün faydalı ola biləcəyi barəsində hökumətin mülahizaləri notada öz əksini tapmışdır: «Azərbaycan xalqı, onun istiqlaliyyətini və mövcudluğunu təhdid edən xarici təhlükə ilə birbaşa üz-üzə qaldığı hazırkı şəraitdə daxili qayda-qanuna va sakitliyə daha çox ehtiyac duyur». Deməli, «Qarabağ qiyamı» «xarici təhlükə», yəni bolşeviklərin şimaldan gözlənilən təcavüzü üçün əlverişli şarait yarada bilərdi və Azarbaycan hakimiyyəti öz mövcudluğuna qarşı yönələn təhlükəyə yardım edə biləcək hər hansı bir akta rəvac verə biləcək addım atmaqda maraqlı ola bilməzdi. Azərbaycan hökuməti «Qarabağ qiyamı»nın öz hakimiyyətlərini devirəcək planın tərkib hissəsi olduğunu qəsd etməsə də, ermənilərin əvvəlcədən düşünülmüş qəsbkarlıq planı olduğunu yəqinliklə bildirirdi. «Qiyamın» Qarabağ erməniləri tərəfindən Azərbaycan hakimiyyətinin gördüyü tədbirlərə adekvat olaraq baş verdiyini əsaslandırmaq, Ermənistan hökumətinin nizami qoşun hissələrinin təcavüzünü pərdələmək, hətta haqq qazandırmaq məqsədilə hələ 1920-ci ilin əvvəllindən zəmin hazırlanırdı. Azərbaycan hərbi hissələri tərəfindən guya 400 dinc ermənini döyülməsi, evlərinin talan olması, ermənilər üçün Ağdam-Şuşa yolunun bağlanması, onların iqtisadi boykota məruz qalması kimi saxta məlumatları təkzib edən Azərbaycan hökuməti həqiqətdə isə, fevralın 21-də Xankəndi yaxınlığında Azərbaycan əsgərinin öldürülüb, meyidinin eybəcər hala salınması nəticəsində yarana biləcək qarşıdurmanın təcili tədbirlərlə qarşısını almağa nail olduğunu bildirirdi. Erməni hökumətinin aldığı informasiyanın yalan olduğu göstərilirdi. Belə məzmunda notanm göndərildiyi 16 mart tarixindən sonra, aprelin 5-də xarici işlər naziri F.x.Xoyskinin yenidən eyni ittihamları qətiyyətlə rədd etməsi göstərir ki, erməni hökuməti yalan informasiyaya nəinki inanmaqda və onun yayılmasında maraqlıdır, həm də həmin informasiyanın özü tərəfindən beynəlxalq siyasi dövriyyəyə gətirilməsi də istisna deyildi. Qarabağ ermənilərinin boykotu, onlar üçün Şuşa-Yevlax yolunun bağlanması, Azərbaycan hökuməti tərəfindən onların tərk-

silah edilməsi tələbi, kəndlərinin top atəşinə tutulması kimi yalan məlumatlar bir neçə istiqamətdən Ermənistan hökuməti üçün sərfəli ola bilərdi: 1) 1920-ci il yanvarın əvvəllərindən erməni hökuməti qoşunları silahlı erməni dəstələri ilə birlikdə Zəngəzurdan Şuşa qəzası istiqamətində hücuma başlamış, yol boyu müsəlman kəndlərini məhv edərək irəliləyirdilər. Azərbaycan və Ermənistan hökumətləri arasında 1919-cu il 23 noyabr sazişindən 1920-ci ilin yanvarı arasındakı müddətdə erməni qoşunları tərəfindən Zəngəzur qəzasının 40 müsəlman kəndi məhv edilmişdi. Bu prosesin davam etdirilməsinə etirazını bildirən Azərbaycan hökuməti qarşısında özlərinə bəraət qazandıracaq əks ittihamla çıxış etmək baxımından saxta məlumatlarla manipulyasiya edilirdi; 2) Azərbaycan hökumətini nəzərdə tutulan və ciddi şəkildə hazırlanmış «Qarabağ qiyamı» barədə duyuq salmamaq məqsədilə; 3) «Qarabağ qiyamı»nın Ermənistan hökumətinin əli olmadan, sırf Qarabağ erməniləri tərəfindən törədilməsi təəssüratı yaratmaq məqsədilə. Belə ki, Azərbaycan hökumətinə qarşı yönəlmiş ittihamların məzmununu Qarabağ ermənilərinin vəziyyəti ilə əlaqədar yaradılmış saxta mənzərə təşkil edirdi: yolları bağlanmış, boykot edilmiş, döyülmüş, qarət olunmuş, tərk-silaha vadar edilmiş, kəndləri artilleriya atəşinə tutulmuş zavallı erməni əhalisinin qiyama qalxması təbii qəbul edilə bilərdi. Bölgədəki xarici diplomatik missiyaların da qınaq hədəfinə çevrilə biləcək Azərbaycan hökuməti haqsız durumunda sərt addımlar atmaqdan çəkinərsə ermənilər Qarabağla bağlı planlarını reallaşdıra bilərdilər. Əgər Azərbaycan hökuməti qətiyyətli mövqe nümayiş etdirib qiyamı yatırmağa hərbi qüvvələrini səfərbər edərdisə sərhəd zonalarından, o cümlədən şimal sərhədlərindən qoşunların cəlb olunması Sovet Rusiyası ordusunun «Bakı yürüşünə» Azərbaycana müdaxiləsinə imkan yaratmış sayıla bilərdi. Ermənistan hökumətinin 1920-ci ildə Qarabağla bağlı fəal müdaxilə planlan RSFSR xalq xarici işlər komissarı G.V.Çiçerinin Azərbaycan hökumətinə göndərdiyi notalarla eyni vaxta təsadüf edirdi.

Gözlənildiyi kimi, Azərbaycan hökuməti Ermənistan hökumətindən erməni qoşunlarının təcavüzkar hərəkətlərinin dərhal dayandırılmasını qətiyyətlə tələb etmiş, əks təqdirdə öz vətəndaşlarının həyat və əmlakını müdafiə üçün qəti tədbirlər görməyə məcbur olacağını və baş verə biləcəklər üçün bütün məsuliyyəti erməni hökumətinin üzərinə qoyduğunu bildirmişdi.

«Qarabağ qiyamı»nı Azərbaycan dövlətinə qarşı təhlükə kimi dəyərləndirən hökumət yubanmadan Qarabağda vəziyyətin nəzarət altına alınmasına nail ola bildi. Bu məqsədlə Azərbaycanın şimal sərhədlərindən qoşunların cəlb olunması ciddi təsir göstərdi. Ermənilərin xeyrinə işləməli saxta məlumatların yayılması da təsirsiz qalmadı. Müttəfiqlərarası komissiyanın yalnız Qarabağa göndərilməsini yanlış sayan F.x.Xoyski aprelin 8-də müttəfiq dövlətlərin Cənubi Qafqazdakı Ali komissarlarına nota göndərərək Qars vilayətində müsəlmanların zorakılığa, qətliama məruz qaldığı bir şəraitdə təkcə Qarabağdakı hadisələri ayırmağı Cənubi Qafqaz xalqlarına bərabər münasibətin olmaması, Azərbaycan hərbi hissələrinə

basqın etmiş ermənilərə kömək göstərmək cəhdi kimi anlaşılanacağını yazırdı. Elə həmin gün F.x.Xoyski bir notanı da Ermənistan xarici işlər nazirinə ünvanlamışdı. Alınmış rəsmi məlumatlara görə Qazax qəzasının bir sıra müsəlman kəndləri ermənilər tərəfindən dağıdılmışdı.

1920-ci ilin aprelində, Rusiyanın XI Qırmızı ordusunun Azərbaycan hüdudlarını keçməyə hazırlaşdığı bir ərəfədə Qazax qəzası istiqamətində erməni nizami qoşunlarının hücuma başlaması Azərbaycan üçün ikinci cəbhənin təşkili demək idi. Aprelin 5-dən başlayaraq bir neçə istiqamətdə hücuma başlayan erməni qoşunlarına general Bağdasarov, Dilican şosesinə doğru hücum edən hərbi hissəyə polkovnik Vartakonyan komandanlıq edirdi. Dəfələrlə təkrarlanmış situasiya bir daha baş verdi.

Ermənistan tərəfinin vədinə inanmaqla Azərbaycan növbəti dəfə erməni xəyanətinin şahidi oldu. Azərbaycan general-qubernatorunun hərbi əməliyyatları dayandırmaq üçün danışıqlar aparmaq təklifinə Bağdasarov razılıq verdikdə, Azərbaycan tərəfi hərbi əməliyyatları dayandırmış, bundan istifadə edən Bağdasarov yenidən hücum başlamış, yüksəkliklərdəki silahlardan Azərbaycan kəndlərini top atəşinə tutmuşdur. Azərbaycan hökuməti Ermənistan hökumətindən Azərbaycan ərazisinə hücumları dərhal dayandırmaq və qoşun hissələrini geri çəkmək haqqında təcili sərəncam verməyi xahiş edirdi. Azərbaycan Cümhuriyyəti hökumətinin bu məzmunda nota və teleqramları hakimiyyətinin devrilməsinədək davam etmişdir. Hətta aprelin 9-da Tiflisdə işə başlayan Cənubi Qafqaz respublikaları konfransında qərara alınmışdı ki, Qazaxda, Naxçıvanda, Ordubadda və Qarabağda baş verən bütün qanlı toqquşmalar dərhal dayandırılsın və bu məqsədlə Azərbaycan, Ermənistan hökumətləri yubanmadan ən qəti tədbirlər görsünlər.

1920-ci ilin yazında ermənilərin "bütün cəbhəboyu" hücuma keçməsini hərbi əməliyyatların coğrafiyası təsdiqləyir. Azərbaycanın İranda diplomatik nümayəndəsi A.Ziyadxanovun 10 aprel tarixli məlumatında bildirilir ki, erməni hərbi hissələri Naxçıvan və Ordubad rayonlarında mütəşəkkil hücuma keçmişlər. Bu hücumda İran ermənilərinin iştirakına dair A.Ziyadxanova göndərilmiş teleqramlarda məlumatlar olduğu bildirilir. İran ermənilərinin bu hücumda iştirakı ilə bağlı A.Ziyadxanov İran hökuməti qarşısında məsələ qaldırmış, həmçinin ermənilərin adı çəkilən rayonlara hücumu haqqında Tehrandakı ingilis, amerikan, fransız diplomatik nümayəndələrinə mnlumat vermişdir. Top atəşləri ilə güclü dağıntılar törədildiyi, yerli əhalinin təcili yardım yalvarışında qəhrəmancasına öz ərazisini qoruduğu, qaçqınların isə həmin rayonlarda aclıq keçirdiyi bildirilirdi. Qazax general-qubernatorunun 12 aprel tarixli məlumatında ermənilərin aprelin 9-da erməni va müsəlman sərhəd kəndləri arasında toqquşmanın dərhal dayandırılması haqqında bağlanmış sazişi pozaraq müsəlman kəndlərinə hücum etdiyi xəbər verilir. Azərbaycan tərəfindən həmin ərazidə bütün sərhəd boyunca ağ bayraqlar qoyulduğuna baxmayaraq adları çəkilmiş 8 müsəlman kəndinin

yandırıldığı göstərilmişdir. Ermənilərin belə hərəkətlərinə qəti etirazını bildirən xarici işlər naziri F.x.Xoyski sərhəd əhalisi arasında qantökülməsinin dayandırılması üçün ən təcili tədbirlər görməyi Ermənistanın xarici işlər nazirindən növbəti dəfə xahiş edirdi. Sonrakı yaxın 2-3 gün ərzində F.x.Xoyski Ermənistana növbəti notaları göndərməyə məcbur olmuşdu. Ermənistanın müsəlman sərhəd kəndlərinə təcavüzünü dəf etmək məqsədilə Azərbaycan hökuməti Qazax rayonuna kiçik hərbi dəstə göndərmişdi. Cənubi Qafqaz konfransının işi başlaması va beynəlxalq komissiyanın nəzərda tutulması səbəbindən hökumət həmin hərbi dəstənin dərhal Qazaxdan geri çağırılması haqqında qərar qəbul etdi. Ermənistan hökumətinin də öz növbəsində analoji tədbirlər görəcəyinə ümid bəslənilirdi. Bu ümidin də dərhal puça çıxdığı bəlli olur. Cənubi Qafqaz konfransının Qazaxa göndərdiyi komissiyanın təklifinə də əməl olunmadı. Toqquşmaya qədərki sərhəd xəttini bərpa etmək təklif olunsa da erməni hərbi hissələri ələ keçirdikləri əraziləri tərk etməmişdi. Ermənistan daxili işlər naziri müavininin iştirak etməsinə baxmayaraq komissiya istədiyinə nail olmayaraq Tiflisə geri dönmüşdü. Nəticə etibarilə Azərbaycan tərəfi Qazax rayonundan hərbi hissələrini geri çağırdığından yerli müsəlman əhalisi güclü təşviş və təlaş içində qalmışdı. Təcavüzü davam etdirən Ermənistan hökuməti isə bilərəkdən Azərbaycanı hücuma keçməkdə günahlandırırdı. Ermənistan dövləti üçün «yanlış məlumatlar» hərbi müdaxiləni genişləndirmək məqsədilə sərfəli idi. 1920-ci ilin aprelində Azərbaycan eyni vaxtda, bəzən də eyni günlərdə həm Ermənistana, həm də Rusiyaya nota göndərməli olmuşdu. Birincinin artıq baş vermiş və davam edən təcavüzünə, ikincinin isə potensial təcavüzkarlıq niyyətlərinə, aprelin ortalarında artıq Azərbaycan Cümhuriyyətinin sərhədlərində - Dərbənd rayonunda Rusiya sovet hökumətinin xeyli hərbi qüvvələrinin cəmləşməsinə münasibət bildirilirdi.

Azərbaycan Cümhuriyyətinin devrildiyi 27 aprel günündə belə "Azərbaycan" qəzetində ermənilərin müsəlman kəndlərinə basqınlarından bəhs edilirdi. Novobayazitdəki ermənilər Şişqaya kəndinə hücum etmiş, əhaliyə divan tutmuş, sonra Cil kəndinə hücuma başlamışlar. Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi T.Makinskiyə tapşırılırdı ki, erməni hücumlarını dərhal dayandıracaq təcili addımlar atılsın, həmçinin beynəlxalq komissiyaya xəbər verilsin. Qarabağdakı vəziyyəti öyrənərək üçün beynəlxalq komissiya (Q.K.Alşibay, Popovyan, M.Vəkilov və müşavirlər) aprelin 19-u axşam Qarabağa yola düşmüşdü.

"Qarabağ hadisələri" Azərbaycan parlamentinin 1 aprel tarixli iclasında xüsusi müzakirə olunmuşdu. Daxili işlər naziri M.Vəkilovun çıxışından sonra qızğın müzakirə keçmişdir. Sol sosialist Ə.Qarayevin çıxışı "Qarabağ qiyamı" barədə öncədən məlumatlı olduğu və xəbərdarlıq etdiyi barədə idi: "Biz demişdik ki, bir nəfər İrəvan Parlamentinin üzvü Qarabağda əyləşib orada üsyan hazırlayır... Bu hərəkat Qarabağ məsələsi deyildir. Bu ümum Anadolu və Azərbaycan üçün hazırlanmış bir plandır... Bu gün biz ciddi surətdə Qırmızı Ordu ilə danışığa

girməliyik". M.-Ə.Rəsulzadənin təbiri ilə "Qarabağ asilərini təfrik etmək üçün Sovet Rusiyasının qırmızı ordularını" gətirtməkdə ittiham olunan sosialistlərə kəskin mövqe bildirildi: "siz həqiqi bir istiqlaliyyətçisi deyil, digər bir üsyan hazırlayan bir sui-qəsdçisiniz... həqq və hüquqdan danışmaq əvəzinə bizi təhdid edirsiniz ki, hökuməti bizə verməsəniz dalınızda böyük Rusiya və onun böyük Qırmızı Ordıısu var. Onlar gəlib sizi qıracaqlar... daşnaqların Qarabağdakı xəyanətlərindən istifadə edib hökuməti yıxmaq istəyirsiniz". «Qarabağ qiyamı»na daha geniş müstəvidə baxan natiqlər məsələnin son dərəcə mühüm olduğunu söyləyirdilər: "yalnız Qarabağ məsələsi deyil, burada Antanta Şərq və Aləmi İslam və Türkiyə məsələləri də vardır. Əlavə Şimaldan gələn təhlükə də vardır. Gördünüz düşmənlər nə gözəl fürsət tapmışlar, bizi məhv etmək üçün nə böyük əzm etmişlər. Onlar görürlər ki, bizi Şimaldan böyük təhlükə gözləyir. Bizim əleyhimizə məmləkət daxilində böyük bir üsyan qaldırmaq istəyir".

Parlamentdə "Qarabağ qiyamı" ətrafındakı müzakirələr bu hadisənin "Rusiya qırmızı qoşununun" Azərbaycan hüdudlarında olması ilə birbaşa əlaqəsini təsdiqləyirdi. Bu əlaqənin hansı məzmun və formada gerçəkləşdiyinə müxtəlif siyasi qüvvələr öz münasibətlərini bildirmişdi. Hələ 1919-cu ildə N.Nərimanov Azərbaycan hökumətinin başçısı N.Yusifbəyliyə məktubunda yazırdı ki, Ermənistan öz agentlərini Moskvaya göndərərək, sovet oriyentasiyasından bəhs edirlər. 1920-ci ilin əvvəllərində erməni sosial-demokratlar Pirumov və Zaxaryan Moskvada "ərazi güzəştləri müqabilində Azərbaycan Respublikası hökumətini devirmək işində öz hökumətlərinin təklifini" bildirmişdilər.

Azərbaycan hökuməti fəaliyyəti dövründə erməni vətəndaşlarına münasibətdə heç bir ayrı-seçkilik fərqi qoymadan, parlamentdə, hökumətdə və d. dövlət strukturlarında onların təmsil olunmasına imkan yaratmışdı. Ermənilərin müsəlmanlara qarşı törətdikləri qanlı qırğınlar, Ermənistan dövlətinin öz ərazisində müsəlman əhalisinə qarşı düşmənçilik siyasəti, həmçinin Azərbaycanın digər ərazilərini ələ keçirmək yönündə təcavüzü davam etdirməsi müqabilində sülhpərvər mövqeyinə, bəyan etdiyi prinsiplərə sadiq qalmağa çalışmışdı. "Qarabağ qiyamı"na münasibətdə Mirzə Sadıq Axundzadənin parlamentdəki çıxışında dediyi kimi, «biz əslən sülhpərvər və rəhmdil olduq. Ermənilərə muxtariyyət verdik, asayiş bərpa etdik. Hökumət erməni məktəblərinə paralar, milyonlar buraxdı. Bunların müqabilində bizim əleyhimizə üsyan qaldırdılar. Biz heç zaman məğlub olmamışıq, Qarabağ-Tərtər cəbhəsi bunu isbat edir».

«Qarabağ qiyamı»nın nümunəsində bir daha təsdiqini tapmış mülahizələr əsasında ümumiləşdirmələr etmək olar. Ermənilər tərəfindən təcavüzün ənənəvi mərhələləri ibarətdir: təcavüzə əsas yaralmaq (əsasən təxribatçı xarakterli mənəvi-ideoloji məzmun daşıyır); hücuma keçmək; Özünə qarşı təcavüzdə qarşı tərəfi ittiham edib, ictimai rəy yaratmaq və imdad istəmək. Azərbaycan tərəfindən həyata keçirilən siyasətin və məruz qaldığı vəziyyətin mərhələləri ibarətdir: sülhpərvər mövqeyini bəyan etmək və müvafiq məzmunda

sadiq qaldığını isbatlamaq; təcavüzə məruz qalmaq; təcavüzün nəticələrini aradan qaldırmaq yönündə tədbirlər gördükdə təcavüzkarlıqda ittiham olunub haqlı mövqeyini qəbul etdirməkdə çətinliklərlə qarşılaşıb, ictimai rəyi dəyişdirməyə çalışmaq.

Ərazi iddialarından əl çəkməyən potensial rəqiblə münasibətlərin normal vəziyyətində belə diplomatiyanın strateji-analitik istiqaməti dinamik funksional mexanizmə malik olmalıdır. Beynəlxalq və regional səviyyədə yarana biləcək yeni şəraitdə potensial rəqibin davrana biləcək variantları proseslə eyni vaxtda, mümkünsə öncədən təhlil edib qabaqlayıcı tədbirlər görülməsi strategiyası seçilməlidir. Potensial rəqibin ənənəvi siyasəti və müvafiq fəaliyyəti təcrübəsinin təhlili əsasında mərhələli planın birinci pilləsində qabaqlayıcı siyasət formalaşdırılmalıdır. Bir əsrdən artıq Azərbaycanın təcavüzə davamlı məruz qalma tarixinin təhlili nəticələri çağdaş diplomatiya və müdafiə strukturları ilə yanaşı və daha artıq səviyyədə milli təhlükəsizlik sisteminin müvafiq istiqamətdə fəaliyyət istiqamətlərini müəyyənləşdirməyə yönəldilməlidir.

**Güldanə BABAYEVA**

## DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ VƏ TÜRKDİLLİ DÖVLƏTLƏRİN MÖVQEYİ

Qarabağ Azərbaycanın ən qədim tarixi vilayətlərindən biridir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın adı Azərbaycan dilindəki "qara" və "bağ" sözlərindən əmələ gəlmişdir. "Qara" və "bağ" söz birləşməsi Azərbaycan xalqının özü qədər qədim tarixə malikdir. Dünyanın hər yerində bu söz birləşməsinin Azərbaycanın konkret ərazisinə aid edilməsi də danılmaz həqiqətdir. Azərbaycan xalqının öz doğma torpağının bir parçasına verdiyi "Qarabağ" sözü ilk mənbələrdə hələ 1300 il bundan əvvəl (VII əsrdən!) işlənmişdir. Qarabağ əvvəllər bir tarixi coğrafi anlayış kimi konkret məkanı bildirmiş, sonra isə Azərbaycanın geniş coğrafi ərazisinə aid edilmişdir.

1985-ci ilin dekabrında ABŞ-dakı daşnak partiyası və erməni milli komitəsi "Böyük Ermənistan" yaratmaq və Qarabağla Naxçıvanı, habelə Gürcüstanın Axalkalaki bölgəsini Ermənistana birləşdirməyi strateji məqsəd elan etdilər. O vaxtdan Dağlıq Qarabağ məsələsi ilə bağlı Ermənistanın iddiaları daha aşkar xarakter almışdır.(l, 69-72)

Ermənistan beynəlxalq hüquq normalarını və BMT nizamnaməsini kobudcasına pozaraq Dağlıq Qarabağ üstündə respublikamıza qarşı elan olunmamış müharibəyə başladı, sərhədlərimizdə, hətta vətənimizin daxili ərazilərində günahsız qocaların, qadınların və məsum körpələrin qanı töküldü. "Böyük Ermənistan" yaratmaq məqsədini qarşıya qoyan təcavüzkar Yerevan Azərbaycanın xeyli hissəsini işğal etdi. 330 min nəfərdən çox əhalisi olan

Naxçıvanı blokadaya aldı. Ermənistan parlamenti isə daha da irəli gedərək 1989-cu il dekabr ayının 1-də Dağlıq Qarabağın Azərbaycan tərkibindən çıxarılaraq Ermənistana birləşdirilməsi barədə qərar qəbul etdi. 1990-cı ildə isə Dağlıq Qarabağdan Ermənistan parlamentinə 12 nəfər deputat seçildi.(2, 198-201)

Yuxarıda sadalananları qeyd etməkdə məqsədimiz Ermənistanın təcavüzkarlığının gedişini açmaqla yanaşı, onun beynəlxalq tərəflərini şərh etməkdi. Azərbaycana qarşı təcavüzkarlığını pərdələmək üçün Ermənistan münaqişənin kökləri barədə yanlış təsəvvür yaratmağa çalışırdı. Antitürk, eləcə də, antiazərbaycan siyasəti Ermənistanın xarici siyasətinin rəsmi baş xəttinə və dövlət ideologiyasına çevrilməsinə baxmayaraq, çox təssüf ki, uzun müddət bu münaqişə Türk dövlətlərində birmənalı şəkildə qəbul edilmirdi. Sovet hakimiyyəti illərində Ermənistanda yaşayan azərbaycanlıların məskunlaşdığı şəhər, qəsəbə və kəndlərin tarixi adları dəyişdirildi, məscidlər, qəbiristanlıqlar yerlə-yeksan edildi və xəritədən silindi. Əsrin əvvəllərində əhalisinin yarıdan çoxu azərbaycanlılar olan Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmadı. Bir hissəsi 1918-1920-ci illərdə, ikinci hissəsi 1948-1952-ci illərdə qovulan azərbaycanlıların sonuncu 205 min **nəfəri** 1988-ci ildə bir neçə gün ərzində Ermənistandan vəhşicəsinə qovuldu. Nəticədə Ermənistan vətəndaşlarının 99 faizi ermənilərdən ibarət olan vahid millətli respublikaya çevrildi. Buna görə də Ermənistanın hərəkətlərinə regional hadisə kimi baxıla bilməz. Belə hərəkətlər bütün dünya birliyini düşündürməlidir.(3, 101 -106)

Bəzi Türk dövlətlərinin siyasətçiləri bunu belə əsaslandırırlar ki, guya Türkdilli dövlətlərin hər birinin özünün bu gün sosial-iqtisadi və xarici siyasəti ilə bağlı çoxlu problemləri var. Onların iqtisadi sahədə uğurları-olduğu kimi, çətinlikləri də var. Yalnız və yalnız Türkdilli dövlətlər iqtisadi, siyasi və mənəvi cəhətdən öz imkanlarını bu gün birləşdirərlərsə, həm bu problemləri aradan qaldırmaq asan olar, həm də beynəlxalq məsələlərdə Türk dünyası üçün ümumi problemlərdə bu ölkələr bir-birinə dəstək verərlərsə, deməli bir çox məsələlərdə onların mövqeləri möhkəmlənə bilər.

Lakin bu izah yetərli sayıla bilməz. "Böyük Ermənistan" yaratmaq məqsədi ilə Azərbaycan və Türk xalqları onilliklər boyu müntəzəm surətdə ermənilərin ideoloji, hərbi və mədəni təcavüzünə məruz qalıb. XIX əsrin birinci yarısında İrandan və Osmanlı imperiyasından köçürülən ermənilər hesabına Qarabağ və Zəngəzurda demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905 və 1918-ci illərdə azərbaycanlı əhalinin kütləvi qırğınları, 1918-ci ildə tarixi Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaradılması və Azərbaycanın ən mühüm mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərinin paytaxt kimi Ermənistana güzəştə gedilməsi və yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli torpaqlarından deportasiyası və sair faktlar soyqırım tarixinin faciəli və qanlı səhifələridir.

Dağlıq Qarabağ münaqişəsi təkcə Azərbaycana deyil, Türkiyəyə və bütün türk dünyasına qarşı yönəldiyindən Azərbaycan qədər, Türk dövlətlərinin də xarici siyasətinin prioriteti olmalıdır. Türk dövlətləri içində Dağlıq Qarabağ məsələsində Türkiyənin fəaliyyətini xüsusilə qeyd etmək olar. Cənubi Qafqazda, xüsusilə Azərbaycanda maraqları olan Rusiya, İran, ABŞ və Qərbi Avropa dövlətlərindən fərqli olaraq Türkiyə Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə, beynəlxalq hüquq normalarına müvafiq həllinin tərəfdarıdır və öz regional siyasətini həmin istiqamətdə qurur. Ümumiyyətlə, Türkiyə Dağlıq Qarabağ münaqişəsində digər "güc mərkəzləri"nə nisbətən həmişə birtərəfli, düzgün siyasi mövqe nümayiş etdirir. Türkiyənin Azərbaycanda strateji maraqları Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsir göstərir. Lakin Türkiyə münaqişənin həllində vasitəçi rolu oynamadığından bir qədər kənarda qalmaq məcburiyyətindədir. (4, 98-99) Türkiyənin Azərbaycanda strateji maraqlarının təmin edilməsinin Dağlıq Qarabağ münaqişəsinə təsir edən müsbət tərəflərini aşağıdakı şəkildə göstərmək olar.

1. Azərbaycanla Türkiyə arasındakı tarixi dostluq və strateji tərəfdaşlıq münasibətləri Azərbaycan dövlətinin regionda siyasi mövqeyinin möhkəmlənməsinə səbəb olur;

2.Azərbaycanın NATO ilə inteqrasiyasına Türkiyə ilə münasibətləri müsbət təsir edir. İki dövlət arasında hərbi sahədəki əlaqələr Azərbaycan ordusunun güclənməsinə xidmət edir ki, bu da gələcəkdə Dağlıq Qarabağın işğaldan azad olunması uğrunda başlaya biləcək müharibədə Azərbaycan ordusunun qələbəsinə ümid verir;

3.Türkiyənin Azərbaycanın enerji sektorunda və digər iqtisadi sahələrdəki strateji maraqlarının təmin edilməsi bu dövlətin Azərbaycana olan siyasi diqqətini artırır;

4.Türkiyənin ABŞ və Qərbi Avropa ilə hərbi-siyasi əməkdaşlığı və NATO-da iştirakı Rusiya və İranın Azərbaycana təzyiqilərini neytrallaşdırır. Bu amil Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiya və İranın birtərəfli siyasətinin dərinləşməsinin qarşısını alır; 5. ABŞ-ın xüsusi maraq kəsb etdiyi Azərbaycanın enerji layihələrinin Türkiyə ərazisindən keçməsi və bu layihələrin reallaşmasında Türkiyəyə arxalanması Türkiyənin regiondakı nüfuzunu artırır və bu amil Ermənistanın regionda işğalçılıq siyasətinin qarçısını kəsir;

6.Türkiyənin Ermənistanla rəsmi əlaqələrinin qurulmaması, əlaqələrin qurulmasında Türkiyənin Ermənistan önündə Azərbaycan torpaqlarının işğalından çəkinməsi şərtini qoyması Ermənistanın Dağlıq Qarabağ münaqişəsinə dair mövcud qeyri-ədalətli mövqeyini dəyişə bilər;

7.Cənubi Qafqazın mühüm iqtisadi layihələrindən Ermənistanın kənarlaşdırılmasında Azərbaycanla Türkiyənin vahid siyasəti Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətindən əl çəkməsinə müsbət təsir edə bilər.

Sadalanan fikirlərdən belə bir nəticə çıxır ki, Türkiyənin Azərbaycandakı strateji maraqlarının təmin edilməsi uğrunda həyata keçirdiyi siyasət Dağlıq Qarabağ münaqişəsinin həllinə həm müsbət, həm də mənfi təsir edir. Mənfi

təsirlərə baxmayaraq Türkiyə Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini özünün Azərbaycanda və bütövlükdə Cənubi Qafqazdakı strateji maraqlarının yüksək səviyyədə təmin edilməsi üçün mühüm şərt hesab edir və bu istiqamətdə pozitiv siyasət həyata keçirir. Azərbaycan dövlətinə isə Türkiyənin Dağlıq Qarabağla bağlı mövqeyi və beynəlxalq siyasəti sərf edir. (5)

Bütün bunlar Türkiyə dövlətinin rəsmi xarici siyasətinin əsas prioritet məqsədi kimi götürülüb. Lakin son zamanlar Sürix protokolları məsələsi gündəmə gəlib. Türkiyə-Ermənistan sərhədlərinin açılması məsələsinin əks olunduğu bəndlərin sənəddə əks edilməsi Türk hakim partiyasının xarici siyasət prioritetlərini təhlükə altına qoyur. Türkiyə ilə Ermənistan arasında 2009-cu il oktyabrın 10-da imzalanmış protokollar dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlını və türkü narahat etməkdədir. Azərbaycan ərazilərinin 20 faizinin işğal altında qalmaqda davam etdiyi, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün kimi yaşadığı bir vaxtda bu məsələnin gündəmə çıxması təbii ki, bizi narahat etməyə bilməz. Ermənistan diasporu və lobbisi uzun illərdir ki, Türkiyə ilə sərhədlərin açılmasına nail olmaq üçün nüfuzlu dövlətlərin və beynəlxalq təşkilatların rəsmi Ankaraya təzyiq göstərməsinə çalışır. Lakin Türkiyə dövlətinin sərhədlərin açılması üçün irəli sürdüyü əsas şərtlərdən biri Dağlıq Qarabağ probleminin həlli, Azərbaycanın işğal altındakı torpaqlarının azad edilməsi ilə bağlı olub. Lakin buna baxmayaraq biz ümid edirik ki, Türkiyə hökumətinin münaqişə həll edilməyincə protokolların ratifikasiya olunmayacağı barədə bəyanatları sonadək öz qüvvəsində qalacaq. (6)

Unutmaq lazım deyil ki, Azərbaycan Türkiyə üçün Mərkəzi Asiyaya açar rolunu oynayır, Qafqazın siyasi, geosiyasi baxımdan dünyadakı mövqeyi iki ölkənin qarşılıqlı maraqlarını şərtləndirən amillərdəndir. Regionda beynəlxalq əhəmiyyətli layihələrin reallaşması Azərbaycan və Türkiyənin iştirakı olmadan mümkün deyil.

Bu gün Ermənistan-Azərbaycan münaqişəsi, Azərbaycan torpaqlarının işğalı məsələsi bizim üçün tale yüklü bir məsələdir. Azərbaycan 20 illik müstəqilliyinin bütün imkanlarını qərb istiqamətində ortaya qoyub, heç kimin düşünmədiyi layihələri həyata keçirib. Postsovet məkanında heç bir ölkə bunu etməyib. Amma əvəzində, Azərbaycan nə görür, nə alır, nə təklif edilir? Çox təəssüf ki, bütün bunların əvəzində biz gözlədiyimizi görə bilmirik. Yəni, Azərbaycana olan laqeyd münasibəti biz heç cür başa düşə bilmirik. "907-ci düzəliş"dən başlayaraq "Min illiyin çağrışı", "Cekson Venik" düzəlişində Azərbaycanla bağlı silah məsələləri və bir sıra başqa məsələlərdə münasibət açıq görünür.

Bunun üçün isə mütləq Türk dövlətləri Ermənistanın təcavüzkar siyasətini tanımalı və onunla bütün əlaqələri kəsməlidirlər. Ona görə ki, bu dövlətlər Azərbaycanın bir çox problemlərinin, o cümlədən Dağlıq Qarabağ probleminin beynəlxalq miqyasda müdafiəçisi qismində ən yaxından iştirak etməlidirlər. Bunlar təbii ki, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan dövlətləridir.

Təsadüfü deyil ki, Türkdilli xalqların I Qurultayı da 1926-cı ildə Bakıda keçirilib. Yəni, Bakı və Azərbaycan hər zaman türkçülüyün mərkəzi hesab olunub. Bu təşəbbüs XXI əsrin əvəllərində yenidən Azərbaycana keçib və bunun da səbəbi ümummilli lider Heydər Əliyevin Türk Dünyasının birliyi istiqamətində söylədiyi fikirlər, həyata keçirdiyi ideyalar və bu ideyaların hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla, çox cəsarətlə və çevik şəkildə davam etdirilməsi ona imkan verib ki, Bakı şəhəri yenə də hər zaman olduğu kimi Türkçülük Mərkəzinə çevrilib. Bu gün Türkdilli dövlətlərin Bakı şəhərinda Parlament Assambleyasının yaradılması və bu dövlətlərin Parlament sədrlərinin burada iştirak etməsi və eyni zamanda Naxçıvanda Türkdilli ölkələrin dövlət başçılarının Zirvə toplantısının keçirilməsi bir daha onu göstərir ki, Azərbaycan çəkinmədən türk dünyasının birliyi yönümündə inamlı addımlarını atır. Bunu artıq Türk Birliyinin yaradılmasının başlanğıcı kimi də qiymətləndirmək olar.(7)

Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə toplantısının Naxçıvan Bəyannaməsində bu məsələ açıq olaraq göstərilir. Bəyannamənin 22 maddəsində deyilir:

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun ağır nəticələri ilə bağlı narahatlıqlarını təsdiq etdilər, sabitlik və regional əməkdaşlıq üçün maneələrdən biri olan qeyd olunan münaqişənin ərazi bütövlüyü, Azərbaycanın Respublikasının sərhədlərinin toxunulmazlığı və beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə həll edilməsinin vacibliyini qeyd etdilər; Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin Avrasiya məkanında sülh, sabitlik və rifahın təmin edilməsi istiqamətində əhəmiyyətli irəliləyiş olacağına əmin olduqlarını bir daha təsdiq etdilər. (8)

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev haqlı olaraq qeyd edir ki, "Azərbaycan və Türkiyə xalqlarının birliyi bütün türk dünyasının uğurunun rəhmidir və onun möhkəmlənməsində vacib elementə çevrilib". Prezidentin digər bəyanatı da vacibdir: "Azərbaycan Dağlıq Qarabağın və onun ətrafında olan yeddi rayonun işğalı ilə heç zaman barışmayacaq və öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan vennəyəcək. Azərbaycanın ərazi bütövlüyü heç zaman danışıqlar predmeti olmayıb, olmayacaq da". (9)Son olaraq qeyd etmək lazımdır ki, Türk dilli dövlətlərin bir-biriləri ilə münasibətlərin yaxınlaşması Dağlıq Qarabağ münaqişəsinin həllinə ancaq öz müsbət təsirini verə bilər və verəcək.

**Ədəbiyyat:**

1.М.Исмаилов "События вокруг ИКАО в кривом зеркале фальсифика торов". Bakı, 1989.

2. E.Əhmədov. "Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar". Bakı, 1998.
3. V.Arzumanlı. "Tarix siyasətin, siyasət tarixin dili ilə". Bakı, 1999.
4. A.Səmədov, A.İsayev. "Azərbaycanın qurtuluş tarixi". Bakı, 2002.
5. Türkiyənin Azərbaycanda strateji maraqları - referat.firststeps.az/d_ word kurs_sosio_268.doc
6. Türkiyə-Azərbaycan əməkdaşlığı strateji aspektdə- www.baksam.com > 2010 > Yanvar>30-
7. Azərbaycan va türk diasporları təşkilatları koordinasiya şurasının illik toplantısı materialları, Bakı, Yurd, 2008,
8. Naxçıvan bəyannaməsi dmfa.nakhchivan.az/page.php?lang=az&page =030057 -
9. Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı-materiallar, Bakı, Yurd, 2008.

**Gündüz SÜLEYMANOV**

## AZƏRBAYCANDA DİNLƏRARASI TOLERANTLIQ VƏ QARABAĞ MÜNAQİŞƏSİ

XIX əsrin sonu və XX əsrin əvvəli bəşəriyyətin qloballaşma pro-sestarinə daxil olması ilə səciyyələnir. Həmin proses bu gün də davam etməkdədir. Qloballaşma prosesi bir inteqrasiya prosesi kimi hər şeyi əhatə edir. O təkcə iqtisadiyyatı, siyasəti deyil, mədəniyyəti, mənəviyyatı, o cümlədən dinləri də əhatə edir. Deməli, qloballaşma bir proses kimi həm mədəniyyətləri, həm də dinləri bir-birinə yaxınlaşdırır. Elə buna görə də son vaxtlar mədəniyyətlərin, o cümlədən dinlərin bir-birilə yaxınlaşmasından, dialoqundan söhbət getməkdədir. Təsadüfi deyildir ki, son 50 ildə Qərb ölkələrində islam-xristian dialoquna dair geniş elmi-kütləvi ədəbiyyat çap olunmuşdur. Lakin bununla belə dünyanın bir sıra bölgələrində dini zəmində bəzi problemlər, münaqişələr də meydana çıxmışdır.

Bu gün bəşəriyyət çox mürəkkəb bir dilemma qarşısındadır. Bu həm siyasi, həm də elmi müstəvidə olan problemdir. Müasir alimlərin bir qismi sivilizasiyaların toqquşmasından söhbət açır və bunu elmi cəhətdən əsaslandırmağa çalışırlar. Beta bir şəraitdə Azərbaycanda dini və vicdan azadlığı təmin olunmuşdur. Beta mövqedə olan insanlar hesab edirlər ki, bizim zəngin müxtəlifliyimiz bəşəriyyətin ən böyük sərvətidir. Onlar dialoqun tərəfdarlarıdırlar və azərbaycanlıların əksəriyyəti də həmin insanlarla həmrəy və həmfikirdir. Belə bir dialoqun reallaşması üçün hər bir ölkədə konkret işlər görülməlidir.

Son illər respublikamızda aparılan siyasət dini-mənəvi baxımdan çox gərəklidir. Beləki, ölkəmizdə müxtəlif dini mənsubiyyət daşıyıcıları olan insanlar yaşayır və dini çoxluq olan müsəlmanlarla başqa din mənsubu olan vətəndaşlarımız

arasında dünya səviyyəsində nümunə ola biləcək bir dözümlülük, tolerantlıq yaşanır. Müxtəlif dinlərə mənsub insanlar heç bir ayrı-seçkilik hiss etmədən ayrı-ayrı sahələrdə çalışır, ölkənin inkişafı yolunda öz əməklərini əsirgəmirlər. Ölkəmiz demək olar ki, hər il dinlərarası dialoqun vacibliyi haqqında keçirilən beynəlxalq konfranslara, elmi simpoziumlara və s. tədbirlərə ev sahibliyi edir. Bu baxımdan Azərbaycan dini sərbəstlik və tolerantlığa görə qabaqcıl dünya ölkələrinə əsl nümunə ola bilər. Respublikamızın müstəqil dövlətçiliyi bərpa olunduqdan sonra, mədəniyyətimizə təsir edən müxtəlif amillərdə Şərq və Qərbin sintezi və ahəngini qoruyub saxlamaqla, islam və mədəniyyətin əsrlərin sınağından çıxmış qarşılıqlı təcrübəsi bizim üçün böyük örnəkdir.

Bu gün dünyada baş verən qarşıdurmalara baxdıqda bu münaqişələrin nə qədər siyasi-iqtisadi cəhətləri görünürsə, bir o qədər dini zəmini də seçilməkdədir. Sovet imperiyasının dağılması ilə meydana çıxan konfliktlərə nəzər salsaq görərik ki, bu qarşıdurmalardan bəzilərində dini faktorlar da az rol oynamır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konfliktində belə ayrıseçkilik açıq-aydın bilinməkdədir. Ermənistanın Azərbaycan Respublikasının 20 faizdən çox ərazilərini işğal etməsi, bir milyondan artıq azərbaycanlının ev-eşiklərindən məcburi köçürülməsi artıq bütün dünyada sübuta yetirilmişdir. İşğal nəticəsində Azərbaycana misli görünməmiş mili-mənəvi ziyan dəymiş, azərbaycanlılara aid tarixi abidələr məhv edilmiş, kəndlər, şəhərlər, yaşayış yerləri yerlə yeksan edilmişdir. Azərbaycanlılara aid məscidlər, qəbirstanlıqlar dağıdılmışdır. Ancaq bu faktlara xristian Qərbində bir dəfə də olsa lazımi qiymət verilməmiş, əksinə ermənilərin azərbaycanlılara qarşı yürütdükləri işğalçı siyasətə, soyqırımlarına göz yumulmuşdur. Hətta erməni xalqına qarşı qondarma «soyqırım»lar istər Avropada, istərsə də Amerika qitəsi ölkələrində böyük hüznlə yad edilməkdədir. Bu yalançı «soyqırım» bir sıra ölkələrin parlamentləri səviyyəsində müzakirə edilmiş, siyasi qiymətləndirilmişdir.

**Həbibullah MANAFLl**

## MİNSK QRUPUNDA HƏMSƏDR OLAN DÖVLƏTLƏRLƏ ERMƏNİLƏRIN TARİXİ ƏLAQƏLƏRİ

Minsk qurupunun həmsədirlər insitutu Dağlıq Qarabağ münaqişəsini dinc yolla həll etmək üçün aparıcı mövqe tutur. Həmsədrlər statusunda isə ABŞ, Rusiya və Fransa çıxış edirlər. Həmsədr dövlətlərdən Rusiya və Fransa açıq-aşkar ermənipərəst mövqe tutmaqla Ermənistanı Azərbaycana qarşı ərazi iddialarından geri durmamağa, inadkarlıq göstərməyə şirnikləndirir. ABŞ-ın siyasi dairələri isə nəinki Uiniston Çörçilin 1946-cı ildə Fultondakı məhşur çıxışında İngiltərə və ABŞ-ı nəzərdə tutaraq "əgər biz Öz fəajiyyətimizdo yalnız BMT nizamnaməsini rəhbər tutsaq... o zaman gələcəyə aparan yol təkcə bizim üçün deyil, hamı üçün

indi də, elə yüz il sonra da işıqlı və təhlükəsiz olacaqdır" tövsiyəsini, hətta sələflərinin 1975-ci ildə Helsinkdə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin sərhədlərin toxunulmazlığını təsbit edən yekun aktına imza atdıqlarını unutmuşlar. Əgər belə olmasaydı ABŞ təcavüzkar Ermənistanla təcavüzə məruz qalan Azərbaycana fərqli mövqelərdən yanaşardı. ABŞ-ın siyasi dairələri etiraf etməsələr də görünür erməni diasporunun fəaliyyəti bu dövlətin xarici siyasətinə təsir göstərməkdə davam edir. Orada yaşayan ermənilərin sayı indi bir milyon nəfərə çatmışdır. Onlar əsasən yığcam halda Kaliforniya və Massaçusets ştatlarında məskunlaşıblar. 1918-ci ildə Daşnaksütun tərəfindən Amerikada ilk lobbi qrupu yaradılmışdı. Bu lobbi qrupu "Ermənistanın Müstəqilliyi Uğrunda Mübarizə Komitəsi" adlanırdı. Hal-hazırda Daşnak partiyasının ABŞ-da "Erməni Milli Komitəsi" adı altında fəaliyyət göstərən lobbi qrupu 1918-ci ildə yaradılan həmin lobbi qurupunun bazası əsasında meydana gəlmişdir. 1972-ci ildə anti daşnak mövqeyində dayanan "Amerika Erməni Assambleyası" adlı daha bir lobbi qrupu təsis edildi. Çağdaş dövrdə bu lobbi qrupları ayrı-ayrılıqda fəaliyyət göstərirlər. Fərqli cəhətlərinə baxmayaraq bu lobbi qrupları iki məqsəd ətrafında birləşirlər.

1. ABŞ Konqresində erməni maraqlarını müdafiə edən konqresmenlər qrupu (kokus) formalaşdırmaq.
2. Ortaq siyasi məqsədlərə çatmaq üçün birgə səy göstərmək.

ABŞ Konqresində erməni kokusu 1995-ci ildə Nyu-Çersi ştatından olan demokrat Frenk Palloni və İlliyons ştatından olan respublikaçı Edvard Porterin təşəbbüsü ilə yaradılmışdır. Erməni maraqlarına xidmət edən bu qrup Konqresin Nümayəndələr Palatasında fəaliyyət göstərir.

XXI əsrin ilk illərində ermənilərin maraqlarını müdafiə edən konqresmenlər qrupunun-kokusun 107 üzvündən 27-si Kaliforniya ştatını təmsil edir. Çünki erməni icmasının 54%-i bu ştatda yaşayır. Ümumiyyətlə, erməni maraqlarını müdafiə edən konqresmenlərin 80%-i ABŞ-ın 9 ştatını təmsil edir. Səbəb aydındır, erməni diasporunun 84%-i bu ştatlara cəmlənmişdir.

XX əsrin 90-cı illərinin sonu XXI əsrin ilk illərində respubilkaçı Co Xollenberq, Frenk Palloni, C.Suini, M.Rocers, demokratlardan C.Krouli, L.Kapps, M.Kapuana, B.Şerman və N.Pelosi öz fəallıqları ilə fərqlənirdilər.

Kokusun üzvü olmayan, lakin müstəqil olaraq erməni maraqları üçün çalışan konqresmenlər də vardır. Bunlardan daha çox tanınanları Robert Doul və Edvard Porterdir. E. Porterin arvadı Ketrin Dağlıq Qarabağda olarkən demişdir ki, Qarabağ ermənilərinin hüquqları uğrunda ölməyə hazırdır. Elə bu canfəşanlığa görə ermənilər onu "Qarabağın mələyi" adlandırmışlar.

ABŞ-dakı erməni lobbisinin məqsədlərini aşağıdakı kimi qruplaşdırmaq olar.

1. 1915-1922-ci illərdə baş verməsi iddia edilən qondarma "erməni soyqırımı"nın ABŞ tərəfindən tanınması.
2. Dağlıq Qarabağın müstəqilliyinə nail olmaq.

3.Azərbaycana ABŞ dövlət yardımını qadağan edən Azadlığı Dəstəkləmə Aktına edilən 907-ci düzəlişi qüvvədə saxlamaq.
4.ABŞ tərəfindən Ermənistana davamlı olaraq dövlət yardımının göstərilməsini təmin etmək.
5.Türkiyəyə silah satışının qarşısını almaq.

Avropanın aparıcı dövlətləri Fransa və İngiltərə Şərqin müsəlman və türk xalqlarına təsir etmək imkanı əldə etmək üçün ya Osmanlı dövlətinin ərazisində, ya da Qafqazda bir xristian dövlətinin yaradılmasını özlərinin məqsədlərindən hesab edirdilər.

Bu doktrinanı əməli şəkildə ilk dəfə Rusiya həyata keçirməyə başladı.

Rusiya 1828-ci ildə Azərbaycanın işğalını başa çatdırdıqdan sonra xaricdən köçürdüyü ermənilərin bir hissəsini İrəvanda yerləşdirərək buranı "Erməni əyaləti" adlandırdı. 1828-ci ilə kimi dini məbədlər isdina olmaqla Qarabağda bir dənə də olsun erməni dilli toponim olmamışdır.

Artıq 1832-ci ildə Rus imperiyasının süni şəkildə yaratdığı Erməni əyalətində gəlmələrin hesabına ermənilərin sayı 81610 nəfərə çatmışdı.

Ermənilərin özlərinə də burada erməni əhalisinin mütləq əksəriyyətinin gəlmə ermənilərdən ibarət olduğunu etiraf etmişlər. Bu baxımdan erməni müəllifi S.P.Zelinskinin qeydləri maraq doğurur. O, yazırdı ki, Zəngəzurdakı Mehri, Sisyan bölgələrində Əxlətian, Primaxat və Şmataqdan başqa bütün erməni kəndlərinin əhalisi 1828-1829-cu illərdə İran əyalati Qaradağ, Gərməli və Səlmasdan gəlmişlər. Gəlmə ermənilər yerlilərin dilini başa düşmürlər. Başqa bir erməni müəllifi A.E.Xan-Aqov elə həmin mətləbdən həbs edərək yazırdı. "Cavanşir qəzasının əhalisi başlıca olaraq tatarlardır (Azərbaycan Türkləridir), ermənilər bu əraziyə başqa yerlərdən gəlmişdilər",

İngiltərə Qafqazda paytaxtı Tiflis olan erməni dövləti yaratmağı planlaşdırırdı.

Erməni buıjuaziyası isə mərkəzi İrəvan olmaqla Azərbaycanın Çuxursəd vilayətini "Böyük Ermənistan" dövlətinin nüvəsi kimi təsəvvür edirdi. Onları bu niyyətə düşməyə sövq edən başlıca səbəb iqtisadi və maliyyə baxımından geniş imkanlara malik olmaları idi. Məsələ burasında idi ki, rus imperiyasının verdiyi imtiyazlardan bəhrələnən erməni burjuaziyası XIX əsrin son rübündə Azərbaycan iqtisadiyyatında aparıcı mövqeyə yiyələnmişdi.

1879-cu ildə Bakının neft sənayesində 70 erməni sahibkarı fəaliyyət göstərirdi. Avropa, Rus kapitalistləri birlikdə Bakıda 79 neft buruğuna malik olduqları halda, ermənilərin əlində 155 buruq cəmlənmişdi. XX əsrin əvvəlində Azərbaycanda mövcud olan 167 neft sənaye müəssəsindən 55-i erməni burjuaziyasına məxsus idi. Onlar əllərində cəmlədikləri böyük kapitalın əhəmiyyətli hissəsini siyasi məqsədlərə, o cümlədən İrəvan əyalətini erməniləşdirməyə sərf edirdilər.

1918-ci ildə ingilis hökuməti ermənilər üzərində qəyyumluq hüququnu Fransaya güzəştə getdi. Bu qərarın qəbul edildiyi iclasda belə bir fikir söylənilmişdir: "Ermənistan Fransaya verilməlidir. Ona görə ki Fransadan başqa heç kim bu qeyri-adi ürəyə yatmayan adamlarla hər hansı formada əlaqədə olmaq istəmir". Bu qərarın qəbul edilməsini şərtləndirən amillərdən biri də fransızlarla ermənilərin mentalitetlərində oxşar cəhətlərin olması idi.

Xalqımıza qarşı dəhşətli cinayətlər törətmiş manyak xislətli Andronik 1919-cu ilin yayında Fransaya getmiş və iyun ayının 15-də prezident Raymon Puankare ilə görüşmüşdür. Bu qaniçən cəllad Fransada olduğu müddətdə "demokratik Avropa mətbuatı", o cümlədən Fransa qəzetləri onu vəsf edib Avropa İctimaiyyətinə "Erməni Harribaldisi" kimi təqdim edirdi. Bu cəllad Fransa Prezidentinə məlumat verərək bildirmişdir ki, Qafqazdakı Rus Ordusunun tərkibində 180 min, Avropada isə 15 min erməni könüllüsü müttəfiqlərin sırasında Türkiyə və Almaniyaya qarşı döyüşmüş, müttəfiqlərin "müqəddəs işi" uğranda mübarizə aparmışlar. Andronik Qarabağ məsələsinə münasibətdə narazılığını bildirərək R.Puankareyə demişdir: "Biz bunu ona görə etmişik ki, Fransanın və onun müttəfiqlərinin haqq işi bərqərar etmək uğrunda böyük mübarizəsinə öz töhfəmizi verək".

Andronik ABŞ-a göndərdiyi teleqramda Amerikanın "erməni məsələsinin" həllinə müdaxilə etməsini tələb edərək yazırdı: "Biz çox qədim xalqıq. Azadlıq işi naminə millətin sayı nisbətində ermənilərlə vuruşan ölkələrin hər birindən çox itkilər vermişik... Ümid edirik ki, müttəfiqlərə görə verdiyimiz itkilər hədər getməyəcəkdir".

Tarixi faktların təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, ermənilərin türkə qarşı amansız düşmənçilik mövqeyi tutması xeyli dərəcədə Avropa və Amerika diplomatiyasının səyi nəticəsində mümkün olmuşdur. XVIII əsrin axırlarından başlayaraq ermənilər Osmanlı dövlətini sarsıtmaq üçün Avropa dövlətlərinin əlində alət olmuşlar.

1919-cu ilin yayında ABŞ Azərbaycanın ərazi bütövlüyü üçün ciddi təhlükə yaradan bir mövqe tutdu. Bu dövlətin səlahiyyətli nümayəndəsi polkovnik V.Haskel Paris sülh konfransında təsis edilmiş ABŞ, İngiltərə, Fransa və İtaliyadan ibarət Dördlər Şurasının Ermənistanda ali komissan təyin edildi. O, Amerika Yardım Komitəsi tərəfindən maliyyələşdirildiyindən eyni zamanda Yaxın Şərqdə Amerika Yardım Komitəsinin sədri təyin edildi.

V. Haskel bəyan etdi ki, harada yaşamalarından asılı olmayaraq erməniləri qorumaq səlahiyyətinə malikdir. Bu bəyanatdan ruhlanan ermənilər Azərbaycana qarşı ərazi iddialarını daha da kəskinləşdirdilər. ABŞ-ın himayəsindən bəhrələnməyə çalışan ermənilər indi yalnız Qarabağ və Zəngəzuru deyil, həm də Naxçıvan və Şərur-Dərələyəz ərazilərinə iddia etməyə başladılar. ABŞ-ın rəsmi təmsilçisi V. Haskel Azərbaycan hökumətinə hədə-qorxu gələrək ermənilərin iddialarını ödəməyi tələb etdi.

1919-cu il avqustun 28-də Bakıya gələn V.Haskel bu problemlə əlaqədar Azərbaycan hökumətilə danışıqlara başladı. Təkrar edərək bildirirəm ki, V. Haskel təkcə ABŞ-ı deyil, bütün yer kürəsində ağalıq iddiasında olan Dördlər Şurasını təmsil edirdi. ABŞ, İngiltərə, Fransa və İtaliyadan ibarət olan Dördlər şurası ilə üzbəüz dayanmaq Azərbaycan üçün müşkül məsələ idi. Danışıqların gedişində o, iddialardan bir qədər geri çəkilərək Qarabağ və Zəngəzuru Azərbaycanın tərkib hissəsi kimi tanıdığını bildirdi. Lakin bəyan etdi ki, Naxçıvan və Şərur-Dərələyəz ABŞ-ın yaradacağı General-Qubernatorluğun nəzarəti altında bitərəf zona olacaqdır. Məsələnin bu sayaq həlli həm ABŞ dövlətini, həm də erməniləri qane edirdi. ABŞ nəzarət altında saxlayacağı bu ərazidən istifadə edərək Yaxın və Orta Şərqdə cərəyan edən bütün prosesləri öz maraqlarına uyğun tənzimləmək, ermənilər isə bitərəf elan edilmiş Naxçıvanı və Şərur-Dərələyəzi tədricən mənimsəmək niyyətində idilər.

Ermənilərlə bu cür sıcaq tarixi münasibətləri olan dövlətlərin Minsk Qrupunun həmsədrləri statusunda Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün çalışmaları mümkündürmü?!

**Həcər ABDALLI**

## ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA QARŞI TÖRƏTDİKLƏRİ XOCALI SOYQIRIMI

"Ermənilər 26 fevral 1992-ci ildə bəşər tarixinin ən böyük cinayətinə imza atıblar". "Xocalı faciəsi 200 ildən çox müddətdə erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin qanlı səhifəsidir". (H.Əliyev)

Keçmişini unudanların onu yenidən yaşamaq məcburiyyətində qalması tarixin ibrət dərsidir. Azərbaycanın çağdaş tarixində də unudulması mümkün olmayan, bütövlükdə xalqın təhtəlşüuruna dərin iz salaraq onu daim mübarizə və qisas ruhunda kökləyən elə faciəli hadisələr var ki, heç zaman milli yaddaşdan silinməyəcəkdir. Erməni faşizminin xislətini, gerçək mahiyyətini çılpaqlığı ilə açan Xocalı soyqırımı da, məhz unudulması mümkün olmayan belə dəhşətli hadisələrdəndir. 18 il öncə - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə belə amansız cinayətə rəvac vermiş ermənilər dünyanın ən əzazil, qəddar və qaniçən millətі olduqlarını, terroru dövlət siyasətinə çevirdiklərini bir daha təsdiq etmişlər.

Tarixi faktlar təsdiqləyir ki, "Dənizdən-dənizə Ermənistan" xülyası ilə yaşayan ermənilər müəyyən xarici havadarlarının köməyilə müxtəlif dönəmlərdə azərbaycanlılara qarşı amansız terror və soyqırımı siyasəti həyata keçirmiş, etnik təmizləmə siyasəti aparmışlar. Bir sıra dövlətlərin hakim dairələri tərəfindən himayə olunan bu mənfur siyasət çar Rusiyası və Sovet hakimiyyəti dövründə də ardıcıl şəkildə davam etdirilmiş, SSRİ-nin süqutu prosesi azərbaycanlıların doğma torpaqlarından qovulması, qaçqın və məcburi köçkünə çevrilməsi, kütləvi

qırğınlarla müşayiət olunmuşdur. Təcavüzkar erməni millətçilərinin və sərsəm "Böyük Ermənistan" ideoloqlarının etnik təmizləmə və soyqırımı siyasətinin nəticələrini bütövlükdə milyondan çox azərbaycanlı müxtəlif vaxtlarda öz üzərində hiss etmişdir.

Xocalıda törədilmiş amansız qətliam isə nəinki Azərbaycana, bütövlükdə bəşəriyyətin mütərəqqi dəyərlərinə, insanlığa və beynəlxalq hüquq normalarına qarşı yönəlmiş genosid aktı idi. Həmin gün azğınlaşmış erməni quldur birləşmələri mənfur imperiyanın 366-cı motoatıcı alayının bilavasitə iştirakı ilə mühasirəyə aldıqları Xocalı şəhərinə qarşı əvvəlcədən hazırladıqlan məkrli planı işə saldılar: 613 nəfər dinc azərbaycanlını, o cümlədən 63 uşağı, 106 qadını, 70 qocanı bir neçə saatın içində milli zəmində amansızlıqla qətlə yetirən, 487 nəfəri ağır xəsarətlərə məruz qoyan, 1275 nəfəri isə girov götürən ermənilər qaniçənlikdə vaxtilə dünyanı lərzəyə salmış faşizmi də geridə qoyduqlarını nümayiş etdirdilər. Beynəlxalq humanitar hüquq normalarını, insan hüquqları üzrə ən müxtəlif konvensiyaları ayaq altına atan erməni hərbi birləşmələri insanları qətlə yetirmək məqsədilə ən qəddar üsullara əl atdılar. Şahidlərin təsdiqlədiyinə görə həmin gecə onlarla qadın, 2 yaşından 15 yaşınadək olan uşaqlar, ahıl qocalar güllələnmiş, insanların başlarının dərisi soyulmuş, müxtəlif əzaları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarınları yarılmış, adamlar diri-diri torpağa basdırılmış və ya yandırılmışdır. Güllə yarasından ölməyənlərin başlarına sonradan güllə vurulmuş, meyitlər zorakılığa məruz qalmışdır. Baxın?!! Xocalı faciəsi 1905,1915,1918-ci illərdə erməni daşnakları tərəfindən aparılan soyqırımı hadisələrinin davamı deyilmi? Xocalı faciəsini onlardan fərqləndirən nədir? Bu faciə də özündən öncə törədilən qanlı və dəhşətli faciələrin təkrarı deyilmi? Əfsular olsun ki, tarix təkrar olunur. Xocalı faciəsi 1918-ci il 31 mart soyqırımı faciəsini, (Bakıda, Gəncədə, Göyçayda, Şamaxıda, Qubada, Naxçıvanda, Lənkaranda və s.bölgələrdə) yalnız xatırlatmadı, onların neçə qəddar olduqlarını bir daha sübut etdi və erməni daşnakları tərəfindən törətdilən soyqırımı faciəsi kimi yaddaşlara həkk olundu. Bu reallıqları Xocalı yenidən yaşadı. Nəinki, tək Xocalı bu qanlı, dəhşətli faciəni Azərbaycan xalqı yenidən yaşadı. Xatırlatmaq lazımdır ki, ermənilər harada yaşamalarından asılı olmayaraq, əsrlər boyu müsəlman qanı axıtmaqdan həzz almışlar. Bunu tarix özü sübut və faktlar əsasında təsdiq etmişdir. Xocalıda mülki əhalinin planlı şəkildə qətlə yetirilməsini sübut edən çoxsaylı faktlardan biri də məhz budur ki, həmin gün əhalinin zorakılıqdan qaçıb qurtarmaq istəyən hissələri ərazidən çıxış yollarında əvvəlcədən xüsusi hazırlanmış pusqularda güllələnmişlər. Xocalıdan çıxan əhalinin Naxçıvanik kəndi ərazisində pulemyot, avtomat və başqa silahlardan gülləbaran edilməsi faktı bunu bir daha təsdiqləyir. Bütün bunlar ermənilərin 18 il öncə Xocalı şəhərində törətdikləri qeyri-insani hərəkətlərinin kökündə məhz genosid (soyqırımı) niyyətinin dayandığını aşkar surətdə üzə çıxarır. Genosid cinayəti üçün xüsusi niyyətin olması zəruri şərt sayılır və bu dəhşətli akt hökmən milli, etnik, irqi, dini qruplara qarşı yönəlməlidir. Bu hüquqi

müstəvidən yanaşdıqda aydın görünür ki, erməni silahlı birləşmələrinin çirkin niyyəti Xocalı şəhərindəki azərbaycanlıları məhz milli-dini zəmində son nəfərədək qətlə yetirmək olmuşdur. Ermənilər beynəlxalq humanitar hüquqda yolverilməz sayılan soyqırımı cinayətinə şüurlu, məqsədli şəkildə, bilərəkdən əl atmış, misli görünməmiş qətliam törətmişlər. Beynəlxalq hüquq normaları Xocalı faciəsinin soyqırımı cinayəti kimi tövsifi üçün kifayət qədər ciddi əsaslar verir. Ümumiyyətlə, ilk dəfə Nürnberq Hərbi Tribunalının nizamnaməsində beynəlxalq cinayətlərin nədən ibarət olduğu göstərilmişdir. Orada soyqırımı cinayəti insanlıq əleyhinə olan cinayətlər kateqoriyasına aid edilmişdir.

BMT-nin "Soyqırımı cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" 1948-ci il tarixli Konvensiyasında isə soyqırımı cinayətinin mahiyyəti tam olaraq əksini tapmışdır. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməl olmaqla ən ağır beynəlxalq cinayət sayılır. Soyqırımı hər hansı milli, irqi, etnik və dini əlamətlərinə görə fərqlənən xüsusi bir qrupun tamamilə və ya qismən məhv edilməsinə yönəlmiş bu cinayət hərəkətlərinə deyilir: birincisi, həmin qrupun üzvlərinin öldürülməsi; ikincisi, onların şikəst edilməsi, bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi; üçüncüsü, hər hansı qrupa onun qəsdən tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraitinin yaradılması; dördüncüsü, həmin qrupda doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi; beşincisi, azyaşlı uşaqların bir insan qrupundan alınıb başqasına verilməsi. Bunlardan hansısa biri hadisənin soyqırımı kimi qiymətləndirilməsi üçün kifayət edir. Bu meyarlar baxımından, Xocalı faciəsi soyqırımı cinayəti kimi qiymətləndirilməlidir.

Soyqırımı - beynəlxalq hüququn qəbul edilmiş ümumi pirinsip və normalarının, habelə insan hüquq və azadlıqlarının kobud surətdə pozulmasıdır. Soyqırımının əsas ictimai təhlükəliliyi ondan ibarətdir ki, bu cinayətin törədilməsi nəticəsində ayrıca mədəniyyəti, adətləri, ənənələri, bir sözlə, yaşam tərzi olan milli, etnik, irqi və ya dini qrup tamamilə və ya qismən öz mövcudluğunu itirə bilər. Bu isə insanlar birliyinin müxtəlifliyinin itirilməsinə, beynəlxalq nizamlama qanunauyğunluqlarının əsaslarının sarsılmasına gətirib çıxara bilər. BMT Baş Məclisinin 10 dekabr 1948-ci il qəbul etdiyi "Ümumdünya insan hüquqları" Bəyannaməsində qeyd olunur ki, "Hər bir insanın yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır, heç kəs insan ləyaqətini alçaldan, alçaldıcı və qeyri-insani cəza və işgəncələrə məruz qala bilməz. Hər bir insan onun harada olmasından asılı olmayaraq hüquq subyekti hesab olunur və bütün insanlar qanun qarşısında bərabərdir və qanunlarla eyni dərəcədə müdafiə olunurlar".

XX əsrin ən dəhşətli hadisələrindən olan Xocalı soyqırımının məhz azərbaycanlı milli qrupuna qarşı yönəldiyi inkarolunmaz faktdır və bu da ermənilərin qeyri-insani davranışlarının genosid (soyqırmı) kimi tövsifi üçün ciddi hüquqi əsaslar verir. BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul ediimiş və 1961-ci ildə qüvvəyə minmiş "Genosid cinayətinin

qarşısının alınması və təqsirkarların cəzalandırılması haqqında" Konvensiyada insanlığa yönəlmiş bu qeyri-humanist aktın hüquqi əsasları təsbit olunmuşdur.

Ermənistanın müharibə zamanı davranış normalarını müəyyənləşdirən beynəlxalq hüquq prinsiplərinə məhəl qoymaması ilə bağlı faktlar yalnız bununla məhdudlaşmır. Beynəlxalq humanitar hüququn tələblərinə əsasən müharibə yalnız silahlı münaqişədə olan tərəflərin silahlı qüvvələri arasında aparılmalıdır. Mülki əhali döyüşlərdə iştirak etməməli və onlarla hörnıətlə davranılmalıdır. "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" IV Cenevrə Konvensiyasının 3-cü maddəsinə əsasən, mülki əhalinin həyatına və təhlükəsizliyinə qəsd, o cümlədən onların hər cür öldürülməsi, şikəst edilməsi, onlarla qəddar davranış, onlara əzab və işgəncə verilməsi, insan ləyaqətinə qəsd, təhqir və alçaldıcı hərəkətlər qadağan edilir. Konvensiyanın 33-cü maddəsində isə qeyd olıınur ki, heç bir mülki şəxs törətmədiyi hüquq pozuntusuna görə cəzalandırıla bilməz. Mülki əhaliyə qarşı kollektiv cəza tədbirlərinin görülməsi, mülki əhalini qorxuya salmaq, onlara qarşı terror hərəkətləri, onların repressiyaya məruz qoyulması birmənalı qadağan edilir. Həmin Konvensiyanın 34-cü maddəsinə görə mülki əhalinin girov götürülməsi də qadağandır. Lakin təkcə Xocalıda 1000-dən artıq insanı girov götürən ermənilər bu prinsipə də aşkar sayğısızlıq nümayiş etdirmişlər. Ermənistan silahlı qüvvələri bu hüquq normalarına məhəl qoymamış, Xocalıda dinc əhalinin məhvi üçün ən qəddar üsullara əl atmışlar.Lakin, 1941-1945-ci illərdə heç alman faşizmi belə cinayətlər törətməmişlər.

Xocalıda baş verənlərin soyqırımı olduğunu həmin dövrdə bir sıra ölkələrin aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri də təsdiqləmişlər. Bu baxımdan, faciə baş verən gün Xankəndidə ezamiyyətdə olmuş Fransanın "Libardion" qəzetinin əməkdaşı Jul Gen Vaynerin qeydləri xüsusi maraq doğurur. Xocalı soyqırımını qorxulu yuxuya bənzədən Vayner jurnalistika ilə məşğul olduğu 25 il ərzində müharibələrin getdiyi çoxlu müxtəlif ölkələrdə olduğunu, lakin Xocalı şəhərindəki kimi dəhşətli və tükürpədici mənzərələrlə rastlaşmadığını yazmışdır. Jurnalist "Libardion" qəzetində çap etdirdiyi "Erməni terrorizminin canlı şahidi oldum" sərlövhəli yazıda Xocalıda baş verənlərin qabaqcadan cızılan ssenari olduğunu açıq bəyan etmişdir.

Onun fikrincə, bunda məqsəd bütövlükdə bəşəriyyətin gözünü qorxutmaq olmuş, erməni terrorizmi dünyanı məhz bu yolla "ram etməyə" çalışmışdır. Fransalı müxbir Xocalı qətliamında iştirak edən erməni terror dəstələrinin necə amansızlıq etdiklərinin canlı şahildi olduğunu yazmışdır. Mənfur sovet ordusunun 366-cı motoatıcı alayının ermənilərlə birgə Xocalı üzərinə hücumundan bir gün əvvəl Xankəndidə bu alayın qərargahında olan Vayner orada rus polkovniki Zaviqarovun əməliyyata ciddi hazırlaşdığının şahidi olduğunu göstərmişdir. "Hələ Xocalı işğal edilməmişdən bir gün əvvəl 49 azərbaycanlı əsir alınaraq kütləvi şəkildə güllələndi. Batalyon və hərbi hissələrin komandirləri dinc əhalinin məhvinə qərar vermişdilər. Hücumdan bir neçə saat əvvəl 366-cı alayın

ştabında 58 azərbaycanlı qətlə yetirildi. Onların çoxu qadın və uşaqlar idi. Cəsədlərin gömüldüyü quyuların yanından keçmək mümkün deyildi. Çünki oradan dəhşətli dərəcədə meyit iyi gəlir, itlərin, çaqqalların səsləri eşidilirdi" - deyə müşahidələrini obyektiv şəkildə qeydə almış fransalı jurnalist Xocalıya hücum ərəfəsində Ermənistanın hakimiyyət orqanları rəhbərlərinin 366-cı motoatıcı alayın ştabında olduğunu da vurğulamışdır.

Xocalı soyqırımını törətməklə erməni millətçiləri xalqımızı qorxutmaq, vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq, torpaqlarının işğalı faktı ilə barışdırmaq kimi çirkin niyyətlər güdürdülər. Azərbaycan xalqına qarşı misli görünməmiş kütləvi və amansız qırğın aktı ermənilərin Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf götürmüş məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla, insanlığa qarşı yönəlmiş irimiqyaslı cinayət idi. Lakin hiyləgər və məkrli düşmən bu amansız cinayətlə istəyinə qətiyyən nail ola bilmədi. Xocalının qəhrəman və fədakar insanları düşmən qarşısında mənən sınmadılar, sonadək vuruşaraq Vətənə sədaqət nümunəsi, rəşadət və igidlik göstərdilər. Xalqımız 1990-cı ilin yanvarından sonra bir daha öz milli kimliyini, düşmənə qarşı mübarizə əzmini, qətiyyətini, döyüş ruhunu nümayiş etdirdi. Xocalı faciəsi Xatın, Lidisa, Oradur soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı olaydır. Azərbaycan xalqı iki yüz il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmışdır. Azərbaycan xalqı tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunmuşdur. Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir. 1948-53-cü illərdə Ermənistandan 150 min azərbaycanlı departasiya olunmuş, Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir.l988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan iki yüz əlli min azərbaycanlı bu ərazidən qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir. l988-ci ildən Dağlıq Qarabağ ətrafında başlayan hadisələr erməni ideoloqlarının "Dənizdən-dənizə Ermənistan" adlı bir ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərlə günahsız insanların ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsilə nəticələndi. Bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan dövləti Dağlıq Qarabağı özünə birləşdirmək istəyir, bıı yolda bütün cinayət və vəhşiliyə hazır olduqlarını nümayiş etdirirlər. XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımı bu aqressiv və cinayətkar erməni siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı əsrin Xatın, Xerosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələrilə bir sırada dayanır. Ermənilərin Xocalı şəhərini hədəfə almaqda əsas məqsədi bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət oları strateji əhəmiyyətli maneəni aradan qaldırmaq idisə, digər tərəfdən ümumiyyətlə Xocalını yer üzündən birdəfəlik

silmək məqsədi idi. Çünki, Xocalı elə bir yaşayış məskəni idi ki, o, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənlərini özündə əks etdirirdi. Bu xüsusi mədəniyyət tarixə Xocalı-Gədəbəy mədəniyyəti kimi düşmüşdür. Xocalının tarixi abidələri və müxtəlif növ məişət əşyaları insan cəmiyyətinin inkişaf dinamikasını özündə əks etdirən maddi mədəniyyət nümunələridir. Erməni işğalından sonra bütün bu maddi mədəniyyət abidələrini məhv edilməsi və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığının texnika vasitəsilə darmadağın edilməsi erməni vandalizminin bariz nümunəsi olmaqla yanaşı dünya mədəniyyətinə qarşı zorakılıq aktıdır.

**İlqar NİFTƏLİYEV**

## НЕКОТОРЫЕ АСПЕКТЫ ГЕНЕЗИСА КОНФЛИКТА В НАГОРНОМ КАРАБАХЕ В КОНЦЕ 80-Х ГОДОВ XX ВЕКА

Процесс распада СССР привел к широкомасштабным структурным сдвигам в сфере этнонациональных отношений. Потепление политического климата, развал административно-командной системы, находило выражение в переходе власти от прежней партийно-государственной бюрократии к представителям этнонациональных элит и в трансформации межэтнических отношений. Системный кризис в конце 80-х гг. реанимировал застарелые противоречия этнона-ционального характера, которые накапливались десятилетиями, а то и веками, но в царской России и Советском Союзе сдерживались мощной имперской инфраструктурой и авторитаризмом власти. В сложнейший узел переплелись государственно-территориальные, социально-экономические, конфессиональные, геополитические и иные интересы. Одним из первых возник конфликт в Нагорном Карабахе.

Рассматривая конфликт в НКАО в советской исторической ретроспективе можно выделить несколько наиболее острых фаз его развития в постсталинский период. Первая фаза относится к периоду «хрущевской оттепели» и связана с решениями XX съезда ЦК КПСС по устранению тяжелых последствий культа личности Сталина, которые поставили на повестку дня в Армении идею территориальных притязаний к соседними республикам и Турции. Вторая фаза обострения ситуации относится к событиям связанным с проведением в Армении 1965 году годовщины т.н. «геноцида армян», якобы имевшего места в годы первой мировой на территории Османской империи. Наконец начавшаяся со второй половины 80-х годов XX века в СССР под флагом «перестройки» и «нового мышления» мощная волна антисталинской критики, на которого вновь стали списывать все издержки тоталитарной коммунистической системы, в том числе и в

области этнонациональных отношений, привели к эскалации конфликта до уровня открытого военного столкновения.

Говоря о политической составляющей природы конфликта в Нагорном Карабахе необходимо отметить, что ключевая роль в генезисе сепаратистского движения в НКАО принадлежала армянской интеллигенции и действующим представителям местных органов власти. Надо отметить, что за годы советского режима в НКАО сложилась многочисленная и образованная элита, которая, начиная особенно с постсталинского периода, сыграло важную роль в процессе массовой мобилизации этнических чувств армянского населения автономии, в усилении межэтнической напряженности с азербайджанцами. Преобладание внутри армянской элиты радикально настроенных элементов, лидеров клановых групп, зарабатывавших политическую популярность на ниве этнонациональной конфронтации, усугубляло остроту конфликта и служило немаловажным препятствием на пути его нейтрализации. Непоследовательные шаги советского руководства во главе с М.Горбачевым в ответ на требования армянских сепаратистов привело к радикализации политических сил в Нагорном Карабахе и Армении. Зарождение националистически настроенной оппозиции в противовес советской номенклатуре трансформировало политическую ситуацию вокруг НКАО. В Армении и ИКАО начатая массовый выход из состава коммунистической партии должностных лиц и административных служащих, пополнявших ряды членов организаций подобных «Крунк», «Карабах», «АОД». В результате, партийные работники высокого ранга открыто возглавляли провокационные действия, приводившие к эскалации этнополитической ситуации в НКАО. Аресты, преследования членов данных организаций, применяемые властями против них санкции способствовать популяризации его лидеров в широких слоях армянского общества, вели к стремительному взлету их влияния и популярности и выдвигаемых ими лозунгов. Набиравшая обороты радикальная армянская элита использовала карабахскую проблему как пропагандистский политический ресурс для достижения главной своей цели - расширения территории Армении за счет территорий Азербайджана.

На начальной фазе конфликта довольно распространена была излишне упрощенное суждение о преимущественной социально-экономической природе конфликта в НКАО. Данный подход получил широкое распространение вследствие партийной пропаганды союзных властей. Руководство СССР пыталось усмотреть причину возникшего кризиса в социально-экономическом отставании НКАО, отрицая при этом реально существующие источники иного порядка. Выделяя экономическую причину в качестве первоосновы конфликта в Нагорном Карабахе, союзное правительство пыталось нейтрализовать кризис, выделяя целевые

ассигнования и увеличивая поставки товаров потребления в НКАО. С этой целью 24 марта 1988 г. Центральным Комитетом Коммунистической партии Советского Союза и Советом Министров СССР была принята специальная программа по социально- экономическому развитию области[1]. Однако проблема заключалась вовсе не в том, что благосостояние армянской общины Нагорного Карабаха было ниже достатка азербайджанского населения региона. Напротив, по ряду социально-экономических параметров и показателей уровень жизни в НКАО был даже выше среднего по республике. Опубликованные в Степанакерте статистические сборники Областного статистического управления наглядно доказывают насколько высокого уровня развития достигла Нагорно-Карабахская Автономная Область в составе Азербайджанской ССР[2]. При сравнении показателей социально-экономического развития в целом по Азербайджанской ССР, в том числе Нахчыванской АССР и Нагорно-Карабахской Автономной Области за период 1965-1987 годов, можно четко заметить значительные темпы социально-экономического развития в указанный период в автономной области[3]. В советский период армянская община НКЛО имела и реально использовала право на развитие национальной культуры в сфере получения высшего и среднего образования на родном языке, развития культурно-просветительских учреждений, в рамках теле-и радиовещания, печатных СМИ и т.п.

Существенное влияние на генезис конфликта в НКАО оказал комплекс противоречий, связанных с демографическими процессами в регионе. Изменение демографической ситуации воспринималось армянской стороной конфликта достаточно болезненно, и было важным детонатором обострения межэтнического противоречия в регионе. Эти противоречия были вызваны активизацией мифационных потоков в послевоенные годы, носившие объективный характер и не были вызваны, как хотела это представить армянская пропаганда, целенаправленной политикой Азербайджана. Чтобы разобраться в этом вопросе обратимся к цифрам. Так, если согласно переписи 1926 г. армяне составляли 94 % населения НКАО, то в 1979 г. доля армянской общины сократилась до 75,9 %, от общей численности населения региона. Азербайджанское население автономии, наоборот, увеличилось в несколько раз. Если в 1926 г. азербайджанская община составляла всего 6%

---

[1] Газ. «Бакинский рабочий», 1988, 24 марта.

[2] Достижения Советского Нагорного Карабаха за 40 лет в цифрах. Степанакерт, 1963; Нагорный Карабах за 50 лет ( 1923-1973). Степанакерт, 1974; Достижения Нагорного Карабаха в девятой пятилетки. Степанакерт, 1976.

[3] Səmədzadə Z. Dağlıq Qarabağ : naməlum həqiqətlər. Bakı,1995, s.29-30.

населения НКАО, то в 1959 г .- 13,8%, а в 1979 - 23%[4]. Это было связано, прежде всего, с привязанностью азербайджанцев к родной земле, проживанием большей их части в сельской местности и как следствие этого высоким уровнем естественного прироста. У армян же, наоборот, наряду с высоким уровнем урбанизации и предрасположенностью к миграции, наблюдался низкий уровень естественно прироста.

С самого начала конфликта конфессиональная составляющая явно прослеживалась в ней. Армянская сторона рассматривала его как некое цивилизационное противостояние между армянами-христианами и азербайджанцами-мусульманами. Подобной риторикой о национальной несовместимости армян и азербайджанцев архмянские националисты пытались завуалировать свои территориальные притязания в форму столкновения двух взаимоисключающих национальных идентич-ностей или даже двух религиозных конфессий. Хотя в самом конфликте позиции сторон не были оформлены в конфессиональные рамки, позволяющие говорить о войне религий, однако в бытовом сознании армян карабахский конфликт имел ярко выраженную религиозную окраску и в определенной мере рассматривался как борьба с враждебным мусульманским окружением. По мере перехода конфликта в стадию открытого военного столкновения, это опосредованное восприятие превратилось в дополнительный источник аргументации армянской стороны, используемых властной элитой Армении и Нагорного Карабаха для идеологического обоснования своих действий.

Суммируя итоги, следует отметить, что комплексный анализ армяно-азербайджанского конфликта позволяет констатировать о сложном фоне данного конфликта, в прошлом явившегося благодатной почвой для актуализации целого ряда причин - политических, экономических, демографических, этнокультурных, конфессиональных и иных, легших в основу источников возобновления конфликта в конце 80-х годов XX века. При этом абсолютизация какой-либо одной из причин в Ущерб другой уводит от многофакторного понимания данного конфликтного явления. Поэтому весь вышеозначенный комплекс причин в том или ином объеме присутствовал в генезисе Карабахского конфликта.

[4] Махмудов Я., Шукюров К. Гарабаг: реальная история, факт, документы. Баку, 2007, с.73.

**İsmayıl MUSA**

# PARIS SÜLH KONFRANSINDA (1919-cu il ) "BÖYÜK ERMƏNİSTAN" İDDİALARINA QARŞ1 MÜBARİZƏ

Azərbaycan Xalq Cümhuriyyəti Sülh nümayəndəliyinin Paris konfransındakı çoxşaxəli fəaliyyətinin başlıca istiqamətlərindən birini də Azərbaycanın ərazi bütövlüyü uğrunda diplomatik mübarizə təşkil edir. Bu problemə dair məsələlərin aşağıdakı şəkildə qruplaşdırılması lazım gəlir:

1. Bir sıra xarici dövlətlər tərəfindən dəstəklənən ermənilərin Cənub-Qərbi Azərbaycan torpaqlarına dair iddialarını Sülh konfransının himayəsi ilə qanuniləşdirməyə və gerçəkləşdirməyə çalışmaları;
2. Azərbaycan Sülh nümayəndəliyinin "Böyük Ermənistan" iddialarının dəf olunması sahəsindəki siyasi-diplomatik səyləri.

Ermənilər hələ Paris konfransınadək Azərbaycanın Qarabağ, Naxçıvan, Zəngəzur və s. mahallarında sürətlə "etnik təmizləmə" -"yandırılmış torpaq" siyasətini yürütmüşdülər. Onlar bununla da "türksüzləşdirilmiş-müsəlmansızlaşdırılmış" bölgələrimizə öz "etnoqrafik hüquqlar"ını "sübuta" yetirməyə və həmin ərazilərin Ermənistana "tarixi" mənsubiyyətinin beynəlxalq birlik tərəfindən tanınmasına çalışırdılar.

Ermənistan bu qəsbkarlıq məqsədlərinə müvafiq olaraq Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı Sülh konfransına da tələblər irəli sürdü. Onun nümayəndəliyinin Memorandumunda Qafqaz Ermənistanının - keçmiş İrəvan quberniyasını (vaxtı ilə ona qatılan Naxçıvan mahalı və s.), habelə Gəncə quberniyasının cənub hissəsini də (Zəngəzur və b. qəzaları) əhatə edən - ərazisi göstərilirdi. Ermənilər öz niyyətlərini gerçəkləşdirmək üçün Memorandumda bir sıra cəfəng "dəlillər"i vurğulamışdılar. Onlar iddia edirdilər ki, azərbaycanlılar:

- Birinci Dünya müharibəsində Osmanlı türkləri ilə müttəfiq olmuşlar;
- Bakıda ingilis-erməni qüvvələri ilə vuruşmuşlar;
- Hazırda da Qafqazda yeni fəlakət törədə bilərlər.

Ermənilərin Paris konfransından tələbləri, təqdim etdikləri xəritədən də göründüyü kimi dənizlərdən (Qara və Xəzər) dənizə (Aralıq) qədər ərazinin "xarici işğalçılar"dan (Osmanlı və Azərbaycan dövlətlərindən) "azad olunması"nı nəzərdə tuturdu. İrəvandakı ingilis missiyasının üzvü polkovnik Temperleyin "Ermənistan Rus dövlətinin 1914-cü il hüdudlarında hansı əraziləri özünün ayrılmaz hissələri sayır?" sualına cavabında çoxlu digər bölgələrlə yanaşı həm də bütün İrəvan quberniyasının və cüzi istisnalarla Gəncə quberniyasının Zəngəzur qəzasının adlarını çəkmişdi.

Erməni nümayəndə heyətlərinin Paris konfransından tələbləri böyük dövlətlərin başçıları (L.Corc, Nitti) tərəfindən ciddi qəbul edilmədi. Belə ki, L.Corc İcmalar palatasındakı çıxışlarında: a) ermənilərin arzularının həddən ziyadə

böyüklüyünü; b) iddiasında olduqları ərazilərin əhalisinin tərkibində azlıq təşkil etmələrini qabartdı.

İtaliyanın, "ermənilərin işini öz işi sayan", əvvəlki Baş naziri Orlandodan fərqli olaraq Nitti "Böyük Ermənistan"ın bərpasını Antantanın avantürası sayırdı. O sanki gələcəyə ünvanlanan çox orijinal bir tövsiyə-xəbərdalığın da müəllifidir: "Ermənistan yalnız xəyali hüquqlarının köçürüldüyü xəritə ilə kifayətlənə bilər". Paris konfransında ermənilərin əsassız ərazi iddialarına Sülh nüınayəndəliyimiz tərəfindən yetərincə tutarlı cavablar verildi. Öncə "Parisdəki Sülh konfransına Qafqaz Azərbaycanı Sülh nümayəndəliyinin tələbləri" (Memorandumu) ilə ermənilərin iddiaları rədd olundu. Memorandumun IX ("Azərbaycan Respublikasının ərazisi") və X ("Azərbaycan Respublikasının ərazisi və əhalisinin sayı") bölümləri də bunu təsdiqləyir.

Memoranduma əlavə olunan xəritədən də göründüyü kimi, AXC-nin tabeliyində olan ərazisi şərqdə Xəzər dənizi, şimalda Dağıstan, Quzey Qafqaz və Gürcüstan, qərbdə Gürcüstan və Ermənistan, cənubda İranla həmsərhəd idi. Onun real hakimiyyəti altında olan mübahisəsiz ərazi 94.137,38 kv. km təşkil edirdi. Bu da Qafqazın 247.376,15 kv. km-lik ərazisinin 30 faizinə bərabər idi. AXC hakimiyyətinin yayıldığı mübahisəli əraziləri də əlavə etdikdə respublikamn ümumi ərazisi 150.184,88 kv. km olurdu. Bu da bütün Qafqazın 60 faizini təşkil edirdi. Azərbaycan Sülh nümayəndəliyi "Böyük Ermnistan" uğrundakı fitnə-fəsadların Parisdəki davamına qarşı mübarizə apararkən bir sıra diplomatik tədbirlər gördü. Onlar arasında Ə.Topçubaşının Sülh konfransının sədrinə və müttəfiqlərin nümayəndələrinə ünvanladığı etiraz notası (16/19.VIII.1919) xüsusi yer tutur. Nota ingilislərin himayəsi ilə Qars Respublikasının Ermənistana biriəşdirilməsi, habelə Naxçıvan. Şərur-Dərələyəz, Sürməli mahallarının və İrəvan qəzasının bir hissəsinin onun idarəçiliyinə keçməsinin elan edilməsinə görə verilmişdi. Mühüm əhəmiyyət kəsb edən bu diplomatik sənəddə aşağıdakı məqamlar nəzər-diqqəti xüsusi ilə cəlb edirdi:

a) göstərilən mahalların ermənilərin idarəçiliyinə verilməsinin elan edilməsi ilə (IV.1919) əlaqədar Müttəfiqlərin Qafqazdakı qoşunlarının komandanlığına AXC hökuməti tərəfindən etiraz olunması,

b) erməni hərbi hissələrinin həmin qəzalarda türk-müsəlman əhalisinə qarşı görülməmiş vəhşiliklər törətmələri;

c) bu ərazilərin idarəçiliyinin ermənilərə verilməsinin AXC-nin həmin torpaqlara dair şəksiz hüquqlarının açıq-aşkar pozulması kimi qiymətləndirilməsi.

Bölgələrin idarəçiliyinin Ermənistana keçməsi aktının onun hökuməti ilə yerli müsəlman əhalisi arasında daimi anlaşılmazlıqlar və hətta toqquşmalar yaradacağı da notada vurğulanırdı. "Notada həmçinin AXC hökumətinin mövqeyinin haqlılığına dair dəlillər də öz əksini tapmışdı:

- adları sadalanan qəzaların Azərbaycanın tərkib hissəsi kimi həmişə onun tərəfindən idarə edilməsi;

- Ermənistan Respublikasının idarəçilik mənasında hazırkı vaxtadək həmin qəzalarla heç bir əlaqəsinin olmaması;
- göstərilən ərazilərin müsəlman əhalisinin Ermənistanın idarəçiliyinə əsla dözməmələri və Azərbaycana can atmaları, bu məqsədlə də çoxsaylı nümayəndəliklər və yazılı müraciətlər göndərmələri;
- ən əsası isə adları çəkilən ərazilərdə yaşayan müsəlmanların və ermənilərin nisbətinin bu torpaqların Azərbaycana mənsubiyyətinin həlli üçün yetərliliyi.

Etiraz notasında həm də Sülh konfransından bir xahiş edilirdi. Belə ki, Müttəfiqlərin Qafqazdakı qoşunlarının komandanlığı vasitəsi ilə həmin qəzaların AXC-nin idarəçiliyində saxlanılması istənilirdi. Lakin bu kimi xahiş və istəklər hələki elə bir ciddi nəticə vermirdi.

Ə.Topçubaşı bunu "Paris məktubları"nda çox yaxşı açıqlamışdı: ingilis komandanlığı yerli müsəlman əhaliyə qarşı ədalətsiz hərəkətlərə göz yumur; tədbirlər görmək bir yana, açıq-aşkar yanlışlığa yuvarlanıb müsəlmanları günahlandırır; burada (konfransda) da kiçik xalqlara münasibətdə eyni ehtiyatlı, gözləmə mövqeyi və eyni cahillik, xəbərsizlik hökm sürür.

Regionun digər dövlətlərinin Sülh nümayəndəliklərinin "Qafqaz Evi" uğrundakı mübarizəsi də ermənilər tərəfindən əngəlləndi. Onların təmsilçiliklərinin yalnız 'Türkiyə və Qafqaz Ermənistanının vahid və böyük Ermənistan olaraq Ümumqafqaz Konfederasiyasına qatılmasının mümkünlüyü" tezisi birgə mübarizəyə ciddi zərbə vurdu.

Ermənilərin Qafqaz xalqları arasındakı ərazi-sərhəd mübahisələrinin tənzimlənməsinə dair məkrli (qərəzli) mövqeləri də regionun problemlərinin həllinə ciddi xələl gətirdi. Belə ki, onların təmsilçiləri Sülh nümayəndəliklərinin birgə iclaslarına (müzakirələrinə) əsasən qatılmırdılar. Danışıqlar prosesinə qoşulanda da əsassız tələblərlə və mümkünsüz təkliflərlə ümumi nəticələrə gəlinməsinə imkan vermirdilər. Məsələn, onların təmsilçilikləri konfransdakı güclü dayaqlarını nəzərə alaraq ərazi-sərhəd məsələlərinin məhz burada həll edilməsinə çalışırdılar.

Buna görə də Azərbaycan və Gürcüstan nümayəndəliklərinin birgə iclaslarında (14.VIII.1919 və s.) ikitərəfli ortaq mövqe işlənib hazırlandı. Özəyində M.Məhərrəmovun təklifi dayanan bu ortaq mövqe: a) sərfəli sayılmadığından ərazi-sərhəd mübahisələrinin konfransda deyil, yerlərdə həll edilməsini; b) bu işdə əsas prinsip kimi AXC-GR müqaviləsinin (16.VI.1919) dördüncü maddəsinə istinad olunmasını nəzərdə tuturdu (Həmin maddə ərazi məsələlərinin tərəflər arasında tənzimlənməsini, mübahisəli hallarda isə arbitraj vasitəsi ilə həllini əsas götürürdü).

Azərbaycan Sülh nümayəndəliyinin torpaqlarımızın tamlığı uğrunda, ilk növbədə isə "Böyük Ermənistanın bərpası" cəhdlərinə qarşı mübarizəsi sonrakı beynəlxalq məclislərdə də (London və San-Remo konfranslarında) davam etdirildi.

**İsmayıl Musa**

# OSMANLI DÖVLƏTİNDƏ ERMƏNİLƏRİN DURUMU VƏ "SOYQIRIMI": TARİXİ SƏNƏDLƏRIN DİLİ İLƏ

"Dünyanın hər tərəfinə hər dil ilə elan olunsun. Dünya görsün ki, ermənilər beş yüz ildən bəri Osmanlı dövlətinin adil idarəsində xoşbəxt yaşamışlar" (Osmanlı Birinci Məşrutiyyət Məclisinin (1876-cı il) üzvü, Hələb millət vəkili Manuk Karcıyanın çıxışından).

Tarixboyu çeşidli dövlətlərdən hərtərətli himayə görən və yardım alan ermənilər artıq iki əsrdir ki, ardıcıl və məqsədyönlü türk-müsəlman soyqırımı siyasəti yeridirlər. Böyük dövlətlərin türk millətinə qarşı yürütdükləri siyasətin gerçəkləşdirilməsində bir alət (vasitə) kimi istifadə olunan ermənilər həm də Anadolu və Azərbaycan türkləri tərəfindən sıxışdırılmaları, soyqırımına məruz qalmaları barədə saysız-hesabsız uydurma və yalanlar yayırlar.

Bütün türk dövlətlərində yüksək iqtisadi-mədəni inkişafa yetişən, dini etiqad sərbəstliyinə malik olan və dövləti məqamlara yiyələnən ermənilər öz köçlərini, diaspora və lobbi yaratmalarını, "genosidə məruz qalmalarını" Osmanlı dövlətindəki durumları və 1915-ci il olayları ilə əlaqələndirir, "əsaslandırmağa" çalışırlar. Onlar "Böyük Ermənistan"ı bərpa etmək məcburiyyətində qalmalarını və "Türkiyədə 1915-ci il erməni soyqırımı" uydurmalarını aşağıdakı "dəlillərlə isbatlamağa" cəhdlər göstərirlər:

- guya türklər tarixboyu ermənilərlə düşmənçilik etmişlər;
- türk dövlətlərində, xüsusi ilə də Osmanlı imperatorluğunda ermənilərin durumu çox ağır və acınacaqlı olmuşdur;
- 1915-ci ildə Osmanlı dövlətinin hüdudları daxilində həyata keçirilən erməni yerdəyişməsi onların tarixdəki ilk köçürülməsidir;
- erməni diasporasının yaranması 1915-ci il hadislərinin nəticəsidir;
- ermənilər türklər tərəfindən soyqırımına məruz qalmışlar.

1915-1923-cü illərdə Türkiyədə "soyqırımına uğradıqlarını" və Azərbaycanda isə daima "sıxışdırıldıqlarını, qırıldıqlarını" iddia edən ermənilər zaman-zaman bu istiqamətdə məqsədyönlü, sistemli təbliğat aparmışlar. Ermənilərin bu təbliğatlarından özlərinin çoxşaxəli mənafe və maraqlarının təminatı üçün faydalanan böyük dövlətlər isə onlara hərtərəfli yardımlar göstərmişlər.

XX-XXI yüzilliklərin qovuşuğunda genişlənən "erməni soyqırımı" təbliğatının böyük dövlətlər (Fransa, Rusiya, ABŞ, İngiltərə, İtaliya və s.) tərəfindən dəstəklənməsi daha da güclənmişdir. Onlar özlərinin əbədi geosiyasi və həm də dövrə (şəraitə) müvafiq konkret maraqlarından çıxış edərək "erməni genosidi" təbliğatı ilə həmrəyliklərini indi daha açıq şəkildə ortaya qoymuşlar. Həmin dövlətlərin parlamentlərində "erməni soyqırımı"na dair vaxtaşırı keçirilən müzakirələr və çıxarılan qərarlarla əslində türk dünyası növbəti – "soyuq və sivil

yürüşü" ilə üzləşmişdir. "XXI yüzilliyin türk əsri" olacağına və türklərin "sivil yolla Avropanı ələ keçirə biləcəklərinə" dair mülahizə-baxışlardan rahatsız olan, ələlxüsus da özlərinin geosiyasi maraqlarını, iqtisadi mənafelərini gerçəkləşdirməyə çalışan böyük dövlətlər "erməni soyqırımı" təbliğatı və s. məsələlərdən möhkəm yapışmışlar.

Əslində isə həm "erməni soyqırımı"ndan "üzülən" və məqsədyönlü türk-müsəlman düşmənçiliyi siyasətini yürüdən Rusiya, Qərbin bir sıra dövlətləri, həm də elə ermənilərin özləri tarixboyu türk-müsəlmanlara problemlər yaratmış, onları kütləvi surətdə qırmışlar. Bütün bunlar isə ortaya bir dilemma çıxarmış, "Erməni genosidi", yoxsa türk-müsəlman soyqırımı sualını yaratmışdır. Və həm də bu tarixi suala obyektiv elmi cavab verilməsi, "erməni soyqırımı" təbliğatının arxasında dayanan dövlət-güclərin niyyətlərinin aşkarlanması zərurəti yaranmışdır.

Arxiv sənədləri, problemin tədqiqatçılarının (xüsusi ilə də bir çox Qərb və erməni müəlliflərinin) gəldikləri nəticələr, din və dövlət xadimlərinin müvafiq mövqeləri "əzabkeş xalq"ın iddialarının tamamilə əsassız, onun ideoloqlarının baxışlarının isə yalan-uydurma olduğunu təsdiqləmək üçün çox yetərlidir. Osmanlı ermənilərinin durumu ilə bağlı çox-saylı obyektiv baxış və mövqeləri ifadə edən aşağıdakı fikir və mülahizələri də diqqətə yetirmək faydalıdır:

1. Öncə, ümumiyyətlə, türk millətinin bəşəri dəyərlərə, xüsusi ilə də insan haqları və s. tarixən qayğı göstərməsini vurğulamaq lazımdır. Bununla bağlı söylənilən fikirlərdən "Günəş ölkəsi"ni Yer üzündə tapmaq mümkündürmü?" sualına məşhur T.Kampanellanın cavabını yada salaq: Fikir hürriyyətinə, vicdan azadlığına ilişməyən, düşüncəni zindana qoymayan, həqiqət sevgisini zəncirə vurmayan bir millət, o, cəsur və adil türklərin varlığı - heç olmazsa sabah – belə bir ölkənin var olacağını mənə zənn etdirir.

Ermənilərin Osmanlıdakı durumlarının qənaətbəxşliyi ilə əlaqədar baxışları nəzərdən keçirərkən, XVIII əsrin sonlarında Ottoman Portasını gəzən polyak səyyahı Mikoşanın onlar barəsində yazdığı "hətta Osmanlı dövlətinin çökəcəyi günün yaxınlaşmasından məmnun olmadıqları belə görünməkdədir" mülahizəsini nəzərə almamaq qeyri-mümkündür. Başqa bir nəzər nöqtəsi - Almaniyanın İstanbul böyükelçisi Vangenheymin mülahizələri də maraq doğurmaya bilməz. Onun "Erməni məsələsi"nə dair öz dövlətinin Xarici İşlər nazirliyinə göndərdiyi 1913-cü il 10 iyun tarixli raportda deyilirdi ki, türk dövlətində ermənilərin durumunun fövqəladə yaxşı olduğunu heç kim iddia edə bilməz, fəqət o biri yandan da Türkiyənin digər sakinlərinin və ələlxüsus türklərin ermənilərdən daha yaxşı bir vəziyyətdə, yaxud da ermənilərin durumunun türk tarixinin hər hansı başqa bir zamanındakından daha pis olduğunu da həmən -həmən heç kəs isbat edə bilməyəcəkdir.

3. Osmanlı ermənilərinin mənəvi həyatı, türklərlə qaynayıb-qarışmaları və s. məsələlərlə bağlı isə 1835-1839-cu illərdə Türkiyədə olan alman hərbçisi N.fon Molktenin yazdılarının önə çəkilməsinə ehtiyac duyulur. "1835-1839-cu illərdə

Türkiyədəki vəziyyət və hadisələrə aid məktublar" kitabında (Berlin, 1917) Osmanlı ordusu Baş komandanınm erməni əsilli tərcüməçisindən və onun ailəsindən bəhs etməklə yanaşı Moltke Anadolu ermənilərinin durumu barədə ümumiləşmiş fikirlər söyləmişdi: "Bu ermənilərə, əslində, xristian türklər deyilə bilər... Ermənilər türk adətlərini, hətta dillərini mənimsəmişdilər".

4. Ermənilərin Osmanlıdakı vəziyyatlərinin üstünlükləri digər böyük dövlətlərdəki azlıqların şəraitləri ilə müqayisədə açıq-aşkar görünmüşdür. Bunu Qərb araşdırmaçıları və diplomatları da etiraf etmişlər. E.Reclus yazmışdı ki, "bir çox yönlərdən xalq topluluqlarının müstəqilliyi, sərbəstliyi Türkiyədə Qərbi Avropanın ən qabaqcıl ölkələrindən daha mükəmməldir". Az öncə istinad etdiyimiz alman diplomatı Vangenheymin raportuna yenidən nəzər saldıqda görürük ki, ermənilər Türkiyədə o dövrdə, Rusiyada yəhudilərin, lehlilərin (polyakların) və finlərin durumuna nisbətən daha yaxşı bir vəziyyətdə olmuşlar.

5. Osmanlı ermənilərinin durumunu daha ətraflı və dərindən səciyyələndirən mövqelərdən biri də Nikolaidisin Berlin müqaviləsini imzalayan dövlətlərə ünvanladığı yazıda ifadə olunmuşdur. "Osmanlı dövlətinin mülki bütünlüyü" başlıqlı bu yazıda toxunulan tarixi məqamları tezisvari aşağıdakı kimi ifadə etmək olar:

-  avropalılar son zamanlarda Osmanlı türkləri ilə padşahını təqsirləndirərək Avropadan çıxarılmaları üçün bir səlib (xaç) yürüşü ruhu yaratmağa çalışırlar (XX-XXI əsrlərin qovuşuğunda olduğu kimi - İ.M.);
-  ermənilər vaxtilə türklərə bir xilaskar kimi baxaraq onları Bizansın əsarətindən qurtarmağa çağırmışlar və türklərlə münasibətlər yaradan ilk xristian xalqlarından sayılırlar:

•ermənilərin tarixi çox qarışıqdır, onlann krallığının Tiqran dönəmində ən yüksək mərtəbəyə çatması iddiası yanlışdır və o heç bir zaman milli dövlət şəklini almamışdır;

• türklərin ortaya çıxdığı dövrdə ermənilər Anadolunun hər tərəfinə səpələnmişdilər və milliyyətlərini unutmuşdular;

•o zamanlar çox fağır olan ermənilər türklərin sayəsində bellərini düzəldə bilmiş, onların hesabına İstanbulda yerləşmişdilər;

• bütün dövrlərdə və şəraitlərdə türklərdən şəfqət və mərhəmət görən ermənilər onların sayəsində canlarını, mallarını, dil, din, məzhəb və adətlərini qorumuş, bu işlərdə sultan Mehmed Fatehin İstanbul Patriarxlığına verdiyi imtiyazlardan yetərincə yararlanmışdılar;

•bir neçə əsrboyu Osmanlıda dinclik şəraitində yaşayan ermənilər çox az vergi ödəməklə hərbi mükəlləfiyyət daşımamış, ticarət və sənayeni ələ keçirərək rifah içində xoşbəxt həyat sürmüş, dövlət xidmətinə qatılmışdılar;

-  Avropa, xristianları müdafiə bəhanəsi ilə, XVIII əsrin sonlarından etibarən Osmanlı hökumətinin işlərinə qarışmağa başlamışdır;

 xristian təbəələr avropalıların müdaxiləsi, təhdidi nəticəsində fıtnəkarlıqlar törətməyə başlamışlar və özəl mənfəətlərinə zidd bir siyasətin aləti olmalarının fərqində deyildirlər;

•rumların, serblərin və bolqarların üsyanlarından sonra növbə yabançı misyonerlərin təsirinə qapıları ermənilərə çatmışdır;

•avropalıların işə qarışmaları həyəcan, iğtişaşlardan başqa bir şeyə yaramır və əgər Avropa dövlətləri xristian təbəələrin vəziyyətinin düzəlməsini həqiqətən istəyirlərsə, onda Osmanlı hökumətinin daxildə sərbəst fəaliyyət göstərməsinin gərəkliyi ilə razılaşmalıdırlar.

Bütün bu tarixi gerçəklik və həqiqətlərin qarşısında "erməni soyqırımı" təbliğatı adı altında antitürk siyasəti yeridənlərə isə iki böyük şəxsiyyətin baxış və mövqelərini (tövsiyələrini) burada bir daha xatırlatmağa ehtiyac duyuruq:

 Kazım Qarabəkir Paşa Türkiyənin şərqindəki torpaqların bir hissəsini ermənilərə vermək istəyən ABŞ hökumətinin 1919-cu ildə Anadoluya göndərdiyi xüsusi missiyanın başçısı general Harborda öz dövlətinin mövqeyini bu şəkildə açıqlamışdı: "... siz nə yazıq ki, türk millətini tanımırsınız; haqsız və utanmadan yapılan təbliğatın təsiri altındasınız. Siz əvvəla bizimlə anlaşınız; Siz əvvəla bağımsızlığımızı və şərəfimizi rahatsız etməyin və bundan sonrasını türkün haqq duyğusuna və sözünə əmanət edin. Cahanda türkün sözü qədər inanılan bir sığorta yoxdur. İştə tarix... Alın və incələyin...";

 Türkiyə Böyük Millət Məclisi hökumətinin İtaliyadakı təmsilçisi Cami (Baukurt) bəy dövrün an böyük agentliklərindən sayılan "United Teleqraph"in 11 sualını cavablandırmaq üçün 1920-ci ilin sonlarında Atatürkə çatdırmışdı. Həmin sualların, türk-erməni münasibətlərinə aid olan, 3-dən birinə (6-cıya, "Türklərin erməniləri qətl etdikləri barədə sonradan ortaya atılan ittihamlar doğrudurmu?") cavabında Atatürk demişdi: "Türklər tərəfindən ermənilər əleyhinə qətliam yapılması sonradan çıxarılan rəvayətlər və sözlər bir qrup yalan və uydurma xəbərlərdən ibarətdir. Bunların qətiyyən doğru olmadığına əmin ola bilərsiniz. Bu həqiqətin sənədləşdirilməsi üçün bitərəf heyətlərin məmləkətimizdə tam sərbəstlik ilə təhqiqat aparmalarını məmnuniyyətlə qəbul edirik. Bu məsələyə dair Amerika Yaxın Şərq Yardım heyatləri tərəfindən verilən son raportların oxunmasını tövsiyə edirik".

"Erməni soyqırımı" əfsanəsini uyduranlar həm də onun uzunmüddətli və uzaqgedən təbliğatını aparırlar. Dünyanı həmin əfsanəyə inandırmağa çalışan və bundan strateji məqsədlərinə yetişmək üçün yararlanmaq istəyən ermənilər havadarları ilə birlikdə "türk-müsəlmanın yazıq erməniyə tarixi zülmü"nə dair yalanlar yayır, iddialar irəli sürürlər. İdeoloji-milli düşüncə sistemi şəklinə salınan bu yalanlar və iddialar toplusunda mərkəzi yeri "1915-1923-cü illərdə Türkiyədə erməni soyqırımı" məsələsi tutur. Tarixboyu "türk-müsəlman düşmənçiliyi" ilə

üzləşdiklərini iddia edən ermənilər Osmanlı dövlətində də hərtərəfli zülmə və təzyiqlərə məruz qaldıqlarını bildirirlər.

Türkün (müsəlmanm) erməniyə tarixi (bəşəri) xidmətinin etirafı və dəyərləndirilməsinin əvəzində "soyqırım" əfsanəsini uyduraraq təbliğ edənlərin iddialarına görə:

• ermənilər tarixdə ilk dəfə Osmanlı dövlətinda kütləvi köçürülməyə məruz qalmışlar;

 burada dini zəmində sıxışdırılmışlar;

 milli-dini mənsubiyyətlərinə görə iqtisadi-mədəni inkişafdan qalmışlar;

• dövlətin məqsədyönlü siyasəti nəticəsində soyqırımına uğramışlar və s.

Halbuki çoxsaylı tarixi qaynaqların da (türk, erməni, Qərb, Rusiya) təsdiqlədiyi kimi ermənilər Osmanlı dövlətində:

 əski çağlardan bəri qurtula bilmədikləri dərəbəylik yaşayış qaydasından toplum şəklinə keçə bilmişdilər;

 iqtisadi-mədəni dirçəlişə və tərəqqiyə nail olmuşdular;

 dini etiqad azadlığı əldə etmişdilər;

 digər insan haqlarına sahib çıxmışdılar;

 yüksək dövlət məqamlarına yetişmişdilər;

• bütün bu sadalananların sayəsində də çoxluğu (türk-müsəlmanları) sıxışdırmaq və hətta kütləvi surətdə qırmaq imkanları qazanmışdılar.

Ermənilərin iddia və yalanlarına dair bir neçə başlıca məqamın üzərində dayanılmasına ehtiyac görürük.

Birincisi, tarixən böyük dövlətlərin - imperiyaların ciddi təsir və təzyiqlərinə (əksər hallarda da öz ucbatlarından) məruz qalan ermənilər çox vaxt toplum halında yaşamayıblar. Elə onların öz tədqiqatçılarından G.Aslanyan 1914-cü ildə İstanbulda çap etdirdiyi "Ermənistan və ermənilər" kitabında yazırdı ki, "ermənilər darəbəyüklər halında yaşayıblar. Bir-birlərinə vətən hissləri ilə bağlı deyillər... Bir-birləriylə bağlılıqlarını siyasi əlaqələrlə deyil, adət-ənənələri, dil və dinləriylə yaradırlar". Ermənilər ya tarixin müxtəlif çağlarında məskunlaşdıqları ayrı-ayrı yerlərdən başqa ərazilərə köçürülmüşlər, ya da özləri müəyyən səbəblərə görə yerdəyişmələrə bas vurmuşlar.

Yeri gəlmişkən, Türkiyə araşdırmaçısı E.İlterin erməni köçlərinin səbəblərinə dair təsnifatı dolğun və obyektivdir. Onun nəzər nöqtəsinə görə erməni köçləri: 1) onların pula (ticarətə) va sərvətə düşkünlükləri, 2) macərapərəstlik ruhu, 3) xristianlıqdakı məzhəb qovğaları, dini təzyiqlər və 4) yaşadıqları dövlətlərə tarixboyu xəyanət içində bulunmaları ilə sıx əlaqədar olmuşdur. Fikrimizcə, sadalanan səbəblər sırasında sonuncu dominant rol oynayır və ciddi araşdırılma obyektlərindən olmalıdır.

Müxtəlif imperiyaların ərazilərində məskunlaşan ermənilərin öz xəyanətkar hərəkətlərinə və s. səbəblərə görə köçürülmələrinə dair tarixi faktlar yetərincədir. Sasani, Bizans, Rusiya və digər imperatorluqlarda vaxtaşırı hayata keçirilən erməni

köçürülmələri barədə onların öz tarixçiləri də çox yazıblar. Buna görə də 1915-ci ildə Osmanlı dövlətində həyata keçirilən erməni yerdəyişməsinin onların "tarixdəki ilk köçürülməsi", "erməni diasporunun yaranmasının 1915-ci il hadisələrinin nəticəsi" kimi dəyərləndirilməsi kökündən yanlışdır və onlarla əsla razılaşmaq olmaz. Çünki ən azından elə erməni tarixinin özü bu baxışları təkzib edir.

İkincisi, tarix türklərin dəfələrlə erməniləri Bizans və digər dövlətlərin dağıdıcı hücumlarından xilas etmələrinə dair çoxlu faktlar verir. Səlcuqların zəfərləri sayəsində Bizansın zülmündən qurtulan ermənilərin türkləri müdafiə etmələri halları da tarixə məlumdur. Urfah (Ədəsli) erməni salnaməçisi Mateos türklərin Urfanı fəth etmələrinin ermənilər tərəfindən bayram kimi qeyd olunduğunu qələmə almışdır.

Yeri gəlmişkən, bu kiıni halları ermənilərin tarixən formalaşan xislətinin nəticəsi kimi dəyərləndirən fikirlər də mövcuddur. Çünki onlar sonralar, yəni 1914-1920-ci illərdə rus, ingilis, fransız, yunan qoşunlarının Türkiyə şəhərlərini tutmalarını, ingilis hərbi hissələrinin 1918-ci ildə Bakıya, rus silahlı qüvvələrinin 1804 və 1920-ci illərdə Gəncəyə, 1920 və 1990-cı illərdə isə Bakıya soxulmalarını da sevinclə qarşılayıb şadyanalıq etmişlər.

Üçüncüsü, belə bir mühüm cəhəti xüsusi ilə vurğulamaq gərəkdir ki, məhz türk dövlətləri (ələlxüsus da Osmanlı) yürütdükləri siyasətlə ermənilərin toplum halında yaşamalarına şərait yaratmışlar. Elə Birinci Dünya müharibəsi ərəfəsində Osmanlı imperatorluğunda bir neçə mənbəyə görə 1.300.000, rəsmi statistikaya əsasən isə 1.161.169 ermənінin yaşaması faktı da bu fikrə sübutdur. Ermənilərin bir xalq olaraq formalaşması və dünyada tanınmaları da Osmanlı dövləti vasitəsi ilə baş vermişdir.

Bizcə, tarixçi M.Varandyan 1914-cü ildə Cenevrədə ermənicə nəşr etdirdiyi "Erməni hərəkatı tarixi" kitabında bu məsələni yetərincə dolğun ifadə edə bilmişdir: "On doqquzuncu yüzilliyin başlanğıcında ermənilik bir millət kimi Avropada tanınmırdı. Avropalılar bunları İstanbuldan bilirdilər. Erməniləri yer üzünə dağılmış tacirlər, öz haqq-hesablarından başqa bir şeyə bağlı olmayan kimsələr, yəhudilər kimi vətənsiz, milliyyətsiz, sərsəri, bəxtsiz kimi tanıyırdılar".

Türkiyə dövlətinin ermənilərin həyatında oynadığı rol və tarixində tutduğu yer Başbakanlıq Osmanlı arxivindəki bir mühüm materialdan da aydın görünür. "Berliner Taqblatt" qəzetinin 1894-cü il 28 sentyabr tarixli 393-cü sayında gedən və barəsində Almaniyadakı türk səfirliyi tərəfindən Xariciyyə naziri Səit Paşaya məlumat verilən "Erməni problemi və şikayətləri" başlıqlı yazıdan ibarət olan həmin materialdakı məqamlar maraq doğurur. Yazıda, İngilis Erməni Dərnəyinin 1894-cü ildə Londonda keçirilən toplantılarından birində ermənilərin bəzi şikayətləri ilə bağlı, yüksək məqamlı erməni rahibinin aşağıdakı baxışları öz əksini tapmışdı:

- əgər Osmanlı dövləti olmasaydı biz ermənilər bir Osmanlı dövləti qurmalıydıq;

- dünyada heç bir azlıq Osmanlı ermənilər qədər sərbəstliyə sahib olmamışdır;
- padşahın yardımı olmasaydı kilsələrimiz, xəstəxanalarımız, məktəblərimiz xaraba halına gələr, yoxsullarımız acından ölərdi, din adamlarımız möhtac duruma düşərdi;
- ermənilər Osmanlı ölkəsinin hər yerində dağınıq bir haldadırlar, heç bir yerə sahiblik iddiasında ola bilməzlər;
- onlar şəxsən hakimiyyət qabiliyyətinə malik deyillər, nədən hökumət qurmaq istəyirlər?
- bir erməni kralının ilk işi babasını asdırmaq, ölkəni soyub-satmaq olacaqdır və Rusiya asanlıqla bu fürsəti qaçırmayacaqdır;
- nəticədə isə osmanlıların əsirgəməyərək verdiyi xoşbəxtliklərin yerini tutacaq iztirablardan dolayı nəvələrimiz bizə lənət yağdıracaqlar.

Dördüncüsü, özlərinin müxtəlif səpgili konkret maraqlarına görə "erməni soyqırımı" təbliğatını dəstəkləyən dövlətlərə (Fransa, Rusiya, ABŞ, və b.), habelə müəyyən qurumlara (Vatikan, Avropa Birliyi və s.) yaxın tarixdən bəzi xatırlatmalar etməyin zərurəti meydana çıxır. Bəşəriyyət bu və digər dövlətlərin müxtəlif regionlarda əsrlərboyu törətdikləri çeşidli soyqırımlarını yaddaşına həkk etmişdir . Burada sadəcə "türklərin erməniləri sıxışdırmaları və qırmalarına dair yalanlarla bir xristian həmrəyliyi nümayiş etdirənlərə öz tarixlərindən gətirilən örnəklərlə müraciət etmək istərdik.

Yaşanan əsl tarixin və dürüst yazılan keçmişin tövsiyəsi budur: Osmanlı dövlətində ermənilərin sıxışdırılmaları və təzyiqlərə məruz qalmalarına dair uydurmaları həqiqət kimi qəbul edənlər unutmasınlar ki:

- I Napoleon Bonapartın "Anadoludakı katolik ermənilərdən istifadə etməyin mümkün olub-olmaması" sualına İstanbuldakı fransız səfiri Sebastiani "ermənilər həyatlarından o qədər məmnundurlar ki, buna imkan yoxdur" cavabını vermişdi;
- ABŞ prezidenti Klivlend 1894-cü ildə senata müraciətində "xristian olduqlarına görə ermənilərə Türkiyədə zülm edildiyinə dair heç bir xəbər alınmadığı"nı söyləmişdi;
- tarixçi M.Varandyan "erməni kültürü, dili, tarixi, ədəbiyyatı baxımından Türkiyə ermənisi Rusiya ermənisinə nisbətən çox qüvvətli və azaddır" yazmışdı;
- Bismark "erməni məsələsi əski bir alman əsgərinin kəmiklərinə belə dəyməz" demişdi;
- İstanbuldakı ingilis böyükelçisi Osmanlı Xariciyyə Nəzarətinə ünvanladığı 1847-ci il 22 fevral tarixi məktubunda "protestantlığa dönən ermənilərin digər məzhəblərdən olan soydaşları tərəfindən rahatsız edilməmələri üçün Osmanlının gördüyü tədbirlərlə bağlı məmnunluğunu bildirmişdi.

**Qasım HACIYEV**

## V.KAZİMİROVUN «QARABAĞA SÜLH» KİTABINA MÜNASİBƏT

Bu bir həqiqətdir ki, hər bir dövlətin öz maraqları var və maraqlardan çıxış edir. Bu maraqlar iqtisadi, ticari və mədəni sahədə əlaqələrlə realaşırsa, bu alqışa layiqdir. Belə əlaqələrin mümkünlüyü şəraitində, açıq siyasət yürütmək sivilizasiya sayılırsa, humanizm pərdəsi altında mənfur siyasi xətt tutmaq, digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə xəyanət edilirsə bu ədalətsizlikdir. Konkret olaraq, Azərbaycan xalqını 200 ildir ki, öz tarixi taleyini rahat yaşamağa imkan verməyən vaxtilə imperializm, sonra çarizm, daha sonra bolşevizm günahkar idisə, indi bəs kimdir günahkar? Bərabərhüquqlu münasibətlərə - yaxşı qonşuluğa, tərəfdaşlığa, hərtərəfli inteqrasiyaya nə mane olur? Bu Azərbaycana qarşı yeridilən mənfur siyasətin, reallığın sadə izahıdır, elmi, siyasi, hüquqi izahı da yaxşı məlumdur:

1. V.Kazimirovun «Qarabağa sülh»* kitabı dünyanın həlli vacib olan münaqişələrindən biri - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə həsr edilmiş növbəti zərərli diplomatik addımdır. Kitabdakı şərhlər və müəllif tərəfindən edilən təkliflər sülh arzusundan uzaqdır. Kitab "sülh" adlandırılmasına baxmayaraq məna və məzmuna görə sülhə deyil, müharibəyə çağrışdır.
2. V.Kazimirov ATƏT-in Minsk qrupunun vasitəçilik missiyasını qəbul etmir. ATƏT-i bacarıqsılıqda, qeyri fəallıqda ittiham edir. Onu açıq tənqid edir və münaqişənin həllində Rusiya dövlətinin yeknəsək rolunun qiymətləndirilməsinə inam yaratmağa çalışır.
3. V.Kazimirov ATƏT-i ittiham edir. O, bu beynəlxalq təşkilatı konkret ədalətli qərar çıxarmadığı, separatizm yaratmaqla Azərbaycanın torpaqlarını işğal edən, hələ də işğal altında saxlayan, 1 milyon əhalisini qaçqın və köçkünə çevirən Ermənistana qarşı qəti tədbirlər görə bilmədiyi üçün deyil, həmin təşkilatı sanki Rusiya Federasiyasının xarici siyasətinə əngəl olmasına görə ittiham edir; "qalib gəlmiş", daha doğrusu qalib edilmiş separatçı Dağlıq Qarabağ rejiminə sanki müstəqil respublika statusu verilməsinə nail ola bilməməsinə görə ittiham edir.
4. V.Kazimirov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin həvalə edildiyi və münaqişənin həlli ilə bilavasitə yaxından məşğul olan ATƏT-in Minsk qrupundan mandat tələb edir. Bununla da, münaqişənin həllinə onsuz da liberal yanaşan ATƏT-in Minsk qrupunun qəbul etdiyi və gələcəkdə qəbul edə biləcəyi qərarları şübhə altına alır ki, bunu da problemin həllinə Rusiyanın mane olacağına işarə hesab etmək olar.
5. V.Kazimirov "Qarabağa sülh" deyərkən ermənilərin vəkili kimi çıxış edir, erməni separatizmini "azadlıq mübarizəsi" kimi qələmə verir, işğala bəraət qazandırır.

6. Tanınmamış, qondarma "Dağlıq Qarabağ Respublikası"nın münaqişənin və danışıqların tərəfi kimi qəbul edilməsini təkidlə tələb edir. Kitabda müharibənin tərəfləri kimi Azərbaycanı və Dağlıq Qarabağı qarşı-qarşıya qoyur, Böyük Sülh Sazişinə dair danışıqları da bu formatda davam etdirməyi - qeyri-məqbul bir məsələni təkid etməkdə davam edir. Bunun əleyhinə olanları təqsirləndirməyə çalışır.
7. Vasitəçi-barışdırıcı missiyası daşımış keçmiş diplomat V.Kazimirovun bu kitabı imperiya ambissiyalı siyasəti tərənnüm edən təbliğat vasitəsidir.
8. Kitabda çox ciddi məsələlərə elə toxunulur ki, tərəfkeşliyin həddini aşması səviyyəsində ikrah hissi yaradır.
9. V.Kazimirovun sülh təklifi ermənilərin torpaq, digərlərinin imperiya iddialarına xidmətdən başqa bir şey deyildir.
10. V.Kazimirov Azərbaycan torpaqlarının işğalının nəinki Rusiya Federasiyası və Ermənistan Respublikası hərbi qüvvələrinin bilavasitə yardımı ilə həyata keçirilməsini etiraf etmir, hətta Ermənistan vətəndaşlarının iştirakım inkar edir.
11. Özünü obyektiv, bitərəf vasitəçi kimi qələmə verən V.Kazimirov bu ədalətsiz müharibənin təqsirkarının Ermənistan olduğunu, həmçinin, ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və etnik təmizləmə siyasətinin mənfur nəticəsi olduğunu qəbul etmir.
12. V.Kazimirov Ermənilərin "öz müqəddəratını təyin etməsi" məsələsinə tənqidi yanaşır, lakin nəticədə tənqid olunan bu iddianın son dövrlərdə gündəmdən düşməməsi təəccüb doğurur.
13. V.Kazimirov tarixdə «məzlum» «həmişə əzilən» erməniləri «erməni - azərbaycanlı» müharibəsində "döyüşkən, mübariz" kimi təsvir etməsi həqiqətdən uzaq təsəvvür yaratmaqla bərabər ziddiyətin dərinləşməsində də xüsusi rol oynayır.

**Mövcud reallıq və təzadlar isə aşağıdakılardan ibarətdir:**

1. Azərbaycan ərazisi Ermənistan Respublikası tərəfindən Rusiya Federasiyasının köməyi ilə işğal edilib. Münaqişənin uzanmasında Rusiya da maraqlı bir dövlət kimi çıxış edir;
2. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və onun ətrafında yerləşən digər ərazilərinin işğalında Rusiya Ermənistana hərbi dəstək vermişdir;
3. Rusiya münaqişənin həllində həmsədrlərdən diri olsa da onu Dağlıq Qarabağın statusu daha çox maraqlandırır;
4. Rusiya Cənubi Qafqazda yaratdığı və indi hərbi və siyasi müttəfiqi olan Ermənistanın tərəfini saxlayır və buna görə də Azərbaycan torpaqlarını işğaldan azad etməsi üçün təzyiq etmir;

5. Rusiya Ermənistanda hərbi bazalarının mövcudluğuna görə Dağlıq Qarabağ münaqişəsində ona dəstək verir;

6. Rusiya NATO-un genişlənməsinin qarşısını almaq və Ermənistanın Qərbə inteqrasiyasına imkan verməmək məqsədilə ondan çox asılı olan Ermənistanı əldə saxlamaq üçün ona nəinki münaqişənin həllində təzyiq etmir, əslində hər vasitə ilə yardım edir;

7. Rusiya Azərbaycanın birtərəfli olaraq Qərbə inteqrasiyasını məhdudlaşdırmaq naminə Azərbaycana təzyiq vasitəsi olaraq münaqişənin ədabtli həllini istəmir;

8. Azərbaycamn enerji məhsullarının Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa kəmərləri vasitəsilə Rusiyadan yan keçməklə dünya bazarlarına çıxarılması və Qərbin, xüsusilə ABŞ-ın və Türkiyənin bu layihələrdə geniş iştirakını Rusiya özünün Cənubi Qafqaz maraqlarına uyğun gəlməyən, xüsusilə də Azərbaycanla bağlı beynalxalq səviyyəli kommunikasiya vasitələrindərı kənarda qalmasına görə narahatdır. Buna görə də Azərbaycana təsirini əldə saxlamaq üçün Dağlıq Qarabağ münaqişəsindən təzyiq vasitəçi kimi istifadə edir;

Azərbaycanm bir sıra beynəlxalq birliklərlə güclənməkdə olan münasibəti, o cümlədən Avropa İttifaqı ilə qonşuluq siyasəti, Şərq-Qərb dialoqunun fəal üzvünə çevrilməsi, Avropa üçün alternativ enerji mənbəyinə malik olması, Mərkəzi Asiyanın enerjisinin dünya bazarlarına çıxarılmasında əlverişli coğrafi mövqeyi Rusiyanı rahat buraxmır. Azərbaycanın bilavasitə iştırakı ilə "NABUCCO" və "Transxəzər" layihələrinin reallaşması nəticəsində Avropanın enerji təminatında iştirak edəcəyi təqdirdə Rusiyanın Avropa siyasətinə mənfi təsir göstərəcəyi şübhəsizdir. Bu siyasət Rusiyanın Avropaya enerji təchizatı ilə diqtəsini zəifləyədcəkdir. Adları çəkilən layihələrin Ermənistan ərazisindən keçməməsi də Rusiyanı narahat edir. Çünki, Rusiya həmin layihələrə birbaşa təzyiq imkanlarından məhrum olıır. Bu səbəbdən Rusiya Azərbaycana real təzyiq vasitəsi olaraq Dağlıq Qarabağ münaqişəsində Ermənistanı işğalçılıq siyasətindən çəkindirmək istəmir;

10. Rusiya Ermənistanda olduğu kimi Dağlıq Qarabağın da əlverişli geostrateji əhəmiyyət kəsb edən mövqeyindən istifadə edə bilər. Bu səbəbdən də Rusiya münaqişənin tezliklə və ədalətli həllini istəmir və münaqişəni uzatmaqla, gələcək planları üçün siyasi üstünlüklər əldə etməyə çalışır;

11. NATO-un genişlənməsi Rusiyanı narahat edir. Bu baxımdan NATO-nun Cənubi Qafqazda hərbi təsirini neytrallaşdırmaq məqsədilə Rusiya Ermənistanda, Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgəsində hərbi gücünü artırır və Dağlıq Qarabağ münaqişəsində Ermənistanı dəstəkləməklə bu siyasəti davam etdirir;

12. Azərbaycanın ərazi bütövlüyünə dair Rusiya dövləti də qeyri- səmimi mövqe nümayiş etdirir. 2008-ci ilin mart ayında BMT Baş Məclisində Azərbaycanla bağlı qəbul edilən sənəddə Rusiyanın da Azərbaycanın ərazi bütövlüyünün əleyhinə səs verməsi buna əyani sübutdur;

13. Dağlıq Qarabağ münaqişəsi Rusiyanın dövlət maraqlarının təminatında mühüm rol oynayır.

Dünyada gedən qlobal proseslərin nə il nəticələnəcəyini əvvəlcədən demək çətin olduğu kimi kimin nəyə malik olacağı da hələ sual altındadır. Ancaq bir məsələni unutmaq olmaz ki, tarix təkrarlanır.

* Казимиров В.Н. Мир Карабаху. Посредничество Росии в урегулировании нагорно-карабахского конфликта. М., Международ. Отношения 2009, 456 с, ил.

**Qasım HACIYEV**

## BƏRDƏ ƏRAZİSİ - QƏDİM TÜRK YURDU - 5 MİN İL

Qarabağ dünyanın ən qədim insan məskənlərindən biri olan Azıx, Tağlar düşərgəsi insanlarının yaşadığı ərazidir. Qarabağ ərazisi paleolit dövrünün Quruçay mədəniyyəti yaradıcılarının tunc və dəmir dövründə mövcud olan və bir-birini əvəz edən Kür-Araz və Xocalı-Gədəbəy mədəniyyətlərinin davamçılarının yaşayış məskənidir.

Qarabağın daş dövrünə aid olan maddi mədəniyyət nümunələri ondan sonra gələn Tunc dövrü (b.e.ə. IV-II minilliklər) Kür-Araz mədəniyyəti nümunələrinin təkmilləşdiyi və daha geniş ərazidə yayıldığı izlənilir. İlk ocağı Azərbaycanın Qarabağ bölgəsi olan Kür-Araz mədəniyyətinin izlərinə bütün Cənubi Qafqazda, İranın şimal-şərqində, Şərqi Anadoluda, Dağıstanda, Çeçen-İnquşetiyada və b. yerlərdə təsadüf edilir. Qarabağ ərazisində aşkar edilmiş Kür-Araz mədəniyyətini səciyyələndirən maddi mədəniyyət qalıqları ilə zəngin olan Meynətəpə, Uzuntəpə, Şortəpə, Xaçbulaq, Xankəndi və Qaraköpəktəpə, Günəştəpə, Xantəpə, Şomulutəpə, Üzərliktəpə, Leylatəpə həmin mədəniyyətin Qarabağ ərazisində yaranması və yayılmasını təsdiq edir. Bu mədəniyyətə ətrafı qala divarı ilə möhkəmləndirilmiş şəhər tipli yaşayış yerləri və siklop tipli istehkamlar daxildir.

Qarabağın ən qədim dövrə aid bu abidələrindən boz, qara rəngli basma naxışlı qablar və az da olsa monoxrom boyalı qablar, həmçinin təsərrüfat, sənətkarlıq və məişət əşyaları, gildən düzəldilmiş kiçik fiqurlar tapılmışdır.

Tunc dövründə Qarabağ mis-mədən rayonunun yerli filizlərindən geniş istifadə və metal emalının inkişafı bu ərazidə müstəqil istehsalı qaydaya salmış, sənətkarlıq da inkişaf etmişdir.

Regionun tayfalarının təsərrüfat və mədəni inkişafı, onlarda izafi, artıq məhsulun meydana gəlməsi bu tayfaların Qafqaz tayfaları ilə və Ön Asiyanın şəhər sivilizasiyaları ilə mübadilə aparmalarını, ünsiyyət və qarşılıqlı əlaqələrinin inkişafını stimullaşdırırdı. Bütün bu deyilənlər mülki və sosial diferensiasiyanı dərinləşdirirdi və son nəticədə regionda sakin olmuş tayfaların sosial-iqtisadi, siyasi, mənəvi həyatında ciddi dəyişikliklərə gətirib çıxardı.

Orta Tunc dövründəki (b.e.ə. III-II miniiliyin I yarısı) böyük inkişafın maddi sübutları o vaxtlar gur inkişaf etmiş metallurgiya və dulusçuluq peşəsi üzrə çoxlu miqdar və rəngarəng əşyalardan, xırdabuynuzlu mal-qaranın köçürmə maldarlığının qəti surətdə təşəkkül tapmasına gəlirib çıxarmış artımından ibarətdir.

B.e.ə. II minilliyin ikinci yarısı - I minilliyin əvvəli- Qafqazın Son Tunc dövrü və Dəmir əsrinin başlanğıcında regionda metallurgiyanın inkişafı ilə səciyyələnir. Bu metallurgiya Qədim Şərqin mərkəzlərindəki metallurgiya ilə bir sırada dururdu. Bu, bizi maraqlandıran regionda ibtidai icma quruluşunun dağılması və tədricən erkən sinfi münasibətlərə keçilməsi dövrüdür.

Çoxlu miqdarda arxeoloji materiallar bu dövr cəmiyyətinin yüksək inkişaf səviyyəsinə malik olduğunu parlaq surətdə sübut edir. Son tunc və ilk dəmir dövrünə aid Xocalı-Gədəbəy mədəniyyəti arxeoloji abidələri cənub ölkələri ilə çox sıx əlaqələrin mövcud olduğunu təsdiq edir.

Çox nəhəng Xocalı qədim qəbiristanlığı təxminən b.e.ə. II-I minilliyin hüdudlarında yaranmağa başlamış, regionun tayfalarının dəfin ayinlərinin əsas cəhətlərini özündə əks etdirmişdir.

Qarabağ bölgəsinin Qızılburun, Üzərliktəpə və s. kimi abidələrindən aşkar edilmiş maddi mədəniyyət nümunələri göstərir ki, burada tunc dövrünə aid Yaxın Şərq, xüsusilə Göytəpə (İran), Təpəhisarda (Türkiyə) tapılmış boyalı qablar ilə bir səviyyədə duran həndəsi motivdə, heyvan və quş rəsmləri ilə naxışlanmış polixrom və monoxrom boyalı qablar istehsal edilmişdir.

B.e.ə. VII əsrdə Kürlə Araz arasında məskunlaşmış türk məşəli Saklar, e.ə IV əsrdə məskunlaşmış Qarqarlar Qarabağ ərazisində yaşamışlar. Strabon "Coğrafiya" əsərində Albaniyada yaşayan sakların Kürdən cənubda yerləşdiyini qeyd etmişdir. Türk mənşəli sakların yerləşdiyi Sakasena Zəyəmçaydan-Kürəkçaya qədər Kürdən cənubdakı düzən ərazini əhatə edirdi. Kür-Araz çayları arasında yaşamış Sakların türk olduğunu İran tarixçisi Məhəmməd Həsənxan təsdiq edir. Kürdən cənubdakı Azərbaycan torpaqlarında, yaşamış qədim əhalinin müəyyən hissəsi türk mənşəli saklar və albanlar idilər.

Dağlıq Qarabağ ərazisində bir dağın Qarqardağ (2300 m) adlanması da bu fikri təsdiq edir, Qədim gürcü mənbələrində Qarabağ ərazisində Qarqari adlı məntəqənin adı çəkilir. XIV əsr müəllifi Gəncəli Kirokos bildirir ki, Dağlıq Qarabağda Qarqar adlı qala vardır. Qədim mənbələrdə Qarabağ zonasında albanlardan və türk mənşəli tayfalardan başqa ellərin (tayfaların) yaşadığı haqqında məlumat yoxdur. Çünki hər hansı bir el (tayfa) müəyyən bir ərazidə daimi

yaşayırsa, onun adı və dilinə mənsub sözlər toponimlərdə əksini tapır. Bu cəhətdən, Qarabağ ərazisində qədim Tərtərqet, Parkank, Aranrot, Qoroz və müasir Dondarlı, Şuşa, Vərəndə, Tuq, Sotk və başqa terminlər diqqəri cəlb edir. Plutarx (II əsr) tərəfindən Qafqazda Tərtər tayfasının yaşaması haqqında məlumat verir. Musa Kalankatlı Arsakda bu tayfanın adı ilə bağlı Tertuakan (Tərtərəkən) adlı yaşayış məntəqəsinin olduğunu qeyd edir. Qıpçaqların Arsakda çox qədimdən yaşadığı Hadrut rayonundakı Tuğ kəndinin adı da göstərir. XIX əsr mənbələrində Şuşa qəzasında Tuğ dağı və Tuğ kəndi, Zəngəzur qəzasında Tuğyurd dağı toponimləri sadalanır. Bütün bunlar, şübhəsiz, Tuğ kəndinin Qarabağda yaşamış türk dilli Tuğ elinin məskunlaşması nəticəsində yarandığım göstərir. Burada sonralar (1828-ci ildən sonra) ermənilər məskunlaşmışlar.

Qarabağda Alban və Qarqarlarla yanaşı, Qıpçaq tayfası da yaşamışdır. Qıpçaqlar eramızın əvvəllərindən bəri Qarabağ ərazisində məskun idilər. Qıpçaqların bir qolu - Quc tayfasının adı ilə bağlı olan Gəmrə-Quc, Dərə-Qoç, Qoçbək kimi toponimlər məlumdur.

Deyilənlər göstərir ki, Kürdən cənubdakı ərazi türk mənşəli Sak, Part, Alban, Uti, Aran, Şəki, Qarqar, Kəngər, Tərtər, Peçenek, Hun, Xəzər və başqa tayfalara mənsub ellərin yaşadığı ərazidir.

Qarabağ ərazisindən aşkar edilmiş maddi mədəniyyət nümunələri Qarabağın tarixi keçmişini əks etdirməklə bərabər, orada yaşamış, insan qruplarının, tarixi inkişafı prosesini izləməyə imkan verir. Bu inkişaf insan məskənlərinin forma və quruluşca dəyişməsində, habelə insan həyatının təkamülünü əks etdirən digər daha yeni, daha mükəmməl maddi mədəniyyət nümunələrinin meydana çıxmasında özünü göstərir.

Cəmiyyətin inkişafının mühüm göstəricilərindən biri şəhərlərin meydana gəlməsi ilə səciyyələnir. Şəhərlər cəmiyyətin sosial-iqtisadi və mədəni səviyyəsini göstərir. Məxsus olduğu xalqın tarixi mədəniyyətini əks etdirir. Təsadüfi deyil ki, yunan coğrafiyaşünası Klavdi Ptolemey Albaniyada 29 şəhərin və 5 çayın adını çəkmişdir.

Zəngin mədəniyyət ənənələri üzərində antik dövrdə meydana çıxmış Bərdə şəhəri, Qarabağ ərazisində - Kür çayı ilə Tərtər çayı arasında, indiki Bərdə şəhərinin yaxınlığında, təbii-coğrafi və strateji cəhətdən əlverişli olan bir ərazidə yerləşirdi.

B.e.ə.VII əsrdən tarixə məlum olan türk mənşəli part tayfasından olan sərkərdə Partatuanın adından götürülmüş bu ifadə antik dövrdə Parda şəhər adına çevrilmiş, ilk orta əsrlərdə Partav şəkilində işlədilmiş, sonralar (ərəblərin dövründə) "Bərdaa" və nəhayət Bərdə şəklinə düşmüşdür.

Bərdə ərazisinin təbii xüsusiyyətləri haqqında yunan, latın, alban, eləcə də ərəb, fars və türk dilində olan mənbələrdə dəyərli məlumatlar verilir.

Bərdənin tarixi-arxeoloji tədqiqi göstərir ki, şəhər b.e.ə. V-IV əsrlərdə yaranmış, antik dövrdə, ilk, inkişaf etmiş və son orta əsrlərdə intensif şəhər həyatı keçirmiş və bu gün də öz həyatını davam etdirir.

Albaniyanın digər əraziləri kimi Qarabağ bölgəsinin, o cümlədən Bərdə əhalisinin də etnik komponetlərindən biri türk tayfaları idi. Bu dövrdə Albaniyada yerli tayfalar arasında, gəlmə tayfalar arasında, gəlmələr və yerli tayfalar arasında assimiliyasiya prosesi də baş vermişdir. Aparıcı tayfalar türk mənşəli olmuşdur.

Mənbələrin verdiyi məlumata görə Albaniyada danışıq dili arran (çox güman ki, türk dili qrupuna aid olmuşdur), yazı isə 52 hərfdan ibarət alban əlifbası olmuşdur. Tədqiqatlar Albaniyada müxtəlif dil qrupuna mənsub olan etnik tayfaların mövcudluğu ilə əlaqədar olaraq müxtəlif dillərdə danışıldığını göstərirlər. Bu məqsədlə aparılmış tədqiqatlarda albanları türk dilləri ailəsinə və tamamilə bundan fərqli olan İber-Qafqaz dil qrupuna aid edirlər.

Mənbələrdə inkişaf etmiş orta əsrlərdə yazı dilinin ərəbcə, danışıq dilinin isə fars, həm də ərəb dili olduğu bildirilir. Bərdə əhalisinin tərkibi mürəkkəb olmuş, orada yerli əhali ilə bərabər farslar, ərəblər və digərləri yaşamışdır. Ərəb müəllifləri Bərdə əhalisinin «arran dilində danışdığını» bildirirlər. Arran dilinin türk dili olması şübhəsizdir.

Tarixi-arxeoloji tədqiqatlar Bərdədə müxtəlif maddi mədəniyyətlərin, eləcə də dini və ideoloji cəmiyyətlərin mövcud olduğu dövrlədə zəngin tarixi irs yaratdığını göstərir. Xristianlıqla müsəlmanlığın biri digərini əvəz etdiyi dövrdə bu tarixi dövrün xüsusiyyətlərini əks etdirən proseslər həm arxeoloji, həm də tarixi mənbələrdə öz izini saxlayır.

Beləliklə, yazılı mənbə məlumatları və Bərdədə aparılmış arxeoloji tədqiqat işləri ilə əlaqədar əldə edilmiş materialların tarixi-arxeoloji tədqiqinə əsasən deyə bilərik ki, Bərdənin yerləşdiyi ərazidə tunc və dəmir dövrlərində iri yaşayış məskənlər, b.e.ə. V-IV əsrdə şəhər yaranmışdır. Bərdə şəhəri inkişaf edərək erkən orta əsrlərdə (V əsrdə) Albaniyanın paytaxtına çevrilmiş, orta əsrlərdə Azərbaycanın, həmçinin Yaxın və Orta Şərqin məşhur şəhərlərindən biri olmuşdur, Beş min ildən artıq intensiv yaşayış məskəni və 2500 ildən artıq şəhər tarixinə malik olan Bərdə günümüzə qədər öz həyatını qismən yerdəyişmə ilə ilk yarandığı ərazidə davam etdirmiş, bu gün də yaşayır və inkişaf edir.

**Kərim ŞÜKÜROV**

## XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ERMƏNİLƏRİN ŞİMALİ AZƏRBAYCANA KÖÇÜRÜLMƏSİ

XVIII əsrin sonlarındakı Böyük Fransa inqilabı (1789-1794-cü illər) ilə dünya tarixində böyük dəyişikliklər başladı. Qısa bir müddət sonra Napoleon

müharibələri Avropanı bürüdü. Beynəlxalq münasibətlər kəskinləşdi. Dövlətlərarası ziddiyyətlər Şərqdə də özünü göstərdi.

Dünya tarixinin belə bir dönüş dövrü Azərbaycanı ağır vəziyyətdə yaxaladı. Nadir şahın (1736-1747) öldürülməsi ilə Əfşarlar dövlətinin parçalanması nəticəsində Azərbaycan ərazisində iyirmiyədək müstəqil və yarım müstəqil xanlıqlar yaranmışdı. Xanlıqlar sistemindən vahid dövlət yaradılmasına keçid uğrunda çətin bir mübarizə gedirdi. Lakin XVIII əsrin sonlan - XX əsrin başlanğıcında dünyada, o cümlədən bölgədə meydana gələn tarixi şərait bu prosesin başa çatmasına imkan vermədi[1]. Azərbaycan yeni əsrə belə bir vəziyyətdə qədəm qoydu.

Rusiya imperiyası beynəlxalq münasibətlərdə yaranan imkanlardan istifadə edərək Cənubi Qafqazda fəallığını artırdı. Rus çarı I Pavel (1796-1801) 1801-ci il yanvarın 18-də Şərqi Gürcüstanın ilhaq edilməsi haqqında Manifest elan etdi[2]. I Pavelin öldürülməsi (1801, mart) nəzərdə tutulan məsələlərin həllinə də təsir göstərdi. Yeni hakimiyyətə gələn çar I Aleksandr (1801-1825) bu sahədə aydınlıq yaratmaq məqsədilə 1801-ci il sentyabrın 12-də ikinci Manifest verdi. Şərqi Gürcüstanın Rusiyaya ilhaqı ilə Kartli-Kaxet çarlığından asılı vəziyyətdə olan Qazax, Şəmşədil və Borçalı sultanlıqları kimi Azərbaycan torpaqları da Rusiya imperiyasına qatıldı. Beləliklə, Rusiya imperiyası tərəfindən Azərbaycan torpaqlarının işğalı başladı. Bu proses 1828-ci il Türkmənçay müqaviləsinədək davam etdi. 1801 -1828-ci illər ərzində Rusiyaya illıaq olunmuş Azərbaycan torpaqları şərti olaraq Şimali Azərbaycan adlandırılır.

Rusiya imperiyası Şərqdə, o cümlədən Azərbaycanda işğalçılıq planlarının həyata keçirilməsində və burada möhkəmlənməsində ermənilərə böyük rol ayırmışdı. Ermənilər də Rusiyadan istifadə etməklə müəyyən siyasi məqsədlərə nail olmaq istəyirdilər. Bu dövrdə xüsusilə intensiv inkişaf edən erməni rusiyaşünaslığı və Rusiya ermənişünaslığı həmin ideya siyasi məqsədlərə nail olmaq üçün bir-birini tamamlayır, türk - müsəlman varlığının məhvini hədəfə alırdı.

XV əsrin sonuna aid «Mən çariçanı gördüm» adlı anonim erməni poemasında rus knyazı III İvanla (1462-1505) Bizans şahzadə xanımı Sofiya Paleoloqun toyu təsvir olunur. Sofiya bu münasibətlə III İvanın təklif etdiyi hədiyyələrdən imtina edərək, ondan İstanbulun tutulmasını tələb edir. III İvan isə Sofiyaya Qüdsü azad edəcəyini və Eçmiədzinə qədər gedəcəyini bildirir[4]. Ermənilərin Rusiyaya ümidləri sonrakı dövrlərə, xüsusilə XVIII-XIX əsrin əvvəllərinə aid əsər və siyasi sənədlərdə də davam etdirilir[5].

Rus-erməni münasibətləri Kazan xanlığının (1552) və Həştərxan xanlığının (1556) işğalı, Osmanlı dövləti ilə müharibələr (1635-1639, 1711, 1768-1774, 1787-1791-ci illər) zamanı genişlənir, Rusiyanın Xəzərsahili torpaqları istila etmək məqsədi ilə daha möhkəmlənir. Bu hadisələr zamanı ermənilərin Rusiyaya köçürülməsi və burada erməni koloniyalarının yaradılması başlanır. Bu işdə I

Pyotrun (1682-1725) erməni xalqına fərmanı (1724, 10 noyabr) böyük rol oynadı[6]. Həmin fərmana görə Rusiyanın işğal etdiyi torpaqlara ermənilərin köçürülməsi və məskun olması üçün yerlər ayrıldı. I Pyotrun siyasi xətti onun varisləri, xüsusilə II Yekaterina (1762-1796) tərəfindən davam etdirildi[7]. 1801-ci il manifestlərində də Rusiyanın planında ermənilərin rolu əksini tapırdı. Rusiya müxtəlif yerlərdə yaşayan erməniləri yeni işğal olunmuş torpaqlara gətirir, onlann rus qoşunları tərkibinə daxil olmasına şərait yaradır, eyni zamanda yerli hakimlərə qarşı əməliyyatlara cəlb edirdi.

Çar Rusiyası tərəfindan ermənilərin XIX əsrin ilk qərinəsində Şimali Azərbaycan torpaqlarına köçürülməsində iki mərhələ ayrımaq olar: 1801-1828-ci il Türkmənçay müqaviləsinədək olan dövr və Türkmənçay müqaviləsindən sonrakı ilk illər.

1801-1828-ci illərdə Rusiya tərəfindən ermənilərin Şimali Azərbaycana köçürülməsi işğal prosesi ilə paralel getmişdi. Bu dövrdə köçürülən ermənilərin coğrafi mənbələrini, əsasən onların əvvəllər gəldikləri və hələlik Rusiya işğalından kənarda qalan Şimali Azərbaycan əraziləri təşkil edirdi[8]. Bununla birgə Osmanlı və Qacarlar dövlətlərinin erməni təbəələrinin cəlb edilməsinə də cəhdlər göstərilirdi.

Rusiya imperiyası 1804-cü ilin yanvarında ermənilərin də yaxından iştirakı ilə Gəncə xanlığını işğal etdi. 1805-ci il may ayının 14-da Qarabağ, 21-də isə Şəki xanlıqları ilə onların Rusiya himayəsinə keçməsi haqqında Kürəkçay müqavilələri imzalandı. Dekabr ayında isə Şirvan xanlığı ilə belə bir müqavilə imzalandı. 1806-cı ildə Dərbənd, Quba və Bakı xanlıqları, 1813-cü ildə Talış xanlıqları ilhaq edildi. Rusiya imperiyası eyni zamanda Qacarlar dövləti ilə də müharibə (1804-1813) aparırdı. Müharibənin sonunda bağlanan Gülüstan müqaviləsi ilə Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Şimali Azərbaycan torpaqları Rusiya tərəfindən tutuldu. Rusiya imperiyası işğal prosesində İrəvan xanlığının tutulmasına xüsusi əhəmiyyət verirdi. Bunun üçün xanlıq ərazisindəki ermənilərdən istifadə edilir, digər tərəfdən onların artıq Rusiya tərəfindən ələ keçirilmiş ərazilərə miqrasiyası vasitəsilə xanlığa zərbə vurulurdu. Qafqazdakı rus qoşunlarının baş komandanı general P.D.Sisianov İrəvan ermənilərinin Gəncəyə (Rusiya işğalından sonra şəhərin adı dəyişdirilərək Yelizavetpol qoyulmuşdu - K.Ş.) köçürülməsinin təşkilinə çalışırdı[9]. Qarabağ, Şəki, Şirvan və digər Şimali Azərbaycan torpaqlarının erməniləşdirilməsi də fəal şəkildə davam etdirilirdi[10]. Bu hal Şəki (1819), Şirvan (1820) və Qarabağ (1822) xanlıqlarının ləğvindən sonra daha geniş miqyas aldı.

1804-1813-cü illərdə rus-İran və elə həmin dövrdə gedən rus-Osmanlı müharibəsi (1806-1812) Rusiyanın işğalçılıq planlarına son vermədi. 1826-cı ildə Rusiya Qacarlar dövləti ilə yeni müharibəyə (1826-1828) başladı. Müharibənin ilk dövrləri Qacarlar üçün uğurlu olsa da sonra üstünlük Rusiyaya keçdi. 1827-ci ilin mayında Naxçıvan, oktyabrında İrəvan tutuldu[11]. Beləliklə, Şimali Azərbaycanda yaşayan ermənilərin Rusiya imperiyasının təbəəliyinə keçməsi başa çatdı.

Ermənilərin köçürülməsinin yeni coğrafi mənbələri kimi Qacarlar və Osmanlı dövlətləri əsas yerə keçdi.

Erməni katalikosu Nerses Aştaraketsi köçürmə haqqında layihə hazırladı. Rus yazıçı və diplomatı A.S.Qriboyedov (1795-1829) da bu planın hazırlanması və həyata keçirilməsində mühüm rol oynadı.

Nerses 1827-ci ilin noyabrında ermənilərin köçürülməsinə rəhbərlik etmək üçün Peterburqdan dəvət edilmiş va bu zaman Təbrizdə olan Yegiazar Lazaryana yazırdı: «İndi mən bizim erməni millətinin sədaqətli müdafiəçisi cənab A.S.Qriboyedovdan əsir xristianlar haqqında mənim xahişimi unutmamasını və onları olduğu hər yerdə rus ağalığının qüdrətli bayrağı altına qəbul edilməsini rica etdim... Mən həmçinin İranda olan bütün ermənilər haqqında zat-alidən [Qafqazdakı rus qoşunlarının baş komandanı (1827-1831) İ.F.Paskeviç -K.Ş.] xahiş etdim və indi mən cənaba (Qriboyedova) [bu barədə] yazıram və cənabınızdan da rica edirəm: İvan Fyodoroviç Paskeviçi lütfən sövq edəsiniz ki, barışıq zamanı İranın hakimiyyəti altında olan şəhər və kəndlərdə yaşayan ermənilərin böyük Rusiya imperiyası himayəsi altında azad surətdə öz vətəni Ermənistana qayıtması haqqında maddəni müqaviləyə daxil etməyi unutmasın»[12]. A.S.Qriboyedov və İ.F.Paskeviç ermənilərin İrandan köçürülməsini müqavilə hazırlanarkən unutmadılar. Bu məsələ öz əksini Türkmənçay müqaviləsinin XV maddəsində tapdı. Həmin maddədə deyilir: «Şah həzrətləri... Azərbaycan adlanan vilayətin (Cənubi Azərbaycan nəzərdə tutulur - K.Ş.) bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir... bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneəçiliyi olmadan onların satlıq malına və ya əmlak və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməyən mülkə gəldikdə isə onun satılması və ya onun haqqında könüllü sərəncam üçün beş illik müddət müəyyən edilir»[13]. Bu maddənin müəllifi Qriboyedov hesab olunur[14]. Göründüyü kimi XV maddədə konkret olaraq «İran erməniləri»nin adı çəkilmir. Bu da diplomatik səciyyə daşıyır, çünki məsələnin ümumi şəkildə qoyulması onun real həyatda daha geniş və məqsədə müvafiq şəkildə tətbiqinə imkan verməli idi.

Müsəlman hakim təbəqələrin tabeliyində olan erməni kəndliləri ilə bağlı məsələ də bu dövrdə yenidən meydana çıxdı. Baş qərargah rəisi Dibiçin Paskeviçə göndərdiyi xüsusi «Qaydalar»da müsəlman ali silkinin tabeliyindəki ermənilərə daxili özünüidarə verilməsi ideyası irəli sürüldü. Bu ideya mülki işlər üzrə hakim Velyaminov tərəfindən mənfi qarşılanmışdı. Lakin Paskeviç sonrakı fəaliyyətində bu ideyanı əsas götürmüşdü[15].

Türkmənçay müqaviləsinin bağlanmasından sonra Rusiya tərəfindən ermənilərin Şirnali Azərbaycan torpaqlarına köçürülməsinin yeni mərhələsi başlandı. Onun xarakterik cəhəti köçürmənin kütləvi şəkil alması, coğrafi mənbələri (İran və Osmanlı imperiyası) və s. ilə bağlı idi.

Ermənilərin köçürülməsini təşkil etmək üçün İrəvan və Naxçıvanda köçürmə komitələri yaradıldı. Köçkünlərə mühüm imtiyazlar verildi: onlar 6 il müddətində vergi və imtiyazlardan azad edildi, ermənilərə İrandan ayrılan təzminat hesabına vəsait verildi və i.a.

Hazırlıq tədbirləri həyata keçirildikdən sonra köçürmə başladı[16]. İrandan köçürülən ermənilərin sayı 40-50 min nəfər təşkil edirdi. 1828-1829-cu illər rus-türk müharibəsinin gedişində və müharibədən sonra Türkiyədən də 90 minədək erməni köçürüldü. Köçürmənin əsas istiqaməti Cənubi Qafqaza yönəlmişdi. N.Şavrov 1911-ci ildə Peterburqda nəşr olunmuş «Zaqafqaziyada Rusiya mənafeyinə yem təhlükə» adlı kitabında yazırdı ki: «hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənininin 1 milyondan çoxu diyarın yerli əhalisinə məxsus deyil və bizim tərəfimizdən köçürülmüşdür»[17]. Ermənilər köçürülərkən onların Şimali Azərbaycan torpaqlarında, xüsusilə Naxçıvan, İrəvan və Qarabağda yerləşdirilməsinə mühüm əhəmiyyət verilirdi. Nersesin layihəsinə görə rus ordusunun tutduğu bölgələrdən - Təbriz, Xoy, Salmas, Marağadan bütün ermənilər Naxçıvan, İrəvan və Qarabağ vilayətlərinə köçürülməli idi. Onun bu tələbi köçürmə işində canfəşanlıq edən ermənipərəst güruh tərəfindən ardıcıl şəkildə həyata keçirildi. Yuxarıda adı çəkilən N.Şavrov da qeyd edirdi ki, müharibədən sonrakı iki ildə (1828-1830-cü illər) biz Zaqafqaziyaya İrandan 40 min, Türkiyədən 84 min erməni köçürmüş və onlan ermənilərin azlıq təşkil etdiyi İrəvan və Yelizavetpol quberniyalarında... yerləşdirmişdik. Onlara 200 min desyatin xəzinə torpağı ayrılmış, onlar üçün müsəlmanlardan 2 milyon manatlıq xüsusi sahibkar torpağı satın alınmışdır. Yelizavetpol quberniyasının dağlıq hissəsi və Göyçə gölü sahili həmin ermənilərlə məskunlaşdırılmışdır[18].

Ermənilərin köçürülməsi nəticəsində Qarabağ, İrəvan və Naxçıvan bölgələrinin əhalisinin etnik tərkibi əsaslı dəyişikliyə məruz qaldı. Əgər Qafqazdakı rus qoşunlarının baş komandanı (1816-1827) Yermolovun sərəncamına əsasən. Qarabağ əyalətinin 1823-cü ildə apa- «təsviri»nə görə buradakı 20 minədək ailədən 1,6 minədək olan hissəsi (cəmi 8,4%) erməni idisə, 1832-ci il məlumatına görə ermənilərin xüsusi çəkisi 34,8%-ə qalxmışdı[19].

Rusiya tərəfindən işğal edilənədək İrəvan xanlığının, əhalisinin 20%-dən bir az çoxunu ermənilər təşkil edirdisə, 1834-1835-ci illərdə bu rəqəm 46%-i ötmüşdü. Naxçıvanın da etnik tərkibi eyni dəyişikliyə uğramışdı. Əgər köçürülməyədək Naxçıvan dairəsində 434 erməni həyəti var idisə, köçürülmə nəticəsində bura 2285 ailə gətirilmişdi. Bütövlükdə Naxçıvan vilayətinə (Ordubad dairəsi daxil olmaqla) 2551 ailə köçürülmüşdü[20].

Ermənilərin köçürüldükləri Şimali Azərbaycan torpaqlarında sayı artdıqca həmin torpaqları ələ keçirmək üçün etnik təmizləməyə əl atdılar. 1905-1906 və 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı soyqırım baş verdi. Bununla kifayətlənməyən ermənilər 1988-ci ilin fevralında vaxtilə qonaq kimi gəldikləri Qarabağ torpaqlarını Azərbaycandan qoparmaq üçün keçmiş sovet

dövləti rəhbərliyinin köməkliyi ilə separatist bərəkətlərə başladılar. Həmin siyasət getdikcə genişlənərək Ermənistana işğalçı müharibəsinə çevrildi.

Azərbaycan ərazisinin 20%-i tutuldu[21]. Azərbaycan xalqı və dövləti Ermənistanın işğalçı siyasəti ilə heç vaxt barışmayıb və onun nəticələrini aradan qaldırmaq üçün bütün istiqamətlərdə fəal iş aparır.

**Ədəbiyyat:**


1 Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Bakı, 1996, s.508-556.

2 Полное собрание законов Российской империи. Собр. первое. т. XVI, ст. 19721

3 Там же, ст.20007

4 Восконян В.К. Русско-армянские отношения в XV - начале XVIII вв. и формирование русской ориентаöии армянского освободителüного движение // Из истории вековой дружбы. Ереван, 1983, с.8-9.

5 Армяно-русские отношения в XVII веке. Сб.док. т I.Ереван, 1953; Армяно-русские отношения в первой трети XVIII века. Сб. док. т.II. ч.1. Ереван, 1964 и т.д.

6 Эзов Г.А. Сношение Петра Великого с армянским народам. СПб., 1898, с.392-393.

7 Величко В.JI. Русское дело и междуплеменные вопросы. СПб., 1904, с.77.

8 Ermənilərin Qafqaza miqrasiyası haqqında bax: Вердиева Х., Гусейнзаде Р. «Родословная» армян и их мигразия на Кавказ с Балкан. Баку, 1963,с.22-24.

9 Акты, собранные Кавказской Археографической Комиссией, т. 11. Тифлис, 1868, с.626

10 Cavadova Z. Şimal-qərbi Azərbaycan (tarixi-demoqrafik araşdırma). Bakı, 1999, s.57; Süleymanov M. Erməni milliyyətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı, 2008.

11 Əliyev Г., Bliyev M. Naxçıvan xanlığı. Bakı, 1996; Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, 1997; Süleymanov M. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, 1997.

12 Вах: Парсяман В.А. А.С.Грибоедов и переселение армян // Из истории вековой дружбы, с. 136-137

13 Договоры России с Востоком политические и торговые. Собрал и издал Т.Юзефович. СПб., 1869, с.221-222.

14 Попова О.И. Грибоедов - дипломат. М., 1964, с.102.

15 Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Bakı, 2005, s.99.

[16] Ermənilərin köçürülməsinin təşkili və həyata keçirilməsi haqqında geniş ədəbiyyat vardır. Bax: Грибоедов А.С. Записка о переселении армян из Персии в наши области // Соч. в двух тт. т.2. М., 1971, с.339-341; Глинка С.Н. Описание переселения армян азербайджанских в пределы России. М., 1831; Mahmudov Y., Paşayev A., Şükürov K. Ermənilərin cənubi Qafqaza köçürülməsinə dair (Çar Rusiyasının karantin - gömrük sənədlərindən) // Azarbaycan gömrüyü: tarixi ənənələr və müasirlik. Bakı, 2007, s.l 13-135.
[17] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. СПб., 1911, с.64.
[18] Там же, с.63.
[19] Описание Карабахской провинции. Тифлис, 1866; Обозрение российских владений за Кавказом. 4.IV, СПб., 1836, с.362.
[20] Шопен И. Исторический памятник состояния Армянской области. СПб., 1852; Бердяева X. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX - начале XX в.). Баку, 1999, с. 108.
Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya. Bakı, 2003.

**Liliya MİRZƏZADƏ**

## НАГОРНО-КАРАБАХСКИЙ КОНФЛИКТ И АЛЬТЕРНАТИВНЫЕ ПУТИ ЕГО РАЗРЕШЕНИЯ

Территория Нагорного Карабаха не раз становилась объектом пересечения армяно-азербайджанских интересов. Борьба за принадлежность Нагорного Карабаха является классическим примером в определении конфликта, данным американским социологом Л. Козером. Он трактует конфликт как «борьбу за ценности и права на обладание статусом, мощью и ресурсами, в которой цели соперников состоят в нейтрализации одним другого, нанесении ему ущерба или устранении друг друга». Отличаясь друг от друга мировоззренческими взглядами, степенью приверженности к тем или иным, более частны концептуально-методологическим постулатам, исследователи в области конфликтологии пришли к выводу, что конфликт есть нормальное явление общественной жизни, выявление и развитие которого, в целом - полезное и нужное дело. С этим «нужным делом» связано решение многих традиционно-социологических задач, возникающих в ходе изучения любых, в том числе и политических, конфликтов: выявление специфики их социальных основ, типолошçация и ранжировка форм, видов и стадий, а также поиск тех общих зависимостей, закономерностей или правил, которые обнаруживаются в ходе конфликтов.

Болевые точки Нагорно-Карабахского конфликта наложены политикой Ирана, Россией, Турцией и уходят в историю взаимоотношений между этими

государствами. В различные периоды многие исследователи проблемы Нагорного Карабаха: политики, историки, географы, геополитики и другие - многие-многие разы, каждый со своей точки зрения преподносили труды, раскрывающие причинный характер возникновения конфликта, который не избавился от рецидивов прошлого. Очередной раз, когда третьи стороны вновь активизировались за обладание пространством и ресурсами, когда к ним присоединился мощный соперник в лице США, болевые места армян и азербайджанцев стали подвергаться внешним давлениям.

Поводом к провокационным действиям армян против Азербайджана послужило назначение в октябре 1987 г. в азербайджанском селе Чардахлы директором совхоза азербайджанца. Тогда армянская часть населения начала выражать бурные протесты.

Для сравнения приведем лишь данные по раскладу сил в азербайджанском парламенте на 12 сентября 1917г., когда был избран новый состав Бакинского Совета. Итак, в него вошли 48 большевиков, 85 эсеров (в основном левые), 36 дашнаков, 18 мусаватистов и 13 меньшевиков. Председателем Совета был избран П.Джапаридзе. При национальном составе 90% населения - азербайджанцы, депутатами на 11-й Всероссийский съезд Советов рабочих, солдатских депутатов были избраны Шаумян, Семенов, Родкевич и Сухарцев.

Как писал академик Зия Буниятов: «...в 1918 году Отдел опроса при Бюро информации Совета Бакинских депутатов опубликовал «Список отделов и управлений Баку и его районов Совета Бакинских рабочих, красноармейцев, матросов и крестьян». Этот Совет управлялся исполнительным комитетом, его председателем был П.Джапаридзе. В состав исполнительного комитета входило 14 комиссариатов:

1.Комиссар по иностранным делам - Шаумов (Шаумян);
2.Комиссар по внутренним делам - Джапаридзе;
3.Комиссар по военно-морским делам и авиации - Корганов;
4. Комиссар по почте и телеграфу, транспорту и морским перевозкам - Маркарян;
5.Комиссар по финансам - Киреев;
б.Комиссар юстиции - Кариньян;
7.Комиссар по народному хозяйству - Фиолетов;
8-Комиссар по продовольствию - Цибульский;
9.Комиссар по городскому хозяйству - Нариманов;
10.Комиссар по опекунству - Нариманов;
11. Комиссар по пунктам питания - Амирова;
12.Комиссар по земледелию - Везиров;
13.Комиссары по труду - Зевин и Заргаров;
14. Комиссар просвещения - Колесникова.

При исполнительном комитете функционировал военно-революционный комитет Кавказской Красной армии, которым руководил Президиум в составе Корганова, Шеболдаева, Малыгина и Куçьминского. Военным комендантом города Баку был Авакянц». «...в отделах и управлениях Совета Бакинских рабочих, красноармейцев, матросов и крестьян работало более 40 армянских чиновников (Аракелян, Тер-Карапетян, Хачиян, Йолчуян, Каспарян, Туманянц, Хачиев, Тердатьян, Назаров, Харунов, Григорьяыц, М.Шаумов, Балаянц, Кочарян, Акопов, Газаров, Зурабов, Авакянц, Осипян, Маркаров, Ерзинкян, Арутюнов, Месропов, Т.Каспаров, С.Иоаннисян, Б.Григорян, Багдарян, И.Иоаннисян, Серебрекян, Багдасаров, Амиров, Малумян, Хачатуров, Асиян, Мамиконов, Тер-Нерсесов и другие».

«...до провозглашения Азербайджанской Демократической Республики в Баку действовало четыре «правительства»: правительство Бичерахова, Бакинское армянское правительство, английское правительство и диктатура Центрокаспия». И все они были откровенно антимусульманскими, кроме английского правительства, которое интересовала, главным образом, нефть.

Сурен Агамиров, комиссар фронтовой артиллерии писал: «До июля 1918 года у нас в Баку было 20 баталтонов солдат, большую часть которых составляли армяне. Командиром первой бригады являлся дашнак Амазасп, второй бригадой руководил полковник Арутюнов, а третьей - Бекназаров».

Очевидец - Хайказ Данилян свидетельствовал: «Дашнакскими военными частями, расположенными в Баку, командовали Татевос Амирян, Рубен Сафарян, Арзуманян, Амазасп, Ростом Зарян, Никита Асриян, Арсвик Хосроян, Левоник Довлатян, Левон Гюльханданян и Левоник».

Состав 26 Бакинских комиссаров выглядел так: Степан Шаумян, Мешади Азизбеков, Прокофий Джапаридзе, Иван Фиолетов, М.Везиров, Яков Зевин, Григорий Корганов, Иван Малыгин, Григорий Петров, Арсен Амирян, Сурен Осипян, Меер Басин, Владимир Полухин, Марк Коганов, Арменак Борян, Федор Солнцев, Арам Константян, Евгений Берг, Иван Габышев, Ираклий Метакса, Соломон Богданов, Багдасар Авакян, Исай Мишне, Иван Николаи-швили, Татевос Амирян, Анатолий Богданов.

В последующие годы многие армянские представители занимали посты и видные должности в Азербайджане. Обратившись к кадровой статистике, отметим, что в высшем руководстве НКВД, во многом определявшем политику, были Григорян и Маркарян, а в районах Азербайджана: Астара - Аракелов; Лерик - Хачатуров; Агджабеди - Саркисов; Зангелан - Заргорян, Маркарян, Казичян; Джебраил - Аванесов, Джмирдян, Бабаян; Астраханбазар - Авакян, Баграт Гевойдович Исраилян; Пушкин - Закарян; Ярдымлы - Севоиян: Самух - К.Петросян; Масаллы - Ашот Аванесов; Карягин (Физули) - Сааков, Осип Шиханян, Вартанов: Казах

- Григорян; Нахчыванская Автономная Республика - Багдасаров, Исраилян, Ионесян, Эвонян, Варган Агаджанов, Сейранов, Вартан Агопов, Парсегов - будущий партком НКВ/1 Азербайджана, Акопов. В Ярдымлинском районе не проживал ни один армянин, но начальником НКВД был армянин Севонян.

В то же время в руководстве и на рядовых должностях в НКВД и ГПУ Армении, несмотря на значительную численность азербайджанцев в этой республике, практически, не было. Это говорит о том, что политика большевиков в этом регионе не была «интернационализмом в действии», а была направлена на уничтожение генофонда азербайджанского народа.

Исследования по данной проблеме выявляют основных участников, заинтересованные стороны, явный геноцид, направленный против азербайджанского народа, армянский терроризм и многие другие аспекты. Нагорно-Карабахский конфликт по степени решаемости проблемы, оказался самым затяжным. Разрешение его проблемы прошло три стадии. Вначале конфликт мог быть устранен на местном уровне. Но этого не могло произойти, в его плоскости при активном маскировании, активно были задействованы интересы третьих сторон, которые внешне соблюдали «приличие» невмешательства во внутренние дела других государств. И решение проблемы перешло в региональную стадию. Устав ООН допускает создание региональных соглашений и институтов, если они не противоречат целям и принципам ООН, приверженного мирным целям и сохранению безопасности наций. Тем не менее, выжидательная позиция азербайджанской стороны позволила перейти проблеме в глобальную стадию. Разрешение конфликта зашло в тупик. Стороны не идут на взаимные уступки. Такое положение не вооруженным путем, навряд ли удастся изменить. Следовательно, необходимо искать альтернативные варианты, открыть дорогу для полноценного, безопасного развития всего региона. Известный американский политолог, один из создателей альтернативной модели разрешения карабахского конфликта П. Гобл предложил как вариант обмен территориями - т.е. часть Зангезура возвращается Азербайджану и, таким образом, Азербайджан получает доступ к Нахичевани, а часть Нагорного Карабаха отходит к Армении. Каждая из сторон конфликта идет на определенную уступку, но каждая из них может приобрести долгожданный мир. Однако есть много критических замечаний по этому плану с обеих сторон, но пока они носят не столько принципиальный, сколько психологический характер. Есть и другой вариант, рассматривать глобальный уровень проблемы в теме настоящего времени - времени глобальной экспансии мирового организма. Рано или поздно мир превратится в единый организм, и противостоять этому невозможно, также как невозможно противостоять развитию научно-технического прогресса. Кроме того, опыт крупных держав свидетельствует о наращенной силе благодаря их

объединению (США, Россия). Как вариант стоит рассмотреть объединение государств Южного Кавказа и положить конец распрям и взаимным человеческим, экономическим, духовным и др. потерям.

**Литература:**


1. Azerbaijan. Seven Years of Conflict in Nagorno-Karabakh. Human Rights
2. Watch/Helsinki, N.Y. 1994, p.2.
3. Али Абасов. Материалы научно-практических конференций по теме Карабах вчера, сегодня и завтра. Часть 2. Уровни развития нагорно-карабахского конфликта: от локальности до интернализации. Возможен ли путь назад?
4. Асланлы А. Азербайджан, подвергшийся оккупации и право необ-ходимой защиты, trend.az
5. «Бакинский Рабочий», 14 июня 1988 г.
6. Дипломатический словарь, Т. 1, М; 1960, с.417.
7. Кузнецов А. Ю. Реферат. Политические конфликты и методы их урегулирования. Тверь. Гос.университет. 2000 г.С.26.
8. Нагорный Карабах, с. 19.
9. Пашаева Г. Карабахский конфликт: Есть ли выход из тупика? (Азерб.)
10. Султанов Ч.А. Нашествие, http:// www.inet.az/

11.Michael Ochs. The Current situation in Nagomo-Karabakh. In CSCE Di-gest, dec.1998

12. Ruth Lapidoth. «Autonomy.. Flexible solutions to ethnic conflicts». Lnited
13. States Institute of Peace,1997,p 33.

14.Goble P. Coping with the Nagorno-Karabakh Crisis. The Fletcher Forum of World Affairs, vol.XYI, N 2, Summer, 1992, p.21



**Loğman NƏSİBLİ**


## BORÇALI TÜRK MƏDƏNİYYƏTİ VƏ ƏXLAQININ BEŞİYİDİR

Azərbaycan Respublikasının indiki sərhədlərindən kənarda azərbaycanlılarm yığcam halda yaşadıqları ərazilərdən biri də Borçalıdır. Mühüm strateji əhəmiyyətə malik olan Borçalı əsrlər boyu yadellilərin, yaxın və uzaq ölkələrin saysız-hesabsız yürüşlərinə, həmlələrinə məruz qalmışdır. Tarixi mənbələrin şahidlik etdiyi kimi, cəsur borçalılar heç zaman düşmənə baş əyməmiş. əksinə, müharibələr, yanğınlar, talanlar içərisində min illər boyu yaratdıqları mədəniyyət abidələrini, zəngin folklor nümunələrini, el adətlərini yaşada və indiki nəsillərə ötürə bilmişlər.

Təəssüf ki, Borçalı və borçalıların tarixi indiyədək ətraflı şəkildə öyrənilməmişdir. Halbuki istər Azərbaycan, istərsə də türk, rus, gürcü, erməni mənbələrində Borçalıya dair yüzlərlə qiymətli fakt mövcuddur. Yeri gəlmişkən qeyd edilməlidir ki, qonşu xalqların çağdaş tarixçilərinin əsərlərində, eləcə də ayrı-ayrı yazılarda Borçak tarixi təhrif edilmiş, faktlar və hadisələr tendensiyalı şəkildə, onu qələmə alanların özlərinin milli maraqları baxımından yozulmuşdur.

Borçalı tarix boyu türk mədəniyyəti və türk əxlaqının beşiyi olmuşdur. Buraya on doqquzuncu yüzillikdən etibarən kütləvi şəkildə ermənilər, almanlar, yunanlar və malakanlar köçürülmüşlər. Maraqlıdır ki, az bir müddət içərisində borçalılar həmin xalqların həyatında müstəsna dərəcədə mütərəqqi rol oynamış, onların məskunlaşması və mənəvi mədəniyyətinin formalaşmasına öz töhfələrini vermişlər. Türk dili isə regionda əsas ünsiyyət vasitəsi olmuşdur. Adı çəkilən xalqların adət-ənənələrində, ağız ədəbiyyatının formalaşmasında, leksikonunda türk mədəniyyəti və dilinin təsiri bu gün də açıq-aydın görünməkdədir.

Borçalı tarixin ən sərt və amansız sınaqlarına məruz qalmışdır. 1736-cı ildə Nadir şah Borçalını öz şəxsi iddialarına qurban vermiş, onun şahlıq taxtına çıxmasına narazılıq edən Gəncə feodallarına divan tutaraq ərazini Kartli çarlığına bəxş etmişdir. Bu barədə onlarla fakt vardır və məsələnin üzərində ətraflı dayanmağa lüzum görmürük.

On doqquzuncu yüzilliyin əvvəllərində Borçalıya «tatar distansiyası» ştatusu verilmişdir. 1848-ci ildə rus çarının fərmanı ilə Qafqaz iki inzibati idarəetmə bölgəsinə ayrılanda Borçalı Gürcüstan general-qubernatorluğuna tabe edilmişdir, Sonralar quberniyalar yaradılarkən ərazi Tiflis quberniyasının tərkibinə qatılmışdır. 1877-ci ildə Trialeti və Lori pristavlıqlarının ərazilərinin birləşdirilməsi hesabına Şüləver inzibati bölümü, nəhayət, 1880-ci ilin mayında Tiflis quberniyasının tərkibində Borçalı qəzası yaradılmışdır. Qəza Lori, Borçalı, Trialeti və Yekaterinenfeld nahiyələrindən ibarət olmuş və 1928-ci ildə ləğv edilmişdir. Dəhşətli burasıdır ki, Kartli çarlığına bağışlanandan eyni adlı qəzanın ləğv edilməsinə qədərki iki yüz illik dövründə Borçalının sərhədləri müxtəlif ərazi inzibati qurumlar yaradılarkən dəfələrlə dəyişikliklərə, doğranmalara, parçalanmalara, əhalisi isə ölçüyə gəlməz dərəcədə mənəvi aşırmalara məruz qalmışdır. Yalnız bir faktı söyləməyə dəyər ki, Borçalı ləğv edilərkən cəmi üç rayon Borçalı (Marneuli), Lüksemburq (Bolnisi) və Başkeçid (Dmanisi) rayonları yaradılmışdı. Tarixi Borçalı ərazisinin bir hissəsi bu vaxta qədər Ermənistan tərəfindən ələ keçirilmiş, başqa hissələri isə Gürcüstanın digər rayonları arasında «əridilərək» yox edilmişdir... Odur ki, heç təsadüfi deyildir ki, bu gün Borçalı adı altında yalnız adı çəkilən həmin üç rayon xatırlanır. Halbuki Ağbulaq (Tetris-karo), Zaiqa rayonları, Qarayazı, Qaraçöp, eləcə də Ermənistanın indiki Taşir, Baqratasen, Noyemberyan, Allahverdi rayonlarının əhatə etdiyi ərazilər məhz tarixi Borçalı torpağıdır.

Borçalıların öz yurdlarını ilk dəfə kütləvi şəkildə tərk etmələri on yeddinci yüzilliyin əvvəllərinəo düşür. Həmin dövrdə Şah Abbasın əmri ilə Borçalı əhalisinin bir hissəsi sürgünə məruz qalmışdır. Ziya Bünyadov yazır: «...Şah Abbas 1604- 1606-cı illər arasında, Osmanlılara bağlılığından şübhələndiyi Borçalı-Qazax elinin bir çox oymaqlarını Gəncə-Qarabağ və Şirvan ölkələrində yerləşdirdi və beləliklə «dönük» sayılan və «sərhəddə güvənilməz kimi tanınan bir çox güclü və çoxsaylı oymaqdan dağıtdı». İkinci miqrasiya prosesi təxminən iki yüz il sonra, Qafqazda İran, Türkiyə və Rusiyanın nüfuz dairəsi uğrunda apardıqları müharibələr dövrünə düşür. Belə ki, Borçalıdan olan qarapapaq türklərinin 800 ailəsi Türkmənçay müqaviləsindən (1828-ci il, fevral) sonra Təbriz vilayətinə köçmüş, Abbas Mirzəyə ildə 12 min tümən vergi və 4 min atlı əsgər vermək şərtilə Sulduzda məskunlaşmışdı. Akademik Ziya Bünyadov yazır: «... Borçalı qarapapaqları Tərkəvün, Saral, Araplı, Canəhmədli, Çəkərli və Ulaşlı adıyla altı oymaqdırlar. 1934-cü ildə təxminən altı min ailədən ibarət olan Qarapapaqlar yüzdən çox kənddə yaşayırdılar» (6, s.45).

Borçalıların Türkiyə ərazisinə də köç etmələrinin tarixi səbəbləri var və bu, XIX əsrin əvvəllərinə düşür. Valeh Hacıyev yazır: "Tarixi mənbələr sübut edir ki, Qazax, Borçalı və Ağbaba tərəkəmələrinin Qarsa birinci köçü 1828-ci ilə, ikinci köçü isə 1921-ci ilə təsadüf edir (13, s.15). E.Aslanılı yazdığına görə, Gürcüstan tərəkəmələri Borçalıdakı Oruzman, Qarayazı, Kəpənəkçi, Qazax bölgəsindəki Soyuqbulaq, Tiflis civarındakı Darvaz, Bəzəkli, Yırğançay, Qəmərli, Ağalıq, Fahralı, Axılkələyin Xosbiyə, Göyyə və Lebis göylərindən gəlmişlər... Köçkünlərin hazırkı nəsillərinin bir qisminin Tokatın Zilə qəzasındakı Süleymaniyyə, Fatih, Hatippınarı, Osmapınarı, Çiçək pınarı kəndlərində, Amasiyanın Suluova qəzasının Alabədir, Ayrançı, Qorudüzü və Alakadı kəndlərində yaşadıqları qeyd olunur. Rəsmi mənbələrdə isə hələ 1910-cu ildə Qars vilayətinin 99 kəndində 39 min Borçalı əsilli əhalinin yaşadığı və habelə 1922-1923-cu illərdə Ermənistandan və Gürcüstandan olan 45 min adamın yenə Qarsda yerləşdirildiyi göstərilir. Türk tarixçiləri Borçalı qarapapaqlarının Türkiyə tarixində müstəsna xidmədər göstərdikləri, xüsusən də rus-türk müharibələri dövründə şücaətlə vuruşduqları barədə dönə-dönə yazmışlar.

Əvvəldə qeyd etdiyimiz kimi, bu mühiti parçalamaq və sarsıtmaq məqsədilə zaman-zaman çoxçeşidli təsir vasitələri həyata keçirilmişdir. Borçalıların doğma yurdlarından müxtəlif yollarla sıxışdırılıb çıxarılmaları ilə yanaşı, regionda onların süni surətdə azaldılması, yaxud onlara «qonaq», «gəlmə» darağalarının vurulması da belə vasitələrdəndir. Lakin Borçalının köklü sakinlərinin məhz türk etnosu olması faktı təkzibedilməz dəlillərlə sübut olunduğu kimi, burada tarix boyu əhalinin böyük əksəriyyətini türklər təşkil etmişlər. Bu barədə bəzi rəsmi mənbələrdəki faktlara nəzər salaq. 1832-ci ilin Kameral siyahıyaalınmasına görə Borçalıda 145 kənd, 4092 ev olmuş və burada 3634 erməni, 787 yunan, 669 gürcü, 213 alman, 8479 nəfər azərbaycanlı kişi qeydə alınmışdır(15,s.215).

Borçalıda azərbaycanlıların sayca başqa xalqlara nisbətən çoxluğunu gürcü yazıçısı və ictimai xadimi İ.Çavçavadze də təsdiqləyir. O, «İveriya» qəzetinin 1890-cı il 16-17 noyabr tarixli 244 və 245-ci saylarında dərc etdirdiyi «Borçalos mazra» ("Borçalı qəzası") məqaləsində qəzanın ümumi əhalisinin üçdə iki hissəsini azərbaycanlıların təşkil etdiklərini yazır.(5),

İ.Çavçavadzenin həmin qeydlərinin qələmə alındığı dövrlərdə 1888-ci ildə Borçalı əhalisinin etnoqrafik tərkibi barədə dəqiq rəqəmlər vardı. Qəzanın Borçalı nahiyəsindəki 12385 nəfərdən 12384 nəfəri, Yekaterinenfelddə 13836 nəfərdən 10028 nəfəri, Trialetidən 13468 nəfərdən 8974 nəfəri, Loridə 3173 nəfərdən 1483 nəfəri, Qarayazıda 5548 nəfərdən 5248 nəfəri, Qaraçöpdə 1855 nəfərdən hamısı Azərbaycan türkü idi. Gürcü, erməni və başqa xalqlar müqayisəolunmaz dərəcədə azlıq təşkil edirdilər. Məsələn, həmin dövrdə Lori və Yekaterinenfeldi çıxmaq şərtilə qəzanın Borçalı və Trçaleti nahiyələrində, eləcə də Qarayazı və Qaraçöpdə gürcülər və ermənilər, demək olar ki, yaşamırdılar, yaxud son dərəcədə azlıq təşkil edirdilər. Loru və Yekaterinenfelddə gürcülərin sayı müvafiq olaraq 2228 və 543, ermənilərin sayı 1436 və 7 idi(12,s.48).

Bütöv iyirminci yüzillik ərzində də regionda azərbaycanlılar sayca həmişə üstünlük təşkil etmişlər. 1926-cı ildə Borçalının ümumi əhalisinin (86537 nəfər) 50879 nəfəri azərbaycanlı, 14888 nəfəri erməni və 7948 nəfəri gürcü olmuşdur. Səksəninci illərin ikinci yarısından etibarən Borçalı regionuna svanların köçürülməsi siyasəti məhz burada əhalinin milli tərkibcə nisbətində müəyyən dəyişikliklər etmək məqsədi güdürdü.

Hazırda Gürcüstan Respublikasında yaşayan azərbaycanlı əhalinin sayı barədə mətbuatda və digər kütləvi informasiya vasitələrində müxtəlif rəqəmlər göstərilir. Gürcüstan Dövlət Statistika Komitəsinin məlumatına görə, əhalinin 1979-cu il siyahıyaalınması zamanı bu respublikada azərbaycanlıların sayı 255678 nəfər, 1989-cu il siyahıyaalınmasının nəticələrinə görə isə 307558 nəfər (respublikanın ümumi əhalisinin 5,7 faizi) olmuşdur (4, S. 123).

**Ədəbiyyat:**

1. Bax: M.Adıgözəlbəy Qarabağnamə». Qarabağnamələr» (Birinci kitab). Bakı, 1989,səh.30.
M.Y.Qarabaği. «Tarixi-Salı», «Qarabağnamələr» (ikinci kitab) Bakı, 1991, səh.11;
2. «Gəncə» (tarixi oçerk) Bakı, 1994, səh.38;
3. «Borçalı distansiyası». Bax: «Qafqaz uğrunda Rusiya hökmranlığının xülasəsi», Sankt-Peterburq, 1836-cı il, 1-2 hissələr; "Sabah" qəzeti, 29 dekabr 1992-15 yanvar 1993, № 14( 15)
4. Ş.Məmmədli. «Paralanmış Borçalı və ya 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin acı nəticəsi". Bakı, 1991, səh.10;

5. Yenə orada, səh. 8; Azərbaycan Sovet Ensiklopediyası, II cild, Bakı, 1978, səh. 255;
6. Bax: İ.Çavçavaddze. «Borçalı qəzası. «İveriya» qəzeti, 1890-cı il, 16-17 noyabr, № 244-245; «Sovel Gürcüstanı» qəz. 28 noyabr 1987; M.Sarvanlı-Sadıqov. «Borçalı tarixi və coğrafi xəritələrdə», «Yurddaş» qəzeti, 19 may 1993, №17(18);
7. Z.Bünyadov. «Qarapapaqları, "Borçalı" jurnalı. 1993, M.səh.17.
8. Yenə orada, səh. 15-16.
9. V.Hacıyev. «Mehralı bəy», «Gürcüstan» qəz. 26 iyun 1993.30. Yenə orada.
10. Z.Bünyadov. Göstərilən məqalə və mənbə. səh. 18.
11. «Borçalı distansiyası». Göstərilən mənbələr
12. İ.Çavçavadze. Göstərilən məqalə və mənbələr.
13. Bax: Azərbaycan Mərkəzi Dövlət Ən Yeni Tarix Arxivi, fond 970, siyahı 1, vərəq 5-6.
14. Yenə orada.
15. ASE, II cild, Bakı, 1978, səh.255.
Bax: «1989-cu ildə əhalinin Ümumittifaq siyahıya alınmasının Gürcüstan SSR üzrə yekunları haqqında», «Gürcüstan» qəz. 27 mart 1990; «Gürcüstanda nə qədər azərbaycanlı yaşayır?» «Gürcüstan» qəz., 7 mart 1991.

**Mehdi ŞƏRİFOV**

## ИНСТИТУТ ГУМАНИТАРНОГО ВМЕШАТЕЛЬСТВА: В КОНТЕКСТЕ УСТРАНЕНИЯ ПОСЛЕДСТВИЙ ОККУПАЦИИ НАГОРНОГО КАРАБАХА И ПРИЛЕГАЮЩИХ РАЙОНОВ

Стагнация переговорного процесса свидетельствует о нежелании одной из сторон обеспечить соблюдения норм международного права, в том числе и реализации предписаний, зафиксированных в документах Совета Безопасности ООН. Риторика о восстановлении территориальной целостности и государственного суверенитета воспринимается со стороны международного сообщества как реваншистская риторика. Вместе с тем, есть один существенный аспект, который международное сообщество не может игнорировать столь демонстративно - это проблема восстановления нарушенных прав жертв конфликта, а также пресечение возможности для совершения в дальнейшем нарушения прав человека.

Официальная позиция Азербайджанской Республики - конфликт вокруг Нагорного Карабаха является следствием военной оккупации со стороны Республики Армении территорий Азербайджанской Республики. В этих условиях реверансы в сторону привлечения армянской общины Карабаха в переговорный процесс повлечет за собой признание за

конфликтом характера суı-убо внутригосударственного. В этом случае, официальному Баку будет трудно применить принцип, выработанный в решении ряда международных судов (например, Европейский суд по правам человека), согласно которому ответственность за нарушение прав человека на оккупированных территориях несет государство, которое формирует оккупационный режим. Классическим примером является постановление Европейского суда по правам человека но делу «Лоизиду против Турции»[1].

Наряду с этим, тот же Европейский суд по правам человек сформулировал и другой принцип - несмотря на потерю государством возможности реализовать на этой территории государственную власть, на нем продолжает лежать обязанность принимать все надлежащие меры, имеющиеся в его распоряжении. К такому решению суд пришел при рассмотрении дел «Банковичи и другие заявители против Бельгии и других государств» и «Илашку и другие заяви гели против Молдавии и России». Например, в деле «Банковичи и другие заявители против Бельгии и других государств» Европейский Суд не признал возможным возложить ответственность на страны — участницы НАТО за нарушение норм Конвенции на территории тогдашней Союзной Республики Югославия, несмотря на то что, войска блока до некоторой степени контролировали территорию СРЮ в момент нанесения бомбовых ударов[2]. Аналогичная позиция Европейским Судом продемонстрирована и в деле «Илашку и другие заявители против Молдавии и России». В решении от 8 июля 2004 г. по данному делу отмечается: «даже в отсутствие эффективного контроля над Приднестровским регионом на Молдавии все равно лежит позитивное обязательство в соответствии со статьей 1 Конвенции принимать дипломатические, экономические, судебные или иные меры, находящиеся в ее власти и соответствующие международному праву, для обеспечения прав заявителей, гарантированных Конвенцией»^

Таким образом, в соответствии с международным правом с Азербайджанской Республики не снята ответственность:

1. за устранение последствий нарушения прав человека, ставших следствием оккупации территорий;

2. восстановление правопорядка на оккупированных агрессором территориях с целью пресечения в последующем нарушений прав человека.

Решение отмеченных задач требует гуманитарного вмешательства, направленной на восстановление нарушенных прав человека и пресечения их нарушения в дальнейшем. Термин «гуманитарного вмешательства» широко используется в современном правовом дискурсе.

Нередко в теории права термины «гуманитарное вмешательство» и «гуманитарная интервенция» используются как синонимы. Целесообразным

является определить гуманитарную интервенцию как разновидность гуманитарного вмешательства в связи с намечающимися тенденциями развития права. Как показывает практика, «гуманитарное вмешательство» стало неотъемлемой частью современных международных отношений. Обоснованием вмешательства во внутреннюю компетенцию государств является необходимость обеспечения «интересов человечества». Категория «интересы человечества» нашло свое последовательное закрепление в международном морском праве. В Заключительном акте чретьей конференции Организации Объединенных Наций по морскому праву (Мон-тего-Бей, 10 декабря 1982 года) подчеркивалось, что ресурсы дна морей и океанов, а также недра в открытом море за пределами действия существующей национальной юрисдикции может быть использовано только в интересах человечества. Развернутого определения «интересов человечества» в международно -правовых актах не содержится.

«Интересы человечества» ограничивают поле понимания содержания национальных и государственных интересов, что несет себе трансформационное начало для отправления публичной власти. Традиционно государство определяет защиту территориальной целостности и обеспечение государственного суверенитета как сферу национальных и государственных интересов. Необходимость же учитывать «интересы человечества» заставляет правительства делать корректировку соответствующих национальных и государственных интересов.

Обеспечение «интересов человечества» сопряжено с необходимостью интернационального вмешательства, основанного на соответствующем мандате, который все чаще обосновывается тезисами теорий «мягкой» безопасности и «ограниченного» («контролируемого», «мягкого») суверенитета . На практике, гуманитарное вмешательство осуществляется в таких формах как гуманитарная интервенция, поддержание мира, принуждение к миру, установление и строительство мира.

Гуманитарная интервенция — это подинститут международного права, находящийся на стадии институализации. Содержание гуманитарной интервенции раскрыто в докладе «К безопасному миру: наша общая ответственность» («A more secure world: our shared res-pondibility»), подготовленный в 2004 году по поручению Генерального Секретаря ООН. В упомянутом докладе выдвигаются пять критериев, которые должны быть рассмотрены Советом Безопасности ООН при решении вопроса о применении вооруженной силы в гуманных целях:

1. должны происходить или быть неизбежными этнические чистки, массовые убийства, геноцид или серьезные нарушения между народного гуманитарного права;

2. цель применения силы должна состоять в пресечении или предотвращении таких действий;

3. военная сила может и должна применяться в качестве крайнего средства, когда другие средства не привели к успеху;

4. масштаб, продолжительность и интенсивность предложенных военных акций должны быть минимальными для предотвращения существующих угроз;

5. последствия применения силы не должны быть хуже, чем последствия бездействия .

Основаниями для «гуманитарной интервенции» могут быть самые различные факторы (природные, техногенные и социальные катастрофы; неспособность исполнительной и законодательной власти решать внутренние и международные проблемы; тоталитарные режимы, предотвращение геноцида; защита демократических ценностей; межгосударственные и гражданские войны; международный терроризм; распространение оружия массового уничтожения; организованная преступность, коррупция, наркопроизводство; региональный и глобальный гегемонизм), однако, обязательным условием является грубые и массовые нарушения прав человека государственными органами или неспособность государства предотвратить эти нарушения. То есть государство не реализует свою «обязанность защищать», выводимую из самой сути государственного суверенитета, являющегося важным фактором обеспечения правопорядка.

Положение об «обязанности защищать» было разработано Международной комиссией по вмешательству и государственному суверенитету, созванному и работавшему под руководством К. Аннана, бывшим генеральному секретарю ООН. В одноименном докладе комиссии «обязанность защищать» сводилась:

«- обязанность предотвращать вред: бороться как с глубинными, так и с непосредственными причинами внутренних конфликтов и иных кризисов, создающих угрозы для населения страны;

- обязанность реагировать на причинение вреда: в ситуациях настоятельной необходимости принимать соответствующие данной ситуации меры, в том числе, в случае необходимости, и меры принуждения, такие как санкции или международное уголовное преследование, а в самых крайних ситуациях и военное вмешательство; -обязанность исправлять причиненный вред: обеспечивать, особенно после военного вмешательства, всю необходимую помощь для ликвидации последствий кризиса и вмешательства, для восстановления разрушенных объектов, примирения враждующих сторон, устранения причин того вреда, который вмешательство было призвано предотвратить или остановить» .

Статья 2 Декларации Организации Объединенных Наций о праве и обязанности отдельных лиц, групп и органов общества поощрять и защищать общепризнанные права человека и основные свободы от 1998 года определяет: «Каждое государство несет основную ответственность и обязанность защищал., поощрять и осуществлять все права человека и основные свободы, в частности путем принятия таких мер, какие могут потребоваться для создания всех необходимых условий в социальной, экономической и политической, а также в других областях и правовых гарантий, необходимых для обеспечения того, чтобы все лица под его юрисдикцией, индивидуально и совместно с другими, могли пользоваться всеми этими правами и свооодами на практике .

В свою очередь, Берлинская Декларация Международной Комиссии Юристов по вопросам отстаивания прав человека и правовых норм в борьбе с терроризмом, принятая 28 августа 2004 года, под «обязанностью защищать понимает следующим образом: «Все государства обязаны уважать и обеспечивать фундаментальные права и свободы лиц, находящихся под их юрисдикцией, что включает в себя любую территорию, находящуюся под их оккупацией или контролем. Государства обязаны принимать меры по защите таких лиц от террористических деяний. С этой целью, сами контр-террористические мероприятия всегда должны проводиться при строгом соблюдении принципов законности, необходимости, соразмерности и недискриминадии» .

По сути, обоснованием реализации операций по «гуманитарной интервенции» является необходимость восстановления народного суверенитета. Данное положение нашло свое отражение в Варшавской декларации 2000 года (ее подпис&ти 107 государств): «Декларация заслуживает большего внимания, поскольку она подводит реальную основу под вмешательство во внутренние дела суверенных государств. Есть два веских аргумента в ее пользу. Один - это народы, суверенитетом которых злоупотребляют, они нуждаются во внешней поддержке. Нередко внешняя помощь - их единственная надежда. Это вдохновляющий аргумент для таких людей, как я, но он совершенно не трогает причастные правительства с их национальными интересами. Другой аргумент - безопасность и благополучие народов, живущих в открытых обществах, а вот это уже должно в равной мере волновать и правительства, и граждан. Мир становится все более взаимозависимым»[10]. Поэтому и нарушение государственного суверенитета не рассматривается столь нежелательным. Современная правовая доктрина предполагает, что в случае неспособности (нежелания) правительства страны обеспечить народный суверенитет ее смещение является обоснованным, а в случаях, когда это возможно только при внешнем вмешательстве — то оправданным является и «гуманитарное» вмешательство".

Поддержание мира в большинстве случаев основана на суверенной воле участвующих в конфликтах стран, то 1уманитарная интервенция и принуждение к миру не всегда требуют согласия государства, то есть могут применяться и в условиях «преодоления» государственного суверенитета. «Классическим» международным документом, н котором заложены основные положения «мягкой» безопасности является Хартия Европейской Безопасности от 19 ноября 1999 года'[2].

Поддержание мира - операции небоевого характера, осуществляемые с согласия сторон в целях выполнения достигнутых соглашений. Поддержание мира (от англ. peacekeeping) предполагает проведение операций по поддержанию мира с использованием военных наблюдателей, или многонациональных вооруженных сил, или миротворческих сил государств-членов ООН (но решению Совета Безопасности ООН, в отдельных случаях - Генеральной Ассамблеи ООН), или государств — членов региональных соглашений (по решению соответствующего органа). В документах ООН дается следующее определение операциям по поддержанию мира: «действия с участием военнослужащих, не имеющих права прибегать к использованию принудительных мер, предпринимаемые Объединенными Нациями с целью поддержания или восстановления международного мира и безопасности в районе конфликта. Для проведения ОПМ требуются добровольное согласие и сотрудничество всех заинтересованных сторон. Задействованный в операции военный персонал выполняет поставленные задачи, не прибегая к силе оружия (кроме как в целях самообороны; в случае попыток со стороны отдельных лиц/групп помешать миротворцам осуществлять задачи, оговоренные в мандате операции: для защиты гражданского персонала миротворческой миссии или других международных, региональных, общественных и г. п. организаций, действующих в районе конфликта), чем операции по поддержанию мира отличаются от принуждения к миру, предусмотренного в ст. 42 [главы VII] Устава ООН»[13].

Понятие операции по поддержанию мира содержится в статье 3 Модельного закона об участии государства-участника СНГ в миротворческих операциях, принятого 17 апреля 2004 года Постановлением 23-6 на 23-ем пленарном заседании Межпарламентской Ассамблеи государств-участников СНГ): «операции по поддержанию мира - миротворческие операции, проводимые на основе положений главы VJ Устава ООН с согласия конфликтующих сторон, а в случае вооруженного конфликта немеждународного характера - с согласия легитимного политического руководства государства, на территории которого происходит конфликт, осуществляются по мандату ООН либо региональных организаций, либо в рамках региональных организаций или соглашений государства-участника СНГ, либо на основании двусторонних и многосторонних международных

договоров государства-участника СНГ с государством, на территории которого происходит кон фл и кг; как правило, операции по поддержанию мира проводятся при наличии соглашения о прекращении огня или насильственных действий между конфликтующими сторонами и предполагают поддержание и укрепление уже достигнутого мира или предотвращение будущих конфликтов»[1] .

Основным условием реатизации операций по поддержанию мира является приоритет прав человека над национальным законодательством и государственным суверенитетом. Современное международное право допускает, что государство может подвергнуться военным действиям со стороны мирового сообщества, группы стран или отдельной страны в случаях, когда оно не способно обеспечить защиту прав человека. Наиболее известные примеры этой новой международной практики - Гаити (1994 год), Югославия (1995 и 1999 годы).

Следующая форма гуманитарного вмешательства - это принуждение к миру. Принуждение к миру может осуществляться как с применением военной силы, так и без. Основа цель операций по принуждению к миру - разделение сторон, установление постоянного контакта с ними в целях снижения остроты конфликта для последующих дипломатических шагов. Поэтому принуждение к миру не предполагает согласия враждующих сторон, то есть фактически игнорирует их государственных суверенитет. Военные операции по принуждению к миру (от англ. peace enforcement operations) могут быть направлены как против непосредственно государственных органов, так и неправительственных структур.

Операции по принуждению к миру предполагают применение или угрозу применения силы с целью вынудить противоборствующие стороны согласиться выполнить требования о прекращении боевых действий.

Согласное статье 3 Модельного закона об участии государства-участника СНГ в миротворческих операциях, операции по установлению мира — это «миротворческие операции, проводимые на основе положений главы VII Устава ООН, как правило, с элементами принудительных действий, в том числе для пресечения агрессии или действий, угрожающих международному миру и безопасности, совершенных каким-либо государством, либо проводимые при отсутствии согласия на операцию конфликтующих сторон или легитимных властей государства, на территории которого происходит конфликт, на вмешательство со стороны международного сообщества; осуществляются исключительно на основании мандата (резолюции) Совета Безопасности ООН и не могут самостоятельно проводиться региональными организациями, коалициями государств или отдельным государством без прямого делегирования им со стороны Совета Безопасности ООН полномочий на проведение операции» .

Операции по установлению мира направлены на обеспечение постоянной готовности к ведению боевых действий в интересах предотвращения насилия.

В статье 3 Модельного закона об участии государства-участника СНГ в миротворческих операциях операции по постконфликтному восстановлению мира (миростроительство) определяются как «миротворческие операции, проводимые в соответствии с решениями Совета Безопасности ООН либо решениями региональных организаций, либо в рамках региональных организаций или соглашений, либо на основании двусторонних или многосторонних договоров и направленные на осуществление комплексных и скоординированных действий по восстановлению инфраструктуры мирной жизни в регионе произошедшего конфликта, включая оказание гуманитарной и экономической помощи, подготовку и проведение выборов и референдумов, воссоздание структур политического и административного самоуправления, демилитаризацию и реабилитацию бывших участников военных действий» .

Практическое ведение миростроительства предполагает достижение договоренности хотя бы с одной из противостоящих сторон и исключение возможности противодействия другой стороны. Операции по строительству мира же мира предполагает наличие посткризисной ситуации. В рамках операций по строительству мира реализуются меры но восстановлению органов государственного и общественного управления на той или иной территории, обеспечению политических и экономических условий, препятствующих возобновлению конфликта.

С учетом сложившейся ситуации вокруг оккупации Нагорного Карабаха возникает необходимость проведения в рамках гуманитарного вмешательства операции по гуманитарной интервенции, с элементами по принуждению к миру, а также с последующей фазой по реализации международными полицейскими силами мер по миростроительству.

Традиционно считается, что правовым основанием для реализации мер гуманитарного вмешательства является санкция Совета Безопасности ООН. История международных отношений свидетельствует о реализации операций, не санкционированных в соответствующем порядке, но «одобренных» мировым сообществом. В качестве примера можно привести:

-интервенцию со стороны Индии в 1971 году, остановившей гражданскую войну в Восточном Пакистане;

-гуманитарную интервенцию со стороны Вьетнама в 1978 году Камбодже, положив конец правлению режима Пол Пота, развязав шего геноцид;

-интервенцию со стороны Танзании в 1979 году Уганды, в ре зультате которой была свержена диктатуры Иди Амина, и т.д.

Именно на данную международную практику основывается Российская Федерация при оценке ситуации вокруг августовских событий 2008 года.

Особо следует отметить, что международная практика выработала четкие критерии допустимости международной интервенции в условиях, когда не была получена соответствующая резолюция Совета Безопасности ООН:

-грубые нарушения прав человека должны быть неминуемыми или уже происходящими;

-все возможные мирные средства должны быть исчерпаны;

-государству должен быть предъявлен ультиматум с требовани ем прекратить грубые нарушения прав человека;

-гуманитарная интервенция может быть предпринята, если Совет Безопасности ООН бездействует;

-цель применения силы должна состоять исключительно в пресечении грубых нарушений прав человека и не использоваться в каких-либо иных интересах государства;

-в ходе гуманитарной интервенции должен использоваться ог раниченный контингент войск и только в масштабах, необходимых для достижения цели;

-вооруженные силы должны применяться лишь ограниченное время и, как только цель гуманитарной интервенции (а также опе рации по поддержанию мира) достигнута, должны быть немедленно выведены с иностранной территории[17].

С учетом наличии резолюций Совета Безопасности ООН по рассматриваемой проблематике выбор со стороны официального Баку данного курса является наиболее оптимальным и результативным для урегулирования конфликта и устранения его последствий. Именно такой подход обеспечивает сочетание норм международного права и национально-государственных интересов.

**Литература:**

1 Постановление Европейского Суда от 18 декабря J 996 г. по делу «Лоизиду против Турции» [Loizidou v. Turkey] // Европейский Суд по пра вам человека. Избранные решения. Т. 2. М. 2000. С. 362 - 390.

2 Решение Европейского Суда от 21 декабря 2001 г. по вопросу о при емлемости для рассмотрения по существу жалобы по делу «Банковичи и другие заявители против Бельгии и других государств» fBankovic and Oth ers v. Belgium and other States] (жалоба № 52207/99). Текст данного реше ния опубликован в 12-м номере журнала за 2008 год.

3 Решение Европейского Суда от 8 июля 2004 г. по вопросу о приемле мости для рассмотрения по существу жалобы по делу «Илашку и другие заявители против Молдавии и России» [Hascu and Others v Moldova and Russia] (жалоба № 48787/99).

4 Конвенция Организации Объединенных Наций по морскому праву (UNCLOS) (Вместе с «Основными условиями поиска, разведки и разра ботки», «Уставом предприятия», «Согласительной процедурой», «Стату том международного трибунала по морскому праву», «Арбитражем», «Специальным арбитражем», «Заключительным актом третьей конферен ции ООН по морскому праву») // СР РФ, 01.12. 1997 № 48. Ст. 5493.

5 Зорькин В. Апология Вестфальской системы // Российская газета. 2004. 13 июля.

6 A more secure world: our shared respondibility // A. / 59 / 565. 1 Decem ber 2004.

7 Доклад Международной комиссией по вмешательству и госу дарственному суверенитету // http://www.hrights.ru/text/bl 5/ Chapter5.htm

8 Декларация Организации Объединенных Наций о праве и обязанно сти отдельных лиц, групп и органов общества поощрять и защищать об щепризнанные права человека и основные свободы от 1998 года // http://www.hri.ru/docs/? content=file&id-29

9 Берлинская Декларация Международной Комиссии Юристов по во просам отстаивания прав человека и правовых норм в борьбе с терроиз мом, принятая 28 августа 2004 года || http://www. media-law.ru/laws/otherlaws/european/belrin.htm

10 Сорос Дж. Мыльный пузырь американского превосходства. На что следует направить американскую мощь. М.: Альпина Бизнес Букс, 2004, с.112-113.

11 Сорос Дж. Мыльный пузырь американского превосходства. На что сле дует направить американскую мощь. М.: Альпина Бизнес Букс, 2004, с. 103.

12 Хартия Европейской Безопасности от 19 ноября 1999 года// http.//wwwl.umn.edu/'humanrts/russian/osce/basics/Reurosecharter.html

13 The Blue Helmets. A Review of United Nations Peace-keeping. 2nd ed. UNDPI.N.Y., 1990. p.4-5.

14 Модельный закон об участии государства-участника СНГ в миро творческих операциях (Принят в г. Санкт-Петербурге 17.04.2004 Посга-новлением 23-6 на 23-ем пленарном заседании Межпарламентской Ас самблеи государств-участников СНГ) // Информационный бюллетень. Межпарламентская Ассамблея государств-участников Содружества Неза висимых Государств. 2004. № 34. с.140-160.

15 Модельный закон об участии государства-участника СНГ в миро творческих операциях (Принят в г. Санкт-Петербурге 17.04.2004 Поста

новлением 23-6 на 23-ем пленарном заседании Межпарламентской Ас самблеи государств-участников СНГ) // Информационный бюллетень. Межпарламентская Ассамблея государств-участников Содружества Неза висимых Государств. 2004. № 34. с.140-160.
16 Модельный закон об участии государства-участника СНГ в миро творческих операциях (Приняг в г. Санкт-Петербурге 17.04.2004 Поста новлением 23-6 на 23-ем пленарном заседании Межпарламентской Ас самблеи государств-участников СНГ) // Информационный бюллетень. Межпарламентская Ассамблея государств-участников Содружества Неза висимых Государств. 2004. № 34. с.140-160.
Farer T. Inquiry into the Legitimacy of Humanitarian Intervention // Law and Force in the New International Order. Boulder, 1991. p. 185-201.

**Məryəm ORUCLU**

## POST-SOVET MƏKANINDA KONFLİKTLƏRİN HƏLLİNDƏ BEYNƏLXALQ VASİTƏÇİLİK

Sovet imperiyasının iflasından sonra post-sovet coğrafi məkanında qanlı hadisələrlə müşayət olunan konfiliktlər tuğyan etdi. Minlərlə insanın həyatına son qoyan bu konfiliktlər yeni yaranmış müstəqil dövlətlərarası münaqişəyə çevrilərək bu dövlətlərin müstəqilliyini möhkəmləndirmək və reallaşdırmaq yolunda böyük maneəyə çevrildilər. Konfliktlərin yaranması səbəbi ilk baxışdan müxtəlif və fərqli görünsə də, əslində bu, Rusiyanın imperiya təfəkküründən irəli gəlirdi. Rusiyanın böyük bir məkanı imperiya qaydaları ilə idarə etmək cəhdi və müstəqil dövlətlərin daxili işlərinə açıq müdaxilə etməsi süni şəkildə yaradılmış konfliktləri daha da uzun ömürlü etdi. Post - sovet məkanını bir qədər yeni formada öz təsiri altında saxlamağa çalışan Rusiyanın mahiyyəti ağalıq etməkdən ibarət olan cəhdləri həlli tezliklə mümkün olan konfliktləri sonsuzluğa qədər uzatdı. Rusiyanın bu konfliktlərin uzanmasında maraqlı olması və yeni müstəqil dövlətləri öz təsir dairəsində saxlamaq üçün bu münaqişələrdən təzyiq vasitəsi kimi istifadə etməsi post-sovet məkanındakı çoxsaylı münaqişələri həll edilməz duruma gətirib. Münaqişələrin həlli ilə əlaqədar müxtəlif vaxtlarda yaradılmış beynəlxalq vasitəçilik qurumları da əsas olaraq məhz bu səbəbdən öz missiyalarını yerinə yetirməkdə çətinlik çəkirlər. Post-sovet məkanındakı Rusiya amili münaqişələrin həlli yolunda ciddi maneə olaraq qalır. Beynəlxalq vasitəçilik qurumlarının və beynəlxalq təşkilatların tərkibində Rusiyanın da olması situasiyanı daha da mürəkkəbləşdirir və Rusiyanın problemlərin həllinə mane olmaq məqsədilə birbaşa müdaxiləsi üçün geniş imkanlar açır. Məsələn, Moldovada Rusiya tərəfindən süni şəkildə yaradılmış Dnestryanı problem belə problemlər sırasındadır. Dnestryanı problemi Rusiyanın

Moldovaya hələ də təzyiq faktoru olaraq qalır. Qeyd edək ki, hazırda bu münaqişə zonasında atəşkəsi tərkibində Rusiya, Moldova və Dnestryanı bölgənin kontingenti olan sülhməramlı qüvvələr qoruyur. Əhalisinin əksəriyyətini rusların təşkil etdiyi Dnestryanı Moldova Respublikası (DMR) Moldovadan 1991-ci ildə baş vermiş silahlı münaqişə nəticəsində ayrılan və respublikanın sənaye cəhətdən daha az inkişaf edən hissəsidir. Bu bölgə hələ də müstəqillik əldə etməyə çalışsa da rəsmi Kişinyov ölkənin ərazi bütövlüyü məsələsində sərt mövqe nümayiş etdirir. Rusiya isə münaqişənin həllinə dair aparılan danışıqlar prosesindən ABŞ və Ukraynanın uzaqlaşdırılması üçün çalışır. Qeyd edək ki, hazırda danışıqlar prosesi "5+2" formatında aparılır.Yəni Moldova və Dnestryanı münaqişə tərəfləri, Rusiya və Ukrayna zamin ölkələr, ATƏT vasitəçi təşkilat, Avropa İttifaqı və ABŞ isə müşahidəçilər statusunda danışıqlarda iştirak edirlər. Rusiya Dnestryanı münaqişənin 2003-cü ilin sonlarında Rusiya prezidentinin administrasiyası rəhbərinin müavini Dmitri Kozak tərəfindən irəli sürülmüş və "Kozak memorandumu "adlandırılan plan əsasında bir dəfəlik həllinə cəhd göstərir. Qeyd edək ki, bu sənəddə əsasən mərkəzi hakimiyyəti Moldovaya məxsus olan, Dnestryanı bölgəyə isə maksimum geniş muxtariyyətin verildiyi "asimmetrik federasiya"nın yaradılması nəzərdə tutulur. Bir məsələni də qeyd edək ki, Moldova, Gürcüstan, Azərbaycan, Ukrayna və Ermənistanla birlikdə Avropa İttifaqının artıq bir sıra Rusiya rəsmiləri tərəfindən Rusiyanın maraqlarına zidd olduğu bəyan edilmiş "Şərq tərəfdaşlığı" proqramının da iştirakçısıdır. Bir məsələ də aydındır ki, Kişinyov birdəfəlik Moskvaya tərəf yönələrsə, onda ondan Rusiya ilə həmrəyliyini nümayiş etdirməsi üçün tələb ediləcək birinci addım GUAM-dan çıxması, növbəti addım isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlük ola bilər. Kişinyovun Rusiyaya can atmasının səmimiyyətinə şübhə etməyə kifayət qədər əsaslar da var. Məsələn, 2001-ci ildə Moldova Kommunist partiyası hakimiyyətə gəlməzdən əvvəl rus dilinə dövlət dili statusunun veriləcəyi və Rusiya-Belarus İttifaqına daxil olunacağına dair vədlər vermişdi. Lakin 2005-ci ildə kommunistlər Avropaya inteqrasiyadan danışmağa başladılar. Əslində isə bunların heç biri olmadı. Sadəcə Moldovada siyasi elita hakimiyyətdə qalmaq və hakimiyyətə gəlmək üçün Rusiyapərəst ritorikadan istifadə etməyə çalışır.

Digər tərəfdən isə post-sovet məkanında təsir dairəsi uğrunda super dövlərlər arasında gərgin rəqabət gedir. Rusiya post-sovet məkanında xüsusi rolu və məsuliyyətinin olduğunu qəbul etdirməyə çalışır. Bu isə faktiki olaraq MDB-nin Rusiyanın nüfuz dairəsi kimi qəbul edilməsi, NATO-nun və onun layihələrinin bu məkana müdaxilə etməməsi deməkdir. Görünür ki, Kremlin 2009-cu ilin əvvəllərində Ukrayna ilə "qaz müharibəsi" təşkil etməsi, Abxaziya və Cənubi Osetiyada hərbi bazalar yerləşdirmək niyyətini açıqlaması və faktiki olaraq Qırğıstandan ABŞ hərbi bazalarının çıxarılmasına nail olmaq cəhdi Qərblə "alver"də öz mövqelərini möhkəmləndirmək üçün vacibdir. Moskva bütün bu

addımları ilə diqqəti özünə çəkməyi bacarsa da ABŞ, Avropa İttifaqı və NATO-nun reaksiyası çətin ki, Rusiya rəhbərliyinin ümidlərini doğrultsun. Artıq Rusiyanın post-sovet məkanındakı problemləri ilə təkbaşına bacarmayacağı aydın görünür. Bu əsasən onunla bağlıdır ki, post-sovet ölkələrinin əksəriyyəti Rusiya ilə təkbətək qalmaq istəmir. Onların hamısı Rusiya ilə başqa dövlətin arasında manevr etmək üçün alternativ mərkəz axtarır. Mərkəzi Asiyada bu, Çin və müəyyən mənada ABŞ-dır. Qafqazda isə bu, ABŞ və müəyyən qədər də Avropa İttifaqıdır. Müşahidəçilərin fikrincə, MDB-nin inteqrasiya layihəsi kimi iclasa uğraması şübhə doğurmur. Belə ki, MDB-nin inkişaf konsepsiyasının irəli sürülməsi və ona yeni həyat vermək cəhdlərinin nəticəsi olmadı. Rusiya və Gürcüstan arasında 2008-ci ilin avqustunda yaranmış hərbi toqquşmanın ardından Rusiyanın Abxaziya və Cənubi Osetiyadakı seperatçı rejimləri tanıması onsuz da MDB-yə ən son olaraq daxil olmuş Gürcüstanın birliyin sıralarını tərk etməsilə nəticələndi. Digər tərəfdən Ukrayna ötən 18 ildə MDB-nin nizamnaməsini ratifikasiya etməyib və hazırda Ukrayna rəhbərliyi Avropaya inteqrasiyaya can atdığını və MDB sammitlərinə qatılmaq arzusunda olmadığım nümayiş etdirir. Türkmənistan MDB ilə məsafə saxlayaraq bunu daimi neytrallıq mövqeyi ilə əsaslandırır və bu ölkə MDB-nin sadəcə assosiativ üzvü olduğunu bəyan edir. Halbuki MDB-də belə üzvlük nəzərdə tutulmayıb. Beləliklə, Moskvanın MDB-ni öz himayəsi altında inteqrasiya birliyinə çevirmək təşəbbüsü nəticəsiz olaraq qalır. MDB çərçivəsində həyata keçirməyi düşündüyü planların baş tutmadığını görən Moskva bu siyasətini Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı istiqamətinə döndərməyə qərar verib. Lakin Moskvanın post- sovet məkanında birmənalı nəzarət yaratmaq cəhdi şübhə doğumur. Uzun müddətdir ki, Rusiya bunu çox saylı iqtisadi dayaqları, yəni ucuz təbii qaz, imtiyazlar, kreditlər və s. vasitəsilə həyata keçirməyə çalışıb. Lakin məqsədinə o qədər də nail olmayıb. Hal-hazırda isə Moskva ən ciddi iqtisadi problemlərlə üzləşdiyindən hegemonluğun bərpası iddiaları tezliklə yalnız ABŞ-ın yox, həm də Avropa İttifaqının müqaviməti ilə üzləşəcək. Görünür ki, enerji resurslarının qiymətinin düşdüyü, iqtisadi böhranın dərinləşdiyi dövrdə Avropanın birləşməsi fonunda Rusiyaya post-sovet məkanında hegemonluğunu bərpa etmək planını reallaşdırmaq çətin olacaq. Buna görə də Rusiya hərbi faktordan istifadə etməyə çalışır. Yəni post-sovet məkanındakı ölkələrin ərazisində yerləşdirilməsi nəzərdə tutulan birgə hərbi qüvvələrin yaradılması qərara alınıb. Bir məsələ də aydındır ki, bu ordu formal olaraq ümumi adlandırılsa da, əslində söhbət Rusiya silahlı qüvvələrindən gedir.

Rusiyanın Gürcüstana təcavüzündən sonra bir daha sübut olundu ki, Moskva istənilən anda Cənubu Qafqazdakı münaqişə ocaqlarını alovlandırıb böyük bir münaqişə yarada bilər. Gürcüstana təcavüzlə Rusiya bölgədə varlığını sübut etdi. Çünki hazırda Rusiya post-sovet məkanında o cümlədən Baltikyani ölkələrdə demək olar ki, görünmür. Rusiya NATO və ABŞ-

nin onun fikirlərini nəzərə almaması səbəbindən bir sıra hərəkətlər etməyə məcbur oldu. Rusiya Kosova məsələsinə, Gürcüstanın NATO-ya qəbul edilməsi planına müqavimət göstərdi. Hətta öz varlığını sübut etmək üçün hərbi gücdən belə istifadə etdi. Rusiya əvvəlki nüfuzunu və imkanlarını itirsə də regiondakı bütün ciddi məsələlərin onun tərəfdaşlığı şəraitində həil olunmasını istəyir. Rusiya göstərməyə çalışır ki, onun coğrafi məkanındakı bütün əhəmiyyətli məsələlər onunla mütləq razılaşdırılmalıdır. Hal-hazırda Cənubi Qafqazda vəziyyət mürəkkəb olaraq qalır. Hər an partlayış nöqtəsi olan bu region üçün kiçik bir qığılcım kifayət edir ki, dünyanın diqqəti yenidən Qafqaza yönəlsin. Hal-hazırda Qafqaz uğrunda açıq, diplomatik, energetik və s. hər mənada savaş davam edir.

Öz məqsədlərinə nail olmaq üçün Rusiya Azərbaycana təzyiq göstərərək öz qoşunlarını sülhməramlı qüvvələr adı altında münaqişə bölgəsinə gətirmək niyyətindədir. Dağlıq Qarabağ probleminin həllində vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk Qrupunun həmsədrləri 1997-ci ilin ikinci yarısından indiyə kimi münaqisənin həlli ilə əlaqədar müxtəlif təkliflər irəli sürmüşlər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin "paket" həlli, 1997-ci ilin sentyabrında irəli sürdükləri ikinci təklif isə münaqişənin mərhələli həllindən ibarət idi. Qarabağ münaqişəsinin "paket" həlli variantında Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu. Mərhələli həll variantında isə münaqişənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu. 1998-ci ilin noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd olan, həmçinin Azərbaycan üçün qəbul edilməsi mümkün olmayan üçüncü təklifi irəli sürdülər. Bu təklif dünya praktikasında mövcud olmayan ümumi dövlət ideyasına əsaslanırdı. "Ümümi dövlət" prinsipi nizamasalma prosesinə ciddi maneə törətməklə yanaşı, münaqişənin həlli yollarına dair tərəflərin mövqeyindəki ziddiyyətləri daha da dərinləşdirdi. Nəticədə danışıqlar prosesində bir durğunluq yarandı və münaqişənin nizama salınması istiqamətində irəliləyiş əldə etmək mümkün olmadı. Qarabağ münaqişəsini nizamlanmasına dair irəli sürülən "Madrid prinsipləri" adlı sənəd isə Dağlıq Qarabağ ətrafındakı ətraf ərazilərin işğaldan azad olunmasından, kommunikasiyaların açılmasından, beynəlxalq sülhmərəmlı qüvvələrin yerləşdirilməsindən, Dağlıq Qarabağa aralıq statusun verilməsindən və nəhayət bölgənin yekun statusunun öz iradəsini ifadə etmə yolu ilə müəyyən edilməsindən ibarətdir. Madrid prinsiplərində Azərbaycanın, o cümlədən Ermənistanın razılaşdığı məqamlar var. Lakin Dağlıq Qarabağın yekun statusu məsələsi danışıqların dalana dirənməsinin başlıca səbəbi olaraq qalır. Erməni tərəfi bəri başdan referendum barədə möhkəm təminat almadan qalan məsələlərlə bağlı qərar vermək istəmir. Belə təminata referendumun keçirilməsi vaxtının dəqiq və konkret müəyyən edilməsi və onun nəticələrinin Azərbaycan tərəfindən tanınacağına dair öhdəlik də daxil edilir. Beləliklə, həm Cənubi Qafqazda, həm də ümumiyyətlə, post-sovet məkanında mövcud olan konfliktlərin nizama salınması

məqsədilə yaradılmış beynəlxalq vasitəçilik qurumları öz missiyalarını yerinə yetirməkdə çətinlik çəkirlər. Bu isə dalıa cox bu konfliktlərin bölgədə süni şəkildə yaradılmasının əsas və fəal iştirakçısı olan Rusiya faktoru ilə əlaqədardır. Bu faktora Qərbin məxsusi maraqlarını da əlavə etsək, vəziyyətin normallaşmaması səbəbləri aydın olar.

**Nazim MƏMMƏDOV**

## ERMƏNİ İDDİALARI VƏ GƏDƏBƏY BÖLGƏSİ

Ruslar Qafqaza gələn gündən erməniləri İrandan, Türkiyədən köçürüb Azərbaycan torpaqlarına gətirməklə azərbaycanlılar üçün problem yaradıblar. 200 il bundan əvvəl yaradılan bu problemin həll edilməsinə bu gün də imkan vermirlər. Ruslar bizim torpaqlarda ilk dəfə olaraq Qafqazda ermənilər üçün Erməni Dövləti yaratdılar. Ruslar çıxıb Qafqazdan getsələr də bu gün bütün var gücləri ilə erməniləri müdafiə edirlər. Rusları ermənilərə bağlayan nədir? Deyərdim ki, xristian həmrəyliyi.

Ermənilər qədər rus xalqına xəyanət edən, onu alçaldan, öz məqsədinə çatmaq üçün rus xalqının nümayəndələrini min bir işgəncə ilə öldürən ikinci bir xalq yoxdur. Ruslar erməniləri İrandan, Türkiyədən köçürüb, İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının torpaqlarına yerləşdirən gündən azəri türklərinin qara günləri başladı. Dədə-baba torpaqlarımızın gəlmə ermənilər tərəfindən tutulması planı bir günün içində meydana gəlməyib. Gəlmə ermənilər 200 ildən çoxdur ki, bizim torpaqları tutmaq haqqında fikirləşirlər və addım-addım torpaqlarımızı kilsə xadimlərinin başçılığı ilə və rusların köməkliyi ilə tuturlar. Biz isə 200 ildə torpaqlarımızı itirə-itirə gedirik. Din xadimlərimiz isə səslərini çıxarmırlar. Azərbaycan torpaqlarının gəlmə ermənilər tərəfindən tutulması planı, Qarabağ məsələsi bir günün içərisində yaranmadığı üçün onun yarandığı gündən bu günə kimi nələr olduğunu, hansı hadisələrin baş verdiyini bilmədən, həmin hadisələri bu günkü nəsillərin nəzərinə çatdırmadan, bu məsələyə düzgün qiymət vermək olmaz.

Yaşı 5 mindən çox olan Gədəbəyi ermənilər tutmaq və oradakı qədim abidələrə, kilsələrə yiyə durmaq istəyirdilər. Z.Balayan Gədəbəyi Qarabağın şimalı adlandırır, "tarixi abidələrimiz göz yaşı töküb bizim yolumuzu gözləyirlər"-deyir. Ermənilər heç vaxt Gədəbəydə yaşamayıblar. Buranın yerli əhalisi-qədim türklər atəşpərəst olublar. Sonralar xristian dinini qəbul ediblər və çoxlu sayda kilsələr tikiblər. Gədəbəy 8-ci əsrdən 12-ci əsrədək Aran (Alban) Katolikosluğunun mərkəzi olub. Ermənilər Gədəbəyə Təzəbayazıddən yay aylarında işləmək üçün gəlirdilər. Onlar yaylaq yeri sayılan Başkənddə Arandan olan bir bəyin mal-qarasına baxırdılar. Bir gün bəy ermənilərin orada yaşayan qızını alır və getməyə yerləri olmayan ermənilərə orada qışda qalmağa icazə verir. Beləliklə, ermənilər 1858-ci ildən Başkənddə qalıb yaşayırlar. Gədəbəydə qızıl mədəni işə düşəndən

sonra iş axtaran ermənilər gəlib Gədəbəyin özündə yaşamağa başlayırlar. Ermənilər 1905-ci ilin noyabr ayında Gədəbəydə 42 nəfər azərbaycanlını qətlə yetirdilər. Özləri isə 22 nəfəri itirərək Slavyankaya tərəf çəkildilər, oradan da Çardaqlıya getdilər.

1918-ci ildə Andronikin dəstələri Zodda, Basarkeçərdə, Göyçədə Azərbaycan kəndlərini yandırır, əhalini qırır, sağ qalanlar isə öz yaşayış yerlərini qoyub Gədəbəyə tərəf qaçırdılar. Göyçədən Gədəbəyə çoxlu sayda qaçqınlar gəldi. Gədəbəydə o vaxtlar 2500-dən çox qaçqın qeydiyyatdan keçmişdi. Gədəbəydə onlara hərtərəfli maddi köməklik edilirdi.

1918-ci ildə ermənilər Göyçədəki, Basarkeçərdəki azərbaycanlılara hücum edib qırandan sonra iki min nəfərlik xüsusi təlim görmüş dəstə ilə Gədəbəydən keçib Qarabağa üsyan qaldırmış ermənilərə köməyə gedirdi. Bundan xəbər tutan Muqa Namaz, Qızıl Rza, Səməd və başqaları ermənilərin qalib keçəcəyi yolda Dəlik Daş dərəsində pusqu qurdular və erməniləri pusquya salıb son nəfərinə kimi qırdılar. Demək olar ki, bu döyüşdə Gədəbəyin mərd oğulları ilə yanaşı, onun qadınları da kişilərlə çiyin-çiyinə vuruşur və onlara hərtərəfli yardım edirdilər. 1920-1921-ci il Azərbaycan hökumətində rəhbər vəzifədə olan ermənilərin və Mikoyanın göstərişi ilə XI Qızıl Ordu Dəlik Daşı iki il dalbadal top atəşinə tutdu. 1918-ci ildə burada qırılan daşnaqların qisasını onların yolunu kəsib qıran azərbaycanlılardan alırdılar. Ermənilər heç nəyi unutmurlar.

1928-ci ildə Moskvanın göstərişi və Azərbaycan rəhbərlərinin razılığı ilə dədə-baba Gədəbəy torpaqlarını-Başkəndin 4400 hektar torpağını Azərbaycandan alıb Ermənistana verdilər. Əhalisinin 90%-i azərbaycanlılardan ibarət olan Göyçə mahalı isə nədənsə Azərbaycana verilmədi.

1968-ci il Gədəbəyin Şınıx zonasında yerləşən Tağlar, Qaravəllilər kəndinin torpaqları guya "yararsız" olduğu üçün Azərbaycandan alınıb Ermənistana verildi. Görəsən, "yararsız" torpaq ermənilərin nəyinə lazım idi? Buna etiraz edən yerli əhalini bizim rəhbərlər təhqir edir, tutmaqla hədələyirdilər. Raykomun katibinə "get öz kəndini, öz dədə-baba torpaqlarını ermənilərə ver. Sən kimsən gəlib bizim torpaqlarımızı ermənilərə verirsən?"-deyən "nemes" Əhməd özümüzkülər tərəfindan şərlənib 2 il iş aldı. Orada yaşayan insanlan məcburi köçürüb Saratovka kəndinə gətirdilər.

Bu hadisələr başlayana kimi Başkənddə 10 mindən çox erməni yaşayırdı. Bu kəndi kənardan gələn ermənilər alınmaz qalaya çevirmişdilər. Kəndin ətrafında səngərlar qazılmış, istehkamlar qurulmuşdu. Ermənilər buranı "qartal yuvası" adlandırırdılar. Hətta, fransız müğənnisi, milliyyətcə erməni olan Şarl Aznaur bu kənddə yaşayanlara ev başı hər ay 100 ABŞ dollan verirdi ki, bu kənddan köçməsinlər. Eyni zamanda, bu kəndə Krasnoselskidən, İrəvandan, Leninakandan, Tiflisdən avtobuslar havayı işləyirdi.

Ermənilər Qarabağda mslann köməkliyi ilə torpaqlarımızı ələ keçirəndən sonra Qazax, Ağstafa, Tovuz, Gədəbəy torpaqlarına göz dikməyə başladılar.

Bütün cəbhəboyu kəndlərdə peyda olan təxribatçılar camaatı qorxudub deyirdilər ki, Şınıxı ermənilərə satıblar. Ermənilər buranı Xocalının gününə döndərəcəklər, köçün Bakıya gedin. Bakıdan da hansısa qüvvə Şınıxa KAMaz, "İKARUS" avtobusları göndərirdilər ki, əhalini çıxartsınlar. Təxribata uyanlar 3-4 günlük öz evlərini tərk edib aran rayonlarına gedirdilər.

Gözlənilən hadisə 31 yanvar 1991-ci ildə baş verdi. Şınıxda olan 6 nəfər öldürüldü, 6 ailə başsız, uşaqlar isə atasız qaldılar.

Gədəbəyin keçmiş icra başçısı Qəmbər Qurbanov "Gədəbəy xatirələri" kitabında o ağır günləri belə xatırlayır: "Səhərin gözü yenicə açılmışdı ki, mənə zəng vurdular ki, bu gecə Başkənddən keçib Şınıx zonasına gedən şosse yolunun Mutudərəyə yaxın yerində bir "Miquli" maşınında 6 nəfəri ermənilər vəhşicəsinə öldürüblər. Orada erməniləri müdafiə edin 7-ci Sovet Ordusunun bir tankı, iki BTR-i dayanmışdı. Bizim adamlar Mutudərənin yanına, ermənilər isə Krasnoselonun aşınına toplaşmışdılar. Qanuna görə (qondarma qanun) hadisə onların ərazisində baş verdiyi üçün həyasız erməni müstəntiqləri xeyli aralıda hərbçilərlə dayanıb guya araşdırma aparırdılar. Mən onlara qəti şəkildə rədd olub getmələrini tapşırdım. Burada hər cür xoşagəlməz hadisə baş verə bilərdi. Bizim adamlar qəzəbdən onlara hücum çəkər, onlar isə lap yuxarıdan camaatı atəşlə qarşılaya bilərdilər.

Maşında 6 nəfər adam olub. Onlar axşamüstü Gədəbəydən Şınıxa yola düşüblər. Başkəndin yanından keçəndə ermənilər onları Qozluğun yanında atəşə tutub, qırıblar. Cənazənin 4-nü özləri ilə aparıblar, ikisi isə maşında qalıb. Maşın güllədən deşik-deşik olub. Maşına dəyən güllələr yəqin ki, adamlardan keçib. Meyidin birinin sol qolun kiçik at baltası ilə üzüb, burnunu və sifətini eybəcər hala salıblar. O biri meyid isə daha pis vəhşiliklarə məruz qalıb.

Rus əsgərlərindən soruşduqda dedilər ki, bir neçə gündür buralarda 16-05 ADT QAZ 66 markalı pexota maşınında boyaviklər (saqqallı ermənilər) hərlənirdi. Yəqin onlar törədiblər.

Öyrəndik ki, hadisənin qurbanları Şınıxın müxtəlif kəndlərindən olan aşağıdakı adamlardır: Valiyev Məhər, Qurbanov Əkbər, Cəlilov Əsgər, Zeynalov Arif, Nağıyev Fərhad, Hüseynov İbrahim.

Bizdən bir az aralıda 0072 saylı KM hərbi maşını dayanıb. Mutudərədə yerləşən hərbi hissənin rota komandiri Qordenkonun dediyinə görə bu maşın 7-ci orduya (Ermənistanın hərbi dəstəsi) məxsusdur va bir neçə gündür, bizim iradlarımıza baxmayaraq elə buralarda veyllənir. Harda gəldi saxlayır və xoşagəlməz hərəkətlərə yol verirlər. Ola bilsin ki, hadisəni də elə bu maşındakılar törədiblər. Bizim onları tutmağa və ya yoxlamağa ixtiyarımız yoxdur. Əhali bilmirdi ki, nə etsin. Ümidləri ancaq burada dayanan Sovet Ordusuna idi. Onlar isə ermənilərə qarşı heç bir ölçü götürmürdülər. Yuxarılara verilən məlumatlara cavab gəlmirdi. Adamlar göz qabağında öldürülürdü. Yerli orqanlar ermənilərə, cinayətkarlara qarşı heç bir şey edə bilmirdilar. Çünki Başkənd başqa

Respublikarını ərazisi idi. Bundan sonra əhalinin gediş-gəlişi çətinləşdi. Şınıxa gedib-gələnlər hərbçilərin nazarəti altında gedib gəlirdilər. Moskvadan gələn 4 nəfər müstəntiq Ermənistanda öldürülmüş şınıxlıların paltarlarını və əşyalarını gətirib bizimkilərə təhvil verdilər. Onların meyidləri haqqında onu bildirdilər ki, meyidləri Ermənistanın Artaşad rayonunda yandırıblar. Yandırılmış meyidləri də vermədilər. "Bunlar Gədəbəyin ilk qurbanları deyildilər. Bundan sonar Gədəbəy əhalisi 150 nəfərdən çox qurban verdi.

1991-ci ilin dekabrında Gədəbəydə qeyrətli oğullardan ibarət könüllü dəstə yaradıldı. Xalq tərəfindən yığılan pullara onlara silahlar alınırdı. Sərhəd zonasında kəndləri qorumaq üçün Hacılarda, Monnorda, Göyəllidə, Mutudərədə postlar qurulmağa başlandı. Ermənilər tərəfindən hər gün kəndlərimizə tərəf atəş açılırdı. Bizim könüllülərimiz də onlan cavabsız qoymurdular. Əslən Gədəbəydən olan Yaqub Məmmədov Ali Sovetə sədr seçiləndən sonra Gədəbəyin müdafiəsi gücləndi, silah-sursat tərəfdən çətinlik olmadı.

Qarabağ hadisələri başlayan gündən Başkənddə İravandan gəlmə saqqallı ermənilar peyda olmağa başladılar. Onlar Başkənd ətrafında müdafiə istehkamları qururdular. Şınıxın kəndlərinə axşamlar gedib-gəlmək təhlükəli idi. Postlarda dayanan Sovet ordusunun əsgərləri azərbaycanlıları öldürən, onların mallarını oğurlayan ermənilərə heç nə demirdilər. Demək olar ki, onlar xristian qardaşlarını müdafiə edirdilər. Bura Bakıdan uzaq olduğu üçün yerli əhali ancaq öz mərd oğullarına güvənirdi, onları bacardıqları qədər ruslardan aldıqları silahla silahlandırırdılar. Sovet hökuməti son günlərini yaşayırdı. Bakıda isə mitinqlar ara vermirdi. Belə bir vaxtda Cəbhəçilər hakimiyyətə gəlmək istəyirdi. Sovet hökumətinin razılığı ilə Dağlıq Qarabağ vilayətinin dövlət büdcəsi Ermənistanın büdcəsinə birləşdirilmişdi. Faktiki olaraq, Dağlıq Qarabağ Vilayətini Ermənistan idarə edirdi. Bizim Azərbaycan rəhbərləri oraya gedə bilmirdilər. Ermənilər Azərbaycanın bütün sərhəd boyunda yerləşən rayonlarını top, avtomat atəşinə tuturdular.

Gədəbəyə hər an ermənilər tərəfindən hücum gözlənilirdi. Əhali bunu bilirdi və bu hücumu dəf etmək üçün müxtəlif yollar axtarırdı. Belə bir anda Bakı şəhərində yaşayan ziyalılar İzzət Rüstəmov, Rəşid Mahmudov, Tofiq Rüstəmov, Məstan Məmmədov, Dəmir Nəbiyev, Nurəddin Rzayev, Salman Rzayev, Rasim Əliyev və başqaları Şınıx kəndlərinə gedir, əhalini təxribatlara uymamağa, öz dədə-baba torpaqlarını tərk etməməyə çağırırdılar.

Gədəbəydə yerləşən Milli Ordunun rəhbərləri yaxşı bilirdilər ki, gec-tez ermənilər Şınıxı almaq fikrində olacaqlar və ona görə də erməniləri Başkənddən çıxarma haqqında hücum planı hazırlayırdılar. Vəziyyət gözlənilmədən dəyişdi. O hadisələri yazıçı-jurnalist M.Məlikməmmədov belə xatırlayırdı: "Avqustun 5-də ermənilər Mutudərəni almaq üçün hücuma keçdilər. Sanki hərbçilərimizin planlarından duyuq düşüb belə etmişdilər. Tələsik nəticə çıxarmaq olmazdı. Vəziyyəti aydınlaşdırmaq lazım idi. Bunu yaxşı başa düşən hərbi korpus

komandanlığı Mutudərədəki vəziyyəti öyrənmək üçün dərhal bütün vasitələri işə saldı. Alınan ilk məlumata görə ermənilər Mutudərəyə 4 tank, 14 zirehli maşın və başqa texnika yeritmiş, təpədən dırnağa kimi silahlanmış minə yaxın hərbçi və yaraqlı göndərmişdilər.

Yaxşı təlim görmüş erməni əsgərləri və yaraqlıları Mutudərəni, həmçinin iki-üç kilometr aralıda yerləşən Düz Rəsullu, qonşu Qasımağalılar, Dərdlər kəndlərini və Şınıxın başqa yaşayış məntəqələrini ələ keçirmək niyyətində idilər. Uk zərbini zastavadakı əsgərlərimiz öz üzərlərinə götürdülər. Onlara baş leytenant Məzahir Rüstəmov başçılıq edirdi. Hələ 1991-ci ildən ata yurdunu-Şınıx torpağını erməni işğalçılarından qorumaq üçün Bakıdan könüllü olaraq cəbhəyə yollanmış 30 yaşlı Məzahir İzzət oğlu Rüstəmov igidlikdə ad çıxarmışdı. Onun əsgərləri bir neçə saat qəhrəmanlıqla düşmənin qarşısını almış, komandir özü ermənilərin bir tankını partlatmış, 30-a yaxın yaraqlını qırmışdı. Döyüşdə mərdliklə həlak olan, ana torpağı son nəfəsədək qoruyan, 25 nəfərin axırıncısı kimi Məzahir düşmənin əlinə diri düşməmək üçün son anda yeganə gülləyə ümidini dikmişdi..

Mutudərədə güclü müqavimətə rast gələn düşmən hücumun sürətini azaltmamaq üçün əlavə qüvvələri işə saldı. Kəndə doğru uzanan yolda əvvəlcədən müdafiə məqsədilə basdırılmış minaların partlaması, İsalı zastavasından köməyin ləngiməsi onların xeyrinə oldu. Mormor və Qasımağalılar kəndlərindəki kiçik qüvvələrimiz tükənəndən sonra ermənilər daha da azğınlaşdılar. Onlar həmin kəndləri başdan-başa yandırdılar. İlk müvəffəqiyyətdən sonra şirniklənən işğalçılar bir neçə kilometr irəlilədikdən sonra bütün cəbhə boyu hücumu gücləndirdilər. Ermənistan tərəfdən ərazimizə yeridilən qoşuna kömək məqsədilə Başkənd erməniləri Başkənd çayının kənarında, həmçinin gölün ətrafında mövqeləri möhkəmləndirib yaraqlıların sayını artırdılar. Sonra əsgərlərimiz çaşdırmaq üçün kiçik qruplar yaratdılar ki, həm Mutudərə tərəfdən gələn ermənilər diqqətdən yayınsınlar, həm də döyüşçülərimizin diqqətini yayındırıb hücumun səmtini dəyişdirsinlər. Hətta əsgərlərimizi mühasirəyə salmaq üçün taktiki gedişlər də hazırlanmışdı. Lakin düşmənin niyyəti baş tutmadı.

Ratsiya ilə alınan əmr əsgərlərimizi Vətən torpağı uğrunda həlledici döyüşə qaldırdı. Polkovnik Rəfail Əsədovun başçılıq etdiyi artilleriya Mutudərə aşırımını nəzarətdə saxlayırdı. Əmr alınan kimi Mutudərəni ələ keçirmiş ermənilərin üstünə mərmi yağdırıldı. Mərmilər sərrast atıldığından düşmən xeyli tələfata yol verdi. Artilleriyanın atəşindən sonra bir qədər özünü itirən işğalçılar hücumun sürətini azaltmağa məcbur oldular. Bu isə qəfildən düşmənin başının üstünü almağa və bizə sərfəli şəraitdə onu döyüşə cəlb etməyə imkan verdi. Novosaratovka və İvanovka kəndlərində yerləşən 3-cü Şəmkir batalyonu, podpolkovnik Nizam Əhmədovun Həsənli və Məşədivəlilər kəndlərinin yaxınlığında cəmləşmiş, birbaşa Korpusa tabe olan tağımı, podpolkovnik Malbaxovun Düz Rəsulluda mövqe tutmuş tağımı eyni zamanda hücum aldılar. Polkovnik Cahangir Rüstəmovun alayı işğalçılara qarşı qəhrəmancasına vuruşurdu. Əməliyyatın rəhbəri polkovnik Hamlet Hüseynov

vaxtında Tovuzdan və Qazaxdan da əlavə kömək gətirmiş , qüvvələrin bir-biri ilə əlaqədə , birgə döyüşə bilməsi üçün bütün hərbi bacarığını sərf etmişdi.

Daş qayaya rast gələn düşmən irəliyə getməyin mümkün olmadığını görəndə tutduğu mövqelərdə möhkəmlənmək, qüvvə toplayıb sonra hücumu davam etdirmək qərarına gəldi. Amma əsgərlərimiz onlara aman vermədilər. Nəinki hərbçilər, həmçinin əhalidən təşkil olunmuş könüllü dəstələr də igidliklə döyüşürdülər. İki günlük döyüşdən sonra çoxlu itki verən ermənilər Mutudərəni minalayıb geri çəkilmək istədilər. Amma Cahangir Rüstəmovun əsgərləri, Tovuzdan gələn döyüşçülər və baş leytenant İsgəndər Aznaurovun bölüyü buna mane oldu. Korpus komandiri general D.Rzayevin və polkovnik H. Hüseynovun əmrinə əsasən onlar döyüş dairəsini ləngimədən daha sürətlə sıxlaşdırılmalı, düşmənə bir an belə aman verməməli idilər. Bu cür də etdilər. Nazdıxan yaxınlığında İsgəndərin bölüyünün topçuları düşmənin bir neçə zirehli texnikasını sıradan çıxardı. Artıq bütün cəbhə boyu hücuma keçmək vaxtı çatmışdı. Polkovnik H.Hüseynov döyüşün gedişatını əli ilə tənzimləyirmiş kimi əmrləri vaxtında və dəqiq verir, kimin hansı vaxtda və hansı səmtdən hücuma qoşulacağına ciddi nəzarət edirdi. Əsgərlərimiz Mutudərəyə girəndə kənddə düşmənin onlarca meyidi qalmışdı, xeyli texnikası sıradan çıxmışdı.

Avqustun 8-də səhər tezdən bütün qüvvələr hərəkətə gətirildi. Polkovnik Hamlet Hüseynov, general Dadaş Rzayevin əmrini komandirlərə çatdıraraq demişdi: "Bu gün Başkənd mütləq alınmalıdı. Sabah gec ola bilər". Son dərəcə qəhrəmanlıqla vuruşan Ağstafa batalyonu döyüşçülərinin Saratovka istiqamətindən Başkəndi atəşə tutması, sanki siqnal oldu. Polkovnik R.Əsədovun topçuları işğalçıların başına od yağdırdı. Bunun ardınca Şəmkir, Tovuz və Gədəbəy batalyonları hücuma keçdilər. Onlar Düz Rəsullu, Göyəbaxan və Novosaratovka istiqamətindən irəliləmək əmr verilmişdi. Başkənd çayı və qəbiristanlıq istiqamətində yerləşdirilmiş əlavə qüvvələr onlar kömək göstərməli, Başkənd tədricən mühasirəyə alınmalı idi. Cinahlardan hücumu genişləndirən polkovnik C.Rüstəmovun alayı irəli çıxdı. Bir-birinin ardınca endirilən zərbələrdən pərən-pərən düşən ermənilər qaçamağa üz qoydular. Əsgərlərimiz kəndə girən kimi düşmənin döyüşməkdə olan kiçik qruplarını təqib edib tamamilə darmadağın etdilər. Bir neçə əsgər Azərbaycanın üçrəngli bayrağını kəndin ortasındakı qülləyə sancmaq üçün irəli atıldı. "Yaşasın Azərbaycan" deyərək öndə gedən cavan oğlan düşən gülləsindən yerə yıxılanda, onun yoldaşı bu sözləri daha bərkdən təkrar edərək düşmənin üstünə atıldı. Şir kimi erməni quldurunu didməyə başladı. Sonra yaralı olmasına baxmayaraq, yoldaşlarının dalınca qaçdı. Azərbaycan bayrağı qülləyə sancılıb dalğalananda elə uğultu qopdu ki, az qala "ura" səsləri dağları yerindən tərpədəcəkdi.

Erməni quldurları Başkənddə böyük itki verdilər. Bu əməliyyat zamanı düşmənin 200-dən çox əsgəri, 4 topu, 3 tankı, 3 zenit qurğusu, bir BMP məhv

edildi. Döyüşçülərimiz 4 ədəd T-72 markalı tank, 1 BMP və bir neçə avtomaşın ələ keçirdilər.

Məğlubiyyətlə hesablaşmaq istməyən ermənilər yenidən qüvvələri qruplaşdırıb, Başkəndi geri qaytarmağa çalışırdılar. "Örükdaş", "Qara arxac", "Mormor", "Lozgi qayası", "Seyidin qəbri" kiıni mühüm strateji əhəmiyyət kəsb edən yüksəkliklərin onların əlində olması da işğalçılara yenidən hücuma keçmək imkan verirdi. Lakin hər dəfə döyüşçülərimizin güclü müqavimətinə rast gəlir və geri çəkilməyə məcbur olurdular. Beləliklə, ermənilərə 1928-ci ildə rusların əli ilə verilmiş Başkənd torpaqlarını özümüzə qaytardıq. Şınıxa əhalinin gedib-gəlmək təhlükəsi aradan qalxdı.

Avqustun 12-də ermənilər yenidən Başkəndi almağa cəhd göstərəndə daha bir mövqe itirdilər. Polkovnik Cahangir Rüstəmovun əsgərlərinin və 6 ay Başkənd aşırımını qəhrəmanlıqla müdafiə etmiş Ağstafa batalyonun döyüşçülərinin böyük şücaəti nəticəsində yuxarı aşırım ermənilərdən alındı. Burada onların bir tankı, bir buldozeri və xeyli silahı lə keçirildi."

Gədəbəydə gedən döyüşlərdə göstərdikləri igidliklərə görə polkovnik, hərbi elmlər namizədi Rafiq Əlicanov, bas leytenant Məzahir Rüstəmov, baş leytenant İsgəndər Aznaur ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldülər. Eyni zamanda, polkovnik Cahangir Rüstəmov, polkovnik Hamlet Müseynov, podpolkovnik İlham Əliyev, kapitan Dilqəm Əliyev, kapitan Rizvan Pirnəzərov, kapitan Babək Məmmədov, Göyəllidən Pünhan, Qaravəllidən Əhməd müəllim və başqaları xalq arasında böyük hörmət qazandılar.

1992-ci ilin dekabr ayında kəşfiyyatçılarımız xəbər gətirdilər ki, ermənilər Orçinikidze kəndində qoşun yığıb Azərbaycana hücuma keçmək istəyirlər. Qəflətən, bizim Milli Ordumuz hücuma keçib ermənilərin silahlı qüvvələrini darmadağın etdilər, 4 tankını, bir neçə artilleriya qurğusunu, bir PDM-ni ələ keçirdilər. Bu ağır məğlubiyyətdən sonra ermənilər İrəvanda 3 gün matəm saxladılar.

Rusiyanın 1992-1994-cü ildə İrəvanda olan səfiri V.Stupişin Azərbaycan ordusunun qələbəsinə kölgə salmaq üçün öz xatirələr kitabında yazır ki: "Başkəndi Gəncə Hava Diviziyası tutub Azərbaycana verib. "Bu yalandır. Başkənd döyüşlərinə rəhbərlik edənlərdən biri polkovnik Xaçaturov o günləri xatırlayaraq yazır ki, biz hücum edib Şınıxın kəndlərini alanda Kirovakan polkundan istifadə etdik. Oranı qoruyub saxlaya bilməyəcəyimi hiss edən kimi gecə ikən Kirovokan polkunu oradan çıxardıb ora Araqasdan olan yezidi kürdlərini yerləşdirdik. Krasnoselskidə yezidi kürdlərinin komandiri öz komandısından heç kimin qalmadığını görüb "UAZ" maşınının üstünə qalxıb tapancasını kəlləsinə sıxdı. Cənab səfiri maraqlandırmalı idi ki, ermənilər nəyə görə azsaylı xalqları ölümə göndərirlər.

Bu gün ermənilər sülh danışıqlarında Başkəndin adını hallandırırlar. Anvaq Tağlar kəndinin adını yadlarına salmırlar. Başkənd məsələsi danışıqlarda gündəliyə gəlirsə, Tağlar kəndi də gündəliyə gəlməlidir.

1994-cü ildə Bişkekdə müvəqqəti atəşkəs haqqında müqavilə bağlandı. Bu müqavilədən 16 il keçməsinə baxmayaraq, Minsk qrupunun üzvləri, Amerika, Fransa, Rusiya Azərbaycan torpaqlarının azad olunması üçün heç bir şey etməyib. Əksinə, ermənilərə köməklik ediblər ki, bu torpaqlarda daha da möhkəmlənsinlər. Belə olan bir vəziyyətdə Azərbaycan Respublikasının Baş Komandanı İlham Əliyev cənabları üçün ancaq irəli, torpaqlarımızı azad etmək əmrini vermək qalır.

Bu gün Gədəbəy müharibə şəraitində yaşayır. Buna baxmayaraq, insanlar öz dədə-baba yurdlarını qoyub harasa getmək fikrində deyillər. Onlar Göyçə tərəfə baxıb nə vaxtsa, o dağlardan yenə saz səsinin gələcəyi günü səbirsizliklə gözləyirlər.

**Nazim MƏMMƏDOV**

## AZƏRBAYCANIN ƏSGƏRAN RAYONUNUN TARİXİNƏ DAİR (1930-1991)

Azərbaycanın şəhər və rayonlarının tarixinin tədqiqi son dövrlər ciddi xarakter almışdır. Bu, hər şeydən öncə ümumilli liderimiz H.Ə.Əliyevin tövsiyyələri, göstəriş və qərarları ilə bağlıdır. 1974-cü ildə AMEA-nın aparıcı alimləri ilə görüşü zamanı H.Ə.Əliyev çox uzaqgörənliklə söyləmişdir ki, «Azərbaycanın qədim şəhərlərinin və rayonlarının tarixi öyrənilməlidir... xalq, gərək daim öz kökünü xatırlasın... tariximizin hər bir səhifəsi bizim üçün əzizdir... Tarixçilərimiz, tariximizi olduğu kimi qəbul etməli, dərk etməli, qiymətləndirilməli və obyektiv tədqiq etməlidir». Eyni zamanda, Azərbaycanın tarixi torpaqlarının Ermənistan tərəfindən işğalı, tariximizin erməni millətçiləri tərəfindən saxtalaşdırma obyektinə çevrilməsi Dağlıq Qarabağın rayon və şəhərlərin tarixini tədqiq etməyi zəruriləşdirdi. Bu baxımdan Əsgəran rayonunun tarixinin tədqiqi böyük əhəmiyyət kəsb edir.

Əsgəran, Azərbaycanın inkişaf etmiş rayonlarından biri olmuşdur. Rayonun yaranma tarixi 1930-cu ilə təsadüf edir. Beləki, Əsgəran rayonu 1930-1978-ci illərdə Xankəndi rayonu (ermənilərin Stepanakert adlandırdıqları rayon) adlandırılmışdır. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 15 may 1978-ci il qanunu ilə Xankəndi rayonun adı, Əsgəran rayonu ilə əvəzləşdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 26 noyabr 1991-ci il fərmanına görə, Əsgəran rayonu ləğv edilmiş və ərazisi Xocalı rayonunun tərkibinə verilmişdir [27].

Əsgəran rayonunun mərkəzi Əsgəran qəsəbəsi olmuşdur. Qəsəbə Xankəndindən 17 km şimal-şərqdə, Yevlax-Laçın şose yolu kənarında, Qarqar

çayının sol sahilində, Qarabağ silsiləsinin şimal-şərq ətəyində yerləşir. Yeri gəlmişkən qeyd edək ki, Əsgəran qəsəbəsində şərab-spirt və pivə zavodları, orta məktəb, kitabxana, kinoteatr, uşaq bağçası, dispanser, tibb və baytar məntəqəsi, rabitə şöbəsi, XVIII əsrə aid qala var. 1980-cı il məlumatına görə Əsgəran qəsəbəsində 783 nəfər əhali yaşayırdı[15, s.233].

Əsgəran toponimi burada yerləşən Əsgəran qalasının adından götürülmüşdür. Tədqiqatlara görə, Əsgəran toponimi qədimdən müvcud olmuşdur. Yerin adı, qədim mənbələrdən məlum olan «Əski» (köhnə, qədim) və «Aran» komponentlərindən ibarət olub «Köhnə Aran», «Qədim Aran» deməkdir. «Alban tarixi» əsərində bu yerin adı «Mets Aran» (Böyük Aran) kimi çəkilmişdir [19, s. 188].

1980-ci il (yanvar) məlumatına görə, Əsgəran rayonunun sahəsi 920 kvadrat kilometr, əhalisi 19,7 min nəfər olmuşdur. Həmin vaxt, rayonda 1 fəhlə qəsəbəsi, 53 kənd var idi. Rayonun mərkəzi Əsgəran qəsəbəsi olmuşdur. Rayonun səthi, əsasən, dağlıqdır. Ərazinin qərb sərhəddi boyu Qarabağ silsiləsi uzanır. Mil düzünə qədər alçalan şimal yamacları dərin çay dərələri ilə parçalanmış və erozion dağ qolları əmələ gəlmişdir. Əsgəran rayonu ən yüksək zirvələri Qızqala (2843 m) və Qırxqızdır (2827 m). Ərazidə Yura, Tabaşir, dağarası çökəkliklərdə və dağətəyi düzənliklərdə Antropogen çöküntüləri yayılmışdır [15, s.233].

Qarabağ ərazisi faydalı qazıntılarla olduqca zəngindir. Bölgənin Əsgəran rayonu ərazisində tikinti materialları, qil, çağıl, qum, gillicə, meşə zolaqları və şirin su ehtiyyatları var. Çox təəssüflər olsun ki, Azərbaycanın digər əraziləri kimi Əsgəran rayonu da, Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş və bütövlükdə ekoloji terrora məruz qalmışdır. Ərazidəki bütün tarixi abidələr erməni vandalları tərəfindən dağıdılmış və ya ermənilərin silah anbarına çevrilmişdir. Rayon ərazisində bitən qiymətli və nadir ağaclar qırılaraq Ermənistana daşınır, çay kənarında bitən təbii meşələr isə tamamilə məhv edilmişdir. Rayonun yol kənarında mühafizə məqsədilə əkilmiş ağaclar da, doğranmışdır.

Azərbaycanın 18-ci əsrə aid tarixi abidələrindən biri, Əsgəran qalası da, erməni silahlı birləşmələri tərəfindən dağıdılmışdır. Yeri gəlmişkən, qeyd edək ki, Əsgəran qalası, Əsgəran qəsəbəsində Qarqar çayının sağ və sol sahillərində yerləşirdi. Qala, Qarabağ xanı Pənahəli xan tərəfindən tikilmişdir. Çay daşından tikilən qala 2 istehkamdan ibarət idi [25].

Qarqar çayının sağ sahilindəki qala bürcü ikiqat daş divarlardan, sol sahildəki qala dördkünc bürclü olmuşdur. Divarlarının qalınlığı 2-3 metr olan Əsgəran qalası 1804-1813-cü illər Rusiya-İran müharibəsi zamanı Rusiya qoşunlarının düşərgəsi olmuşdur. Eyni zamanda, Əsgəran qalası Rusiya ilə İran arasında sülh danışıqlarına «şahidlik» etmişdir. Azərbaycan tarixinə «şahidlik» edən Əsgəran qalası Ermənistanın ağır artileriyasının tapdağı altında dağıdılmışdır [26. s. 16].

Azərbaycanın Respublikasının Əsgəran rayonunun relyefi kimi, iqlim şəraiti də çox müxtəlifdir. Rayonun yerləşdiyi coğrafi entik, günəş radiasiyası, mürəkkəb relyef quruluşu, müxtəlif mənşəli hava kütlələri iqlimin yaranmasında böyük rol oynayır. Rayonda havanın temperaturu çox yerdə qışı quraq keçən mülayim istidir. Yüksək dağlıqda isə soyuqdur. Havanın mütləq minimum temperaturu düzənliklərdən dağlara doğru artrr. Rayonda havanın orta temperaturu -1° dərəcədən + 1° dərəcəyədək, iyulda +22 C° +24 C° selsi dərəcə arasında dəyişir. Rayonda illik yağıntı 500-700 mm təşkil edir [2, i.162, v.22].

Bütün bunlar isə ərazidə meşələrin zənginliyinə şərait yaratmışdır. Təsadüfi deyildir ki, Əsgəran rayonunun ərazisinin təxminən 40%-i palıd və fıstıq meşələri ilə əhatə olunmuşdur və bu gün 390 kvadrat kilometrlik qiymətli ağaclar qəddarcasına doğranaraq mebel düzəltmək və tikinti materialı kimi istifadə edilmək üçün Ermənistana daşınır [1, i. 161, v.l].

Əsgəran rayonunun çayları Kür və qismən Araz hövzələrinə aiddir. Rayonun əsas çayı Qarqardır. Yeri gəlmişkən. qeyd edək ki, Qarqar çayı öz başlanğıcını Qarabağ sıra dağlarından alır. Uzunluğu 111 km., sahəsi 1,5 min kvadrat kilometr, mənbəyinin mütləq hündürlüyü 2080 metrdir. Çayın qidalanma mənbələri, 22% qar suları, 47 % yağış, 31 % isə yeraltı sular və yağıntı suları ilə ödənilir. Rayonun alçaq dağlıq və dağətəyi sahələrində çəmənlər və ksorolit kolluqlar var. Rayonun təbii şəraitinin müxtəlifliyi heyvanlar aləminin də zənginliyinə səbəb olmuşdur. Burada çoxlu nadir, nəsli kəsilməkdə olan heyvanlar yaşayırdı. Rayonun meşələrində çöl donuzu, kaftar, ayı, canavar, dovşan, çaqqal, vaşaq, meşə pişiyi, süleysin və s. heyvanlar, kəklik, göyərçin, bildirçin, sərçə və digər quşlar, müxtəlif növ sürünənlər, gəmirçilər yaşayırdı. Əsgəran rayonu ərazisində yaşayan nadir, nəsli kəsilməkdə olan heyvanlar Azərbaycan təbiətinin ən qiymətli nemətlərindən biri idi [8]. Azərbaycan dövləti, rayon ərazisində yaşayan və nəsli kəsilməkdə olan (ayı, çöl donuzu, dovşan nadir quşlar və s.) heyvanları «Qırmızı kitab»a daxil edərək qoruyurdu. Təssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı apardığı müharibə nəticəsində rayon ərazisində bitki örtüyü məhv edilmiş. atmosfer, torpaq, sular çirklənmiş və təbii ki, bütün bunların nəticəsində adı «Qırmızı kitab»a düşən heyvanların da nəsli kəsilmişdir. Əsgəran rayonunda qəhvəyi dağ-meşə, dağ-çəmən və çimli dağ-çəmən torpaqları yayılmışdır. Torpaq təbiətin güzgüsü, ən qiymətli sərvətdir. O insanlardan həmişə qayğı gözləyir. Onu qorumaq, düzgün becərmək lazımdır. Böyük şairimiz N.Gəncəvi çox gözəl demişdir: «Torpağa mərhəmət gərəkdir inan, lütf etsən gül verər, zülm etsən tikan». Təssüflər olsun ki, bu gün Azərbaycan torpaqlarının 20%-i Ermənistan tərəfindən işğal edilmiş, torpaq örtüyünün çoxu erroziyaya məruz qalmış, müxtəlif növ tullantılarla çirklənmiş, terrorçuların cəmləşdiyi, erməni hərb maşının sınaq meydanına çevrilmişdir [17].

1979-cu il məlumatına görə Əsgəran rayonunda 5069 təsərrüfatı birləşdirən 1 qəsəbə, 53 kənd var idi. Əsas yaşayış məskənləri Əsgəran qəsəbəsi, Ballıca,

Xanabad, Ağbulaq, Qarabulaq, Çanaxçı, Kosalar, Daş-bulaq və digər kəndlərdir. Əhalinin 96%-i kənddə yaşayırdı [14]. Aparılan tədqiqatlara əsasən müəyyən edilmişdir ki, XIX yüzilliyin əvvəllərində bölgədə bir nəfər də olsun erməni ailəsi yaşamadığı halda, köçürülmə hesabına XX yüzilliyin 70-ci illərində artıq ermənilər faiz etibari ilə 70%-i keçmişdilər. Rayonda əhalinin orta sıxlığı 1 kvadrat kilometrə 21 nəfər düşürdü [8]. Tədqiqatlardan məlum olur ki, Əsgəran rayonu ərazisində əhali digər rayonlarla müqayisədə daha seyrək yerləşmişdi. Belə ki, bəhs olunan dövrdə bir kvadrat kilometrə Ağdamda 93 nəfər, Fizulidə 58 nəfər, Bərdədə 85 nəfər, Zəngilanda 40 nəfər, Ağcabədidə 37 nəfər, DQMV-də 34 nəfər əhali düşmüşdü [9]. Bütün bunlar isə bütövlükdə DQMV-də. o cümlədən Əsgəran rayonunda əhalinin güzəranının yaxşılaşdırılmasına əhəmiyyətli təsir göstərmişdir.

Əsgəran, Azərbaycanın dinamik inkişaf edən sənayeyə, çox cəhətli kənd təsərrüfatına, geniş sosial struktura malik yüksək inkişaf etmiş rayonlardan biridir. Azərbaycan hökuməti rayonda sosial-iqtisadi inkişaf üçün əsaslı vəsait qoyuluşunu ilbəil artırmışdır. Təkcə bir faktı qeyd edək ki, 1970-1980-cı illər ərzində rayonda adambaşına düşən əsaslı vəsaitin həcmi təxminən 4 dəfə artmışdır. Əsgəran rayonunun sənayesi, əsasən, kənd təsərrüfatı məhsullarını emal edir. Rayonda şərab, spirt, pivə, tikinti materialları, toxuculuq, ət-süd sənayesi, məişət xidməti kombinatı müvəffəqiyyətlə inkişaf etmişdi. Təsadüfi deyildir ki, 1970-1986-cı illərdə Əsgəran sənaye istehsalının inkişaf sürətinə görə, ümum-respublika səviyyəsini təxminən 0,25 dəfə ötüb keçmişdir. Rayonda adambaşına 1,4 min manatdan çox sənaye məhsulu istehsalı olunmuş-dur ki, bu da Bakı və Sumqayıt istisna olmaqla respublikamızın bütün iqtisadi regionlarının göstəricilərindən yüksəkdir. Yeri gəlmişkən qeyd edək ki, DQMV-i ipək istehsalına görə respublikamızda ikinci quru süd istehsalına görə isə birinci mərkəz olmuşdur.

DQMV-i Azərbaycanın inkişaf etmiş kənd təsərrüfatı potensialına malik regionu olmaqla, ümumrespublika kənd təsərrüfatı məhsullarının 5%-ni istehsal edirdi. Azərbaycanın Əsgəran rayonunda aqrosənaye kompleksinin maddi-texniki bazası müntəzəm olaraq təzələnir və möhkəmləndirilirdi. Rayonda əməyin fond təchizatının səviyyəsi orta respublika göstəricilərindən 1,6 dəfə yüksəkdə dayanmışdı. Rayonda, kənd təsərrüfatının əsas aparıcı sahələri heyvandarlıq, üzümçülük və taxılçılıq əsas yer tuturdu. Burada kənd təsərrüfatma yararlı torpaqlar 46,6 hektar təşkil edirdi ki, bunun 19 min hektarı şum yeri, 3,2 min hektarı çoxillik bitkilər, 1,4 min hektarı dincə qoyulmuş torpaqlar, 23 min hektarı biçənək və otlaqlar idi. Torpaqların 3,7 min hektarı suvanlırdı. Əsgəran rayonunda, 17 min hektar əkin sahəsinin 60%-də dənli və dənli paxlalı bitkilər (əsasən buğda, arpa), 4%-ində kartof və tərəvəz-bostan bitgiləri, 36%-ində isə yem bitkiləri əkilirdi. Əsgəran rayonunda üzümlüklərin sahəsi 1965-ci ildəki 533 hektardan, 1978-ci ildə 2,3 min hektara çatdırılmışdır[15].

Azərbaycan dövləti Əsgəran rayonunda kənd təsərrüfatının inkişafına diqqəti artırmışdır. Belə ki, kənd təsərrüfatında texniki təchizat səviyyəsi

yaxşılaşmış, təsərrüfatların mexanikləşməsi sürətlənmişdi. Suvarma şəbəkəsi genişlənmiş, aqrar islahatlar həyata keçirilmiş, zərərvericilərə qarşı mübarizə artırılmış, yeni növ toxum növləri verilmişdir. Nəticədə, 1970-1980-ci illərdə rayonda kənd təsərrüfatı məhsulu istehsalı 2 dəfə artmışdı. Əsgəran rayonun təsərrüfatlarından 1978-ci ildə 17,8 min ton taxıl, 6,8 min ton üzüm yığılmış, meyvə yetişdirilmişdir. Rayonda iri heyvandarlıq kompleksləri tikilmiş, təsərrüfatlararası heyvandarlıq müəssisələri yaradılmış, yem bazası genişləndirilmişdir. 1950-ci illə müqayisədə 1970-ci illərdə heyvandarlıq təsərrüfatı 2,5 dəfə artmışdır. 1978-ci ildə rayonun təsərrüfatlarında 114,9 min baş qaramal, 4,1 min baş inək və camış, 26,8 min baş qoyun, 18,3 min donuz, 88 min quş, 3,4 min an ailəsi vardı [10]. Aparılan araşdırmalardan məlum olur ki, ümumilikdə DQMV-də, eləcədə Əsgəran rayounda kənd təsərrüfatı ilə məşğul olan əhalinin iqtisadi faydalılıq səviyyəsi bütövlükdə ümumrespublika səviyyəsini üstələmişdir. Təkcə 1970-ci il göstəricilərini nəzərdən keçirərkən, məlum olur ki, Əsgəran rayonunda kənd təsərrüfatı ilə məşğul olan kəndlinin aylıq əmək haqqı 161 manat idisə. bu göstərici Muğan-Salyan zonasında 136 manata, Lənkəran-Astara zonasında 77 manata, Gəncə-Qazax zonasında 123 manata, Naxçıvan MR-da 129 manata, Şirvan zonasında 149 manata, ümumrespublika üzrə 143 manata çatırdı [11 ]. Bəhs etdiyimiz dövrdə hər bir adambaşına günə düşən ümumi məhsul respublikamızın kolxozlarında 4,7 manat təşkil etmişdirsə, bu, Əsgəran rayonunda 5,9 manat, Naxçıvan MR-da 3,5 manat, Lənkəran-Astarada 1,9 manata çatmışdır [20].

Müharibədən sonra Əsgəran rayonunda təhsil sürətlə inkişaf etdirildi. Yeddillik, səkkizillik və orta ibtidai təhsilə keçid baş verdi. Ali təhsil şəbəkəsi genişləndirildi. Yeni təhsil ocaqları yaradıldı. Xüsusi olaraq XX yüzilliyin 70-80-cı illərində Azərbaycan üçün SSRİ-nin ali məktəblərində ən zəruri ixtisas sahələri üzrə on minlərlə kadrlar hazırlandı. Təkcə 1970-1982-ci illərdə ümummilli liderimiz H.Əliyevin böyük qayğısı sayəsində SSRİ-nin ən mühüm ali məktəblərində Azərbaycan üçün 17 mindən çox yüksək ixtisaslı mütəxəssis hazırlanmışdı.

Keçən əsrin 60-70-ci illərində Azərbaycan dövlətinin dərin qayğısı nəticəsində Əsgəran rayonunda mədəni quruculuq sahəsində böyük nəaliyyətlər əldə edildi. Artıq 80-ci illərin əvvəllərində rayonda 15 məktəbəqədər uşaq müəssisəsi, 1 ibtidai, 17 səkkizillik və 14 orta məktəb var idi ki, bu məktəblərdə 4108 şagird təhsil alırdı. Azərbaycanın digər regionlarından fərqli olaraq, Əsgəran rayonunun bütün məktəblərində birnövbəli təhsil sistemi tətbiq olunurdıı. Araşdırmalardan belə məlum olur ki, rayonun məktəbəqədər uşaq müəssisələri ilə təminatı təxminən 36% təşkil edirdi ki, bu da bütövlükdə Azərbaycan üzrə olduğundan təxminən 2 dəfə çoxdur. Eyni zamanda, 1970-1985-ci illərdə rayonda uşaqların məktəbəqədər müəssisələrə cəlb olunmasının artım sürəti ümumrespublika göstəricilərini 2 dəfədən artıq keçmişdir [22,s. 193].

Tədqiqatlardan aşkar edilir ki, Dağlıq Qarabağda təhsil idarələrinə rəhbərlik edən erməni «hakim» dairələri «Azərbaycan dilində təhsilin gələcəyinin olmayacağı» ideyasını vurğulayaraq dilimizi, ədəbiyyatımızı, tariximizi sıxışdırıb aradan çıxarırdılar. «SSRİ tarixi» adı altında Rusiyanın tarixi və cəfənd, yalançı, mövcud olmayan «Ermənistan tarixi» tədris olunur, qədim tarixə malik «Azərbaycan tarixi» isə müstəqil fənn kimi tədris edilmirdi. Eyni zamanda, azərbaycanlılar yaşayan kəndlərdə tədris müəssisələri, dərs ləvazimatları, ixtisaslı kadrlar, dərsliklər çatışmırdı. Mövcud məktəblər isə yarıtmaz vəziyyətdə olmaqla təmirə ehtiyacı var idi.

XX yüzilliyin 60-80-ci illərində Əsgəran rayonunda mədəni-maarif müəssisələrinin sayı da kifayət qədər artmışdı. Rayonda 12 mədəniyyət evi, 23 klub, 42 kitabxana, 34 kinoqurğu var idi. Bəhs olunan illərdə rayonda kütləvi kitabxanaların sayı 1,5 dəfə, kitab fondu 2 dəfə, klub müəssisələri 1,7 dəfə, kinoqurğuların sayı 3 dəfə, qəzetlərin birdəfəlik tirajı 2.3 dəfə artmışdı [22].

Faktlara, materiallara əsaslanaraq deyə bilərik ki, Əsgəran rayonunda mədəni-maarif müəssisələrinin inkişafı ümumrespublika səviyyəsini üstələmişdi. Beləki, Əsgəran rayonunda əhalinin hər 10 min nəfərinə 13 kitabxana, 15 klub, 11 kinoqurğu düşdüyü halda, ümumrespublika üzrə bu göstərici kitabxanalar üzrə 6, klub üzrə 5, kinoqurğusu üzrə 3-ə bərabər idi [23, s.94). Həmçinin Əsgəran rayonunun 300-500 əhalisinin yaşadığı bütün yaşayış məntəqələrinin 95%-dən çoxu klub müəssisələri ilə təmin olunmuşdu. Ümumrespublika üzrə isə klub müəssisələri ilə təmin edilməmiş belə yaşayış məntəqələri 40%-ə çatırdı. Təəssüflər olsun ki, Əsgəran rayonunun azərbaycanlılar yaşayan kəndlərindən heç birində klub müəssisəsi yox idi [22, s.265].

Azərbaycan dövlətinin qayğısı nəticəsində Əsgəran rayonunda əhalinin sağlamlığının qorunması işində müsbət dəyişikliklər baş vermişdi. 1960-1980-ci illərdə rayonda xəstəxanaların, ambulatoriyaların, sanitar epidemioloji stansiyaların sayı artmışdı. Bu dövrdə rayonda xəstəxanaların sayı 2-dən 5-ə, xəstəxana çarpayıların sayı 40-dan 90-a çatdı. Aparılan hesablamalara görə, Əsgəran rayonunda əhalinin hər 10 min nəfərinə düşən çarpayıların sayı ümumrespublika səviyyəsini 5 çarpayı üstələmişdi. 1985-ci ildə Əsgəran rayonunda 30 feldşer-mama məntəqəsi müəssisəsi, epidemoloji stansiya, 350 həkim və tibb işçisi fəaliyyət göstərirdi [12].

Bəhs olunan dövr ərzində Əsgəran rayonunda bütün ixtisasdan olan həkimlərin və orta tibb işçilərin sayının artımına görə, ümumrespublika səviyyəsini 2 dəfə qabaqlamışdır. Rayonda sanatoriya, istirahət müəssisəsi, idman məktəbləri də fəaliyyət göstərirdi [13].

Bu illərdə dövlətimizin maliyyə mənbələri hesabına Əsgəran rayonunda mənzil tikintisi xeyli genişlənmişdi. Təsadüfi deyildir ki, rayonun bir sakininin mənzillə təminatı 15 kvadrat metrə çatdığı halda, ümumrespublika üzrə bu göstərici 10,9 kvadrat metr idi [22, S.98J. Yaşayış məntəqələrində abadlıq işlərində

də böyük irəliləyişlər diqqəti cəlb edirdi. İqtisadiyyatı inkişaf etmiş Əsgəran rayonunun yaşayış məntəqələrinin siması çox dəyişmişdi. Rayonun kəndlərində ağ daşdan, ayrı-bəndli, müasir evlər inşa olunmuşdu. Lakin rayonun azərbaycanlılar yaşayan kəndlərinə qayğı göstərilmirdi.

Əsgəran rayonun yaşayış məntəqələrinin enerji, su və qaz yanacağı ilə təchizi yaxşılaşmışdı. Beləki, 1970-1985-ci illərdə rayonda yeni sərbəst elektrik xətti çəkilmiş, əhalinin su ilə təchizini yaxşılaşdırmaq üçün əsaslı işlər görülmüş, qazlaşdırma işi başa çatdırılmışdır. 1987-ci ildə rayonun təxminən 45,5%-i su kəməri ilə, 12%-i kanalizasiya ilə, 100%-i qazla təmin olunmuşdu. Halbuki, ümumrespublika üzrə şəhərlərdə su kəməri ilə təchizat 30,5%), kanalizasiya ilə təminat 6,4%, qazla təminat 96,2% (ümumilikdə şəhər və kəndlər birlikdə 76%) idi.

Əsgəran rayonunda televiziya verilişlərinin qəbulu və telefonlaşdırma sahəsində də mühüm işlər görülmüşdü. Artıq 80-ci illərin II yarısında rayon əhalisinin 95%-nin Respublika televiziyasının verilişlərinə baxmaq imkanı vardı. Şəhər və kəndlərin telefon şəbəkəsi xeyli inkişaf etmişdi. 1971-1987-ci illərdə rayonda rabitə vasitələrinə vəsait qoyuluşunun inkişaf surəti respublika üzrə olduğundan 2 dəfə çox olmuşdur. 1987-ci ildə adambaşına düşən rabitə məhsulunun həcmi ümumrespublika üzrə 21 manat, Əsgəran rayonunda isə 30 manat təşkil etmişdi. Həmçinin rayonda ailələrin mənzil telefonları ilə təminatı 43%, Azərbaycan üzrə 31% olmuşdur. Bütün bunlarla yanaşı şəhərlərarası telefon rabitəsinin inkişafı nəticəsində adambaşına düşən şəhərlərarası telefon danışıqlarının sayına görə Əsgəran rayonu ümumrespublika səviyyəsini 2 dəfə üstələmişdi [22, s.111]. Lakin, hələdə Əsgəran rayonunda yaşayan yüzlərlə azərbaycanlı ailə telefon növbəsinə dayanmışdı və təəssüflər olsun ki, heç bir müsbət nəticə olmadı.

1960-1980-cı illərdə Əsgəran rayonunda mühüm təsərrüfat əhəmiyyəti olan komunikasiya vasitələrinin inkişafı Azərbaycan rəhbərliyinin daim diqqət mərkəzində olmuşdur. Dövlət başçısı H.Ə.Əliyevin təşəbbüsü ilə Əsgəran rayonundan keçmək şərtilə Ağdamdan-Xankəndinə dəmir yolu xətti çəkilmiş və 1979-cu ildə istifadəyə verilmişdir. Yerli avtomobil yollarına, körpülərə lazımi diqqət yetirilirdi. Artıq 80-ci illərin sonlarında Əsgəran rayonu inkişaf etmiş nəqliyyat təsərrüfatına malik bir rayona çevrilmişdi. Araşdırmalardan məlum olur ki, Əsgəran rayonu nəqliyyat təsərrüfatı sahəsində bütün göstəricilərinə görə, ümumrespublika səviyyəsini həmişə üstələmişdir. Beləki, 1971-1985-ci illərdə Əsgəran rayonunda yüklərin daşınması həcmi təxminən 4 dəfə, ümumrespublika üzrə isə 2,7 dəfə artmışdı. Avtomobil nəqliyyatı müəssisələrinin maddi texniki bazası sürətlə möhkəmləndirilmişdi. Rayonda nəqliyyat parkları 2,4 dəfə (respublika üzrə 1,7 dəfə), marşurutların uzunluğu 8,2% (respublika üzrə 4,8%) artmışdı [23,24].

Bəhs olunan illərdə, Əsgəran rayonunda əhalinin rifahı xeyli yaxşılaşmışdı. 1986-cı ildə rayonda əhalinin adambaşına düşən pul gəlirləri təxminən 1114 manat olmuşdur ki, bu da bütövlükdə Azərbaycan üzrə olduğundan 98 manat, Naxçıvan MR-dan isə 170 manat çoxdur. Bununla yanaşı, rayonda əhalinin həyat səviyyəsinin yüksəldiyini, onların bütövlükdə artan tələbatının tam ödənilməsində də görmək olar. Rayonda ticarət dövriyyəsinin həcmi, pərakəndə ticarət müəssisələrinin və məişət xidməti emalatxanalarının miqdarı sürətlə inkişaf etmişdi. Rayonda 1987-ci ildə pərakəndə mal dövriyyəsinin həcmi 1960-cı illə müqayisədə 5 dəfə (respublika üzrə 4,6 dəfə), mal dövriyyəsinin inkişaf sürəti 3,7 dəfə (respublika üzrə 2,7 dəfə), mağazalarda hər min nəfərə düşən ticarət sahəsi 2,6 dəfə (respublika üzrə 1,9 dəfə) artmışdır. Bəhs olunan dövrdə məişət xidmətinin həcmi 17 dəfə artmışdır ki, bu da ümumrespublika səviyyəsindən 2 dəfə çox demək idi [22].

Bütün bu və ya digər real faktlar erməni millətçilərinin ortaya atdıqları sosial-iqtisadi gerilik konsepsiyasının tamamilə bəhanə olduğunu göstərir. Çox təəssüflər olsun ki, Azərbaycanın digər regionları kimi Əsgəran rayonu da Ermənistan silahlı birləşmələri tərəfindən ələ keçirildi. Bütövlükdə torpaqlarımızın 20%-i işğal edildi. Erməni vandalları torpağı viran qoymaq «taktikası»ndan istifadə edərək, işğal olunmuş ərazilərdəki evlər, müəssisələr, komunikasiya vasitələri, təbii sərvətlər talan edildi, dağıdıldı, yandırıldı. Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 5 min nəfər əlilə çevrilmiş, 4861 nəfər əsir və girov götürülmüş, l milyondan artıq həmvətənlərimiz qaçqın və köçkünə çevrilmişdi [16.18]. Lakin, biz inanırıq ki, tezliklə haqq-ədalət zəfər çalacaq, əsarət altındakı bütün torpaqlarımız azad ediləcək, qaçqın və köçkünlərimiz öz doğma yurd-yuvalarına qayıdacaqlar. Ümumilli liderimiz H.Ə.Əliyev çıxışlarından birində qeyd etmişdir: «Xalqımız daim bilməlidir ki, bizim tarixi torpaqlarımız hansılar olubdur. Hansılar nə vaxt əlimizdən gedibdir, nəyə görə əlimizdən gedibdir və şübhəsiz ki, bunlar qayıtmalıdır. Biz də qaytara bilməsək, gələcək nəsillər bunları qaytaracaqlar»!! [16, 17].

**İstifadə olunmuş mənbələr**


1. ARMDA,f.970,s.1,i.l61,v.l.
2. ARM DA, f.970, s. 1, i. 162, v.22.
3. ARMDA,f.l7,s.l,i.701,v.29.
4. ARMDA, f.2502, s.l, i.55, v.2.
5. ARMDA, f.456, s.16, i. 129, v.32.
6. ARM DA, f.27, s. J, i. 649, v. 190.
7. ARMDA,f.24,s.l,i.l37,v.l8.
8. ARMDA, f.460, s. 1, i. 11, v.45.
9. ARMDA, f.27, s. 1, i.96, v. 16.

10. ARMDA, f.420, s. 1, i.l 73, v.24.
11. ARMDA, f. 379, s.3, İ.73, v.173.
12. ARDSPİHA, f.27, s.2, İ.54, v.47.
13. ARDSPteA, f.410, s. 1, İ.70, v.96.
14. ARDSPİHA, f.420, s.l, İ.3, v.42.
15. ASE, IV cild, «Azərnəşr», Bakı, 1980,s.233.
16. «Azərbaycan» qəzeti, 5 oktyabr 2002-ci il.
17. «Azərbaycan» qəzeti, 10 may 1994,29.04.1995.
18. «Azərbaycan» qəzeti, 13 may 1995-ci il.
19. Azərbaycan toponimləri. Birinci cild. Bakı, 2007, 566 s.
20. Ələsgərov A.K., Qasımov H.A. Müasir dövrdə Azərbaycan Sovet kəndində ictimai-iqtisadi irəliləmələr. «Elm», Bakı, 1973,2399.
21. Əliyev H.Ə. Azərbaycan XXI əsr və üçüncü minilliyin astanasında. Bakı. 2001,55 s.
22. Məmmədov N.R. Azərbaycan SSR-in DQMV-də siyasi vəziyyət, iqtisadi və medəni inkişaf, Bakı, 2008,584 s.
23. Азербайджан в цифрах (кр ст. сбор). «АГИ». Баку, 1964,291 с.
24. Достижения Нагорного Карабаха в девятой пятилетке Ханкенди. 1976, 150 с.
25. Ибрагимбайли Х.М. Россия и Азербайджан в первой трети ХЫХ века. Москва, 1969,116 с.
26. Похомов Е.А. Аскеран. «Известия», 1926, №2,67 с.
27. http.525 ci.com.

**Rafiq SƏFƏROV**

## К ВОПРОСУ ОБ ИСТОРИЧЕСКОЙ ГЕОГРАФИИ ЗАНГЕЗУРА

Современное административно-территориальное понятие Зангезур в тех географических пределах, которые нам известны из столь недалекой истории русского Закавказья, появилось в конце первой трети XIX в. В ту пору шел начальный процесс установления русской административно-политической системы в регионе, вследствие чего в составе Карабагской провинции был создан Зангезурский участок, охватывавший все земли между Зангезурским и Карабагским хребтами и реками Араксом и нижним течением Хакяри.

Географический рельеф Зангезурской провинции имеет в наличии горные хребты, тянущиеся в разных направлениях. Это рельефное разнообразие придает местности резко пересеченный характер, благодаря чему он делится на несколько определенных районов. Один из районов расположен в верхней долине реки Хакяри. Другой район охватывает

верхнюю долину реки Базарчая / Воротана. И, наконец, последний район находится между Баргюшадским хребтом и рекой Араксом. Эта географическая особенность определяла в средние века различную политико-административную принадлежность указанных частей Зангезура.

Ландшафтные особенности региона отразились на исторической географии Зангезура. Он расположен в восточной части территории древней области Сюник, в состав которой входил на протяжении периода вплоть до распада этой области. Исторически Сюник, являясь одной из областей Кавказской Албании, включал кроме указанной автором территории Зангезура ещё и земли вокруг озера Гёйчи (Севан) и далее к югу до Аракса. В состав Зангезура входила значительная часть исторического Сюника, который, согласно нашим исследованиям, состоял из 4 следующих провинций Албании: Зангезура, Нахчывана, Иревана и Гёйчи .

В раннесредневековом источнике «Армянская география VII в.» приводится список 12 округов / махалов области Сюник. Тот же перечень махалов приводит албанский писатель Степаннос Орбелян из Сюника[2]. Согласно этим источникам Зангезур охватывает полностью 7 из названных махалов Сюника

Во второй половине VII в, Зангезур вместе с Албанским государством был завоеван арабами. В эпоху ослабления власти Арабского халифата на территории Албании образуются азербайджано-мусульманские государства. Так, в IX в. возникает Двинский эмират, охватывавший всю территорию албанской области Сюник вместе с ее восточной окраиной — Зангезуром. Со времени Мухаммеда б. Абу-с-Саджа Двином владели эмиры из фамилий Саджидов, Саларидов (дей-лемитов), Шеддади/юв и других правителей Азербайджана . В 1022 г. Шеддадиды захватили Двинский эмират, оставаясь его правителями до 1130 г. Сельджукиды, основавшие мощное государство, сохранили власть Шеддадидов над Зангезуром. В 1130 г. Двин был взят эмиром Ьитлиса Куртом . По поручению сельджукского султана Шамсаддин Ильдениз в 1146-1147 гг. к своему владению в Арране присоединил северную половину Азербайджана и Двинский эмират в составе На-хчывана, Двина и Зангезура[6]. В административном отношении Двин с Зангезуром до прихода монголов находились в составе Аррана и Азербайджана , которые в политическом отношении являлись частью Иракского султаната, а затем государства Ильденизидов.

При монгольской административно-политической системе Зангезур оставался в составе Нахчыванского тюмена Азербайджанскою вилае-та . Такая же политико-административная принадлежность Зангезура сохранялась в XV в. во времена правления азербайджанских династий Каракоюнлу, Аккоюнлу и первых Сефевидов.

В позднее средневековье в процессе распада Сюника большая часть Зангезура оказалась в составе Калананата и Нахчывана. Новые провинции входили в состав области Азербайджан. Капанат охватывал южную половину Зангезура до Баргушадского хребта. Сисъян принадлежал Нахчывану. И только махалы Зангезур (Горис) и Кашатаг (Лачин) являлись частью Карабагской области.

В период оккупации Азербайджана в результате войны 1578-1590 гг. османы внесли значительные административно-территориальные изменения в состав областей и провинций. Нахчыванская провинция вместе с махалом Сисъян и капанатскими махалами Баргюшад и Урут была передана из Азербайджанского вилаета в состав Чухурсаада[9]. Скорее, Урут представлял собой вакуфный мюльк (монастырское поместье) Татевского монастьфя. Из Сисъянского махала бьша выщелена небольшая Базарчайская нахия. Остальные азербайджанские владения на левобережье Аракса - Капанат и махал Зангезур, вместе с чухурса-адскими провинциями Баязид и Апашкерт были выделены в отдельную Баязидскую ливу[10]. В Карабагском эялете находились махалы Кештасф и Хакяри[11].

После возвращения утраченных земель шах Аббас упразднил всеадминистративные изменения, осуществленные османами. Так, Нахчыван, Капанат и Баргюшад опять числились в Азербайджанском вилаето[1"]. Упомянутый выше Базарчай слился с Сисъяном. Но уже в 30-х годах XVII в. Нахчыван вместе с махалом Сисъян был окончательно передан в подчинении Чухурсаадского бейлербея. С тех пор зангезурекие земли согласно административно-территориальному делению Азербайджанского государства в XVII-XVIII вв. находились в составе трех вилаетов: Чухурсаада, Карабага и Азербайджана.

Согласно второй османской переписи 1724-1727 гг. в захваченных землях Азербайджана часть зангезурских земель, Сисъян и Мегри, числилась в Чухурсааде. В состав Карабагского эялета кроме Баргю-шада входили махалы (нахия) Хакяри, Кештасф, Чуландар и часть Кештака[ь]. Шах Надир, спасший Азербайджанское государство, отделил от карабагскот бейлербея пятерых карабагских меликов и занге-зурского мелика с двумя махалами Баргюшад и Зангезур, подчинив их азербайджанскому генерал-губернатору . После убийства шаха Надира в 1747 г. и распада страны на ханства азербайджанские владения на левобережье Аракса (Капанат) поделили между собой тебризский и карадагский ханы. Первому достались Капан, Зангезур и, надо полагать, Баргюшад, а второму — махалы Мегри, Гюней и, по-видимому, Чулдур.

В период ханской междоусобицы основатель Карабагского ханства Панахали хан Джаваншир в 50-х годах XVIII в. отнял и присоединил к себе Мегри и Гюней Карадагской провинции, Татев и Сисъян Нахчы-ванской,

Зангезур и Капан Тебризской провинции[1] . Теперь, как и не-сколько веков назад, весь Зангезур был объоединен в одной административной единице.

Присоединенное к России в 1805 г., Карабагское ханство позже было ликвидировано и включено в состав Военного округа Мусульманских провинций. Кавказские ханства Азербайджана русские преобразовали в провинции, но сохранили прежнее деление на махалы. В начале 30-х годов XIX в. новая власть образовала в Карабагской провинции крупный Зангезурский махал, объединивший в себе девять мин-башеств (бывших махалов), расположенных в бассейне рек Хакяри и Барпошада вплоть до Зангезурского хребта. Среди них бывшие махалы Сисъян, Татев, Зангезур, Карачорлу, Пюсьян, Баргюшад, Капан, Мегри-Гюней и Чавундур / Чулдур.

Утвержденная Николаем I от 10 апреля 1840 г. новая административная реформа к 1 января 1841 г. была повсеместно введена в действие. В составе Карабагского уезда Каспийской области бывший Зангезурский махал был разделен на два участка: Зангезурский и Мегрин-ский. По новому административно-территориальному делению 1846 г. Карабагский уезд был переименован в Шушинский, а Каспийская область в Шамахинскую губернию. В связи с образованием Иреванской губернии переданная ей южная половина Зангезура под названием Мегринского участка (бывшая провинция Капанат с махалами Капан, Мегригюней, Чулдур и Пюсьян) с 1850 по 1867 гг. находилась в составе Ордубадского уезда данной губернии.

Претворение в жизнь указа о создании в 1868 г. Елисаветпольской губернии сопровождалось образованием уездов. В том же году из состава Шушинского уезда был выделен Зангезурский уезд с возвращением ему Мегринского участка из Иреванской губернии. В дальнейшем Зангезурский уезд был разделен на участки и в таком виде просуществовал до советизации сараны. Таким образом, как в историко-географическом и политическом отношении, так и по этническому составу населения, Зангезур составлял исконную часть Кавказской Албании, а затем Азербайджана.

Большевистский переворот 1917 г. в России привел к развалу империи и образованию в Закавказье трёх национальных государств. Появление нового политического образования под названием Армения на азербайджанских землях стало возможным благодаря проводимой Россией политике выселения мусульман и переселения армян. В результате армянской колонизации Х1Х-начала XX в. в пределах азербайджанской области Чухурсаад / Иреванской губернии была создана небольшая, но довольно компактная армянская этническая территория, послужившая очагом образования Армянского государства. На момент провозглашения независимости Армения охватывала территорию в 11-13 тыс. кв. км, т. е. территорию тех районов, которые с севера и запада прилегали к Иревану и бассейну Гёйчинского озера .

Не довольствуясь этим, армяне проводили захватническую политику, применяя испытанный мегод «обармянивания» земель путем этнических чисток районов, населенных азербайджанцами-мусульманами. Эти преступления совершали не только банды головорезов, но, что примечательно, правительственные войска[17]. Политика геноцида со стороны армян подтверждается фактами, приводимыми в исследовании армянского автора Б.А. Боряна: «Армянские политические деятели установили государственную власть не с целью управления страной, а для истребления мусульманского населения и захвата его имущества. В армянском правительстве даже существовала должность министра по погромным делам» (!!!) . Сам факт существования такого министерства свидетельствует о наличии на государе!венном уровне целенаправленной профаммы по истреблению мусульман. Политика искоренения азербайджанцев проводилась не только в Армении, но и в Зангезуре и других соседних провинциях[1] .

Другим неопровержимым свидетельством армянской политики этнических чисток является перепись населения Армении в 1919 г., выявившая огромную потери среди азербайджанцев и курдов, еще в 1918 Г. насчитывавшие 290 тыс. чел. После более чем годичной политики по уничтожению и изгнанию численность мусульман уменьшилась на 232.000 чел. или на 80 % и составила всего лишь 58.500 чел[20].

В статистических материалах переписи зримо просматривается политика этнических чисток, в которой при поддержке западных держав — вначале Англии, затем США, имеющих в регионе собственные интересы, армянские вооруженные формирования раз за разом устраивали кровавую бойню в азербайджанских селах, убивали детей, стариков и женщин ради территориальных притязаний. Армяне, выступавшие с территориальными претензиями и воплощавшие их с «мастерством» кровожадных убийц, очищали район за районом, как видно, с годами «аппетит» дашнакского правительства не уменьшился, а только возрос. Материалы переписи явно свидетельствуют, что в западной половине Зангезура азербайджанское население было полностью уничтожено или изгнано. Все три года своего правления армянское правительство занималось этническими чистками районов проживания мусульман.

Вмешательство в политический процесс на Кавказе сильных Соседей - России и Турции, вернуло Армению в прежние границы. За время советизации Азербайджана большевистская XI армия из России и азербайджанские воинские части выбили дашнакские банды из Зангезура и заняли Нахчыван¯ . Освобождение Зангезура, наконец то, позволило Нахчывану воссоединиться с Азербайджаном.

Упрочение русских позиций на Кавказе требовало неотложного решения территориальных споров закавказских республик. Московские представители занялись определением межреспубликанских границ. Россия, приложившая большие усилия к созданию из армян надежного оплота на Кавказе, конечно же, шла им на уступки за счет азербайджанских земель. В результате давления Москвы на Азербайджанское правительство в 1921 г. Армении передали западную половину Зангезура. Эти азербайджанские земли были старательно очищены армянами от азербайджанского элемента для создания чисто армянских территорий, из которых и сложилось армянское государство.

Таким образом, пограничную линию провели сугубо по новой этнической границе, т. е. Армения была создана именно в этнических пределах тех земель, которые дашнаки успели очистить от азербайджанцев и обармянить их.

В результате такой политики после определения армяно-азербайджанской фаницы в 1921 г. только восточная часть Зангезур-ского уезда осталась за Азербайджаном и была переименована в Ку-батлинский уезд. В переданной армянам части региона были образованы Зангезурский и Мегринский уезды. В дальнейшем в процессе районирования страны азербайджанская часть уезда была разделена на Зангеланский, Кубатлинский и Лачинский районы. В армянской же части были образованы Мегринский, Кафанский, Горисский и Сисъян-ский районы.

Однако предел армянским притязаниям на территории соседних стран так и не наступил, ибо это противоречило армянской политике строительства «Великой Армении». Очередной этап армянской агрессии против Азербайджана начался в 1988 г., когда Армения затеяла Нагорно-Карабагский конфликт с целью отторжения от Азербайджана его исконных земель в Карабаге, Зангезуре, Нахчыване и других регионах. С развалом Советского Союза конфликт перерос в стадию армянской военной агрессии, в результате чего в 1992-1993 гг. Армения захватила значительную часть территории Азербайджана, в том числе и три района азербайджанской части Зангезура.

**Примечания**

1. Сафаров, Рафик Ф. Изменение этнического состава населения Иреванской губернии в XIX-XX веках: (этнодемографическое и этногеографическое
исследование). Баку, 2009. С. 33-39.

2. Армянская География VII века по Р. Х. (Приписывавшаяся Моисею Хоренскому) / Перевод с присовокуплением карт и объяснительных примеча

ний издал К.П. Патканов. СПБ., 1877. С. 48; Stephannos Orbelian. Histoire de la Siounie. Chap. II, LXXIV.
3. Vəlixanlı N.X əsrin ikinci yarısı-XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha «Naxçıvanşahlıq» haqqında // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 2001. № 3. S. 120-129.
4. Minorsky V.F. Studies in Caucasian history. L., 1953. P. 6-8,15-16, 50-52.
5. Тер-Гевондян А. К вопросу о возникновении Двинского эмирата в Ар мении / Исследования по истории культуры народов Востока. Сборник в честь
академика И. А. Орбели. М.; Л., 1960. С. 133-139.
6. Буниятов 3. М. Государство атабеков Азербайджана (1136-1225 годы). Баку, 1978. С. 172-173. О политической принадлежности Сюника и Нахчывана
к Албании и Азербайджану см.: Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании (Ш в. до н. э.-VITI в. н. э.). Баку, 1986. С. 108-115.
7. Буниятов 3. М. Указ. соч. С. 53-60,99,152-153.
8. Ализаде А. А. Социально-экономическая и политическая история Азербайджана XIU-XTV вв. Баку, 1956. С. 60
9. Kırzıoğlu, Fahretin M. Osmanlıların Kafkas Ellerini fethi (1451-1590). Ankara, 1993. S. 375. Также см.: İrəvan əyalətinin icmal dəftəri / Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllimləri Z. Büniyatov və H. Məmmədov (Qaramanlı). Bakı, 1996. S. 8-9.
10. Kırzıoğlu, Fahrettin M. Op. cit. S. 319.
11. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri / On söz, tərcümə, qeyd və şərhlərin müəllifi H. Məmmədov (Qaramanlı). Bakı: Şuşa, 2000. S. 5.
12. Петрушевский И. П. Очерки по истории феодальных отногаений в Азербайджане и Армении в XVI-начале XIX вв. Л., 1949. С. 132-133.
13. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. S. 6; Naxçıvan sancağının müfəssəl dəftəri / Giriş və tərcümənin müəllifləri Z. Büniyatov və H. Məmmədov (Qaramanlı). Bakı, 1997. S. 7,216.
14. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку, 1965. С. 102-103.
15. Бакиханов А. Гюлистан-и Ирам / Редакция, коммент., прим. и указ. З.М. Буниятова. Баку, 1991. С. 155.
16. Хармандарян С. В. Армянская ССР в первый год новой экономиче ской политики (1921-1922). Ереван, 1955. С. 32.
17. К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. 1918-1925: Документы и материалы / Под ред. Д. П. Гулиева. Баку, 1989. С. 246-256, 257-258 .
18. Борян Б. А. Армения, международная дипломатия и СССР. М.; Л.,

1928. Т. II. С. 81,82,195.
19. Истории Азербайджана по документам и публикациям / Под ред. 3. М. Буниятова. Баку, 1990. С. 209 -213, 246-256; Гаджиев А. Из истории обра зования и падения Юго-Западной Кавказской (Карсской) республики. Баку, 1992. С. 19-23.
20. Коркотян 3. Население Советской Армении за последние сто лет (1831-1931). Эривань, 1932. С. XLVT-XLV1I (на арм. яз.).
Интернациональная помощь XI Армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы (1920-1921 гг.). Баку, 1989. № 104. С. 115-116; Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bögələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996.

**Rizvan QARABAĞLI**

## PERSOPOLDAN QAFQAZADƏK

Hələ b.e. əvvəl ki, dövrlərdə dünyanın mədəni irsinə dəyərli sənət əsərləri bəxş etmiş Roma, Yunan və Misir memarlığı bu gün də sənətsevərləri heyran edir və düşündürür.... Bu ölkələrin insanı heyran edən belə sənət əsərlərinə tamaşa etdikcə istər-istəməz Azərbaycanın da həmin dövrə məxsus tarix və mədəniyyəti xatırlanır və xatırlandıqca meydana sual çıxır: Əcaba məgər biz belə memarlıq tarixinə malik olmamışıqmı? Axı bizim də bu dövrlərdə Manna, Midiya və Əhəməni kimi geniş ərazilərə malik dövlətlərimiz olmuşdur. Ola bilməz ki, qonşu dövlətlərin sivilizasiyası və onlara məxsus ınədəni memarlıq irsi insanı heyran edəcək dərəcədə inkişaf etsin, ancaq qədim Azərbaycan memarlığı sükunətdə qalsın. Əlbəttə bu belə deyil! Çünki, ən azından Əhəmənilər dövrünə məxsus Persopol şəhəri yarımçıq da olsa zəmanəmizə qədər gəlib çatmışdır. "Gözəl memarlığın xarabalığı da gözəl olur"- deyiblər. Bu gün bu şəhərin xarabalıqlarında müşahidə edilən möhtəşəm daş sütunlar, iri aşırımlı arxitiraf örtüklər, əzəmətli heykəllər və nəhayət ümumilikdə həmahəng memarlıq ansambılı müasir sənətsevərləri hələ də heyrətdə qoyur. Ancaq bu şəhərə tamaşa etdikcə qarşıya digər suallar çıxır: Sərhəd hüdudları Qafqazadək uzanan imperiyanın belə gözəl şəhəri yalnız Persopol olmuşdurmu? Bəs onun digər belə əzəmətli səhərləri harada olub? Bütün bu suallara cavab tapmaq üçün qədim şəhərlərin sorağı ilə Qafqazda aparılmış arxeoloji qazıntılar üzərində araşdırma və tədqiqatlar aparmağı məqsədə müvafiq hesab etdik. Bu baxımdan Azərbaycan arxeoloqlarının (İdeal Nərimanov) 1958-ci ildə Qazax rayonunun "Sarıtəpə" deyilən ərazisindən tapdıqları iki ədəd daş sütunaltlıqları (baza) müstəsna əhəmiyyətə malikdir. Hələ o dövrlərdə Moskva alimləri də Azərbaycan arxeoloqlarının yazdıqlarını təsdiqləyərək həmin sütunaltdıqlarının məhz Əhəməni

dövr (e.ə.550-330 cu illər) memarlığına aid olduğunu təsdiq etmişlər. Hazırda həmin sütunaltdıqları Azərbaycan Milli Tarix Muzeyində saxlanılır.

Üzəri palma yarpaqlarına bənzər ornamentlə ritmik şəkildə bəzədilmiş sütunaltlıqları Persopldakılar kimi konusvaridir. Beləki, sütunaltdıqlarının oturacaq diametri 0,84m., hündürlüyü 0,53m. və yuxarı diametri 0,53m bərabərdir. (Arxeoloqların verdiyi məlumata görə belə ölçülərə malik sütunaltlıqları qədim Midiyada, Həmədanda da tapılmışdır.)

Tapıldığı ərazidə ("Sarıtəpə"də) sütunaltlıqlarının ara məsafələri 2,5 metrə çatırmış. Onları qalınlığı l,3m. olan divarlar dövrələyirmiş. Uzunluğu 70m., eni isə 20.5 metrə çatan həmin divarlar müxtəlif ölçülü arakəsmələrə bölünərək tamamilə çiy kərpiclə inşa olunmuşdur. Sütunaltlıqları yerləşən zaldan digər qonşu zallara çoxsaylı qapıların açılması göstərir ki, bura sarayın girişi-propleyasıdır. Ancaq ümumi ərazidən aşkar edilmiş şəhər mühitinə aid çox saylı maddi -mədəniyyət nümunələri və eləcə də müxtəlif təyinatlı tikinti qalıqları bir daha təsdiq edir ki, "Sarıtəpə"ərazisində vaxtı ilə Persopol kimi mötəşəm və gözəl bir şəhər olmuşdur. Lakin Persopoldan fərqli olaraq bu şəhərin inşasında daşla birgə çiy kərpicdən də (0,36m.x0,36m.x0,12m, və 0,36m.x0,18mx0,12-0,14m) istifadə edilmişdir. Görünür şəhərin tamamilə dağılma səbəblərindən biri də elə bu olmuşdur. Maraqlıdır, görəsən Qafqazda digər belə şəhər mövcud olmuşdurmu? Olubsa o, Qafqazın hansı tərəfində ola bilərdi? Bütün bu və ya digər suallara cavab tapmaq üçün 2000-ci ildə Azərbaycan arxeoloqları ( prof. İ. Babayev və elmi işci C. Eminli) Gürcüstan ( prof. U. Qoqoşidze və rəssam T. Turkiaşvili) və Almaniya arxeoloqları ( F. Knauss, G. Mehnert, D. Vicke, N. Lüdvik, U. Sens) ilə birgə Qafqazda geniş miqyaslı qazıntı işlərinə başladılar. Bu qazıntı işləri 2007-ci ilədək davam etdi. Nəticədə həm Gürcüstanın "Gümbati" adlanan ərazisindən, həm də Azərbaycanın Şəmkir rayonuna məxsus Qaracəmirli kəndi yaxınhğından qədim şəhərlərin xarabalıqlan aşkar olundu. Maraqlıdır ki, hər iki şəhər xarabalığından Persopol və "Sarıtəpə"dəki sütunaltlıqlarına bənzər xeyli sayda sütunaltlıqları aşkar edilmişdir. Həmin sütunaltlıqları həm konusvari həndəsi biçimi, həm üzərindəki oyma naxışları, həm də ölçüləri (aşağı diametri 0,88m., yuxarı diametri 0,73-74m., hündürlüyü 0,30-35m.) ilə o qədər yaxınlıq təşkil edirdi ki, sanki onların hamısı bir memar tərəfindən hazırlanmışdır. Bütün bunlarla yanaşı həmin şəhərlərdəki iri həcmli bina qalıqları, həmçinin onların çiy kərpiclə ( 0,32m. x0,32m .x 0,12m. və ya 0,35m. x0,35m. x 0,12m.) hörülmüş enli (1,15m. və ya 1,17m.) divarları arasında da bir oxşarlıq var.

Göründüyü kimi Qafqaz şəhərlərini Persopoldan fərqləndirən ən başlıca amil burada daşla birgə çiy kərpicdən də istifadə edilməsi olmuşdur. Ancaq buna baxmayaraq həm Persopol həm də Qafqaz şəhərlərinin inşasına tətbiq edilmiş daş üzərindəki oyma naxışlar, hələ Əhəməni imperiyasında ölkənin şimalı ilə cənubu arasındakı memalıq ilişgilərinin çox sıx olmasını göstərir.

Yuxarıdakı araşdırmalardan belə nəticəyə gəlmək olar ki, Roma, Yunan, Misir və s. əcnəbi ölkələrin heyranedici memarlığı heç də tək deyil, onlarla paralel olaraq qədim Azərbaycan memarlığı da sənətkarlıq baxımından yüksək səviyyəli memarlıq irsinə malik olmuşdur. Azərbaycan memarlıq tarixinin araşdırmaları göstərir ki, Əhəməni dövründən sonrakı çağların (Sasani, Səlcuq və s.) memarlığı da öz inkişafını layiqincə davam etdirmişdir. Lakin, əcnəbi ölkələrin memarlığına nisbətən Azərbaycanın qədim memarlıq irsinin zəmanəmizə qədər gəlib çatmamasının ən başlıca səbəbi dəhşətli-dağıdıcı müharibələr olmuşdur. Təəssüf ki, bu gün də belədir. Bunun bariz nümunəsi dağıdılmış Qarabağ memarlığı timsalında özünü qabarıq şəkildə göstərir.

**Salidə ŞƏRİFOVA**

## AQİL ABBASIN «DOLU» ROMANINDA SÜJET XƏTTİNİN ÖZƏLLİKLƏRİ VƏ ONUN OBRAZLARIN TƏSVİRİNƏ TƏSİRİ

Aqil Abbas «Dolu» romanında özünəməxsus şəkildə dövrün ən gərgin və ziddiyyətli problemləri, həyatda baş verən sosial və ideoloji dəyişiklikləri işıqlandırın. Bununla belə romanın fabulasını Qarabağın işğalı və bununla əlaqəli hadisələr təşkil edir. Bu baxımdan da əsərdə hadisələrin dolu ilə başlanması və qurtarması süjet xəttinin quruluşunun daxili qanunauyğunluqlarından irəli gəlir: «...Gecə yarıdan bir az keçmişdi. Çox bürküydü və belə bir bürküyə adət eləməmiş şəhər bərk tıncıxırdı. Bir yarpaq belə qımıldamırdı. Ancaq meh yarada bilən çinarlar da çırpınıb-çırpınıb süst düşmüşdülər. Qəflətən bu buludsuz, bu aydın, bürküdən ulduzları da yorulub day sayrışmayan göylər necə şaqqıldadı və şəhəri dolu necə vurdusa, şəhər dik atıldı...»

«Qarabağ romanı» janrında qələmə alınmış romanlarda düşmən tərəfindən hücumun faşistlər kimi gecəyarısı həyata keçirildiyi əks olunur. Aqil Abbasın bu romanında da düşmən tərəfindən hücum, yəni «dolu» yağdırılması gecə yarısı baş verir: «Dolu şəhəri qəfil it kimi həmişə gecədən bir az keçmiş, yuxunun ən şirin yerində tuturdu. Gecənin qaranlığından, dolunun insanların beynini bir dolu kimi döyüb ruhunu əzən şaqqıltısından çaşmış adamlar fırtınanın sahilə atdığı balıqlara oxşayırdılar». Romanda müharibənin ağrı-acıları, törətmiş olduğu dəhşətlər açıqlanaraq oxucuya çatdırılır. Müəllifin bu məqamda istifadə etmiş olduğu özünəməxsusluq maraq doğurur: «...Bu yiyəsiz dövlətin bu yiyəsiz övladları önü düşmən, arxası isə heç nəyə söykənməyən səngərin içində silahlarını əzizləri kimi bağırlarana basıb ürəkləri qan ağlaya-ağlaya şəhərə yağan doluya ağrı ilə tamaşa edirdilər».

Əsərin başlanğıcında yağan doludan fərqli olaraq əsərin sonundakı dolu rəmzi məna daşıyır. Təbiət hadisəsi vasitəsilə müəllif əsərdəki hadisələri nəticələndirir - «dolu» Qarabağ olaylarını sonunlaşdırmalıdı - erməni

təcavüzkarları həmin dolu vasitəsilə məhv olurlar: «... Qəflətən minlərlə at ağız-ağıza verib necə kişnədisə və göylər necə şaqqıldadısa çöllər diksindi, ağaclar diksindi, çaylar diksindi, dağlar diksindi. Şimşəklər göy üzünü parça-parça elədilər. Və göy üzündən də yuxarıdan necə bir dolu başladısa... camaat dik atıldı və sevinclə özünü atdı bayıra...». Sanki təbiətin hadisəsi olan dolunun yağması vasitəsi ilə ermənilərin ayağı altında tapdalanmış torpaqlarımız yuyulur, təmizlənir, saflaşır.

Əsərdə obrazların təsviri süjet xəttinin özəlliklərindən irəli gəlir. İlk növbədə əsas qəhrəmanlar Qarabağ münaqişəsinin iştirakçılarıdırlar. Məsələn, erməni yaraqlıları ilə döyüşlərin birində qəhrəmanlıqla şəhid olmuş Pələng adlı oğlan və yaxud da Drakon ləqəbli döyüşçü. Drakon qəhrəmancasına şəhid olanda ruhunun ölmüş anasının qucağına girməsi və ananın öz balasını layla ilə əzizləməsinin təsviri Vətən uğrunda şəhid olmuş soydaşımızın Vətan (Ana burada Vətəni əks etdirir - Ana-Vətən obrazı) tərəfindən daxilinə qəbul etməsini əks etdirir. Drakon Vətənin tərkibinə, onun tarixinə çevrilir.

Pələngə Rəşid Behbudov kimi tarixi şəxsiyyət tərəfindən xalqımızın kişilik və qürur rəmzi olan papaq və xəncərin hədiyyə edilməsi epizoduna xüsusi diqqət yetirmək lazımdı. Azərbaycan xalqının mədəniyyətində əvəzsiz xidmətləri olan Rəşid Behbudovun vasitəsilə müəllif hadisələrin tarixilik amilinə toxunur. Həmçinin dahi sənətkarın Qarabağ hadisələrinin başlanğıcındakı tarixi xidmətlərinin də xalqın yaddaşından çıxmadığını vurğulayır. Əsərdə dahi sənətkar tərəfindən bağışlanmış hədiyyənin əsərin sonunda yoxa çıxması, yəni heç kəsə təqdim edilməməsi rəmzi xarakter daşıyır. Bu hələ də torpağı işğal altında qalmış xalqın milli mənəviyyatına, qüruruna bir işarədi. Yazıçının əsər boyu obrazları açıqlayarkən vurğuladığı bir amil də diqqəti cəlb edir: torpağı işğal altında olan, qadınları, qocaları, uşaqları əsirlikdə olan millətin kişisi başına papaq qoya, belinə xəncər bağlaya bilməz. Mülətin buna mənəvi haqqı çatmadığı yazıçı tərəfindən sənətkarlıqla göstərilir.

Romanda digər tarixi şəxslərin adlarının çəkilməsi də əsərin süjet xəttinin açıqlanması üçün zəruri amil kimi çıxış edir: «...Eldar Bağırovu günün-günorta çağı Bakıda güllələmişdilər. Qatır Məmmədi həbsxanada öldürmüşdülər, Allahverdi Bağırovu qumbaraatanla vurmuşdular. Şirin Mirzəyevi minaya salmışdılar, General Dəli Ərşadı "Qrad"la parçalamışdılar...» Bütün bunlar əsərin bədii vaxtının tarixi vaxtla əlaqələndirilməsi üçün istifadə olunur. Tarixi paralellər həm də Böyük Vətən Müharibəsi ilə aparılmışdır. Bu da təbiidir, «Dolu» romanında müharibə mövzusu aparıcı rol oynayır. Müəllif tərəfindən əsərdə tarixin unudulmasına cəhd də açıqlanmışdır. Böyük vətən müharibəsində ölümlə üz-üzə gəlmiş, o vaxt onlar üçün vətən hesab edilən «SSRİ»-ni qorumaq üçün canlarını qurban verməyə hazır olan insanların xidmətlərinə kölgə salınmasına cəhd əsərdə qabardılaraq oxucuya təqdim edilir: «Böyük Vətən Müharibəsi iştirakçıları yardım gələndə elə bilirdilər bayramdı, xeyir-şər kostyumlarını geyir, bütün orden-

medallarını da sinələrinə taxıb gəlirdilər. Amma sonra yuxarıdan tapşırıq gəldi ki, yaxşı deyil, almanlar gələndə orden-medalları taxıb çıxmasınlar.

Kişilərin sizə ürəyi yanır, durub o boyda yol gəlirlər ki, sizi ac qoymasınlar. Siz də Almaniyanı darmadağın edən o Qələbə medallarını taxıb fors edirsiniz».

Bu epizodla yazıçı 1941 -1945-ci illərə, bu dövrdə baş vermiş Böyük Vətən Müharibəsində şəhid olmuş azərbaycanlıların bəzən unudulmasına diqqəti cəlb edir, onların ruhlarına olan hörmətsizlik problemini qaldırır. Böyük Vətən və Qarabağ müharibələrində şəhid olmuş soydaşlarımızın unudulmamasına çağırış eşidilir.

Bununla belə Aqil Abbas əsərin bədii vaxtını təkcə tarixlə yox, həm də real vaxtla əlaqələndirmişdir. Bu məqsədlə bədii priyomlardan istifadə edilmişdir. İlk növbədə müəllif əsərdəki hadisələrdə Qarabağ olaylarında baş vermiş zorakılığı əks etdirir, «Dünyanın Ən Varlı Şəhərinin» timsalında Qarabağ faciəsinin ağır nəticələrini göstərir: «Bu şəhərdə hər şey adiləşmişdi. Hətta ölüm də. Ölüm bir olardı, beş olardı, yüz olardı... Məsciddə tabul düzəltməyə taxta çatmırdı. Çoxdanıydı dəm-dəsgahlı - bəh-bəli, Dünyanın ən varlı şəhərinin yas mərasimləri də dəm - dəzgahlı keçirilirdi - yas mərasimləri də yox idi. Ölənləri məsciddə yuduzdurub, bəzən heç yuduzdurmaq da mümkün olmurdu, elə paltarlı - paltarlı kəfənləyirdilər, ordan birbaşa aparırdılar şəhid qəbirstanlıqlarından birinə, dəfn eləyib qayıdırdılar. Nə üç verilirdi, nə yeddi, nə qırx - bircə günlük qurulmuş mağarda bir stəkan çay içib ölü sahibinə, ölənin silah dostlarına başsağlığı verib dağılırdılar. Nə ehsan verməyə vaxt vardı, nə də mağarda oturub mollaya qulaq asmağa. Çox vaxt heç molla da çatışmırdı. Bu şəhər də məhvərindən çıxmış dünya kimi öz məhvərindən çıxmışdı.»

Müharibənin nəticələri həm də əsirlik və qaçqınlıq həyatının təsviri ilə işıqlandırılır. Əsir düşmüş insanlara qarşı törədilmiş qeyri-insani hərəkətlər yazıçı tərəfindən açıqlanır. Əsərdə əsir alınmış erməni qızına qarşı azərbaycanlı döyüşçüsünün humanist hərəkəti milli mentalitetdən doğan dəyər kimi qiymətləndirilməlidir. Romanda Azərbaycan döyüşçüsünün humanist əməlini başa düşməyən digər azərbaycanlı döyüşçülərin dialoqlarında erməni yaraqlılarının əsir düşmüş soydaşlarımıza qarşı mənfur əməlləri və onların bir millət kimi daxili aləmləri də oxucuya çatdırılır. Cəmiyyət üzvlərinin mənəvi dünyasını xarakterizə edən mentalitet sosial amillənin təsiri ilə davranış stereotipləri sisteminə çevrilmə kimi qəbul edilir. Mentalitet anlayışını bir fərdin düşüncəsi və davranışı ilə əlaqələndirmək düzgün deyil. Lakin romanda bir obraz daxilində və ya obrazın dili vaitəsilə milli mentalitet qabarıq şəkildə özünü göstərir. Bu amilin əsir düşmüş erməni qızından qisas almağı mənliyinə sığışdırmayan və bu səbəbdən özünü söyən döyüşçünün dili ilə verilməsi məqamı diqqətdən yayınmır. Əsir düşmüş «axçiyə» - erməni qızına qarşı əxlaqsızlıq edə bilməməsi üçün özünü qınayır. Azərbaycanlı döyüşçünün keçirdiyi iztirablar real şəkildə əsərdə əksini tapmışdır: «dəxli yox idi ki, bəlkə də günün birində bu qız onu vuracaqdı, amma indi onun

qarşısında sabah onu vuracaq bir düşmən görmürdü. Tanrının yaratdığı və ondan imdad diləyən bir varlığı görürdü. Bəlkə də uşaqlar bu qızı güllələsəydilər fərqinə varmazdı, amma zorlanmasını qəbul edə bilməmişdi. Və qızcığazı kolluğa basmaq istəyən uşaqları saxlamışdı:

- Dəyməyin!

Araya mübahisə düşmüşdü.

Bəs onlar bizimkiləri zorlaya bilər?!

Biz erməni deyilik!»

Axşam erməni qızını buraxdığına görə danlananda isə verdiyi cavabla gözümüz önündə qeyrətli, mərd azərbaycanlı kişinin obrazını yaradır: «Komandir, mən arvad davası eləmirəm, torpaq davası eliyirəm».

Aqil Abbas öz yurd-yuvalarından məcburi qaçqın düşmüş insanlara yardım faktına toxunur. Köməksiz bir insana yardımın nə qədər xeyirxah bir əməl olduğunu bilsək də, Aqil müəllim bu yardım edilmə prosesin qaranlıq məqamlarına, onun ikrahdoğurucu amillərinə işıq salır. Yardım məsələsini işıqlı və qaranlıq tərəfi ilə oxucuya çatdırmağa müvəffəq olur: «Katibin ən zəhləsi gedən şey vardısa elə bu yardımlar idi. Yardım gələndə az qala havalanırdı. Bir də görürdün qabaqlarına birincinin Hollivudun kino ulduzlarına oxşayan, qırmızı qalstuklu şəkli vurulmuş dörd-beş maşın zurna-qavalla girdi hər küçədə bir sütül oğlanın yası olan şəhərə gəlib dayanırdılar Lenin meydanında. Yardım gətirənlər Leninin çoxdan yuyulmadığından kir-pas basmış heykəlinin altında bir-iki nitq irad edib, birincini o ki var öyür, salamım da camaata çatdırandan sonra yardımpaylama mərasimi başlanırdı - undan, kartof-soğandan, yemiş-qarpızdan. Ermənilərin yandırdığı kəndlərdən qaçıb bu şəhərə pənah gətirənlər, artıq Dünyanın Ən Varlı Şəhərindən ən kasıb şəhərinə çevrilməkdə olan bu şəhərin öz imkansızları tökülürdü meydana. Bir mərəkə qopurdu, insanlar insanlıqlarını itirirdilər. Lap yaxın günlərədək mal-mülk sahibi olmuş adamlar bir kisə unun üstə yumruq davasına çıxırdı. Dünənədək adi bir söyüşə görə adam öldürülən şəhərdə söyüşün biri bir qəpik, nə ağsaqqala baxan olurdu, nə arvad-uşağa».

Əsərdə «...insanların bu qədər alçaldılmasına və alçalmasına dözə» bilməyən katibin «camaatı dilənçi kökünə salmısınız, indi də qarpız paylamaqla öyünürsünüz. Bu camaata qarpız lazım deyil, bu camaata patron lazımdı, avtomat lazımdı, arvad-uşağı qorusun» deməsi də yazıçını yardımların bu cür səviyyəsiz və insanların mənəviyyatını alçaldıcı şəkildə paylanmasına olan etirazı kimi dəyərləndirilməlidir.

Qarabağ münaqişəsi əsərin yeganə mövzusunu təşkil etmir. Ədib sosial sistemdəki naqisliklərə də xüsusi diqqət yetirir. Biz bunu «Cinayət Məcəlləsinin zorlamadan və Vətənə xəyanətdən başqa az qala bütün maddələriylə...» və «...hətta dövlət əmlakını mənimsəməkdə də» ittiham edilən komandirin istintaq prosesi zamanı şahidi oluruq:

İstintaq zamanı bu ittihamla bağlı müstəntiqə demişdi:

- Rəis, mən kolxoz sədri olmuşam, raypo müdiri işləmişəm?! Mənim əlimdə hansı dövlət əmlakı olub ki, mənimsəyim?

Müstəntiq:

- Komandir, mən də bilirəm ki, heç bir dövlət əmlakı mənimsəməmisən. Amma neyləyim, mən balaca adamam. Özün komandir olmusan. Sən döyüsçülərinə əmr edirdin ki, gedin ölümə, onlar da gedirdi?! Gedirdi! Mən də əmrə tabeyəm. Nə əmr eləyirlər, onu da yerinə yetirməliyəm. Ya da gəlib səninlə bir kamerada oturmalıyam. İndi rəva bilərsən ki, bir sürü uşağımı qoyub gəlim bura?»

Cəmiyyətdə baş verən naqislikləri öz əsərində qabartmış Aqil Abbas, Vətənin azadhğı və bütövlüyü uğrunda mübarizə aparmış insanlarm qəhrəmanhqlarınm bəzən düzgün qiymətləndirilmədiyi, yəni onlarm fədakarhqlarma qiymət verilmədiyi amilini də əsərində sənətkarlıqla göstərməyə nail olmuşdur: «...Mən könüllü batalyon yaradıb quldurluq etməmişəm, baş kəsməmişəm, ev yarmamışam. Bu torpağı qorumuşam. Başımızın üstündəki o bayrağı qorumuşam. Məni güllələnmə ilə qorxutmaq olmaz. Ölmək doğulduğun torpağı düşmən tapdağı altında görməkdən min dəfə şərəflidi. Allah hansı günahıma görəsə bu şərəfi də mənə çox gördü. Mən həqiqətən güllələnməyə layiqəm. Amma prokurorun irəli sürdüyü ittihamlarla yox. Məni güllələmək lazımdı. Vaxtında bu torpağı satanları o polkovnik kimi güllələmədiyimə görə. Məni güllələmək lazımdı! Bu torpağı qoruya bilmədiyimə görə».

Əsərdə Stalin represiyasının ağrı - acıları da epizodik şəkildə təsviri ilə maraq doğurur. Məsələn, Stalin represiyasının qurbanına çevrilmiş Ayna Sultanovanın taleyinin bu məqamına işıq salınması fikrimizə əyani sübutdur: «Ayna Sultanovanın saçlarını dibdən qırxmışdılar, sir-sifətində bir sağ-islahat yox idi, əlləri stulun arxasında bağlanmışdı, ayaqları da stulun qıçlarına. O qədər əzab vermişdilər ki, artıq heç bir ağrını hiss etmirdi, bütün yaddaşını itirmişdi, özünün kimliyini də unutmuşdu. Qarşısında onun kimi işgəncələrə məruz qalan, onun kimi stula bağlanan adamın da əri Həmid Sultanov olduğunu bilmirdi».

Əsərdə Sovet ittifaqı zamanı aparılan siyasətə də qısaca da olsa real qiymət verilir. Azərbaycandan keçmiş SSRİ-nin başqa respublikalarına göndərilmiş oğlanların hərbi xidmətlərindəki qüsurlar məhz sovet hakimiyyətinin apardığı siyasət kimi dəyərləndirilməlidir: «...Əsgərlikdə olanlar da vardı ki, iki ildə heç avtomat da görməmişdilər. Ya tikinti batalyonunda qulluq eləmişdilər, ya da özlərini vermişdilər yeməkxanaya, anbara. Ya da generalların bağlarını qorumağa...» Bu vəziyyətə düşməyimizlə yanaşı könüllü rüşvət vermə amili də yazıçı tərəfindən sarkazmla qarşılanaraq oxucuya çatdırılır: «Və belə yerlərə, general qızları ilə kef eləmək üçün general bağlarına düşməyin xatirinə də yalvara-yalvara ruslara nə qədər rüşvət verirdilər. Və heç bilmirdilər ki, pul verməsələr də bizimkilərin yeri elə tikinti batalyonudu. yeməkxanadı, çayxanadı. Lap pulluları da uzağı general bağlarına göndərilirdi, general qızları ilə kef eləməyə yox, general

qızlarına nökərçilik eləməyə. Ölmüşdü rus, bizimkiləri aparıb raket qurğuları öyrədəydi, təyyarə, tank sürməyi, top atmağı öyrədəydi. Hələ fəxr də eləyirdik ki, Hacı Zeynalabdin Tağıyev çara hər il külli miqdarda pul verirmiş ki, bizimkiləri əsgər aparmasın, guya aparacaqmış».

Bu cür əsgəri xidmət keçmiş oğlanlara, yəni «bığlı kişilərə» yazıçı münasibəti maraq doğurur. Ümumiyyətlə, əsərdə müəllif sarkazmı çox güclüdür. Ədib həmin sarkazmlardan istifadə etməklə, əsərə xələl gətirmir, əksinə, aşkarlamaq istədiyi kimi oxucuya qabarıq şəkildə çatdırır. «...Hamısı da qayıdandan sonra gopa basırdı ki, generalın qızıyla gəzirdi, amma indiyədək əsgərlikdən bir general qızı, heç mayor qızı da alıb gətirən olmamışdı. Alıb gətirdikləri qızların ataları ya elektrik idi, ya sürücü, çox qudurca ticarətçi qızı. Bir də əsgərlikdən gələnlərin hamısı bığlı olardı. Bununla fors eləyirdilər ki, komandir nə qədər elədi bığımı qırxdıra bilmədi:

-Dedim, komandir, biz azərbaycanlılar kişiyik ey! Kişinin də bığı olar.

Bığsız komandirlər kişi deyildilər, amma bığsız komandirlərin bağında qulluq eləyən, axşamlar itlərini gəzməyə çıxaran bığlı bizimkilər kişiydilər».

Aqil Abbas «Dolu» əsərində şifahi xalq ədəbiyyatına geniş şəkildə müraciət edir. Bu da əsərin dilindəki xəlqiliyin əlamətlərindən biri hesab edilə bilər. Əsərdə atalar sözlərinin məhz hadisələrlə əlaqəli şəkildə işlənilməsi maraq doğurur: «altda qalanın canı çıxsın», «qul xətasız, ağa kərəmsiz olmaz», «Koroğlu deyib igidlik ondu, doqquzu qaçmaqdır» və s. Əsərdə atalar sözünün tarixi şəxsiyyətlərdən biri olmuş Mütəllibovun dili ilə verilməsi məqamı diqqətdən yayınmır. Belə ki, atalar sözü vasitəsilə o dövrkü siyasi mühit oxucunun gözündə canlandırılır:

-Yoldaş Mütəllibov, O heç kimi saymır. Həftə səkkiz - mən doqquz Naxçıvandadı. Öz camaatı çörək tapmır, Naxçıvana un göndərir.

Birinci:

-Arı pətəyinə çöp uzatmayın. Onsuz da o şəhər qaynayır, daşsa çətin olacaq. Qoyun hələ işləsin. Sonra bir şey fikirləşərik...»

«Dolu» əsərində xalq məsəllərindən istifadə də diqqətdən yayınmır. «Bir nəfərə deyirlər Əzrayıl bala paylayır, o da deyir balama dəyməsin, onun balası mənə lazım deyil. Şükür elə ki, əlimizdəkini almayıblar» fikri ilə əsərdə bir sıra bağlı məqamlara, siyasi olaylara toxunulur.

Bütün bu deyilənləri nəzərə alaraq sonda qeyd etmək istərdim ki. romanda diqqəti cəlb edən obrazlardan biri məcazi mənada işlədilmiş «dolu»dur. Tarixi gerçəkliyə maksimum sadiq qalmağa cəhd etmiş Aqil Abbasın «Dolu» əsərinin adı (dolu) rəmzi obraz kimi göstərilmişdir. Müəllifin istifadə etmiş olduğu rəmzi obrazın əsərin başlığına çıxarılması diqqəti ilk növbədə cəlb edir. Həqiqi dolunun ziyanverici olması ilə yanaşı, həm də xeyir-bərəkət, su ilə əlaqəli olması xalq təfəkküründən və onun zəngin mənəvi irsindən qaynaqlanırsa, müəllifin təsvir etmiş olduğu «dolu» cinayət törədir, millətin məhvinə səbəb olur, milli soyqırım əməliyyatını həyata keçirir. Bu, yazıçı təxəyyülündən doğan bir obraz kimi

dəyərləndirilməlidir. Aqil Abbas əsərdəki süjet və obrazlara öz yaradıcılıq prizmasından yanaşmış, müasir həyatda baş verən olaylara öz təfəkkür və təxəyyül dairəsində bədii don geyindirmişdir.

Bununla yanaşı, əsərdəki hadisələrin publisistik üslubda qələmə alınması faktının üstündən keçmək olmaz. Bu da bədii nəsr nümunəsinə xələl gətirəcək amil kimi dəyərləndirilməlidir. Müharibə mövzusu aparıcı olan bu romanda süjet xəltinin haçalanması, yəni kompozisiyanın bir neçə fərqli hadisələr üzərində qurulması əsərə xələl gətirmir, əksinə, ona bir əlvanlıq verir, romanı daha da oxunaqlı edir.

**Salidə ŞƏRİFOVA**

## SIZILTILI QƏLBİN HAYQIRIĞI

Müasir Azərbaycan ədəbiyyatında Qarabağ mövzusuna xüsusi diqqət yetirilir. Belə ki, son onilliklər ərzində milli ədəbiyyatımızda yaradılmış əsərlərin mühüm bir hissəsi bu mövzuya həsr olunmuşdur. Ədəbiyyat ictimai şüuru özündə əks etdirir. Bu baxımdan da, milli ədəbi proseslər ictimai prosesin bədii inikası kimi qiymətləndirilə bilər. Təbii ki, milli ədəbiyyatımızda baş verən proseslər Azərbaycanın ictimai-siyasi mühitinin əsas amillərindən kənarda qala bilməz. Bu baxımdan, Mehman Göytəpəlinin «Mən insan payızıyam» şeirlər toplusu xüsusi maraq doğurur.

İlk növbədə qeyd etmək lazımdır ki, şeirlər toplusuna cəmləşdirilmiş bədii əsərlər bir neçə mövzuya aid edilsə də, kitab Qarabağ mövzusuna həsr olunmuş şeirləri ilə diqqəti xüsusi cəlb edir.

Oxucu etiraz edə bilər: «Qarabağa dair xeyli poetik və nəsr əsərləri yaradılmışdır. Yeni kitaba nə ehtiyac?». Lakin bu yanlış mövqedi. Mehman Göytəpəlinin şeirlər toplusunun dəyəri ondan ibarətdir ki, o azərbaycanlılar arasında bu gün cərəyan edən fikir və duyğuları özündə cəmləşdirmişdir. İlk növbədə bunu, Qarabağın uzun müddət düşmən əsarətində olmasına dair soydaşlarımızın qəzəbini əks etdirilməsinə aid etmək olar. «On bir ildi...» adlı şeirdə Azərbaycan xalqının torpaq itkisi ilə barışmayacağı əks etdirilir:

On bir ildi o dağların qismətinə çən düşüb
On bir ildi ümid verib önə çox «ərən» düşüb,
On bir ildi millətimiz elindən pərən düşüb,
Ocaq üstə, yanar qalan, üstü unlu sacmı var-
Qarabağın yollarından göz yığmayan bacım var.

Mehman Göytəpəlinin lirikasının bir vacib cəhəti var. Əgər bir sıra şairlərin Qarabağa aid lirik əsərlərində əsarət altında olan torpaqlarımızın əsasən, güc vasitəsilə geri qaytarılması aparıcı ideoloji çağırış kimi çıxış edirsə. «Mən insan payızıyam» toplusunda bu mövzuda qələmə alınmış şeirlərdə bu ideoloji çağırışla

yanaşı, torpaqların itirilməsinə səbəb olan amillər ətrafında düşünmək çağırışı da səsləndirilmişdir. «Kimlər sökdü ilməsini bu yurdun?» şeirinə diqqət yetirək. Bu əsərdə şair cavablandırılmamış sual səsləndirir. Bu sualı Mehman Göytəpəli özünə və millətinə yönəldir. Maraqlıdır ki, sualın cavabından asılı olmayaraq, şair torpaqların düşmənə verilməsində hər bir azərbaycanlının məsuliyyət daşıdığını qeyd edir:

Kimlər sökdü ilməsini bu yurdun,
Gör neçə kənd, şəhər «salıb» itirdik,
Güllü yamacları qoyub düşmənə,
Nə qədər dağ vardı, yığıb gətirdik.

Şairin fikrincə, bu mənəvi yük hələ ki, onun və soydaşlarımızın çiyinlərindədir. Mehman Göytəpəli bədii metaforadan istifadə edərək, özünü zənci ilə müqayisə edir. «Sən qarasan, mən qara?...» şeirində qara rəng simvolik xarakter daşıyır. Bu rəng kədər və həsrəti əks etdirir, həm də soydaşlarımızın Vətən qarşısında sonadək borcunu yerinə yetirməməsinin, yəni ki, Vətən qarşısında vicdanın saf olmadığının əlamətidir. Qeyd etmək lazımdır ki, ağ rəng milli şüurmuzda məhz təmizliyin və saflığın simvoludur. «Sən qarasan, mən qara? ...» şeirində şair bu sətirləri qələmə almışdır:

Qoy söyləyim «nədə»nin,
Öldürür həsrət məni,
Qarabağım gedəni,
Ruhum çəkilib dara-
Zənci qardaş, bax görək,
Sən qarasan, mən qara?

Bu məsuliyyət yalnız torpağın itirilməsi məsuliyyəti deyil, bu həm də, azəri uşaq və qadınlarının qorunmasının təmin edilməməsi məsuliyyətidir. «Sus, Yerin də qulağı var» şeirində ana -bacılarımızın məhv olmalarını, onlara yardım edə bilməməyimizi səbəbindən şair bizləri ittiham edir:

Yağış kimi, dolu kimi
Hər tərəfə yağdı güllə.
Neçə körpə, qız-gəlinlər
Tapdalandı tanklar ilə.

Mehman Göytəpəlinin fikrincə bizi bu «qaranlıq»dan ölüm də xilas etmir. «Mən öləndən sonra» adlı şeirdə öləndən sonra da, hər bir soydaşımızın Qarabağın qara taleyindən qurtara bilməyəcəyi, bu dərddən azad olmayacağı qeyd edilir:

Qarabağ dərdi dərdim bil, a qardaş,
Hünərin var gəl, bu dərdi sil, a qardaş.
Torpaq yerinə verdilər ancaq dil, a qardaş,
Bilirəm çox deyəcəklər evi bərbad,
Mən öləndən sonra.

On beş ildən artıq davam edən Qarabağ münaqişəsinin həllinə dair danışıqlar zamanı çox planlar və prinsiplər meydana atılmışdır. O cümlədən də, torpaqların mübadiləsinə dair fikirlər də əcnəbilər tərəfindən səsləndirilmişdir. Mehman Göytəpəli buna da öz mövqeyini bildirmişdir:

Bu dağ o dağlara bənzəməz, bala,
Hər dağın yüz belə öz dağları var.
O dağlar bu dağa bənzəməz, bala,
Hər dağın dağ boyda göz dağları var.

Bu kəlmələrlə Mehman Göytəpəli Ana Vətənin müqəddəs olduğunu açıqlamış, Vətənin hər qarışının kiməsə verilməsinə (dəyişdirilməsinə) qarşı etirazını səsləndirmişdir. Bu etiraz qisas çağırışı ilə əlaqələndirilmişdir. Bu baxımdan, Mehman Göytəpəlinin əsərləri Qarabağ mövzusunda qələmə alınmış digər əsərləri ilə oxşardır. «Sabah qisas günüdür» şeirində şair millətimizi ulu Vətənin azadlığı naminə qan tökməyə hazır olmasına çağırır:

Bir gün gecə yarısı
Qələbələr peşində
Bir hücum gedişində
Əcəl vermədi aman,
Dağ qeyrətli qəhrəman
Bir namərd gülləsiylə
Öz ömrünü bitirdi
Azərbaycan torpağı
Qarabağ diyarında
Ölməz igidləriylə
Qanlı səhifələr yazan
Bir oğlunu itirdi. Bu şeir parçasında Mehman Göytəpəli soydaşlarımızın düşmənə Vətən torpağının tapdalanmasına imkan verməsinə görə borcun yalnız qanla yuyula biləcəyinə işarə edir. Bu baxımdan, «Mən insan payızıyam» şeirlər toplusunu Vətən qarşısında vicdanımızın «qaranlıqdan» təmizlənməsinə çağıran kəlmə kimi qiymətləndirmək olar. Şeirlər toplusunun adında «payız» sözünün istifadəsi təsadüfi deyil. Payız özündə yetkinliyi, kamilliyi əks etdirir. Bu isə insan üçün artıq düşünülmüş və dəfələrlə biçilmiş addımların dövrüdü.

Mehman Göytəpəli yetkin soydaşımız kimi Qarabağın taleyinə görə daşıdığı məsuliyyəti bədii şəkildə oxucuya çatdırmışdır. Qarabağ mövzusunda bir çox sənətkarlarımızın yazıb-yaratmasına baxmayaraq, Mehman Göytəpəlinin bu mövzuda özünəməxsus şəkildə qələmə alınmış şeirləri onun vətəndaş və şair kimi özünün təsdiqidir.

**Sevda SULEYMANOVA**

# 1905-1906-CI İLLƏRDƏ QARABAĞDA ERMƏNİ TƏCAVÜZKARLIĞI

Uzun müddət sovet tarixşünaslığında bu qanlı tarixi hadisələrin üzərindən sükutla keçilsə də, dövlət müstəqilliyimizi bərpa etdiyimiz son iyirmi ilə yaxın müddətdə həmin faciəli tariximizə dəfələrlə müraciət olunmuşdur. Lakin erməni "alimlərinin" usanmadan öz tarixini təhrif, bizimkini isə saxtalaşdırması, böhtan və qarayaxmalara bürümək cəhdləri bizi yenidən tarixi faktlara müraciət etmək məcburiyyətində qoyur.

1905-1906-cı illərdə bütün Qafqazı bürüyən erməni-Azərbaycanlı münaqişəsinin tarixini obyektiv surətdə öyrənmək üçün istər o dövrün mətbuat səhifələrində gedən yazılar, istərsə də çar hökumətinin Polis Departamentinin gizli məlumatları, yəni arxiv sənədləri, kifayət edir. Doğrudur, onların arasında qeyri-obyektiv, birtərəfli qaydada erməni mövqeyindən yazılanları da az deyildir. Bu cəhətdən M.S.Ordubadinin "Qanlı illər", M.M.Nəvvabın "1905-1906-ci illərdə erməni - müsəlman davası" xüsusilə Qarabağda baş vermiş qanlı erməni vəhşiliklərinə şahidlik edən tarixi faktlarla zəngin çox qiymətli əsərlərdir. Osmanlı imperiyasında rus səfiri olmuş V.F.Mayevskinin "Qafqazda erməni - tatar qarşıdurması erməni məsələsinin bir fazası kimi" əsəri də bu qəbildəndir.

C.Zeynaloğlu da bu münaqişənin başlanmasının səbəbi kimi rus-yapon müharibəsində məğlub olub birinci Rusiya inqilabına məruz qalan çar hökumətinin "Parçala, hökm et" siyasətini göstərərək yazır: "...Qafqazda da ermənilər qiyam edərək, öz kəlisa və vəqflərinin idarələrini ələ aldılar. Hətta ötədən bəri Osmanlı dövləti əleyhinə hərəkət etmək üçün Rusiya tərəfindən təchiz və himayə edilən daşnak firqəsi bu fürsəti qaçırmayaraq, Rusiyadan ayrılmağa və müstəqil bir Ermənistan dövləti vücuda gətirməyə təşəbbüs eylədi [4,s.l07]:

Arxiv sənədlərinin də göstərdiyi kimi yalnız azərbaycanlılar hələ qəflət yuxusundan ayılmayıb çar hökumətinin tərəfini saxlayırdılar. Sonuncu isə bundan öz xeyrinə istifadə edərək "Peterburqdan xüsusi surətdə yüz otuz xəfiyyə məmuru göndərərək, türklər ilə ermənilər arasında icra etdiyi propaqanda ilə ... iki milləti biri digərinə qırdırdı"[4,s.l07].

Yusif Akçuraoğlunun Əhməd bəy Ağaoğlunun tərcümeyi-halından bəhs etdiyi məqaləsinə istinad edən M.B.Məmmədzadə bu qanlı münaqişənin səbəbini ermənilərin "Türklər arasında... intibah əlamətlərini" [1, s.39] qısqanclıqla qarşılamasında görürdü. Digər bir səbəb isə erməni-qriqoryan kilsəsinin varidatının müsadirə olunması haqqında 12 iyun 1903-cü il tarixli çar fərmanının Rusiyanın hər yerində erməni terrorunun baş alıb getməsi ilə nəticələnməsi idi. Yüksək rütbəli çar məmurları və zabitləri "Daşnaksütyun"un qurbanına çevrildilər. Onların törətdikləri vəhşiliklər çar hökumətini vahiməyə gətirmişdi. Dəhşətə gələn general-

qubernator knyaz Qriqori Qolitsin belə bir fikrə gəlmişdi: "Mən Qafqazda cəmi iki erməni saxlayardım - biri kişi cinsindən, digəri isə qadın. Onlardan müqəvva düzəldib Qafqaz muzeyinə qoyardım ki, gələcək nəsillər vaxtilə Qafqazda yaşamış ermənilərin necə bir xalq olduğunu başa düşsünlər [7].

Buna görə də çar hökuməti erməni terrorunu dinc azərbaycanlı əhaliyə yönəltmək qərarına gəldi və ilk mərhələdə öz istəyinə nail oldu. M.S.Ordubadi münaqişənin başlanması ilə əlaqədar öz fikrini belə ifadə edir: "...Süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış iğtişaş bombası partladı və bütün Qafqaz aləmi bu bombanın təsir şiddətindən yanıb yaxıldı..." [2, s.13]

Ermənilərin Bakıda başladığı qanlı hadisələr tezliklə Şuşa, Zəngəzur, Cavanşir, İrəvan, Naxçıvan, Ordubad, Üç müəzzin, Tiflis, Yelizavetpol, Cavanşir və Qazax qəzalarına da yayıldı. Azərbaycanlılara qarşı törədilən faciənin kuliminasiya nöqtəsi Qarabağ oldu. Şuşa, Cəbrayıl, Zəngəzur və Karyagin qəzalarında ermənilər yerli əhalini xüsusi vəhşiliklə doğma ata-baba yurdundan qovaraq, Ağdam-Əsgəran yolunu kəsib azərbaycanlıları öz evlərinə qayıtmağa qoymurdular.

Arxiv materiallarında Şuşada azərbaycanlıların ermənilər tərəfindən amansızcasına qırılmasının 1905-ci il iyulun 12-də başladığı göstərilir. Şuşalıların Ağdamdan Nazirlər Şurasının sədri P.A.Stolipinə göndərdikləri 16 iyul tarixli teleqramda baş verən hadisələr haqqında məlumat verilərək kazak yüzlüyünün komandiri erməni Qazarovun general-qubernator Qolosapovun azərbaycanlılar yaşayan hissəni gülləboran etməsindən ruhlanıb onları ucdantutma qırdığını bildirdi. Nəticədə minlərlə azərbaycanlı qətlə yetirilmiş, sağ qalanlar isə Şuşanı tərk etməyə məcbur olmuşlar. İyulun 18-də Yevlaxdan hökumətə göndərilən digər teleqramda isə 1905-ci ilin avqust münaqişəsindən sonra Şuşada müvəqqəti erməni hökuməti yaradan qatı millətçi Baqaturov, Sahnazarov və b.-nın Əsgəran qalasından gedən yolu bağlayıb Şuşanı mühasirə vəziyyətində saxladıqları göstərilirdi [3, s.297].

Azərbaycanlıların Şuşada vəhşicəsinə gülləboran edilməsindən hiddətlənən görkəmli ictimai-siyasi xadimlərdən M.B.Şahtaxtinski, F.Nemanzadə, H.Həsənzadə, X.Hüseynov, M.B.Mirheydərzadə, İ.Hüseynov və b. hələ may ayında Tiflisdən Peterburqa, baş nazirə vurduqları teleqramda cəllad Qolosapovun dərhal Şuşadan geri çağrılmasını xahiş edirdilər.

1905-ci ilin fevralından 1906-cı ilin payızınadək davam edən milli münaqişə zamanı 10 min nəfər həlak olmuş, 7 şəhər və 252 kəndin 15 min ailəsi talan edilmişdi [6, s.229]. Milli qırğının tezliklə dayandırılması məqsədilə hər iki xalqın qabaqcıl nümayəndələri barışdırıcı komissiyalar yaratmışdılar. Xalqa müraciətnamələr tərtib etmək üçün yaradılmış redaksiya heyətinə Ə.Ağayev, Yengibarov, Zaxaryan, M.H.Hacinski və Bıkov daxil oldular. Komissiyaların təşkilat bürosuna isə Ə.Topçubaşov. K.Səfərəliyev. Ter-Mikaeyan, knyaz Gelovani, A.Ayvazov və b. seçildilər.

Komissiyanın Yelizavetpol komitəsinin «Bakı» qəzetində dərc olunmuş intibahnaməsində hər iki xalqa müraciətlə deyilirdi ki, tarixi köklər onları bir-birinə bağlayır və onlar Qafqaz kimi gözəl diyarın onların ümumi Vətəni olduğunu başa düşməlidirlər. Lakin bu komissiyaların fəaliyyəti milli münaqişə alovunu söndürə bilmədi.

Hadisələrin başlandığı gündən bir il ərzində nəinki hər iki xalqa, həmçinin bütövlükdə Rusiyanın iqtisadiyyatına vurduğu zərər və Azərbaycan xalqının milli-azadlıq hərəkatının genişlənməsində oynadığı rol hakim dairələri münaqişəyə son vermək məcburiyyəti qarşısında qoydu. 1906-cı il fevralın 20-dən martın 6-dək Tiflisdə Qafqaz canişini qraf Vorontsov-Daşkovun iştirakı ilə erməni-müsəlman sülh məclisi keçirildi. M.S.Ordubadi bu barədə yazırdı: «Məclisin məramı Qafqaz müsəlmanlarını qan dəryasından çıxarıb müharibə və hadisələrin baş verməsi səbəblərini təftiş edib, sonra hər iki millətin dərd və vəziyyətinə baxıb çarə axtarmağa və bir daha belə hadisələrə yol verməmək üçün hökuməti bir sıra lazımlı tədbirlər görməyə vadar etməkdir» [2, s.105].

Məclisdə iştirak edən Azərbaycanın görkəmli ictimai-siyasi xadimləri-Ə.Topçubaşov, A.Ziyadxanov, Ə.Ağayev və b. münaqişənin dayandırılması üçün vacib şərtin erməni-millətçi: "Daşnaksütyün" partiyasının terrorçu fəaliyyətinə son verilməsi zərurətinin olduğunu bildirdilər. Əhməd bəy Ağayev bu partiyanın fəaliyyətinin hökumət tərəfindən dayandırılmayacağı halda onun da adekvat tədbirlər görmək məcburiyyəti qarşısında qalacağını bəyan etdi.

Həqiqətən də Qafqazda sülh erməni terrorunun dayandırılmasından asılı idi. Lakin iki həftədən artıq davam edən Tiflis qurultayı erməni təcavüzünün qarşısını ala bilmədi. Əksinə, 1906-cı ilin yayında Şuşada azərbaycanlıların kütləvi şəkildə qırılması geniş miqyas aldı. Məhz bu hadisələr Ə.Ağayevi 1906-cı ilin avqust ayında Şuşaya gəlib nüfuzlu adamları başma toplayaraq "Difai" adlı mübariz bir partiya yaratmağa məcbur etdi. O, doktor Ə.K.Mehmandarov və b. çıxışlannda bildirdilər ki, "müsəlmanlar indiyə qədər rus hökumətinə sədaqətli idilər. Əvəzində isə general Qolosapov erməni xumbalan ilə birləşərək tatarların şahzadələrinin evlərini, saray məscidlərini dağıtdı, minlərlə müsəlman aclığa düçar oldu". [3, s.298].

Partiyanın buraxdığı müraciətnamələrdə onun məqsəd və vəzifələri geniş surətdə şərh olunur. Müraciətnamələrdən birində deyilir: "Hökumət adamları qorxaqcasına "Daşnaksütyun"un bomba və güllələri qarşısında boyun çəkərək onların Qafqazda alətinə çevrilmişdir... Qolosapov, Kleşşinskiy, Mitskeviç, Smoradski və b. yaramazların rəhbərliyi ilə Zəngəzur, Şuşa, Cəbrayıl və Cavad qəzaları darmadağın edilmiş, faktiki olaraq ermənilərin əlinə keçmişdir. Külə dönmüş ocaqlarından didərgin düşmüş minlərlə müsəlman kəndli ailəsi heç yerdə özünə nə sığınacaq, nə müdafiə, nə yemək, nə də ki ev tapmayaraq Yelizavetpol quberniyasında səfil sərgərdana dönüblər. Bunun müqabilində isə özünü müsəlmanların rəhbərləri adlandıranlar düşmənçilik, fitnə-fəsadla məşğul olur,

nəinki özlərini, hətta xalqı məhvə doğru aparır, xudpəsənd həyat tərzi keçirərək xalqın xeyrinə heç bir iş görmürlər..." [3, s.299]

Yarandığı gündən xalqın müdafiəsinə qalxan " Difai" partiyası tezliklə bütün azərbaycanlı əhali arasında nüfuz qazandı. Çar polis məmurlarının etiraflarına görə, əhali tərəfindən partiyanın fəaliyyətinin böyük ciddi-cəhdlə gizlədilməsi sübut edir ki, onun rəhbərləri ağıllı, ehtiyatlı, namuslu və səmimi adamlar idi.

Partiyanın Qarabağın hər yerində, o cümlədən Ağdam, Bərdə, Tərtər, Karyagin, Cəbrayıl, Xocaqan, eləcə də Naxçıvan, Qars və İrəvanda da şöbələri fəaliyyət göstərirdi. Mərkəzi Komitə isə Bakıda yerləşirdi. Partiyanın silahlı drujinası da var idi. Belə ki, dinc əhaliyə qarşı qəddarlıq edənlər ən ağır cəzaya məhkum olunurdu.

Şuşada azərbaycanlı əhalinin vəhşicəsinə qırılmasında və qovulmasında daşnaklara hərbi yardım göstərən general Qolosapov, Kleşşinski və b. partiyanın qərarı ilə qətlə yetirildi. Məsuliyyəti öz üzərinə götürən partiya buraxdığı vərəqədə yazırdı ki, onlar Qarabağda törətdikləri pisliklərə görə "Difai" partiyası tərəfindən cəzalandırıldılar: "Bu, "Difai"nın Qafqaz müsəlmanlarının qeyrət və ləyaqətinin müdafiəsi yolunda ilk çıxışı və xalqın qaynamaqda olan hiddətinin intiqam aktıdır... İndi "bu müsəlmanların daha çox qanını tökün" - deyən Qoloşapovun yüzlərlə qurbanının qəlbi sakitləşər. İndi minlərlə köməksiz ana və bacıların göz yaşı quruyar. İndi Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzalarının minlərlə müflisləşmiş sərgərdan əhalisi, heç olmasa, bir balaca dincələr". [5, s.23]

Əlbəttə ki, saysız-hesabsız erməni terrorunun yanında "Difai" partiyasının gördüyü cəza tədbirləri əhəmiyyətsiz dərəcədə idi. Bununla belə, partiyanın mübariz fəaliyyəti tezliklə öz bəhrəsini verdi. Həm çar hökuməti, həm də "Daşnaksütyün" partiyası azərbaycanlıların daha əvvəlki kimi sakit durub, hökumətə sözsüz itaət edərək erməni zinvorlarının qarşısından qaçmaq hallarına son qoyulduğun və əksinə ciddi müqavimət göstərdiyinin şahidi oldular.

Tarixdən dərs almamağımız və heç bir nəticə çıxarmamağımız XX əsrdə bizi dəfələrlə erməni təcavüzü ilə qarşı-qarşıya qoydu. Hətta XXI əsrin əvvəllərində də Azərbaycanın əzəli torpaqları erməni təcavüzü altında qalmaqdadır. Xalqımızın mütəşəkkil bir qüvvəyə çevrilib işğal altında qalan torpaqlarını azad etmək vaxtı çoxdan çatmışdır. Qəhrəmanlıq tariximizə yiyələnib bütöv Vətənimizə sahib çıxmalıyıq.

**İstifadə olunmuş ədobiyyat**


1. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992.
2. Ordubadi M. Qanlı illər. Bakı, 1991.
3. Süleymanova S.Y. Azərbaycanda ictimai siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyinin əvvəlləri). Bakı, 1999.

4. Zeynaloğlu C.Müxtəsar Azərbaycan tarixi: Bakı, 1992.
5. Документы по русской политике в Закавказье. Вып. 1-й, Баку, 1920.
6. Общественное движение в России в начале XX века. Под ред. Л.Мартова, П.Маслова и А.Потресова. В 4-х т. СПб. 1909-1914,1 4, ч.2.
«Bakı», qəzeti, 19 fevral, 1906.

**Sənubər SARALLl**

## АРМЯНСКАЯ АГРЕССИЯ В РАЗНЫХ НАПРАВЛЕНИЯХ

Бесполезными кажутся сегодня все попытки по восстановлению растоптанных прав наших соотечественников, изгнанных с земель отцов и дедов в Западном Азербайджане с 1987 года. Потому что присоединившись к Женевской Конвенции 1994 года, Азербайджан, согласно условиям документа обязан предоставить беженцам гражданство, которого они лишены. В отличие от Азербайджана Армения не потеряла шансов извлечь двойную выгоду, не предоставив своим беженцам гражданство. С одной стороны, армяне получают помощь из зарубежных стран, а с другой - требуют компенсаций от Азербайджана. Что касается наших людей, лишившихся не только родины, но и всего имущества, они не только лишены компенсации, но и не могут даже восстановить статус беженца. И выражаю свое неудовлетворение не только потерей статуса беженца, но и тем, что нынче сильно занижается число беженцев.

- Известно, что наши соотечественники стали выдворяться из Кафанского района Армении в 1987 году. Первые беженцы нашли пристанище в Сумгайыте. Но почему-то об этом сегодня не принято говорить. Исследования подтверждают, что в Кафанском районе действовала сильная ячейка партии "Дашнакцутюн", амбиции лидеров которой привели к открытому противостоянию между двумя народами. Угрозами, оскорблениями, увольнениями с работы они вынуждали азербайджанцев покидать свои дома. Руководил этой "операцией" член партии "Дашнакцутюн", начальник Кафанского районного отделения милиции Искендерян. Впоследствии, в январе-феврале 1988 года уже после выступления А.Аганбегяна, в армянской прессе и на телевидении еще до сумгайытских событий стала разрабатываться тема "тюркских зверств по отношению к армянам". Вбивая в голову армянского народа ядовитые националистические мысли, они стали готовить сценарий будущей массовой депортации азербайджанцев. Получалось так, что армяне хотели "проучить" тюрков, за трагедию, которую те, якобы учинили 90 лет назад в отношении армян. Вот почему и проводилась оголтелая кампания по оболваниванию населения.

Шла большая подготовительная работа по претворению R жизнь сценария беспорядков в Сумгайыте. Были наняты преступники, которые пройдя специальную подготовку, готовились осуществить этот план в Азербайджане. Убийство армян поручалось тем, кто жил в Азербайджане, хорошо знал азербайджанский язык, но не выплачивал "дань" в казну партий и движений "Дашнакцутюн", "Арцах", "Миацум". Не секрет, что в Азербайджане жили армяне, которые на протяжении 30-40 лет финансировали деятельность этих организаций. Они знали, что когда-нибудь грянут события и армяне должны принять в них участие. "Благодаря" организаторским способностям Эдуарда Григоряна и посредничеству живших в Сумгайыте армян, а также организаций карабахских армян, подконтрольных Еревану, в Сумгайыте уже размещались тележурналисты, прибывшие из Москвы, а также "наблюдатели". Уже к 14 февраля в Сумгайыте все было готово к проведению акции. Параллельно в Ереване, Ленинакане, Кировакане, других городах и районах Армении проводились многолюдные митинги. Еще до сумгайытских событий, с 25 по 27 февраля армянское телевидение для влияния на умы людей демонстрировало невесть откуда взявшиеся кадры зверств тюрков над армянами, то есть готовилась почва для осуществления крупномасштабной провокации. По армянскому телевидению транслировались кадры старинной кинохроники, где осуществляется массовая казнь людей. Демонстрировались эпизоды расстрела людей, которых затем сбрасывали в заранее вырытые могилы. Оказывается, это были кадры уничтожения болгарскими войсками мирных граждан - тюрков, "мастерски" использованные армянскими тележурналистами для подготовки почвы для изгнания азербайджанцев из Армении. Сразу после событий 28-29 февраля телевидение стало показывать кадры с места трагедии, что не может не вызывать множество вопросов. Как получилось, что в течение дня произошло событие и люди тотчас были оповещены об этом посредством телевидения? Выходит, что был подготовлен тщательный план действий и информационные каналы находились полностью под контролем армян. Демонстрация кадров предшествовала изгнанию азербайджанцев из Армении. В этом процессе участвовали избранные народные представители. Многие из них не понимали сущности происходивших событий, но свое черное дело сделала сумгайытская провокация. По словам армянского социолога Людмилы Арутюнян в Азербайджане был осуществлен "геноцид" против армян. Все это отразилось на наших соотечественниках в Армении и путем угроз их стали выдворять оттуда. Кто поддавался на

армянскую пропаганду, уезжал подобру-поздорову вместе со своим имуществом. А те, кто не хотел оставить землю предков, не имел возможности выехать, подверглись геноциду со стороны армянских националистов.

Хотелось бы коснуться вот какого вопроса. Армянский академик Саруханян в одном из своих выступлений выражал обеспокоенность тем, что число тюрков, живущих в Армении, перевалило за полмиллиона. Он ратовал за принятие мер для изменения ситуации. Обычно, в семьях армян число детей не превышало 4. В семьях же наших соотечественников было 6-7 детей, иной раз и 10-12. Лишь в одном селе в Ведибасаре жило 500-1000 семей, прибавьте сюда в среднем 7 детей и количество населения достигнет 7 тысяч человек. Я не понимаю, кому в нашей республике выгодно уменьшать численность азербайджанцев в Армении? Сегодня никто не может отрицать факт изгнания более полмиллиона азербайджанцев из Армении. Потому что до этнической чистки именно столько наших соотечественников проживало в соседней республике. В последний период тех, кто не хотел уезжать подвергали давлению, им угрожали расправой. В процессе депортации погибли более 744 человек. Я приводила эти данные в своих исследованиях. В них также нашли отражение имена и фамилии людей, уничтоженных в ходе войны в приграничных зонах с Азербайджаном и в Западном Азербайджане (1987-1992). Кроме того, указано кто является убийцей, где простились с жизнью люди и в каком месте они похоронены. Часть азербайджанцев погибла от холода в горах, когда покидала Хайастан. Некоторые, столкнувшись с трудностями, и не сумев добраться до Азербайджана, возвратились в свои села и стали добычей кровожадных армянских националистов. Таких фактов великое множество. Мне кажется странным, что в нашей республике говорили о 250 тысячах беженцев из Армении. Тому существует лишь одна-единственная причина - беженцами считают только тех, кто, переселившись из Армении, прошел государственную регистрацию в Азербайджане и получил статус беженца. А те, кто прошел на территорию Азербайджана через горы и леса и не был зарегистрирован, таковыми не считаются. Не понимаю, почему так произошло. Но твердо знаю одно: явно прослеживается армянский след в том, что сильно занижено число беженцев из Армении, не удостоившихся статуса беженцев. Видать, и это сделано не без причины.

В приграничных регионах Азербайджана были люди, которые помогали беженцам из Западного Азербайджана. Они делали все, чтобы эти люди выжили, адаптировались к новым условиям. Поистине героические усилия прикладывали в Казахской зоне первый секретарь райкома партии Мурад Ашуров, Бскир Эюбов, работники правоохранительных органов. Все радовались, когда я, переводя через границу мать и сестру, говорила с

русскими, находившимися гам, на их родном языке. Потому что из-за незнания русского языка азербайджанцы не могли разъяснить советским военнослужащим причину происходящих событий. Я осталась, чтобы составить список убитых земляков. Этот список сохранился у меня оттого, что я умудрилась в суматохе не потерять черновики. За 3 дня удалось установить около 60 случаев убийств. Собранные сведения я отвезла в Москву, дабы представить их руководству страны. Правда, в тот период я не знала, что непосредственными организаторами этих процессов являются как раз политические руководители государства. Я была сильно обижена и на депутатов, представлявших Азербайджан в Верховном Совете СССР. Я им сказала: как это может быть, что армянский депутат Игитян безостановочно говорит на сессии о 26 убитых в Сумгайыте армянах, а вы молчите о многочисленных фактах убийств азербайджанцев в Армении. Некоторые из депутатов посетовали, что не имеют на руках подобных фактов. Я сообщила им, что эту информацию передала в Казахе КГБ, откуда мне было знать, что из комитета госбезопасности их переслали Ве-зирову. А руководитель Азербайджана, в свою очередь, адресовал их Горбачеву. Последний в категорической форме потребовал не разглашать сведения о списке и фактах жестокого обращения с азербайджанцами в Армении. В то время азербайджанское руководство допустило две крупные ошибки. Во-первых, беженцы из Армении должны были размещаться в Карабахе и многие из них отправились туда. Мурад Ашуров из 200 тысяч зарегистрированных направил 7 тысяч беженцев из Западного Азербайджана в Карабах. В то же время, первый секретарь Зангеланского райкома партии Тофик Мехтиев организовал место в Миндживане для размещения прибывших азербайджанцев. Там прошли регистрацию приблизительно 286 тысяч наших соотечественников. Когда составляли список, из Баку позвонил зав.орготделом ЦК КП Азербайджана Назим Мамедов, который выразил крайне негативное отношение к регистрации беженцев. Безусловно, ни у кого и в мыслях не было отправляться далеко от приграничных районов. Не надо забывать, что люди, вынужденно покинувшие места проживания, пребывали в страхе и устремлялись в близкие к родному очагу регионы. Понятно, что они перешли из Армении в приграничные Зангелан, Казах. Беженцы из Ведибасара, Зангибасара, Басаркечара, Дяряллязa, Занге-зура обосновались в Нахчыване. И здесь находился лагерь беженцев, где первый секретарь Тахир Алиев делал для них всё, чтобы они выжили. Их число превышало 4 тысяч человек и этот факт хорошо известен был представителям государственных органов. Вызывает недоумение то, что мир не узнал о действительном положении дел, громогласно не прозвучали наши справедливые требования. Почему наше руководство тогда не обратилось в ООН, Совет Европы,

Хельсинскую Гражданскую Ассамблею? Ведь было столько вопиющих фактов.

Один из виновников - Назим Мамедов занимал ответственный государственный пост. Жена у него была армянка и в настоящее время он живет в Америке. Цель его телефонного звонка стала ясна лишь сегодня. Проживая в Армении, мы не могли осознать сути происходящих событий, а эти деятели, сотворив сумгайытскую провокацию выпятили карабахский вопрос. Кто помогал армянам организовать беспорядки в Сумгаите? Без всякого сомнения, такие как Назим Мамедов со своими женами-армянками. Живя в Баку, они знали о подоплеке событий в Сумгаите и таким образом потворствовали армянам.

Мы требуем восстановления наших попранных прав. Мы хотим одного - вернуться к своим родным очагам, на землю своих предков. Мы также требуем предать Гаагскому трибуналу бывшего Генсека М.С.Горбачева и президента Армении-Хайастана Роберта Ко-чаряна, совершившего злодейские преступления против азербайджанского народа.

По переписи население Армянской - ССР до 1990-х годов

В составе комиссии были следующие лица азербайджанской национальности.

1. Зейналов Зейнал 1934 г.р. - работал директором клуба с 1961-1969 г.
2. Ёлчиев Шамил - секретарь сельского совета.
3. Османов Атлахверан - зав. учебной частью школы в районе Ноемберян село "Ахтанак".
4. Зейналов Магомед 1936 г.р. Работал в совхозе "Октембер" председателем профкома и был в составе комиссии по статистике азербайджанцев в Армении в районе Ноемберян.

Общий итог - 1969 г. - в Армянской ССР проживали 289 тыс. азербайджанцев.

Итог - 1979 г. в Армянской ССР проживали 461 тыс. азербайджанцев.

До изгнания 1988 года азербайджанское население Армении составляло больше пол милиона.

Данные взяты из газеты "Совет Ермянистаны", "Советакан Айа-стан"- 1969-1979 г.

P.S. В распространении информации о числе убитых азербайджанцев в Армении мне огромную помощь оказали государственные деятели нашей республики: ныне покойные Тофик Исмайлов, Вели Мамедов, Исмет Гаибов, журналист Алы Мустафаев, Муслим Мамедов, а также тогдашний заведующий секретариатом Президиума Верховного Совета Азербайджанской ССР Джахангир Над-жафов, журналисты Афган Аскеров, Сергей Баженов.

Отражением моей работы стало выступление на съезде народных депутатов СССР выдающегося казахского писателя Олжаса Сулей-менова. Он сказал, что в Армении за один день было убито намного больше азербайджанцев, чем в Сумгаите армян. Председатель Объединения писателей республики Анар, выступая с трибуны съезда, в ответ на безосновательные утверждения армянского депутата Иги-тяна, также огласил список азербайджанцев, погибших в результате армянского вандализма.

Особо хочется отметить членов семьи покойного академика То-фика Исмайлова - супругу Нала ханум, сына Миргейдара. Эти люди сделали все возможное, чтобы я смогла выжить, бороться, доносить до мировой общественности правду о злодеяниях армян в отношении азербайджанцев. А моими наставниками явились археолог, кандидат исторических наук ныне покойный Рафаиль Ахмедов и зам. директора по науке Шамахинского астрофизики НАНА Рагим Зейналов.

В сборе информации о числе убитых азербайджанцев в Армении мне помогали Лятифа Аскерли, Фамил Багиров, Вагиф Исмайлов, Аскер Рзаев и Элдар Г'асанов.

Агрессия проявляется во всех сферах жизни азербайджанского народа, в том числе и в культуре. Бедность армянского языка, ограниченность, фонетика семантических возможностей, беспокоила образованных армян-хаев. Они видели выход в присвоении образцов материально-моральной культуры азербайджанского народа, на территорию которого были заселены. В основном присваиваются образцы устного народного творчества, переносятся в транскрипцию армянского языка: на следующем этапе эти образцы признаются армянскими.

Не имевшие собственных культурных и бытовых ценностей армяне, многое заимствовали у тюркских народов, особенно у азербайджанцев.

Профессор Г.Антонян недвусмысленно охарактеризовал способности и достоинства своего народа в области устного творчества. В одной из своих книг он высказался следующим образом: «Народные рассказы «Асли и Керем», «Шах Исмаил», «Ашыг Гариб» или «Кероглу» армянские ашуги исполняют в основном на азербайджанском языке.» Например, эпос «Кероглу» получил распространение не только у тюркских народов. Его хорошо знали ближайшие соседи грузины, а также армяне, нашедшие приют среди азербайджанского населения.

Известный немецкий путешественник Ф.Боденштедт будучи проездом в Тифлисе, проявил интерес к устному творчеству местных кавказских народов. Когда он покинул регион и отправился на родину, в его портфеле не было ни одного образца армянского народного творчества. Это обстоятельство сильно огорчило всех армянских ученых, поэтов и писателей во главе с Х.Абовяном, в то время проживавших в Тифлисе. Проявив

«находчивость», Х.Абовян нашел выход из этой, казалось бы, безнадежной ситуации. После отъезда Ф.Боденштедта он незамедлительно приступил к работе и в кратчайшие сроки перевел на армянский язык азербайджанский дастан «Асли и Керем» (только прозу, со стихами переводчик не справился). Он вручил свой перевод другому немецкому путешественнику Августу фон Гакстгаузену, чтобы тот доставил его в Германию, где он позднее был издан в качестве армянского дастан а.

Абовяну принадлежит следующее наблюдение: «Когда ходил в гости или прогуливался по городу, я часто обращал внимание на то, от чего народ получает наибольшее удовольствие во время торжеств и собраний. Часто приходилось видеть, как на площадях или улицах люди, словно оцепенев и совершенно забыв о своих делах, слушают одного слепого певца и даже дают ему деньги. Во время меджлисов и свадеб без песен, исполняемых ашугами, присут-ствующие даже капли воды в рот не берут. Все, что поют ашуги, исполнялось на турецком языке, и многие, не понимая ни слова, были околдованы музыкой, словно находились в раю и вновь возвращались». Выражения «исполнялось на турецком языке» и «многие не понимая ни слова» дают нам реальную картину музыкально -поэтической жизни закавказских народов в XIX веке.

«Слова азербайджанских тюрков широко использовались курдами, армянами, евреями, греками и другими народностями, но в азербайджанской литературе не было замечено косноязычия, внедрения иностранных слов. Потому что язык азербайджанских тюрков считался более привилегированным и сильным.

Армяно-азербайджанская дружба в литературе волновала передовых мыслителей армян. Неслучайно, поселившись на исторических землях Азербайджана, армяне встретились лицом к лицу с высокими достижениями местной тюркской культуры. Армяне, не теряя времени, не только усвоили образцы устной народной литературы, но и присвоили их, и не стыдясь, начали выдавать их за свои произведения. Армянский автор Г.Антонян, признавая все эти фак-1 ы, писал: «У наших ашугов нет смешанных с легендами песен, они только на тюркском языке». Половина слов армянского языка - турецкие фамилии, например, Шахвердиян (дарованное шахом), Ян (это сторона) Кочарян, Аллахвердиян, Баграмян, Налбандян; слова - джан (тело), яралы (раненый), инджимиш (обиженный), сыртакиц, сирдаш (соратник), хошмярамлы (доброжелательный), и другие. А.Тертерян воровство своего народа, который он представлял, называл народностью. Бесчисленные азербайджанские песни и мелодии, эпосы и сказки, легенды и предания, пословицы, сезонные песни и другие образцы устного народного творчества с особой честью и усердством были собраны и присвоены со стороны Х.Абовяна, Г.Агаяна, М.Налбандяна, В.Прошяна, Н.Туманяна и др.

армянских деятелей. И сегодня эти образцы хранятся в разных архивах Армении и продолжается процесс подделки и воровство нашей культуры.

В 1955 году во время гастролей Ереванского Государственного музыкального театра вместо автора великого Узеира Гаджибекова было представлено имя переводчика С.Саруханяна. Это было сделано с целью, чтобы убедить зрителей в том, что, это армянское произведение. Такие афиши были распространены в зарубежных странах с 1923 по 1958 года. До 1988 года гимном Армении в аранжировке Эдуарда Кызартумяна звучала музыка, сочинённая Узеи-ром Гаджибековым. Музыка В.Мустафазаде «Вокализ» в аранжировке и исполнении Б.ДадашевоЙ присвоила себе певица-армянка Вардухи Варданян.

Слова песни «Сары Гялин» Ш.И.Хатаи были похищены армянами. «Сары Гялин» (Шегик Хаарс) называли женщину, у которой умер муж. Эта женщина всегда была в обществе в желтом наряде. Этот обычай был присущ только азербайджанскому народу. Саз, тар, каманча, зурна, балабан — эти народные инструменты; яллы, узундаре, терекеме, вокзалы, иннабы, гайтагы, нельбеки и другие народные танцы; наши мугамы и азербайджанская кулинария: дол-ма, пити, довга, бозартма, кюфта, аш, эришта — все это они присвоили себе. Эпос «Кероглы» настолько понравился армянам, что даже после создания его армянского варианта они не остановились, и создали еще несколько подобных «произведений». Такая же участь постигла «Асли и Керем», «Шах Исмаил», «Ашыг Гариб», «Шахмар Али» и многих других.

Анализ армянских краж даёт основание прийти к такому выводу, что в этой области их анатомия построена на одном тезисе: собрать побольше культурных ценностей, принадлежащих другим народам, перевести их на армянский язык, придать им армянскую особенность и представить их как образцы армянской культуры. Меня беспокоит такая бурная деятельность армянских «ученых» и оценивая их сегодняшнюю деятельность в этой области я считаю, что ар-мяно-хайские заимствования продолжаются. Азербайджан, один из прекраснейших уголков мира сыграл важнейшую роль в экономической, политической и культурной жизни, не только Закавказья, но и всего человечество. В рамках не большой статьи, конечно не возможно охватить всю тему развития культуры в этом регионе, однако уже из сказанного выше видно, что Азербайджан внес достойный вклад в развитие мировой культуры. Но есть одна истина - нашу историю и культуру никому не украсть.

**Sənubər SARALLI**

# ERMƏNİ TERROR TƏŞKİLATLARI

Son 15 asr ərzində müsalmanları mənfi obrazda təqdim etmək üçün böyük səylər sərf edən ermənilər özləri xristiandan çox, yarıya qədər türk mənşəlidilər. Müvafiq olaraq Ermənistan əhalisisnin yarıdan çoxu xristian deyil, müsəlman mentalitetinin daşıyıcılarıdır.

Həqiqətdə onlar lap əvvəldən xristian aləmindən özlərini təcrid etməyə başlayıblar. Xristianlıqda müstəsnalıq uğrunda canfəşanlıq onların pravoslav kilsəsindən ayrılmasına və dinə dönük çıxmalarına gətirib çıxardı. Buna görə 451-ci ildə Xalkidonda keçirilən Bəşəri yığıncaqda ermənilərin dini təlimi küfr və özləri dönük elan edildi. «...ermənilərin pravoslavlıqdan kənarlaşması xüsusi maraq kəsb edir... Bu proses tam olaraq IV əsrdə, ermənilərin İran şahı Xosrovun xeyrinə Xalkidon yığıncağının formulunu rədd edərək, monofizitlərə qoşulmasından sonra başa çatıb. Bu, farslara xristian dünyasını parçalamaq və Bizans imperiyasını zəiflətmək üçün lazım idi». Erməni terrorunun xarakteri ermənilərin özlərinin xarakteri əsasında kök atıb. Onlar daim türklərə, romalılara nifrət bəsləyib, parfiyalılara qibtə edib, lakin qeyd-şərtsiz Rusiyaya meyilləniblər.

Erməni terrorizmi haqqında təqdim edilən siyahı Rusiya İmperiyasının istilasından başlayaraq (XIX əsrin ortalarında) Azərbaycan torpaqları hesabına erməni dövlətinin yaradılmasını göstərir.

Dünyada 9 beynəlxalq terror qruplaşmaları sırasında erməni terror təşkilatları üçüncü yeri tutur. Təəssüf ki, erməni terrorçularının ABŞ, Fransa, Yaponiya, Rusiya və Türkiyədə, həmçinin dünyanın digər ölkələrində həyata keçirdikləri terror aktlarına hələ də dünya ictimaiyyəti tərəfindən lazımi qiymət verilməyib. 1973-1987-ci illər ərzində erməni vandalları tərəfindən dünyada 200, təkcə Dağlıq Qarabağda 1988-1994-cü illər ərzində 32 terror aktı həyata keçirilib.

Son 200 ildə Türkiyə, İran (Cənubi Azərbaycan), indiki, müasir Azərbaycanda (Dağlıq Qarabağ da daxil olmaqla) erməni terror təşkilatları tərəfindən bir milyon azərbaycanlı və milyondan artıq türk (1.600.000) qətlə yetirilib, bir çoxlarının yaşadıqları ərazilər isə yer üzündən silinib,

Dünyanın aparıcı ölkələri bu regionda öz maraqlarını həyata keçirmək məqsədi ilə Britaniyanın köhnə siyasətinə əl atır və qədim Roma strateqlərinin «bölüşdür və hökmranlıq et!» prinsipindən istifadə edirlər. Ağ F.v. Ronald Reyqan və daha sonra ata Core Bus uydurulmuş «erməni məsələsini» prioritet kimi irəli sürməklə İraqdan Əfqanıstana və İsrailə, həmçinin Cənubi Qafqazadək olan əraziləri nəzarət altında saxlamağa can atmaqdadır.

Erməni terror təşkilatlarının qısa icmalını təqdim edirəm.

«Vətən müdafiəçiləri» - təşkilat XIX əsrin əvvəllərində Osmanlı İmperiyası dövründə Ərzurumda katolik-ruhanilər tərəfindən yaradılıb. Hələ 1880-ci ildə nəşr

olunan «Rusiya xalqları - etnoqrafik oçerk» kitabında ermənilərin xisləti açılır və bu xalqın bədbəxtliklərinin səbəbləri göstərilirdi.

«Armenakan» - partiya 1885-ci ildə Türkiyədə yaradılıb. Təşkilat İran və Rusiyada yaşayan ermənilərlə əməkdaşlıq edib.

«Qncak» - 1887-ci ildə Cenevrədə yaradılıb. Partiyanın əsas məqsədi Türkiyə Anadolusu "Rusiya və İran Ermənistanı" adlanan ərazilərin birləşdirilməsi yolu ilə «Böyük Ermənistan» yaratmaq olub. Təşkilatın rəsmi proqramının 4-cü bəndində yazılıb: «Qarşıya qoyulan məqsədə nail olmaq üçün təbliğat, terrorizmin təşviqatı və terror təşkilatlarının yaradılması üsullarından istifadə olunmalıdır».

«Daşnaksütyun» - 1890-cı ildə Tiflisdə yaradılıb. Ermənistan Federativ İnqilab Partiyasıdır. Partiyanın 1892-ci ildə keçirilən I qurultayında qərara alınıb: «Hər yerdə, istənilən şəraitdə türkləri, kürdləri, erməni satqınlarını öldür, qisas al!».

**«Xofyaratma Təşkilatı».**

**«Terrora Hazırlıq Komitəsi».**

**«Dehli» hind terror qrupu.**

**«Nemezida»** təşkilatı 1919-cu ildə İrəvanda yaradılıb. «Daşnak-sütyun» partiyasının IX qurultayında, ARFD rəhbəri Şaqen Natalinin təkidilə təşkilatın üzərinə «ermənilərin əzablarına görə qisas almaq» kimi xüsusi missiya qoyulur. Bunun üçün məsul orqan (rəhbəri Armen Qaro) və xüsusi fond (rəhbəri Şaqen Satçaklyan) yaradılır.

**DRO gizli terror qruplaşması və onun bölmələri:**

**DRO-8**

**DRO-88**

**DRO-888**

**DRO-8888**

Hazırda daşnakların bu qruplaşmalarda fəaliyyəti davam etdirilir. Dro (Drozdomat Kananyan) 1884-cü ildə İqdırda doğulub. O, 19 yaşında daşnakların partiyasına qoşulub. Knyaz Nakaşidze və general Əlixanovu qətlə yetirib. 1918-ci ildə o, qonşu ölkələrə hücum edən erməni ordusuna rəhbərlik, 1920-ci ildə isə Terteryanla birgə «öz vətəninin» bolşeviklərə təslim edilməsində iştirak edib. Dronun gürcü Cuqaşvilinin (Stalinin) həyatını xilas etdiyi də göstərilib.

Rumıniyada o, nasistlərə qoşularaq Krım və Qafqazda vəhşiliklər törədib. 1945-ci ilin aprelində o, Amerikada həbs edilib, lakin tezliklə Boston daşnaklarının təzyiqi altında azadlığa buraxılıb. Dro erməni xalqının qanlı tarixində mövcud olmuş ən qəddar fiqurlardan biri olub.

«Ermənilərin Qabaqcıl Birliyi» 1940-cı iidə Amerikada yaradılıb. Məqsəd İran (Cənubi Azərbaycan), Türkiyə və müstəqil Azərbaycan ərazisində erməni dövləti yaratmaqdır.

«Qarabağ» Komitəsi 1940-cı ildə gizli şəkildə bolşevik daşnak A.Mikoyan tərəfindən Moskvada yaradılıb. O. 1924-cü ildə sovet hakimiyyəti tərəfindən süni

şəkildə yaradılan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsilə bağlı Ermənistanın milliyyətçi dairələrinə yardım edib.

1947-1954-cü illərdə Ermənistandan Azərbaycana 165 min azərbaycanlı deportasiya edilib, onların 53 nıin nəfəri Kür-Araz düzənliyi ərazilərində məskunlaşıb. Azərbaycanlıların mənzərəli və səfalı dağlıq ərazilərdən deportasiyasının acı nəticələri ermənilər tərəfindən çoxdan nəzərə alınmışdı. Birincisi, gəlmə hindavropalı-semit qaraçı haylar Ermənistanı yerli azəri türklərindən təmizləməyə çalışıblar. İkincisi, onlar hesab edirdilər ki, əsrlərlə dağlıq ərazilərdə yaşayan türklər həyat üçün yaramayan Kür-Araz düzənliyində yaşaya bilməyəcəklər.

«Ermənilərin Milli Birliyi» 1943-cü ildə Amerikada yaradılıb. Təşkilatın məqsədi Azərbaycan torpaqlarını işğal etmək üçün Dağlıq Qarabağ ermənilərini dəstəkləməkdir. Azərbaycan torpaqlarının təmizlənməsi ötən əsrin 50-60-cı illərində də davam etdirilib. Diqqətçəkən məqam ondan ibarətdir ki, azərbaycanlılar, yəhudilər, gürcülər və ruslarla yanaşı erməni katoliklər də Ermənistandan qovulmuşlar.

«1970-ci illərdə» Gürcüstan Kommunist Partiyasının birinci katibi Mjavanadzenin dövründə milliyyətcə erməni olan. Lakin xaricdə yaşayan erməniləri Gürcüstana (Ermənistanla sərhəd Samtsxe-Cavaxetiya) köçürmək məqsədi daşıyan Çurkin tərəfindən yaradılıb. Bu ərazidə erməni milliyyətçi daşnakları Qafqazda ikinci Qarabağ cəbhəsi yaratmaq istəyirlər.

«Vardanovi» ermənilərin Amerikada ümumi birliyidir. Amerikada «Nor-Aşxar» («Yeni dünya»), «Huşaran» («Yaddaş») kimi qəzetlər buraxır, Dağlıq Qarabağ və onun ətrafında baş verən münaqişə haqqında dezinformasiya yayırlar.

«Bölmələr (Komandos)» - «Daşnaksütyun» partiyasının 1972-ci ildə Vyanada (Avstriya) keçirilən XX qurultayında uydurma «erməni soyqırımı»nı təbliğ etmək məqsədilə yaradılıb.

«Qisasçılar» - «Daşnaksütyun» daxilində terror qurupudur. 1973-cü ildə fəaliyyət göstərməyə başlayıb. 1980-ci illərdə Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirib.

Gizli Erməni Azadlıq Ordusu (ACOA) - 1975-ci ildə Beyrutda (Livan) yaradılıb. Qərargahı Dəməşq (Suriya) şəhərində yerləşir. ACOA-nın tərkibində Suriyanın Fələstin hərbi düşərgələrində təlim keçmiş 1000-dən artıq fəal silahlısı var.

Ermənistan Azadlığı uğrunda Gizli Erməni Ordusu (ASALA) -1975-ci ildə Beyrutda yaradılıb. Təlim-məşq bazaları Suriyada yerləşir. Təşkilatın məqsədi yalnız Türkiyənin şərq, İranın şimal və Azərbaycanın hazırda işğal olunmuş torpaqları hesabına deyil, həm də Azərbaycana, Gürcüstana və Rusiyaya qarşı yeni torpaq iddiaları ilə «Böyük Ermənistan» yaratmaqdır. ASALA-nın əsas fiqurlarından biri «Abu Nidal» və «Qara Sentyabr» terror təşkilatları ilə əməkdaşlıq edən Akop Akopyandır. Akopyan 1980-ci ildə Afinada türk

diplomatının qətli ilə bağlı məsuliyyəti üzərinə götürdükdən sonra «Nyu-York Times» qəzetinə müsahibəsində bildirib: «Bizim düşmənlər türk rejimi, NATO və bizimlə olmayan ermənilərdir».

ASALA-nın tərkibində «Erməni Azadlıq Cəbhəsi» 1979-cu ildə yaradılıb.

1980-ci ilin aprelində ASALA təşkilatı PKK ilə müqavilə bağlayıb. Müqavilənin şərtlərinə görə, ASALA terrorçuların maliyyələşdirilməsini öz üzərinə götürür, PKK isə açıq terrora keçir.

«Orli» qruplaşması - 1981-ci ildə Fransada yasayan erməni gəncləri tərəfindən yaradılıb. 1987-ci ilədək qrup dünyanın müxtəlif ölkələrinin hava limanlarında 10 terror aksiyası həyata keçirib.

«Ermənilərin Birliyi» - 1988-ci ildə Moskvada yaradılıb. ASALA ilə sıx əlaqələr qurub, keçmiş SSRİ ərazisində terrorçuların fəaliyyətini təmin edir, onlara saxta sənədlər hazırlayır. Dağlıq Qarabağa silah və muzdluların gətirilməsini təmin edir.

«Fədainlər» qrupu 1988-ci ildən 1992-ci ilədək Ermənistanın azərbaycanlı və qeyri-erməni əhalisinə divan tutub. Nəticədə yarım milyondan artıq azərbaycanlı, 64 min rus (onların 14 mini Azərbaycanda məskunlaşıb), 22 min kürd, 11 min gürcü və digər millətlər qovulub, 744 nafər isə öldürülüb.

«55-lərin» Komitəsi 1988-ci il martın 2-də Dağlıq Qarabağda yaradılıb. Ermənistan və Dağlıq Qarabağ Muxtar Vilayətinin böyük müəssisələrinin nümayəndələri komitənin üzvləri olub.

1990-cı illərdə sərhədyanı ərazilərdə «Erməni Milli Ordusu» və «Daşnaksütyun»un tərkibində kiçik terror qrupları fəaliyyət göstərib. Onlar aşağıdakılardan ibarətdir: «Nard», «Muş», «Hay-dat», «Tiqran-Mets», «Adana».

«Erməni Azadlıq Hərəkatı» (AOD) - 1991-ci ildə Fransada yaradılıb. AS ALA ilə sıx əməkdaşlıq edərək terror fəaliyyətilə məşğuldur.

«Məhbusların Müdafiə Komitəsi» həbsdə olan erməni terrorçuları və siyasi məhbusların müdafiəsi məqsədilə yaradılmışdır.

«Demokratik cəbhə» ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərir. Əsas məqsədi Türkiyə dövlətinin süqutudur.

«Apostol» 2001-ci ilin aprelin 29-da Ermənistan, Suriya, Livan vətəndaşlarından ibarət Erməni Müdafiəsi Birliyi tərəfindən yaradılıb.

«Gegaron» ASALA tərəfindən 2001-ci ildə yaradılıb. Əsas məqsədi Cənubi Qafqaz və Orta Asiyada türkəsilli siyasi liderlər, diplomatlar və biznesmenlərə qarşı terror aktları həyata keçirməkdir.

«Krunk» 1985-ci ildə Dağlıq Qarabağda yaradılıb və uzun müddət «Qarabağ» komitəsi və «Daşnaksütyun» partiyası ilə əməkdaşlıq edib. 1988-ci il fevralın 13-də «Krunk» terror qrupunun rəhbərlərindən biri Arkadi Manuçarovun başçılığı altında Moskvada, İrəvanda mitinq təşkil olunub.

«Artsax» yenidən 1989-cu ildə Dağlıq Qarabağda yaradılıb. Təşkilatın məqsədi Azərbaycanın işğal olunmuş torpaqlarını müdafiə etmək üçün dünya üzrə erməni terror təşkilatlarını birləşdirməkdir. («Vəfa» jurnalı, 1-2 (23) 2006)

Venesiyanın Mxitaryan ruhani idarəsinin atası Komitas Manukyanın təşəbbüsü ilə 1894-cü ildə «Artsax» adlanan medal təsis edilib. Medalın üz tərəfində «Qarabağ bizimdir» və «Qarabağ bizim Artsaxdır» kəlmələri yazılıb. Medalın arxa tərəfində isə belə sözlər həkk edilib: «Ey erməni xalqı, sənin yeganə xilasın sənin erməni gücündür. Mətin olaq ki, tərətdarlarımızın sayı da çoxalsın». Bu medalın şəkli Azərbaycanın 12 rayonunun işğalına qədər 1989-cu il avqustun 25-də «Sovel Qarabağı» qəzetində erməni dilində dərc olunub. Medalın üz tərəfində Ermənistanın hazırki xəritəsi ilə yanaşı Dağlıq Qarabağ və Naxçıvan Muxtar Respublikası həkk olunub. Naxçıvan tünd rəngə boyanıb, görünür, bunun siyasi çalarları var.

Medal «Böyük Ermənistan»nın qurulmasına töhvə vermiş mədəniyyət, incəsənət, ədəbiyyat və həmçinin keçmişin, indinin və gələcəyin dövlət xadimlərinə və hərbçilərə verilir.

«Miatsura» - erməni terror təşkilatıdır, 1980-ci illərin əvvəllərində Ermənistan SSR-də yaradılıb. («Vəfa», 3-4 (24) 2006)

1981-ci ildə Bakı Soyuducu Kombinatının məhsulu olan «POLYUS» adlı dondurmadan istifadə edən azərbaycanlıların heç birinin ağlına belə gəlməzdi ki, bu qida məhsulu «Miatsum» təşkilatına birbaşa eyhamdır və ermənilər bir-birlərini məhz bu kombinatın məhsulları ilə məlumatlandırırlar. Dondurma kağızı üzərindəki rəsmin müəllifi isə həmin vaxtlar kombinatda işləyən dizayner-rəssam Boris Nikolayeviç Karpenko olub. Onun atası ukraynalı, anası və arvadı isə erməni olub. Üç övladı var. B.Карpenко qanlı yanvar hadisələrinin olacağını əvvəlcədən bilərək, 1990-cı il yanvarın 2-də Bakıdan qaçıb.

Dondurma üçün kağız Qazaxıstan SSR-nin Semipalatinsk şəhərində sifariş olunub. Kağıza diqqətlə baxdıqdan sonra mən, azərbaycanlılardan ilk olaraq, onun üzərində «Miatsum» sözünü oxudum. Bundan sonra mən «POLYUS» «QÜTB» gizli əməliyyatının tədqiqatına başladım. İlk dəfə bu söz aktrisa Janna Qaltsyan tərəfindən bəyan edilib. Sonradan bu söz bütün dünya erməniləri üçün onların haqları olmayan torpaqlar uğrunda mübarizədə şüara çevrilib.

**Erməni Genosidi naminə Ədalət Diversiya Desant Dəstəsi;**
**Yeni Erməni Müqavimət Qrupu;**
**28-ci Erməni Qrupu;**
**Yeni Erməni Müqaviməti;**
**Genosid** əleyhinə **Erməni Döyüşçü Diversiya Desant Dəstəsi;**
**Erməni Gizli Ordusunun Yeni Erməni Müqaviməti;**
**«Qara Aprel»;**
**«3 Oktyabr»;**
**«Doqquz İyun» təşkilatı;**

**Altıncı Ermәni Ordusu;**
**«24 Sentyabr» Sui-qәsd Diversiya Desant Dәstәsi;**
**Ermәni** Dünya **Taşkilatı (Hay-dat);**
**Ermәni Qızıl Ordusu;**
**Daşnaklar-kommunistlar** - SSRİ DTK-nın kommunistlәri ermәnilәrin bütün ideoloji tәşkilatlarının başında durublar. Onların mәrkәzi Moskva, İrәvan, Xankәndi vә Daşkәnddә yerlәşib.

«Ermәni Ekspedisiya Korpusu» Ermәnistanın vә Dağlıq Qarabağın bütün hәrbilәşmiş qüvvәlәri ermәni ekspedisiya korpusuna tabe idi. Bütün qәrarlar vә addımlar Moskva ilә razılaşdırılırdı.

**Şamil MEHDİ**

## QARABAĞIN AZAD EDİLMӘSİ İŞİ VӘ QAT

2010-cu ilin yanvar ayında Qarabağ Azadlıq Tәşkilatının (QAT) tәsis qurultayının keçirilmәsinin 10 ili tamam oldu. Әlbәttә, ümumbәşәr tarixindә bu kiçik bir andır. Amma nәzәrә alsaq ki, Azәrbaycanın dövlәt müstәqilliynin bәrpasından cәmi l8 il keçib vә QAT fәaliyyәtinin on birinci ilini davam etdirir, bәzi fikirlәrimi bölüşmәyә ehtiyac duydum.

QAT niyә yarandı?

QAT-ın yaranma dövrümün bәzi mәqamlarını xatırlatmaq istәyirәm. 1993-cü il dövlәt çevrilişindәn, xüsusilә 1994-cü ilin may ayında "atәşkәs sazişi" bağlandıqdan sonra Qarabağ vә onunla bağlı bütün müzakirәlәr hakimiyyәtin inhisarına alındı. Qәzetlәrdә, televiziya **vә** radiolarda Qarabağ mövzusu yalnız rәsmi xәbәrlәrin verilmәsinә qәdәr mәhdudlaşdırıldı. Beynәlxalq tәşkilatların, o cümlәdәn Minsk qrupunun vasitәçiliyi ilә aparılan danışıqların gedişi "mәxflik" bәhanәsi ilә tam gizli saxlanılırdı.

Qarabağ mәsәlәsindә ictimaiyyәtin rolu demәk olar ki, heçә endirilmişdi, fәal mövqe göstәrәn ziyalılar tam tәdric halına salınmışdı. Qaçqın vә mәcburi köçkünlәrin kompakt yaşadıqları әrazilәr "rezervasiya" prinsipi ilә idarә olunurdu, yәni kәnardan kiminsә bu әrazilәrә daxil olub orda mәskunlaşmış insanlarla ünsiyyәti yalnız yerli "rәhbәrlәrin" icazәsi ilә baş tuta bilәrdi. İtirilmiş rayonların işğal günlәrini yad etmәk hakimiyyәt әleyhinә atılan addım kimi qiymәtlәndirilirdi. Bununla bağlı bir faktı qeyd etmәk istәyirәm: Ağdamın işğal gününü qeyd etmәk üçün ehsan mәclisinә toplanmış insanları, başda molla olmaqla, polis idarәsinә aparmış, bir neçә saat saxladıqdan sonra "bir daha belә iş görmәmәk" tapşırığı ilә buraxmışdılar.

Hakimiyyәtin möhkәmlәndirilmәsi üçün aparılan sәrt siyasәt nәticәsindә müxalifәt qüvvәlәri tam әzilmiş vәziyyәtә, ictimai institutların fәaliyyәti yox dәrәcәsinә endirilmişdi. Hakimiyyәtin bütün resurslarından istifadә olunaraq, rәqib

hesab edilən bütün qüvvələr bu və ya digər metodlardan (həbsə alınmaqdan tutaraq fiziki məhvə qədər) istifadə edilməklə sıradan çıxarılırdı.

Demokratiyanın təməl sütunlarından olan, yeni-yeni yaranmağa başlayan müstəqil KİV-lər - qəzet, tele və radio kanalları tam nazarətə alınır, bu baş tutmayanda isə fəaliyyətlərinə xitam verilir, rəhbərləri təzyiqlərə məruz qalırdı.

Nəticədə Qarabağ mövzusu da, bütün başqa sahələr kimi, hakimiyyətin tam nəzarətinə götürüldü və onun inhisarına çevrildi. Bir növ Qarabağ mövzusuna "tabu" qoyuldu. Maddi və mənəvi pressinqə məruz qalan insanlar yalnız məişət səviyyəsində nə isə danışa, müzakirə edə bilirdilər. Hakimiyyət dəyişikliyinin, "möhkəm əl"in tez bir zamanda hər şeyi qaydasına qoyacağı xülyaları sürətlə əriyib gedirdi. Qarabağın taleyi ilə bağlı ümumi biganəlik hökm sürürdü.

QAT nə etdi?

Belə bir vəziyətdə 1999-cu ilin yayından başlayaraq Azərbaycan cəmiyyətinin Qarabağla bağlı mövqeyini öyrənəcək, formalaşdıracaq və koordinasiya edəcək bir ictimai təşkilata ehtiyac duyulurdu. Akif Nağının təklifi ilə bir qrup şəxs Qarabağ Azadlıq Təşkilatının yaradılması üçün təşəbbüs qrupunu yaradıb, cəmiyyəti əhatə edən bütün təbəqələrlə görüşlərə başladı. Əslində QAT-ın təsis və təşkilatlarına dövrü başqa bir mövzudur və yəqin ki, nə vaxtsa şəxsi xatirələrdə bu barədə ətraflı yazılacaq. Ölkənin aparıcı siyasi qüvvələri, ziyalıları, ictimai xadimləri, bütün rayonlara səpələnmiş qaçqın və məcburi köçkünlərin nümayəndələri, vətəndaşlarla görüşlər təşkilatın fəaliyyət istiqamətlərini təyin etmək imkanı verdi.

QAT bir ictimai təşkilat kimi işğal olunmuş torpaqların azad olunması üçün birinci addım olaraq Qarabağ mövzusunun ictimailəşməsinə nail olmalı, gündəlik müzakirə obyektinə çevrilməsinə, əhali arasında, xüsusilə gənclər arasında hərbi-vətənpərvərlik əhval-ruhiyyəsinin yüksəldilməsinə, bütün proqresiv siyasi, ictimai qüvvələrin fəaliyyətində koordinasiyaya nail olunmağa, hakimiyyəti cəmiyyətin mövqeyi ilə hesablaşmağa məcbur etmək və s. qarşısına vəzifə kimi qoydu. QAT sülh yolunun nəticə verməyəcəyini asaslandıraraq, yeganə yolun hərb yolu, silah gücünə torpaqların azad olunmasını bəyan etdi və gələcək fəaliyyətində də məhz bu müddəadan çıxış etdi, bu fəlsəfəyə əsaslandı.

Təşkilatın fəaliyyətinin başlanğıc mərhələsi Qarabağ müzakirələrinin mühüm bir dövrünə təsadüf etdi. Ölkə başçısının təklifi ilə Milli Məclisdə birinci və sonuncu dəfə Qarabağ danışıqlarının müzakirəsi keçirildi. 1993-cü ildə televiziya ekranlarından "pencəyimi qolumun üstünə atıb Qarabağa gedəcəyəm" deyən ölkə başçısı 2001-ci ildə vəziyyətin gərgin olduğunu, dünya güclərinin Ermənistanı müdafiə etdiyini və digər məlum fikirləri gətirərək faktiki problemin həllində tam gücsüzlüyü etiraf etdi. Müzakirələrin nəticəsi kimi kompromisslərin axtarılmasının vacibliyi, güzəştlərin mümkünlüyü cəmiyyətə təlqin edildi.

Müzakirələrdən az sonra malum oldu ki, hakimiyyətin saxlanması qarşılığında Azərbaycandan ciddi güzəştlərə getmək tələb olunur və bunun üçün ictimaiyyətin müqavimətini heçə endirmək, onu ərazi itkiləri ilə razılaşmağa hazırlamaq tələb olunur. Bu işin vacib elementi kimi "xalq diplomatiyası" adı altında geniş bir lahiyə başladıldı. Aparılan yanlış siyasətə etiraz olaraq QAT tərəfindən mütəmadi şəkildə ATƏT-in, BMT-nin, Minsk qrupu həmsədr ölkələrinin səfirlikləri qarşısında piketlər keçirildi, Azərbaycan xalqının tələbləri yazılı şəkildə onlara çatdırıldı

Qarşıya qoyulan vəzifələri həyata keçirmək üçün müəyyən elmi metodlardan istifadə edərək fəaliyyət proqramı tərtib olundu. Aktiv şəkildə müxtəlif mövzularla bağlı görüşlər, dəyirmi masalar, seminarlar, konfranslar keçirilməyə başladı. Təşkilatın təklifi və təşkilatçılığı ilə rəssamların Qarabağ mövzusundakı əsərlərinin sərgisi təşkil edildi. Bir çox nominasiyalarda jurnalist müsabiqələri elan olundu və hər il bu müsabiqələrin yekunlarına görə qaliblər elan olundu. İctimai fikrin formalaşmasına azacıq da olsa təsir edə biləcək bütün siyasi partiyalar, ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları, yaradıcı təşkilatlar, ziyalılar və ictimaiyyətin nümayəndələri ilə mütəmadi görüşlər keçirilir, müxtəlif tədbirlərdə iştirakları təmin edilirdi. QAT-ın təklifi ilə ümumi fəaliyyəti əlaqələndirmək üçün Qarabağ Koordinasiya Şurası yaradıldı. Kritik anlarda, hakimiyyəti yanlış addımlardan çəkindirmək üçün minlərlə insanın qatıldığı bir neçə Qarabağ mitinqləri keçirildi. QAT tərəfindən respublikada ilk dəfə eyni məsələ ilə bağlı yeni etiraz forması-davamlı piketlər keçirilməsi tətbiq olundu.

QAT fəallarının rayonların işğal günlərində Şəhidlər Xiyabanı ziyarəti əvvəl-əvvəl polislə qarşıdurmaya gətirib çıxarırdı. Çünki bu ziyarətlərdə məqsəd yas mərasimləri qurmaq yox, mübarizə əzmi yaratmaq idi, bu da rəsmi siyasətlə ziddiyyət təşkil edirdi. Sonra bu təşəbbüs hamı tərəfindən qəbul edildi, anım günləri Azərbaycan ictimaiyyətinin işğala etirazını əks etdirən bir aksiyaya çevrildi. Rayon icra hakimiyyətləri (sözsüz ki, rəbbərliyin tapşırığı ilə) tərəfindən, hətta orta məktəb uşaqlarını cəlb etməklə davam etdirildi. Və bu gün də davam etdirilir.

QAT-ın müəyyən səyləri nəticəsində rayonlarımızın itirildiyi günlərdə adi hala çevrilmiş kütləvi əyləncə tədbirləri, konsertlər, Şadyanalıqlar yığışdırıldı. İctimai qınaq nəticəsində ölkədən kənarda belə sənət adamlarının konsert vermələri, xarici sənətçilərin ölkəyə dəvəti dayandırıldı.

Təşkilatın təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Konqresi xətti ilə müxtəlif ölkələrdə yaşayan soydaşlarımızla əlaqə yaradıldı və Qarabağ mövzusunda əlaqələndirilmiş təbliğat işləri başladı. Təşkilatın təklifi nəticəsində Soçi və Moskva şəhərlərində MDB məkanında fəaliyyət göstərən Azərbaycan təşkilatlarının toplantısı keçirildi. Toplantılarda Qarabağ məsələsinin bir nömrəli məsələ olduğu və onunla bağlı fəaliyyət istiqamətləri

razılaşdırıldı. Nəticədə bir çox ölkələrdə pərakəndə hərəkət edən təşkilatlar arasında əlaqə yarandı və müəyyən əlaqələndirmə mexanizmi yarandı.

QAT-m təşəbbüsü və təşkilatçılığı ilə əllidən yuxarı alimin, analifikin iştirakı sayəsində silsilə elmi seminarlar təşkil olundu və nəticə kimi Qarabağın azad olunması yolları ilə bağlı bütün aspektləri-siyasi, iqtisadi, hərbi, təbliğat və s. sahələri əks etdirən konseptual sənəd hazırlanıb ictimaiyyətə təqdim olundu.

Bu günlərdə QAT-ın artıq 9-cu elmi-praktiki konfransı keçiriləcək. Hər il keçirilən konfranslara təqdim edilmiş elmi məruzə və tezislər toplu şəklində dərc olunmuş, geniş istifadə üçün İnternetdə yerləşdirilmişdir.

Bir vaxtlar Qarabağ adı ilə fəaliyyət göstərən 30-dan çox təşkilat -gənclər təşkilatından tutmuş "Qarabağ evi", "Qarabağ fondu"na qədər yaranmaları haqqında bəyan ediblər. Lakin real fəaliyyət göstərən iki təşkilat göstərmək olar - Qarabağ Əlilləri Cəmiyyəti və Qarabağ Azadlıq Təşkilatı. Yerdə qalan digər təşkilatlar ya hansısa sifarişlə, yaxud da şəxsi ambisiyalara qulluq etmək üçün yaradılmış təşkilatlar olduğundan ömürləri qısa olub. İctimai təşkilatların içində QAT-ın üzvləri qədər həbs olunan, müxtəlif cəzalara və təzyiqlərə məruz qalan ikinci bir təşkilat yoxdur.

QAT-ın fəaliyyəti hesabına Qarabağ problemi gündəmə qayıtdı, cəmiyyət tərəfindən illyuziyalardan uzaq daha real yanaşma formalaşmağa başladı. Azərbaycan cəmiyyətində tək-tük insan qalar ki, sülh yolunun nəticə verəcəyinə inansın. Azərbaycan cəmiyyətində tek-tük insan olar ki, ərazi itkisi ilə razılaşsın. Azərbaycan cəmiyyətində tək-tük insan olar ki, müharibə yoluna alternativ görsün. QAT-ın yaradılarkən irəli sürdüyü şüarları bu gün hakimiyyət nümayəndələri, dövlət başçısı səsləndirir.

Vacib bir məqamı da vurğulamaq istəyirəm. Qarabağ Qazadlıq Təşkilatında fəaliyyət göstərən insanlar könüllü şəkildə, qəlblərinin tələbi ilə, heç bir maddi qarşılıq gözləmədən, əksinə özlərinin məhdud imkanlarını istifadə etməklə fədakarcasına mübarizə aparırlar. Bu insanların hamısının adını böyük məmnuniyyətlə çəkərdim. Siyahının bövük olacağını nəzərə alaraq bu işi başqa vaxta saxlamağı lazım bilirəm. Amma, şübhəsizdir ki, bu siyahının başında Qarabağ mücadiləsini həyatının mənasına çevirmiş Akif Nağı dayanır. İnanıram ki, işğal altında olan Qarabağın nə vaxtsa azad olması məhz bu cür insanların inadkarlığı hesabına mümkün olacaq.

QAT nə etməlidir?

Şübhəsiz ki, QAT-ın fəaliyyətində kifayət qədər çatmayan cəhətləri, buraxılmış taktiki səhvləri qeyd etmək olar. Çevikliyin olmamağı, müəyyən düşünülməmiş addımlar nəticəsində "müttəfiqlər"in itirilib rəqiblərin" sırasına keçməsi, dəqiq hesablanmamış addımların atılması və s. misal göstərmək olar. Amma nəzərə alanda ki, saydığım əksikliklər ümumilikdə fəaliyyət göstərən bütün təşkilatlara, hətta strateji araşdırmalar mərkəzlərinə, çoxsaylı siyasətşünas, politoloq, analitiklərə malik olmasına baxmayaraq Azərbaycan hökumətinə və

onun başçısının fəaliyyətinə də aiddir, QAT-ın fəaliyyətini qiymətləndirəndə müəyyən güzəştə getmək olar.

Son 10 il ərzində Qarabağın azad edilməsi prosesində ciddi dəyişikliyin olmadığını nəzərə alsaq, Qarabağ Qazadlıq Təşkilatı bir ictimai təşkilat kimi gördüyü işləri davam etdirməlidir.

Eyni zamanda , fikrimcə, QAT tərəfindən bu gün Azərbaycanda heç bir qurumun ciddi şəkildə məşğul olmadığı və olmaq istəmədiyi Qarabağın azad olunmasının elmə əsaslanan strateji proqramı yaradılmalıdır. Müasir elmi metodlara əsaslanan mümkün ssenarilər hazırlanmalıdır. Politoloqların, siyasətşünasların, iqtisadçıların, psixoloqların, hərbçilərin və digərlərin cəlb olunması şərtilə ciddi araşdırmalar aparmalı, xarici və daxili faktorlar nə ələ alınmaqla hərbi yolla torpaqların azad edilməsi variantları analiz olunmalıdır. Qeyri-müəyyənlik şəraitində risklər hesablanmalı, onların idarə olunması işlənməli və minimallaşdırılması tədbirləri hesablanmalıdır. Optimist və pessimist variantları özündə əks etdirəcək bu sənəd hissələrə bölünməli, ən xırda detallara qədər fəaliyyət proqramını əhatə etməlidir və geniş müzakirələrə çıxarılıb dəqiqləşdirilməli, vaxt itkisinə yol verilmədən həyata keçirilməyə başlanmalıdır. Bu iş kifayət qədər vaxt və resurs tələb edir. Ancaq məhz hərtərəfli işlənmiş və detallaşdırılmış proqram olmadan nəticəyə nail olmaq mümkün olmayacaq.

**Təzəgül QASIMOVA**

## QARABAĞ MÜNAQİŞƏSİ QLOBAL İDARƏETMƏ KONTEKSTİNDƏ

Qloballaşma prosesi yeni hadisə deyildir. Son dövrlərdə qlobal problemlər xüsusi elmi və fəlsəfi tədqiqatların predmetinə çevrilmişdir. Qlobal problemlər həm ictimai, həm də təbii xarakterli prosesləri əhatə etdiyindən cəmiyyət həyatının və insan fəaliyyətinin bütün sahələrinə nüfuz edir. Qlobal problemlərin təsnifatında da müxtəlif fikirlərə, nöqteyi-nəzərlərə rast gəlmək olur. Onlara 1) beynəlxalq münasibətləri əhatə edən problemləri; 2) təbiətlə cəmiyyət arasındakı ziddiyyətləri əhatə edən problemləri; 3) şəxsiyyətlə cəmiyyət arasındakı münasibətlərdən doğan problemləri və s. qlobal problemlər sırasını aid etmək olar. Qlobal problemlər bütün dünyanı öz caynağına keçirmişdir.

Azərbaycan öz müstəqilliyini bərpa etməsi ilə eyni zamanda beynəlxalq münasibətlər sistemi köklü surətdə dəyişməyə başlamışdır və son iyirmi il ərzində cərəyan edən hadisələr bir daha göstərir ki, sistem mahiyyətcə hələ də rəqabətlidir. Dövlətlər müxtəlif və bəzən də mübahisəli xarici siyasət məqsədləri güdürlər. «İkiqütblülük» və «çoxqütblülük» konsepsiyalarının toqquşmasında təzahür edən çağdaş dünya nizamına dair ziddiyyətli təsəvvürlər dünyanın müxtəlif yerlərində siyasi və iqtisadi nüfuz uğrunda rəqabəti canlandırmışdır. Davamlı olacağı təqdirdə

bu rəqabət qlobal və regional təhlükəsizlik mühitinə mənfi təsir göstərəcəkdir. Hərbi işğal, etnik təmizləmə, bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarının kobudcasına pozulması ölkənin böyük bir hissəsində tarixi və mədəni irsimizin ermənilər tərəfindən dağıdılması faktlarını özündə cəmləşdirən Ermənistanın Azərbaycana qarşı təcavüzü ölkəmizin təhlükəsizlik mühitinin əsas təyinedici amili olaraq qalır və bu da öz növbəsində Azərbaycanın təhlükəsizlik və xarci siyasətinin formalaşdırılmasında əsas rol oynayır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ölkənin xarici siyasətinin bir nömrəli prioriteti hesab olunur, çünki bu məsələ ölkəmizin təhlükəsizliyi ilə bağlı narahatlıq doğuran təxirəsalınmaz məsələdir. Dağlıq Qarabağ münaqişəsi artıq dünya ictimaiyyətinin diqqətinə çatmış bir problemdir. Münaqişənin həlli ilə bağlı Azərbaycan hökumətinin mövqeyi danışıqların ilk günündən bu günədək dəyişməz olaraq qalır. Biz münaqişənin həlli üçün erməni hərbi qüvvələrinin işğal olunmuş Azərbaycan ərazisindən çıxarılması, bu ərazilərdə Azərbaycanın pozulmuş suveren hüquqlarının bərpası, məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması Azərbaycan Dağlıq Qarabağ regionunda ölkənin hərtərəfli iqtisadi inkişafı çərçivəsində kommunikasiyaların bərpası və sosial-iqtisadi inkişaf üçün şərtlərin müəyyən olunması qanuni və demokratik proses çərçivəsində Dağlıq Qarabağ regionunda Azərbaycan və erməni icmalarının dinc yanaşı yaşamasını və Azərbaycan Respublikasının tərkibində muxtariyyətini təmin edəcək statusun müəyyənləşdirilməsindən başqa bir yol görmürük. Dağlıq Qarabağın öz müqədərratını təyin etməsi yalnız etnik təmizləməyə məruz qalan azərbaycanlıların öz doğma el-obalarına, yurdlarına qaytarılmasından sonra və yalnız Azərbaycanın tərkibində mümkündür. Azərbaycan heç vaxt öz ərazisini, onun bütövlüyünü müzakirəyə qoymayacaqdır.

Münaqişənin həllinin hüquqi və siyasi əsasları BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri. BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi A/RES/62/243 saylı qətnaməsi, habelə ATƏT və Avropa Şurasının müvafiq sənədləri və qərarlarında əks olunan beynəlxalq hüququn norma və prinsiplərinə söykənir. Bütün bu sənədlər Azərbaycan hökumətinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını təsdiqləyir. Bundan başqa Strasburq (Rehl) Sammitində NATO Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll olunmasına yönəlmiş səyləri bir daha dəstəkləmişdir.

Azərbaycan bir ölkə kimi münaqişənin sülh yolu ilə həllinə sadiqdir və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ədalətli və davamlı həllinin dəstəklənməsi üçün bütün səylərini səfərbər edir. Bunun əksinə, Ermənistan tərəfinin bu problemə yanaşması, demək olar ki, çox aşağı səviyyədədir. Bu problemin həlli tək Ermənistan və Azərbaycanın bu məsələyə sadiq olmasından, problemin həllinə nə dərəcədə yanaşmasından asılı deyildir.

Eyni zamanda ATƏT-in bütün üzv dövlətlərinin, xüsusən də Minsk qrupunda təmsil olunan və həmsədrlik edən ölkələrin fəal töhfəsindən asılıdır.

İstər ənəvi, istərsə də yeni təhlükə və problemlərin qarşısı fəal beynəlxalq səylər hesabına alına bilər və onların birtərəfli qaydada aradan qaldırılması mümkün deyildir.

Ermənilər xristian dövlətlərinin, o cümlədən bütün xristianların yardımını çox asanlıqla qazanmışlar və bu fürsətdən çox səmərəli istifadə edib, dünya ictimaiyyətini öz tərəfinə çəkməyə çalışmışlar. Azərbaycan da demək olar ki, sakit oturmamışdır. O da bu məsələdə öz haqq səsini ucaldaraq məsələnin mahiyyətini dünya ictimaiyyətinə çatdırmağa çalışmışdır.

Hazırda Ermənistan-Azərbaycan münaqişəsi mürəkkəb və uzun sürən bir münaqişəyə çevrilib. Onun həllinə ən müxtəlif qüvvələr və vasitələr cəlb olunmuşdur. Bir ara danışıqlar səngisə də sonradan yenidən canlandı. Münaqişəyə sıfırdan başlamaq da səhv olardı. Qarşıdurmanı yalnız müxtəlif mənafeləri nəzərə almaqla aradan qaldırmaq mümkündür. Tərəflərin mənafeyi isə münaqişənin beynəlxalq hüququn ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı kimi ümdə prinsipləri əsasında ədalətli həllini nəzərdə tutur.

Azərbaycan və Ermənistan prezidentləri münaqişə başlayandan indiyə qədər dəfələrlə görüş keçirmişlər. Lakin onların sülhə nə zaman və nə dərəcədə yaxın olduqlarını demək mümkün deyil. Qarabağ münaqişəsi artıq bütün dünya ictimaiyyətinə demək olar ki, tanış olan bir məsələdir. Onun həlli asan proses deyildir. Bu məsələdə çox şey təkcə sülhə nail olmaq səylərindən deyil, həm də siyasi iradədən, bütün Cənubi Qafqazda sabitlik və tərəqqi naminə münaqişənin konstruktiv həllinə yönəlmiş iradədən asıhdır. Bu problem bizim ölkəmiz üçün özünün böyük əhəmiyyətini indi də saxlayır. Hələ ki, öz konkret həllini tapmayıb.

Azərbaycan 9 milyondan çox əhalisi olan müstəqil dövlətdir və bu dövlət qloballaşan dünya şəraitində öz müstəqilliyinin qorunub saxlanması və dönməzliyinə yönəldilmiş siyasət yeridir. Karl Popper yazırdı: «Biz özümüzü peyğəmbər kimi göstərməkdənsə, öz taleyimizin yaradıcısı olmalıyıq. Biz hər şeyi bacardığımız qədər yaxşı etməyi və öz səhvlərimizi üzə çıxarmağı öyrənməliyik. Siyasi hakimiyyət tarixinin bizi mühakimə edəcəyi haqqında ideyanı başımızdan çıxarmaqla və tarixin bizə bəraət verib-verməyəcəyi barədə narahatlıqdan xilas olmaqla biz yəqin ki, müvəffəqiyyət qazana bilərik».

**Ədəbiyyat siyahısı**

1. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, 2003, 464 səh.
www.mfa.gov.a7.

**Vahid ƏHMƏDOV**

# ERMƏNİ İŞĞALI NƏTİCƏSİNDƏ AZƏRBAYCANA DƏYƏN İQTİSADİ ZƏRƏR

Bu gün Azərbaycanın əsas problemi 20 faiz torpaqlarının- Dağlıq Qarabağın və onun ətrafında olan Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Füzuli, Ağdam, Cəbrayıl rayonlarının Ermənistan tərəfindən işğalı və bunun nəticəsində bir milyondan çox qaçqın və məcburi köçkünün olmasıdır.

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 20 min nəfər azərbaycanlı həlak olmuş, 4866 nəfər itkin düşmüş, 100 min nəfər yaralanmış, 50 min nəfər müxtəlif xəsarət alaraq əlil olmuşdur.

Hərbi təcavüz respublikamızın 17 min kv. km ən məhsuldar torpaqlarının işğalına, 900 yaşayış məntəqəsinin, 130939 evin, 2389 sənaye və kənd təsərrüfatı obyektinin, 1025 təhsil, 788 səhiyyə ocağının, 1510 mədəniyyət müəssisəsinin, 5198 km. avtomobil yollarının, 348 körpünün, 7569 km. su və 76940 km. elektrik xətlərinin dağıdılmasına səbəb olmuşdur. İşğal olunmuş ərazilərdə Azərbaycanın mədəni irsini təşkil edən mədəniyyət obyektləri məhv edilmişdir. 12 muzey, 6 rəsm qalareyası, 9 saray qarət edilərək yandırılmışdır. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunmuş, 44 məbəd və 18 məscid təhqir edilmişdir. Dağıdılan və yandırılan 927 kitabxanada 4 milyon 600 min kitab və misilsiz mədəniyyət nümunələri məhv edilmişdir.

Dağlıq Qarabağ bölgəsində və ətraf rayonlarda Azərbaycanın milli mədəniyyət ocaqlarına erməni təcavüzkarlarının vurduqları ziyanı dəqiq hesablamaq mümkün deyildir, çünki talan və məhv edilmiş sərvətlər nəinki Azərbaycanın, həm də bütün dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələridir. Əhaliyə vurulmuş mənəvi-psixoloji zərbə ilə bərabər ilkin və axıradak müəyyənləşdirilməmiş məlumata görə, Azərbaycan iqtisadiyyatına 60 milyard ARŞ dollarından çox həcmdə ziyan dəymişdir.

İşğal altında olan ərazilər yeraltı və yerüstü təbii ehtiyyatlarla zəngindir. Ən çox yayılan faydalı qazıntılar əlvan metal filizləri, qızıl, civə, xromit, perlit, əhəng, mərmər, əqiq, mineral sular və başqalarıdır.

Göründüyü kimi, işğal olunmuş regionda nadir və qiymətli faydalı qazıntı yataqları yayılmışdır. Əhəmiyyətli mis-sink filizlərinin ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir.

İşğal olunmuş ərazilər Azərbaycanın sənayesi və tikintisində böyük əhəmiyyəti olan müxtəlif növ tikinti materialları ilə çox zəngindir. Belə materialların böyük ehtiyatları Ağdam rayonu ərazisində yerləşən Çobandağ (əhəngin ehtiyyatları 140 milyon ton və gillər 20 milyon ton), Şahbulaq (25 milyon ton gil), Bəyəhmədli (45 milyon ton gil) və b. yataqlardadır. İri tikinti daş yataqları Xankəndində, mərmər isə Harovdadır.

Zəbt olunmuş ərazilərdə böyük müalicə əhəmiyyəti olan 120-dək müxtəlif tərkibli mineral su yataqları vardır. Bunların içərisində Kəlbəcər rayonunda Yuxarı və Aşağı İstisu, Bağırsağ, Keşdək, Laçın rayonunda İlıqsu, Minkənd, Şuşa rayonunda Turşsu, Sırlan və başqa mineral sular diqqəti xüsusilə cəlb edirlər.

Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Onun suları ilə insanın həm xarici həm də daxili xəstəliklərini müalicə etmək mümkündür.

-İstisu bulağı üstündə 80-cı illərdə iri kurort və mineral sudoldurma zavodu tikilmişdir. Həmin zavod sutkada 800 min litr su istehsal edirdi.

Turşsu mineral bulağı Azərbaycanın Şuşa şəhərinin 17 km-lik məsafəsində yerləşir. Turşsu vasitəsi ilə müxtəlif daxili xəstəliklər müalicə olunur, su kəməri vasitəsi ilə Şuşa şəhərinə verilir. Turşsu və İsa bulağı əsrlər boyu Qarabağın poeziya və musiqi məclislərinin qurulduğu yerlər olmuşdur.

Onu qeyd etmək lazımdır ki, Azərbaycanın mineral sularının ümumi geoloji ehtiyatlarının 39,6%-i işğal altında olan rayonların payına düşür.

Milli ərazinin formalaşmasının vacib şərtlərindən biri də onun sıx daxili iqtisadi əlaqələrinin olmasıdır. Milli ərazilərin daxilində yaranan iqtisadi əlaqələr özünün uzun tarixliyi, sabitliyi və daimi olması ilə səciyyələnməlidir. Hal-hazırda Ermənistanın əsassız olaraq iddia etdiyi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti həmişə Azərbaycanın tərkibində olmuş, onun dövlətçiliyi tərəfindən idarə edilmişdir. Vilayətin mərkəzi Xankəndi birbaşa Azərbaycan dəmir və şosse yollarına və bütövlükdə respublikanın nəqliyyat-kommunikasiya sistemində sıx bağlanmışdır. Bu mərkəzdən dəmir yolu ilə Bakıya qədər olan məsafə 392 km-dir.

Dağlıq Qarabağ ermənilərinin böyük əksəriyyətinin Bakı şəhəri ilə sıx əlaqələri mövcud idi. Onların ailə üzvlərinin çoxu bu şəhərdə, həm də yüksək sosial-iqtisadi səviyyədə yaşayır və işləyirdilər.

Çox mühüm rol oynayan iqtisadi əlaqələr amilliyini nəzərdə tutan Sovet dövlətinin rəhbərliyində təmsil olunan qatı millətçi A.Mikoyan 20 may 1920-ci ildə yazmışdır: "Erməni dövlətinin agentləri olan daşnaklar Qarabağı Ermənistana birləşdirməyə can atırlar, lakin bu, Qarabağ əhalisini öz yaşayış mənbəyindən-Bakıdan məhrum etmək və heç nə ilə əlaqəsi olmayan İrəvana zorla bağlamaq deməkdir"

Dağlıq Qarabağın iqtisadi cəhətdən həmişə Azərbaycanın ayrılmaz tərkib hissəsi olması haqqında erməni liderlərinin öz dili ilə yuxarıda dediyi həqiqətlər bu ərazinin coğrafi mövqeyi və təbii xüsusiyyətləri ilə bağlıdır. Belə ki, əsrlər boyu Qarabağın Dağlıq hissəsi düzən Qarabağla six iqtisadi əlaqədə inkişaf etdirmişdir. Çay dərələri boyunca keçən yollar bu iki ərazini iqtisadi cəhətdən bir-birinə möhkəm bağlamışdır. Bütün bu tarixi-coğrafi reallıqların əksinə Yuxarı Qarabağın ermənilər tərəfindən işğal olunması və onun zorla düzən Qarabağından ayrılması regionun əhalisi və təsərrüfatı üçün çox ciddi problemlər yaratdı.

Uzun illərdən bəri Dağlıq Qarabağın ərazisində yerləşən müəssisələrin böyük əksəriyyəti Azərbaycanın rayonlarından gətirilən yanacaq, xammal və materiallar əsasında işləyirdilər, bir çoxları isə Bakının iri müəssisələrinin filialları kimi fəaliyyət göstərirdi.

Keçmiş Dağlıq Qarabağla Azərbaycanın aşağıdakı istiqamətlərdə hərtərəfli əlaqələri mövcud olmuşdur:

- istehsalın kooperasiya əlaqələri, yəni xalis istehsal əlaqələri, o cümlədən, xammal-yanacaq mənbələrinə görə;
- əmtəə-mal dövriyyəsi;
- maddi-texniki təhcizat;
- nəqliyyat-yük əlaqələri;
- elmi-texniki əlaqələr;
- Dövlət-idarəetmə əlaqələri;
- mədəni-maarif əlaqələri və s.

Beləliklə, göstərilən bu əlaqələrin hər birinin dərindən təhlili aparılarsa, o zaman Dağlıq Qarabağın Azərbaycanla sıx əlaqədə olduğunun real mənzərəsini görmək olar. Təkcə onu qeyd etmək kifayətdir ki, 1985-ci ildə Qarabağın Xankəndidəki iri İpək Kombinatına daxil olan barama xammalının cəmi səkkiz faizi Dağlıq Qarabağın özündə istehsal olunurdu. Yerdə qalan 92%-i isə Azərbaycanın digər rayonlarından gətirilirdi. Dağlıq Qarabağ Vilayətinin 1986-cı ildə həyata keçirdiyi xarici iqtisadi əlaqələrin həcminin cəmi 0,3%, idxalının isə 1,4%-i Ermənistan Respublikasının payına düşdüyü halda, Azərbaycana onun ixracatının 33,3% düşürdü, idxalat payı isə daha yüksək idi.

Zəbt olunmuş rayonlarda illərdən bəri fəaliyyət göstərən vahid nəqliyyat-kommunikasiya sistemi Ermənistanın təcavüzü nəticəsində hal-hazırda dağıdılmışdır. Bu dağıntılardan həm də Qarabağ zonasından kənarda yerləşən və Ermənistan tərəfindən blokadaya alınan Naxçıvan Muxtar Respublikası daha çox əziyyət çəkir.

Nəqliyyat-kommunikasiya baxımından Dağlıq Qarabağın ərazisi Ermənistanın paytaxtı Yerevandan və digər iri iqtisadi mərkəzlərdən çox uzaqda yerləşir, onları birləşdirən dağ yolları təbii fəlakətlər və iri həcmdə yük daşımaları baxımından o qədər də əlverişli deyildilər. Beləliklə hazırda Ermənistanın işğalı altında olan rayonların hamısı Azərbaycanla sıx bağlı olmuşdur. Nəqliyyat-kommunikasiya sistemləri, iqtisadi meyl etməsi bu bağlılığın əsasını təşkil etmişdir. Ona görə də, ermənilərin təkcə milli özünütəyinetmə prinsipindən çıxış edərək sosial-iqtisadi baxımdan həmişə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa qarşı irəli sürdükləri iddiaların heç bir əsası yoxdur.

İşğalçılar Azərbaycanın artıq özününkiləşdirilmiş hesab etdikləri tarixi Qarabağ xanlığının paytaxtı olmuş Şuşa şəhərinin qiymətli tarixi abidələrini dağıdırlar, milli arxitekturasını silib, istədikləri kimi yenidən qururlar. Azərbaycanın Laçın dəhlizində hərbi-mühəndislik baxımından başdan-başa yeni tikililər aparılır.

Ermənistanın güc tətbiq etməklə Azərbaycan torpaqlarını ələ keçirməsi və istədiyi kimi orada dəyişiklar aparması müasir beynəlxalq hüquq baxımından yolverilməz hesab olunur. Beynəlxalq hüquq baxımından bu ərazilərdə olan bütün resurslar Azərbaycanın mülkiyyəti olaraq qalmaqda davam edir, həmin mülkiyyət yalnız müvəqqəti olaraq işğal altında hesab olunur və mütləq öz qanuni sahibi olan Azərbaycana qaytarılmalıdır.

Bütun bu deyilənlər bir daha təsdiq edir ki, Dağlıq Qarabağ münaqişəsini xalis milli azlıqların öz müqəddaratını sərbəst təyin etməsi kimi ibarəli sözlərlə ört-basdır etməyin heç bir hüquqi, sosial-iqtisadi əsasları yoxdur.

Azərbaycanda su probleminin həlli bu gün mühüm əhəmiyyət kəsb edir. Suvarma əkmçiliyinin inkişafı, şəhər və kəndlərin su ilə təhcizatı quraq region hesab edilən Azərbaycan üçün həyati məsələdir. Respublikanın su ehtiyatlarının formalaşmasında sıx çay şəbəkəsinə malik olan və hazırda işğal altındakı Kiçik Qafqaz dağlarının da əhəmiyyəti böyükdür. Bu dağlardan öz mənbəyini götürən bütün çaylar, xüsusilə Kürün sağ qolları olan Tərtər, Həkəri, Xaçınçay, Köndələnçay və b. özləri ilə düzən ərazilərə bol su gətirirlər, onların bəzilərinin üzərində süni göllər və suvarma kanalları yaradılmışdır. Suvarmada və elektrik enerjisi alınmasında istifadə edilən belə komplekslərdən biri də Tərtər hidrokompleksidir. Bu kompleks 1976-cı ildən Azərbaycan SSR üçün ayrılmış kapital qoyuluşu hesabına yaradılmışdır. Azərbaycan üçün böyük həyati əhəmiyyəti olan bu və digər suvarma sistemləri və mənbələrinin Ermənistan tərəfindən blokadaya alınması ölkəmiz üçün çox böyük təhlükə mənbəyinə çevrilmişdir.

Göstərilən Tərtər hidrokompleksinin yaratdığı sərsəng su anbarı və elektrik stansiyası hazırda Ermənistan hərbi qüvvələrinin nəzarəti altındadır. Sərsəng su anbarında suyun həcmi 560 min kub metrdir. Bu anbardan öz başlanğıcını götürən magistiral kanallar düzən hissədə yerləşən Tərtər, Ağdam, Bərdə, Goranboy rayonları ərazisində 80,1 min hektar torpaq sahəsini suvanrdı. Hazırda Sərsəng su anbarından kanallara verilən suyun qabağı işğalçı ermənilər tərəfindən kəsildiyinə görə Azərbaycanın göstərilən rayonlarında əkinlər məhsul vermir.

Hal-hazırda Azərbaycan Respublikasının ərazisində 292 min 771 nəfər əmək qabiliyyətli məcburi köçkündən 15 min 597 nəfər işsizdir. İş yerlərinin azlığından, maddi vəsait olmadığından yeni iş yerlərinin yaranması sahəsində problemlərin yaranması, aqrar sənayedə görülən işlərə baxmayaraq işsizlik probleminin tamamilə aradan qaldırılması bir sira maneələrlə üzləşir.

Ümumilikdə 2001-2008-ci illərdə 277 min 174 nəfər qaçqın və məcburi köçkün işlə təmin olunmuş, 2467 nəfər işsizlik statusu almış, 932 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuş, 1116 nəfər peşə hazırlıq kurslarına göndərilmiş, 5099 ailəyə ünvanlı sosial yardım edilmişdir.

2090-cu ildə 1747 nəfər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və onun struktur bölmələri ilə qarşılıqlı fəaliyyət nəticəsində işlə təmin olunmuşdur.

Bundan əlavə 563 nəfərə işsiz statusu verilmiş, 680 nəfərə işsizlik müavinəti təyin edilmişdir.

467 nəfər qaçqın və məcburi köçkün əmək bazarının müasir tələbləri əsasında peşə hazırlığı kurslarına, 253 nəfər isə haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur.

Əvvəllər büdcədən müəyyələşdirilən müəssisələrdə çalışmış və işlə təmin olunmamış 14min nəfərdən çox məcburi köçkünə orta aylıq əmək haqqının ödənilməsi davam etdirilmişdir.

Yeni salınmış qəsəbələrdə 27814 yeni iş yeri yaradılmış, Azərbaycan Respubilkası Nazirlər Kabinetinin 2000-ci il 6 noyabr tarixli 204 nömrəli "Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə kreditlərin verilməsi qaydalarının və şərtlərinin təsdiq edilməsi haqqında" qərarına uyğun olaraq 2001-2002-ci illərdə büdcədən ayrılmış 2 milyard manat vəsait hesabına 1000 nəfərdən çox məcburi köçkünə kənd təsərrüfatı ilə məşğul olmaq üçün mikrokreditlər verilmişdir.

Ötən müddət ərzində MKSF tərəfindən 950 məcburi köçkün ailəsinə 2,5 mld manat, Sahibkarlığa Yardım Milli Fond tərəfindən isə 150 ailəyə 3,4 mld manat kredit verilmişdir.

Məcburi köçkünlərə müvəqqəti istifadə üçün dövlət və bələdiyyə ehtiyyat fondlarından 60 min hektar torpaq sahəsi ayrılmış, 47 min məcburi köçkünün əhatə olunduğu 760 fermer təsərrüfatı yaradılmışdır. Həmin təsərrüfatlarda 800 min başdan çox iri və xjrda buynuzlu mal-qara vardır.

Yeni salınmış qəsəbələrə köçürülmüş qaçqın və məcburi köçkün aiblərinə kənd təsərrüfatı ilə məşğul olmaq üçün torpaq sahəsi ayrılmış və hər ailəyə bir milyon manat məbləğində əvəzsiz maliyyə yardımı edilmişdir. Həmin qəsəbələrdə 60-dan çox fermer təsərrüfatı yaradılmışdır.

**Vaqif ABIŞOV**

## S. ŞAUMYANIN CİNAYƏTKAR SİLAHDAŞI STEPAN LALAYEV (LALAYAN) KİMDİR?

Ermənilər tarixin bu və ya digər məqamlarında, fürsət düşəndə, Rusiyanın birbaşa himayəsinə arxalanaraq, azərbaycanlıların yaşadığı qədim dədə-baba torpaqlarında məskunlaşmağa, özlərinə dövlət qurmağa çalışmış və bu zaman dinc insanlara qarşı dəhşətli və kütləvi qırğınlar törətmiş, onların evləri qarət olunmuş və yandırılmışdır.

Ermənilərin 1918-ci ildə Azarbaycanın, demək olar ki. bütün bölgələrində azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınları, zorakılıqları və talanlarını çoxsaylı şahid ifadələri və maddi sübutlar vasitəsilə aşkarlayıb üzə çıxaran, Azərbaycan Xalq Cümhuriyyət hökumətinin qərarı ilə yaradılmış, Fövqəladə

Təhqiqat Komissiyasının (Bu komissiya Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən 1918-ci ilin avqustunda yaradılmışdı) topladığı faktiki materiallardır.

St.Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin (1918-ci ilin mart-iyul aylarında Bakıda real hakimiyyət və güc Bakı Sovetinə məxsus idi. Bakı Sovetinin hərbi qüvvələri isə əsasən erməni silahlı dəstələrindən ibarət idi) erməni silahlı dəstələri tərəfindən 1918-ci ilin mart ayında Bakıda 15 mindən çox dinc azərbaycanlının qətlə yetirilməsində bilavasitə fəal iştirak etmiş S.Lalayev Azərbaycan xalqının qatilidir.

Stepan Lalayevin cinayətlərini araşdıran Fövqəladə Təhqiqat Komissiyasının topladığı faktik materiallar sübut edir ki, Lalayev ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımın ən fəal rəhbərlərindən və icraçılarından biridir.

Fövqəladə Təhqiqat Komissiyası tərəfindən Bakıda dindirilən şahidlərin ifadələrində göstərilir ki, Lalayev bu ilin martın 19-da (1918-ci il nəzərdə tutulur A.V.), birinci günü Nikolayevski küçəsində erməni əsgərlərinin hücumuna rəhbərlik etmişdir. Onun əsgərləri evlərə soxulmuş və silahsız, dinc müsəlmanları öldürmüşdülər (3. v. 3-7).

Başqa bir şahidin ifadəsində isə, həmin Lalayev erməni silahlı dəstəsi ilə yoldaşları Tatevos Əmirov, Sergey Məlikov və Arustam Tarcumanovla birlikdə Aşağı Təzəpir küçəsindəki Şıx Balayevin evinin qarət edilməsinə əmr verməsi göstərilmişdi (3. v. 3-7).

Lalayevin silahlı dəstəsi Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin göstərişilə dinc, silahsız azərbaycanlılar üzərinə göndərilmişdi. Həmin silahlı dəstə tərəfindən Bakı, Şamaxı və başqa yaşayış məskənlərində azərbaycanlılara qarşı dəhşətli və kütləvi qırğınlar törətdilmiş, onların əmlakı qarət olunmuş, evləri isə yandırılmışdı.

1918-ci ilin mart-aprel aylarında erməni vəhşiliyindən ən çox ziyan çəkən Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlılar yaşayan kəndləri olmuşdur.

Bununla əlaqədar olaraq N.Nərimanov yazırdı: «Lakin belə bir dəhşətli hadisədən sonra (söhbət 1918-ci ilin mart-aprel aylarında Bakıda ermənilərin törətdikləri qırğından gedir - A. V.), onun qəzalar üzrə həyata keçirilməsini davam etdirmək nəyə lazım idi. Bax, suala 1918-ci ildə Bakıdakı Sovet hakimiyyəti cavab verməlidir (9.3).

Yelizavetpol Müsəlman Milli Şurasının sədri Xasməmmədov martın 28-də Seymin və Cənubi Qafqaz hökumətinin sədrinə göndərdiyi teleqramında yazırdı ki, martın 18-də bolşeviklər tərəfindən Bakıdan 2000 yaxşı silahlanmış top və pulemyota malik olan əsgər dəstəsi Şamaxı qəzası istiqamətində yola salmışdı. Dəstə yol boyu 15-dən çox müsəlman kəndini məhv edərək, Şamaxı şəhərini darmadağın etmişdi. Minlərlə müsəlman, o cümlədən qadın və uşaqlar qılıncdan keçirilmişdi. Faciəni təsvir etmək olmur. Təhqir və zorakılıqlar həddini aşmışdı. Təcili hökumətin köməyi lazımdı (7. №72,1918).

Şamaxı əhalisi ermənilərin, eləcə də onlara kömək edən molokanların (əvvəllər buraya köçürülən ruslar nəzərdə tutulur - A.V.) onların üzərinə qəfl hücum

edəcəklərini gözləmirdilər. Lakin St.Şaumyanın fitvası ilə erməni silahlı dəstələri, Şamaxıda Sovet hakimiyyəti qurmaq adı altında, Bakıda törədikləri dəhşətli qırğından sonra ikinci qırğını Şamaxı qəzasında törətmişdilər.

Şaumyan 1918-ci il aprelin 13-də Sovet Rusiyası Xalq Komissarlar Sovetinə göndərdiyi məktubda Şamaxıya artilleriya və pulemyotları olan «yeni dəstələr» göndərdiyini etiraf edirdi (11. s. 261).

1919-cu il martın 30-da Bakıda nəşr olunan «Azərbaycan» qəzetində (rus dilində) Şamaxı hadisəsi ilə bağlı «Şamaxının son günləri» başlığı altında yazı çap olunmuşdu (5. №67, 1919). Həmin yazıda ermənilərin Şamaxıda törətdikləri qırğınların səbəbləri və bu qırğının törətdiyi faciələr əks olunmuşdu.

Qəzet yazırdı ki, cəbhədən qayıdan erməni əsgərləri özləri ilə bir, hətta iki silah gətirirdilər və bu silahları da sonradan öz həmyerlilərinə paylayırdılar. Qəzetin məlumatına görə 1918-ci ilin yanvarından buraya Bakıdan emissarlar gələrək ermənilər arasında müsəlmanların əleyhinə geniş əks-təbliğat aparmağa başlamışdılar.

Şamaxını tərk edən rus əsgərləri də öz hərbi hissələri və silahlarını ermənilərə təhvil verib gedirdilər. Bunun müqabilində Şamaxıda azərbaycanlıların nə hərbi hissəsi, nə də silahlı dəstəsi var idi. Hətta, yerli ziyalılar, xüsusən müsəlman dindarları hər hansı qarşıdurmanın baş verməməsi üçün bütün qüvvələrini sərf etmişdilər.

Şamaxı faciəsi Stepan Lalayev (Lalayan), Gavriyil Karaoğlanov, Gülbandov, Mixail Arzumanov, Karapet Karamanov, Şuşalı Ağamalov, Sedrak Vlasov, Samuel Daliyev, Petrosyants, İvanovlar (oğul və babası) və Şamaxının yerli erməni əhalisi tərəfindən törədilmişdi (4. 4).

Stepan Lalayevin Şamaxıda törətdiyi dəhşətli qırğınlara rəhbərlik etməsi Fövqəladə Təhqiqat Komissiyasının topladığı şahid ifadələrində də öz əksini tapmışdır. Şahidlərin dediyinə görə Stepan Lalayev özünün cinayətkar silahdaşları Samson Aspirov və Saatzazbekovla birlikdə böyük bir erməni əsgər dəstəsinin başında Şamaxıya gəlmişdi. Onun quldur dəstəsi burada qadın, uşaq və qocaların da gizləndiyi məscidə od vurub yandırmış, çıxıb qaçmaq istəyənləri isə güllələmişlər (3. v. 3-7).

Şəhərin ən abad, varlı və tanınmış müsəlmanlarına məxsus evlərə od vurub yandırırdılar. Ermənilərin qarət edib yandırdıqları evlər arasında Həsənovların, Babayevlərin, Məhərrəmovların, Veysovların, Böyük bəy Hüseynovun, Hacı Vahab Ələkbərovun və başqalarının mülkləri də var idi. Ermənilər və molokanlar yandırılmış evlərdən çıxıb qaçan kişi, qadın və uşaqları güllələyirdilər.

On üç məhlə məscidi və məşhur, müqəddəs Ocaq - Cümə məscidi yandırılmışdı. Bu məscid müsəlmanlara həm qibləgah kimi, həm də qədim abidə kimi əziz idi. Şamaxıda böyük hörmət sahibi olan Axund Cəfərquluya amansız işgəncələr verilmişdi. Ermənilər axunda pənah gətirmiş saysız - hesabsız qadın və uşağı da öldürmüşdülər (8. №100,1992).

Şamaxı hadisələri ilə bağlı «Azərbaycan» qəzetində gedən bir yazıda qeyd olunmuşdu ki, S.Lalayevin Şamaxı müsəlmanlarına tutduğu divan bizim bu müharibə dövründə üzləşdiyimiz bütün dəhşətləri geridə qoyur (5. №19, 1918).

Başqa bir şahid ifadəsində qeyd olunur ki, Şamaxının 40 minlik əhalisinin müəyyən hissəsi vəhşicəsinə öldürülmüşdü; bütün binalar yandırılmışdı. Şamaxıda gecə qaça bilməyənlərin hamısı öldürülmüş, qaçıb canını qurtaranların böyük bir hissəsi isə aclıqdan və soyuqdan ölmüşdülər. Nə dünya müharibəsində, nə də ondan sonra, heç bir əhali şamaxılıların başına gətirilən bu cür müsibətlər görməmişdir. Bu faciə özlərini müsəlmanların dostu kimi göstərən bolşeviklərin bayrağı altında ermənilər tərəfindən törədilmişdi (2. v. 522).

M.Ə.Rəsulzadə qeyd edirdi ki, əski Şirvanşahların bu qədim paytaxtı bir həmlədə atəşə verilib məşhur tarixi cameyə varıncaya qədər yaxıldı. Yalnız erməni məhləsi salamat buraxıldı. Şamaxının düçar olduğu təcavüzə Lənkəran, Səlyan, Quba, Nəvahi və Kürdəmir kimi qəza, şəhər və qəsəbələri dəxi məruz qaldı. Bu təcavüzlər əsnasında yaxılan xanimanların, qıyılan ərz və namusların, kəsilən qarı qocaların, yəğmaya gedən mal və məvaşinin təsviri qeyri-qabili-təsəvvür bir faciə təşkil edir (10. 37).

Ermənilər tərəfindən öldürülənlər içərisində görkəmli adamlar və ictimai xadimlər də olmuşdu. Məsələn, şəhər başçısı Teymur Xudaverdov, birinci Dövlət Dumasının keçmiş üzvü Məmməd Tağı Əliyev və bir çox başqalarını (o cümlədən, Hacıbaba Abbasov, Əşrəf Hacıyev, Hacı Əbdül Xəlil Əhmədov, Hacı Əbdül Hüseyn Zeynalov üç qardaşı ilə, Hacı İsrafil Məmmədov, Mir İbrahim Seyidov, Hacı İbrahim Salamov, Ağa Əhməd Əhmədov, Hacı Əbdül-Qasım Qasımov, Əyyübağa Veysov, Zeynəb xanım Veysova, Əliabbas bəy İbrahimbəyov, Ələkbər Qədirbəyov, Əbdürəhim ağa Ağalarov, Məhiyyaddin Əfəndizadə, Zəkəriyyə Əfəndi Mehdi Xəlil oğlu, Ziyəddin Abdullayev, Hacı Molla Həsən Zeynalov və onun arvadı, Mahmud Hacıağa oğlu, onun arvadı və oğlu və bir çox başqaları da var idi) qeyd etmək olar (2. v. 18).

Şamaxı şəhərinin müsəlman əhalisinə dəymiş maddi ziyanın ölçüsü, orta hesabla, bir miliyard rubldan artıq təşkil edirdi (3. v. 5-8).

Ermənilər Şamaxı şəhərində azərbaycanlılara məxsus 1 milyard manatlıqdan yuxarı dəyəri olan əmlakı qarət etmiş, şəhərin azərbaycanlılara məxsus bütün evlərini yandıraraq məhv etmişlər. Şəhərdə 13 məscid, o cümlədən böyük tarixi abidə olan «Cümə məscidi» yandırılmışdır. Fövqəlada təhqiqat komissiyası bu vandalizmin başlıca təşkilatçıları haqqında cinayət işi qaldırmaq, onları məsuliyyətə cəlb etmək va istintaq işinə başlamaq haqqında qərar qəbul etmişdir (1. v.5).

Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.F.Novatski (Gəncə Dairə məhkəməsinin üzvü Andrey Fomiç Novatski - A.V.) öz məruzəsinin üzvü Şamaxı şəhərinin darmadağın edilməsi və həmin şəhərin müsəlman əhalisinə qarşı ermənilərin və onlarla birgə molokanların törətdikləri vəhşiliklər haqqında geniş məlumat vermişdi (3. v.5-8).

Ermənilərin 1918-ci ilin mart və aprel aylarında Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlı kəndlərində törətdikləri cinayətləri ifşa edən arxiv sənədləri qorunub saxlanılır. Bıı sənədlər arasında 1918-ci il noyabr ayının 22-də Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə.Xasməmmədovun Azərbaycan Cümhuriyyətinin Ədliyyə Nazirinə Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlı kəndlərinin talan edilməsi və müsəlman əhalisi üzərində ermənilərin zorakılıqları haqqında məruzəsi (2. v. 9-14), həmin komissiyanın üzvü A.Novatskinin bu məsələ haqqında komissiya sədrinə məruzəsi (1. v.8-10), və bu işdə günahkar olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi haqqında Fövqəladə Təhqiqat Komissiyasının 1919-cu il 12 iyul tarixli qərarı (1. v.l) və s. vardır.

Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında qəbul edilmiş 23 qərar layihəsi və 7 cild, 925 vərəqdən ibarət təhqiqat işlərində toplanılmış materiallar ermənilərin burada törətdikləri vəhşilikləri haqqında ətraflı məlumat verir.

Ermənilər 1918-ci ilin mart - aprel aylarında Şamaxıya hücumu zamanı 58 kənddə təxminən 7 min nəfər öldürmüş, onlardan 1653 qadın və 965 uşaq idi (3. v.4).

Hətta, St.Şaumyanın başçılıq etdiyi Bakı Soveti ermənilərin Şamaxıda törətdiyi qırğınları dolayısı ilə etiraf etmişdilər və bununla bağlı 1918-ci il apreli 22-da Bakı fəhlə, əsgər və matros deputatları Soveti İcraiyyə Komitəsinin iclasında Şamaxı qazasında vəziyyat haqqında qətnamə də qəbul olunmuşdu. Həmin qətnamədə Fövqəladə Təhqiqat Komissiyasına (bolşeviklərin komissiyası nəzərdə tutulur - A.V.) təklif olunur ki, baş vermiş hadisələri yoxlasın va müqəssirlər aşkara çıxarılsın (6. №74 1918).

Bolşevik Kojemyakonun rəhbərlik etdiyi fövqəladə təhqiqat komissiyasının arşdırmasından sonra Lalayev həbs olunur. Lakin Şaumyanın göstərişindən sonra o, həbsdən azad olur. 3-4 gündən sonra isə fövqəladə təhqiqat komissiyası ləğv edilir (5. № 37).

Əlbəttə, Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti öz-özünü cəzalandıra bilməzdi. Bakı, Şamaxı, Quba və başqa yaşayış məskənlərinda ermənilər bolşevik-sovet bayrağı altında azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlərə görə nəinki cəzalandırılmadılar, əksinə onların bu əməllərinə haqq qazandırdılar.

1919-cu il aprel ayının 3-da Azərbaycan Cümhuriyyəti Daxili işlər Nazirliyi Şamaxı qəza rəisinin Fövqəladə Təhqiqat Komissiyasına həmin qəzanın 3 polis sahəsi üzrə (Qəbristan, Mədrəsə va Kaşun) üzrə ermənilər tərəfindən dağıdılmış kəndlərin siyahısı göndərilmişdir. Həmin siyahıya Qəbristan polis sahəsi üzrə 19, Mədrəsə polis sahəsi üzrə 41 və Kaşun polis sahəsi üzrə 26 kəndin (cəmi 86 kəndin) adı daxil edilmişdir (l.v.1-3).

Fövqəladə Təhqiqat Komissiyasının Şamaxı qəzasının ayrı-ayrı kəndləri üzrə apardığı təhqiqatların – şəhid ifadələri, zərərçəkənləri dindirmə protokolları, rəsmi idarələrin əhalinin sayı va əmlaklarının dəyəri haqqında məlumatlar, ölən va yaralananların siyahısı va s. əsasında 53 kənd üzrə tərtib edilmiş yekun aktlarında

ayrı-ayrı kəndlər üzrə ölənlərin (o cümlədan kişi, qadın, uşaq) sayı və hər bir kəndə dəymiş ümumi zərərin miqdarı göstərilmişdir. Bu kəndlərin bir neçəsində ölənlərin sayı və dəymiş zərərin ümumi məbləği aşağıdakı kimidir: Nəvahi kəndində cəmi 995 nəfər azərbaycanlı öldürülmüşdü, onlardan da 555 nəfəri kişi, 260 nəfəri qadın və 140 nəfəri uşaq idi. Kəndə dəymiş ümumi maddi zərər 60 milyon manat olmuşdur. Yəhyalı kəndində 922 nəfər öldürülmüşdür ki, onlardan da 360 nəfəri kişi, 412 nəfəri qadın va 150 nəfəri uşaq idi.

Kəndə dəymiş ümumi maddi zərər 22 milyon manat olmuşdur. Bağırlı kəndində 370 nəfər öldürülmüşdür ki, onlardan da 80 nəfəri kişi, 150 nəfəri qadın, 140 nəfəri uşaqlar olmuşdur. Kəndə dəyən ümumi zərər 12,5 milyon manat olmuşdur və s. Qalan bütün kəndlər üçün tərtib edilmiş aktlarda da rəqəmlər yuxarıda göstərilən qayda üzrə aparılmışdır. Bütün aktlar Fövqəladə Təhqiqat Komissiyasının üzvləri tərəfindən imzalanmış və möhürlə təsdiq edilmişdir (1. v. 1-3).

Çox təəssüflər olsun ki, 1920-ci il yanvarın 11 - də Azərbaycan Xalq Cümhuriyyətinin Paris sülh konfransında Böyük dövlətlər tərəfindən de-fakto tanınması ilə əlaqədar olaraq, Cümhuriyyət Parlamenti tərəfindən həmin il fevralın 9-da qəbul etdiyi qanunla millətlərarası düşmənçilik zəminində törədilmiş cinayətlərə xitam verdiyi bildirilmiş və bu işlərin istintaqının dayandırıldığı elan olunmuşdu. Lakin sonradan, ermənilərin xalqımıza qarşı cinayətkar fəaliyyəti davam etdiyindən, təhqiqat işi 1920-ci il aprelin 27-dək davara etdirilmişdir. Yalnız XI qırmızı ordu tərəfindən Azərbaycan işğal edildikdən və Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra bu iş tamamilə dayandırılmışdı.

Beləliklə, St.Şaumyanın başçılıq etdiyi bolşevik - sovet hökumətinin xalqımızın başına gətirdiyi dəhşətli faciələri yazmaqla bitməz.

Əslində St.Şaumyan gələcəkdə qurulacaq erməni dövləti üçün əraziləri azərbaycanlılardan təmizlənməsi işini həyata keçirmişdir. Bu təmizləmə əməliyyatının həm rəhbərləri, həm də icraçıları ermənilər, maddi. siyasi va hərbi köməkçiləri isə ruslar olmuşdular.

Şaumyanların, mikoyanların, əmiryanların, lalayanların əsas məqsədi Erməni dövləti üçün ərazilər boşaltmaq və sonra həmin boşalmış yerlərə erməniləri köçürmək idi. Bunun üçün onlar azərbaycanlıları kütləvi surətlə qırmalı, sağ qalanları isə öz doğma dədə-baba torpaqlarından qovmalı idilər.

Ermənilər zaman-zaman dünya dövlətlərini, xüsusən xristian dünyasını özlərinin yalan üzərində qurulmuş planlarına inandıra bilmiş və nəticədə, Azərbaycan torpaqlarının bir hissəsini ələ keçirərək orada yaşayan minlərlə azərbaycanlını qətlə yetirmiş və sağ qalanlarını deportasiya etmiş, onların əmlakını qarət etmiş, həmin yerlərin tarixi abidələrini məhv etmişdilər.

Bu gün də, həmin siyasət Qərb dövlətləri və Rusiyanın köməyi ilə Azərbaycana və onun xalqına qarşı davam etdirilməkdədir.

Hazırda Rusiyanın yaxından köməyi ilə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi, bir milyon qaçqının və məcburi köçkünün acınacaqlı vəziyyətdə yaşamaları və bütün bu hadisələrə ABŞ və Qərb dövlətlərinin də göz yummaları, yaxud xristian təəssübkeşliyi ilə ermənilərin mövqeyini müdafiə etmələri, eləcə də BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin (822, 853, 874, 884 saylı) ermənilər tərəfindən yerinə yetirilməməsi, ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi, bir daha onu göstərir ki, dünyada xristian həmrəyliyi hələ də qalmaqda və Cənubi Qafqazda xristian Erməni dövləti haqsız olaraq müdafiə olunmaqdadır.

Azərbaycan xalqı bu tarixi dərslərdən nəticə çıxartmalı, məkrli düşmənin və onların havadarlarının planlarını puça çıxartmaq üçün ayıq olmalı və gələcəkdə baş verə biləcək faciələrin qarşısını almaq məqsədilə qüvvələrini birləşdirməli, dostunu - düşmənini yaxşı tanımalı və parçalanmış torpağının müdafiəsini gücləndirməli, zaman - zaman işğal olunmuş torpaqlarını, şərait yetişən kimi azad etməlidir.

**İstifadə edilmiş ədəbiyyat:**


1. ARDA, f.1061, siy.1,iş 108, v.8-10; siy.1,iş 105, v.1; siy.11, iş 108, v.5;. siy.1,iş85,v.1-3.
2. ARSPİHDA, f.277, siy.2, iş 16, v.9-14; siy.8, iş 536; iy.2, iş 16, v.18
3. Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyi - f. 894, siy. 2, iş 88; siy.4, iş 65, v.1-3; siy.10, iş 31, vv.1-8: iş 81, w. 9-10; iş 80, vv. 39-44.
4. Azerbaycan Belgelerinde Ermeni sorusu (1918-1920). Ankara: Başbakanlık Devlet Arşnvleti Cjenel Müdürlüğü, 2001, 682 s.
5. Азербайджан газ., 1918, № 4. 19, 31, 37; 1919, № 47, 67, 76, 164, 223, 205.
6. Бакинский рабочий, qaz., 1917, 06, sentyabr №49; 18 oktyabr, №67; 06 dekabr, №100; 1918, № 19; 25 aprel, №74; iyun, № 107.
7. Известия Кавк. Краев. Центра Сов. Рабоч., Солд. и крест. Деп. и Тиф л. Совета рабоч. и солд. Деп., qaz., 1917, mart, № 67, 71, 72; 1918, aprel, №19, 74.
8. Quliyev D.P. Tarix şahiddir ki, 1918-1920-ci illərin hadisələri bu günün gözü ilə: faktlar və şərhlər. «Həyat» qəz., Bakı, 1992, 22 may, №100.
9. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair. Bakı: Azərnəşr, 1992, 77 s.
10. Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1991, 112 s
11. S.Şaumyan, seç. əsər., 2-ci cild, Bakı, 1978,436 s.

**Vüqar ABBASOV**

# QARABAĞ BÖLGƏSİNİN QARQARÇAY HÖVZƏSİNİN SƏNƏTKARLIĞI (ORTA ƏSRLƏR)

Qarqarçay hövzəsi ərazisindən arxeoloji qazıntılar zamanı aşkar edilmiş əmək alətləri, məişət avadanlıqları, bəzək əşyaları, silahlar və s. tədqiq etdiyimiz dövrün sənətkarlıq tarixini öyrənmək baxımından böyük əhəmiyyətə malikdir.

Qarqarçay hövzəsi ərazisi orla əsr mənbələrində və elmi ədəbiyyatda sənətkarlıq mərkəzlərindən biri kimi göstərilir.

Qarqarçay hövzəsində aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi-mədəniyyət qalıqlarının numizmatik dəlillərlə müqayisəli şəkildə təhlili Qarqarçay hövzəsinin tarixində mühüm yer tutan sənətkarlıq haqqında tutarlı elmi fikirlər söyləmək imkanı verir.

Yazılı mənbələrdə bildirilir ki, hələ metal dövründə Albaniyada müəyyən məmulat hazırlanır, hökmdar sarayında daxili tələbatı ödəyən məhsul kimi istifadə edilir, eyni zamanda tayfa başçıları və əyanların mübadilə vasitələrinə çevrilirdi.

Albaniya ərazisinin mühüm bir dövrünü əhatə edən Qarqarçay hövzəsinin sənətkarlığından söhbət gedərkən nəzərə almaq lazımdır ki, qədim dövrdən beynəlxalq əhəmiyyətli ticarət yollarının bir istiqamətinin bu ərazidən keçməsi onun iqtisadi-ticari və sosial-mədəni baxımdan inkişafına səbəb olmuşdur. Qarqarçay hövzəsinin Avropa ilə Asiyanı əlaqələndirən ticarət yollarının üstündə yerləşən Albaniyanın daxilində olduğu üçün sənət və ticarət mübadiləsində də mühüm rol oynamışdır.

Arxeoloji qazıntılar zamanı Qarqarçay hövzəsində aşkar edilmiş maddi mədəniyyət qalıqları göstərir ki, burada hələ eramızdan xeyli əvvəl məişət əşyaları, əmək alətləri və silahlar istehsal edilmişdir. Bu özünü hər şeydən əvvəl daş alətlər, dulus məmulatı və metal bəzək əşyaları istehsalı ilə əlaqədar göstərir. Bu arxeoloji materiallarla təsdiq edilmişdir.

Qarqarçay hövzəsində arxeoloji qazıntı işləri zamanı aşkar edilmiş sənətkarlıq ocaqları, əmək alətləri, istehsal məhsulları və istehsal vasitələri külli miqdardadır. Sözügedən ərazidə qazıntılar zamanı aşkar edilmiş dulus kürəsi, dulus məmulatı - saxsı qab-qacaqlar, təsərrüfat və qəbir avadanlıqları, həmçinin daş alətlər göstərir ki, Qarqarçay hövzəsinin ərazisində ilk orta əsrlərdə sənətin müxtəlif növləri ilə məşğul olmuşlar.

Qarqarçay hövzəsindən bişmiş kəpic, daş sütun altlığı, kirəmit kimi tikinti-sənətkarlıq materialları aşkar edilmişdir. Bununla bərabər arxeoloji qazıntılar zamanı aşkar edilmiş məişət əşyaları, metaldan, şüşə və digər materiallardan istehsal edilmiş bəzək şeyləri, istehsal alətləri Qarqarçay hövzəsinin sənət aləmindən bəhs etməyə imkan verir. Qarqarçay hövzəsindən aşkar edilmiş maddi

nümunələrin Azərbaycanın müxtəlif yerlərindən əldə edilmiş nümunələrlə oxşarlığı böyük əhəmiyyət kəsb edir.

Qarqarçay hövzəsinin təbii-coğrafi şəraitinin yüksək xüsusiyyətləri - təbii xammal növlərinin zənginliyi və istehsal münasibətləri sənətin yaranması və inkişafı üçün böyük imkan yaratmışdır.

Hələ eramızdan əvvəl V əsrdə yaşamış Herodotun Qafqazda bəzi əşyaların istehsal edildiyi barədə etdiyi qeydlərdən və M.Kalankatlının «Albaniya tarixi»ndən də mövcud olan sənətlərin məhsulları haqqında müəyyən məlumat verir. Bu, tədqiq edilən ərazidə istehsalın və sənətin intensiv inkişafından xəbər verir. Təəssüf ki, həmin əsərlərin heç birində Qarqarçay hövzəsinin sənətkarlığı haqqında konkret məlumat verilmir. Arxeoloji materiallar bu sənətin dövrü, inkişafı və eyni zamanda həyati rolu haqqında danışmağa imkan verir.

Yalnız M.Kalankatlının əsərində sənət və onun məhsullarına aid olan qeyd səciyyəli qısa məlumatlar ala bilirik.

Tədqiqatlar Qarqarçay hövzəsinin müxtəlif yerlərində müxtəlif sənət növləri ilə məşğul olan sənətkarlar məhəlləsi olduğunu aşkara çıxarmışdır. Öyrənilmişdir ki, bəzi sənət növlərinin xarakterinə uyğun olaraq ticarət mərkəzləri və ona uyğun xidmət nöqtələri yaradılmışdır. Bu məqsədlə tikilmiş karvansaralardan geniş istifadə edilmişdir.

Qarqarçay hövzəsində aparılmış arxeoloji qazıntı işləri mövcud olmuş sənət növlərinin müəyyən qədər siyahısını tərtib etməyə imkan verir. Həmin sənətkarlıq sahələri sırasına dulusçuluq, şüşə istehsalı, metalişləmə, zərgərlik, daşişləmə, kərpic və kirəmit istehsalı, toxuculuq, ağacişləmə və həmçinin sümükişləmə, dabbaqlıq, boyaqçılıq növləri daxil idi.

Həmin sənət növlərinin təsnifatını, onların özünün inkişaf xarakterini, eyni zamanda Qarqarçay hövzəsində oynadığı iqtisadi və ictimai rolu müəyyənləşdirmək mümkündür.

Mənbə materialları, aparılmış arxeoloji qazıntı işləri və etnoqrafik məlumatların qarşılıqlı araşdırılması Qarqarçay hövzəsi mövcud olmuş sənət növlərinin müəyyən qədər siyahısını tərtib etməyə imkan verir. Həmin sənətkarlıq sahələri sırasına dulusçuluq, şüşə istehsalı, metalişləmə, zərgərlik, daşişləmə, kərpic və kirəmit istehsalı, toxuculuq, ağacişləmə və bununla yanaşı, sümükişləmə, dabbaqlıq, boyaqçılıq, şərabçılıq və digər növləri daxil idi.

Göstərilən məşhur sənət sahələri ilə yanaşı, Qarqarçay hövzəsi digər yerli xüsusiyyəti olan sənət növləri ilə də məşğul olurdular. Onların arasında daşişləmə, ağacişləmə, kərpic, kirəmit və su tüngləri istehsalı, misgərlik və s. xüsusilə fərqlənmişdir.

Qarqarçay hövzəsi orta əsrlərdə böyük bazarlarda və dükanlarda çalışan insanların məşğul olduğu müxtəlif xırda peşə növləri də olmuşdur ki, həmin peşələrə dabbaqlıq, çəkməçilik, nalbəndlik, boyaqçılıq, misgərlik, bəzzazlıq, carçılıq, çərçilik və s. daxildir.

Ümumiyyətlə, Azərbaycanın Qarabağ bölgəsindən aşkar edilmiş qədim və orta əsrlər dövrünə aid maddi mədəniyyət nümunələri Azərbaycanın tarixi keçmişini əks etdirməklə bərabər, orada yaşamış insan qruplarının təkamülünü, tarixi inkişaf prosesini izləməyə imkan verir.

İşğal altında olan ərazilərdə elmi tədqiqatlar aparmaq beynəlxalq qanunlara və bəşəri qaydalara zidd olduğuna baxmayaraq ermənilər Azərbaycanın işğal olunmuş ərazilərində abidələri öyrənmək məqsədilə arxeoloji qazıntılar aparmağa cəhd göstərir.

QAT-ın təşəbbüsü ilə Azərbaycanın Qarabağ bölgəsində arxeoloji tədqiqatlar aparmış arxeoloqların iştirakı ilə "Qarabağ: arxeoloji abidələr" mövzusunda 5 aprel 2005-ci ildə keçirilmiş elmi seminar iştirakçıları adından BMT-nin baş katibi Koffi Annana edilmiş müraciətdə deyilirdi: "Ermənilər işğal olunmuş ərazilərdə tədqiqatlar aparmaq adı altında tarixi saxtalaşdırmağa, tarixi abidələri məhv etməyə, saxta "erməni tarixi" düzəltməyə çalışırlar. Seminar iştirakçıları hesab edirlər ki, ermənilərin beynəlxalq hüquq normalarına, uyğun beynəlxalq konvensiyalara zidd hərəkətlərinin, məkrli niyyətlərinin qarşısı qəti şəkildə alınmalıdır. Biz sizi öz imkanlarınız daxilində növbəti erməni saxtakarlığının qarşısını almağa çağırırıq".

Beləliklə, bəsit üsullardan başlayaraq natural xarakterli istehsal üsuluna keçməklə inkişaf etmiş, sonralar sənət sexlərinin, sənətkarlar mərhələsinin yaranması ilə mübadilə-ticarət və nəhayət, böyük ticarət münasibətlərinin yaranması ilə cəmiyyətin maddi nemətlər bolluğu yaratmasında həyati əhəmiyyət kəsb edən sənətkarlıq bəşəriyyətin tarixi taleyində mühüm rol oynamışdır. Azərbaycanın Qarabağ bölgəsinin böyük bir ərazisini tutan Qarqarçay hövzəsinin sənətkarlıq tarixinin tarixi-arxeoloji tədqiqi vətən tariximizin mühüm probleminin birinin həllinə xidmət edə bilər.

# KİTABDAKILAR

**Adil Axundov**

Erməni vandalizmi bəşəriyyətə qarşı cinayətdir

**Akif Nağı, tarix elmləri üzrə fəlsəfə doktoru**

Qarabağ masələsində yeni faza?

**Araz Aslanlı, siyasi elmlər üzrə fəlsəfə doktoru**

Qarabağ problemi: yolun harasındayıq?

**Bəxtiyar Tuncay**

Albaniyanın qədim tarixinin bəzi məsələlərinə dair

**Elçin Əhmədov, siyasi elmlər üzrə fəlsəfə doktoru**

Ermənistanın Azərbaycana qarşı təcavüzü və Türkiyənin siyasəti

**Elçin Əhmədov, siyasi elmlər üzrə fəlsəfə doktoru**

İslam Konfransı Təşkilatı Ermənistanı təcavüzkar kimi tanıyan ilk və yeganə beynəlxalq təşkilatdır

**Ədalət Mustafayev, tarix elmləri üzrə fəlsəfə doktoru**

XXəsrin 90-cı illərində Dağlıq Qarabağ münaqişəsində Rusiyanın mövqeyi

**Əli Abasov, fəlsəfə elmləri doktoru**

Проблема разрешения конфликтов Южного Кавказа: 2008-2010 **гг**

**Əlikram Tağıyev, fəlsəfə elmləri doktoru, Kəmalə Qasımova**

**Dağlıq Qarabağ: reallıqlar və miflər**

**Fazil Mustafa, millət vəkili**

Türkiyə-Ermənistan münasibətləri və Azərbaycan amili

**Fəxrəddin Şahsuvarov**

Qarabağ münaqişəsinin həlli məsələsində həmsədr dövlət kimi Fransanın fəaliyyəti

**Fikrət Nəbiyev, hüquq elmləri üzrə fəlsəfə doktoru**

Etnik münaqişələrin nizama salınması təcrübəsinə dair

**Fəzail İbrahimli, tarix elmləri doktoru**

Azərbaycanın nisbi müstəqilliyinin sonu və Qarabağ oyunu

**Firdovsiyyə Əhmədova, tarix elmləri üzrə fəlsəfə doktoru**

Cümhuriyyətin sonuncu qanununda itirdiyimiz torpaqların təsbit olunması

**Firdovsiyyə Əhmədova, tarix elmləri üzrə fəlsəfə doktoru**

«Qarabağ Qiyamı» Azərbaycan Cümhuriyyətini devirmək planının tərkib hissəsi kimi

**Güldanə Babayeva**

Dağlıq Qarabağ münaqişəsi və Türkdilli dövlətlərin mövqeyi

**Gündüz Süleymanov**

Azərbaycanda dinlərarası tolerantlıq və Qarahağ münaqişəsi

**Həbibullah Manaflı**

Minsk Qrupunda həmsədr olan dövlətlərlə ermənilərin tarixi əlaqələri

**Həcər Abdallı, fəlsəfə doktoru**

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri Xocalı soyqırımı

**İlqar Niftəliyev, tarix elmləri üzrə falsəfə doktoru**

Некоторые аспекты генезиса конфликта в Нагорном Карабахе в конце 80-х годов XX века

**İsmayıl Musa, tarix elmləri doktoru**

Paris Sülh konfransında (1919-cu il) "Böyük Ermənistan"

iddialarına qarşı müharizə

**İsmayıl Musa, tarix elmləri doktoru**

Osmanlı dövlətində ermənilərin durumu və "soyqırımı": tarixi sənədlərin dili ilə

**Qasım Hacıyev, tarix elmləri doktoru**

V.Kazimirovun «Qarabağa sülh» kitabına münasibət

**Qasım Hacıyev, tarix elmləri doktoru**

Burda ərazisi – qədim türkyurdu -5 min il

**Kərim Şükürov, tarix elmləri doktoru**

XIX əsrin əvvəllərində ermənilərin Şimali Azarbaycana

köçürülməsi

**Liliya Mirzəzadə, hüquq elmləri üzrə fəlsəfə doktoru**

Нагорно-Карабахский конфликт и альтернативные пути его разрешения

**Loğman Nəsibli, tarix elmləri üzrə fəlsəfə doktoru**

Borcalı türk məddniyyəti və əxlaqının beşiyidir

**Mehdi Şərifov, hüquq elmləri üzrəa fəlsəfə doktoru**

Институт гуманитарного вмешательства: в контексте устранения последствий оккупации Нагорного Карабаха и прилегающих районов

**Məryəm Oruclu, tarix elmləri üzrə fəlsəfə doktoru**

Post-sovet məkanında konfliktlərin həllində beynalxalq vasitəçilik

**Nazim Məmmədov, millət vəkili**

Erməni iddiaları və Gədəbəy bölgəsi

**Nazim Məmmədov, tarix elmləri üzrə fəlsəfə doktoru**

Azərbaycanın Əsgəran rayonunun tarixinə dair (1930-1991)

**Rafiq Səfərov, tarix elmləri üzrə fəlsəfə doktoru**

К вопросу об исторической географии Зангезура

**Rizvan Qarabağlı, sənətşünaslıq üzrə fəlsəfə doktoru**

**Persopoldan** Qafqazadək

**Salidə Şərifova, filologiya elmləri üzrə fəlsəfə doktoru**

Aqil Abbasın «Dolu» romanında süjet xəttinin özəllikləri və

onun obrazların təsvirinə təsiri

**Salidə Şərifova, filologiya elmləri üzrə fəlsəfə doktoru**

Sızıltılı qəlbin hayqırığı

**Sevda Süleymanova, tarix elmləri doktoru**

1905-1906-ci illərdə Qarabağda erməni təcavüzkarlığı

Sən**ubər Sarallı**

Армянская агрессия в разных направлениях

**Sənubər Sarallı**

Erməni terror təşkilatları

**Şamil Mehdi**

Qarabağın azad edilməsi işi və QAT

**Təzəgül Qasimova**

Qarabağ münaqişəsi qlobal idarəetmə kontekstində

**Vahid Əhmədov, millət vəkili**

Erməni işğalı nəticəsində Azərbaycana dəyən iqtisadi zərər

**Vaqif Abışov, tarix elmləri üzrə fəlsəfə doktoru**

S. Şaumyanın cinayatkar silahdaşı Stepan Lalayev (Lalayan) kimdir?

**Vüqar Abbasov, tarix elmləri üzrə fəlsəfə doktoru**

Qarabağ bölgəsinin Qarqarçay hövzəsinin sənətkarlığı (orta əsrlər)

# Qarabağ Azadlıq Təşkilatı

# "Qarabağ dünən, bu gün va sabah"

# 9-cu elmi-erməni konfransının materialları

**Naşir: Namiq Həbibov**
**Texniki redaktor: Rövşan**
**Kompüter tərtibatı: Gülnar Məmmədli**
**Dizaynertar: Ceyhun Ə1iyev, İradə Əhmədova**

Çapa imzalanmışdır: 07.04.2010
Çapa imzalanmışdır: 20.05.2010
Tiraj 1000;ş.ç.v. 15,5
Biznesmen «Namiq Həbibov» mətbəəsində çap olunmudur